**ISSN 2409-0859**

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 28
(I HİSSƏ)

BAKI – 2021

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 28 (I hissə). Bakı, 2021, 282 s.

**Redaksiya heyəti**

**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Əziz Başir oğlu Məmmədov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**İzzət Əşrəf oğlu Rüstəmov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Zeynəddin Camal oğlu Hacıyev**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Bəxtiyar Həmzə oğlu Əliyev**, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Hikmət Əbdul oğlu Əlizadə**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# HUMANİTAR ELMLƏR

## FƏLSƏFƏ

## NİZAMİ GƏNCƏVİNİN HUMANİST İDEYALARI

***f.ü.f.d. Daxil Vəliyev***
***Fəlsəfə tarixi və mədəniyyətşünslıq kafedrasının dosent əvəzi***
**daxilv@mail.ru**

***Açar sözlər:*** humanism, sosial ədalət, şəxsiyyət azadlığı, ədalətli hökmdar.
***Ключевые слова:*** гуманизм, социальная справедливость, личная свобода, справедливый правитель.
***Keywords:*** humanism, social justice, personal freedom, just ruler.

XII əsr ictimai-siyasi və hüquqi fikrimizin ən görkəmli numayəndəsı Nizami Gəncəvi öz dövrünün və gələcək dövrlərin humanist və demokratik istiqamətli fikirlərinin, habelə sosial ədalət ideyalarının parlaq təbliğatçısı olmuşdur. Nizami söz, fikir və ideyalar dünyamızın əvəzolunm az simalarından biridir.

İnsan haqlarının təbliği və onların müdafiəsi, şəxsiyyət azadlığı, şəxsiyyətin iradə müstəqilliyi, bəşəriyyətin mədəni tərəqqisində dönüş nöqtələrindən olan İntibah dövrünün mənəvi mahiyyətinin aşkar olunmasına çevrilmiş səlist humanizm təlimi Nizaminin sosial-siyasi görüşlərinin sosial ədalət hissəsində öz parlaq təcəssümünü tapmışdır.

Görkəmli Azərbaycan mütəfəkkiri, söz və fikir aləminin nəhəng korifeylərindən biri olan Nizami sosial ədaləti, azadlığı hüquq bərabərliyini hələ XII yüzillikdə təbliğ etməklə insanlığın xoşbəxt gələcəyini arzu edən dahi şəxsiyyət olmuşdur. Bəşəriyyətin taleyi üçün hər kəsin öz səviyyəsində, imkan və bacarığı daxilində məsuliyyət daşıdığını dönə-dönə müasirlərinə çatdıran böyük mütəfəkkir bütün həyatı boyu ümumbəşəri ideallarla yaşamış və bunun uğrunda mübarizə aparmış, öz zəngin yaradıcılığını insanın taleyüklü problemlərinin həllinə həsr etmişdir. H.Araslı yazır: "Nizami xalqların səadətini, istiqlaliyyətini, onların hər cür zülm və istismardan azad olmasını istəyib bütün ömrünü bu uğurda sərf etmişdir. Nizami əməkçi insanın hüququ uğrunda mübarizə aparmışdır. Nizami öz xalqını bütün dünyada şöhrətləndirmiş və bütün xalqların bərabər hüquqlu mədəni həyatını arzulamışdır" [1].

Nizami öz əsrinin misilsiz humanist mütəfəkkiri olmuşdur. Bunun onun öz əsərlərində irəli sürdüyü sosial-siyasi ideyaların məzmunu da təsdiq edir. Mütəfəkkir lirik əsərləri ilə yanaşı, "Xəmsə"yə daxil olan əzəmətli poemalarında da dövrün və sosial-siyasi problemlərinin həllinə toxunmuşdur.

Nizaminin sosial-siyasi ideyaları Azərbaycanın siyasi və hüquqi fikir tarixinin inkişafında mühüm rol oynamış, Yaxın və Orta Şərqin fəlsəfi, ictimai-siyasi fikrində humanist, demokratik ideyaların formalaşmasına və inkişafına müstəsna təsir göstərmişdir.

Nizaminin sosial ədalətə dair ideyalarının formalaşmasına Azərbaycanın şifahi xalq ədəbiyyatının böyük təsiri olmuşdur. Belə ki, mütəfəkkirin sosial-siyasi görüşlərinin demokratik ideyalarının daşıyıcılarının böyük əksəriyyəti xalq təfəkkürünün yaratdıqları obrazlardır. Həmin obrazlar içərisində xalqın istək və arzularının daşıyıcısı olan müsbət, eləcə də nifrət obyekti olan mənfi qəhrəmanlar da vardır.

H.Araslı yazır ki, "biz Nizamidə şah, vəzir surətləri ilə yanaşı çoban, əkinçi, daşkəsən, kərpickəsən surətlərinə, alim surətlərinə, xüsusən o dövr ədəbiyyatında müstəsna bir yer tutan müsbət qadın surətlərinə tez-tez təsadüf edirik" [2]. Cəmiyyətdə mövcud olan ədalətsizlikləri və digər nöqsanları həmin müsbət qəhrəmanların aradan qaldıracaqlarına ümid bəsləyən sadə xalq kütlələri şifahi yaradıcılığında onların bir-birindən tamamilə fərqli olan, bir-birini qətiyyətlə rədd edən müsbət və mənfi keyfiyyyətli obrazları yaratmışdır.

Azərbaycan şifahi xalq ədəbiyyatında hökmdar (ədalətli və ya ədalətsiz, insaflı və ya qəddar, mərhəmətli və ya müstəbid) obrazlarına xüsusi yer verilmişdir. Şübhəsiz ki, Nizami öz əsərlərindəki qəhrəmanların mənfi və müsbət keyfiyyətlərini təsvir edərkən xalq deyimlərindən, xalq müdrikliyindən və onun şifahi qaynaqlarından lazımınca bəhrələnmişdir. H.Araslının yazdığı kimi, "ümumiyyətlə, xalq ədəbiyyatında iki cür şah surətinə təsadüf edilir: müsbət və mənfi. Həyatı ağır keçən, yaşadığı dövrün üsul-idarəsindən narazı qalan xalq kütlələri dövlət quruluşu haqqındakı tələblərini bu surətlər vasitəsilə ifadə etmişlər" [4]. Ümumi tarixdən, o cümlədən ümumdövlət və hüquq tarixindən məlumdur ki, hər bir ictimai-iqtisadi formasiya (ibtidai cəmiyyət istisna olmaqla) özünəməxsus idarəçilik formalarına malik olmuşdur. Dövlətin və hüququn tarixi tipləri (növləri) də məhz insan cəmiyyətinin formasiyalar üzrə inkişafı (məsələn, quldarlıq dövləti və hüququ, feodal dövləti və hüququ, burjua dövləti və hüququ) ilə müəyyən edilir. Bu nöqteyi-nəzərdən quldarlıq dövlət tipi üçün əsasən, qeyri-məhdud monarxiya idarəçilik forması səciyyəvi olmuşdur.

İdarəçiliyin bu formasında dövlətdə bütün hakimiyyət, o cümlədən məhkəmə hakimiyyəti bir şəxsin-monarxın əlində cəmləşir. Feodalizm iqtisadi formasiyasında da qeyri-məhdud monarxiyanın hələ mövcud olmasına baxmayaraq, cəmiyyətin tarixi inkişafının bu pilləsində silki nümayəndəli monarxiya idarəçilik forması üstünlük təşkil edir. Bu idarəçilik formasında monarx dövlət hakimiyyətinin yeganə daşıyıcısı olsa da, bir çox dövlət əhəmiyyətli məsələlər (məsələn, müharibə və sülh məsələsi) kollegial şəkildə həll edilir. Kollegiallıq monarxın səlahiyyətlərini nisbətən məhdudlaşdırsa da, bu siyasi dövlət quruluşunda da hakimiyyət irsən keçir.

A.Quliyev qeyd edir ki, dövlətin ən demokratik idarəçilik forması burjuaziya sosial-iqtisadi formasiyasında təzahür edir. Bu, respublika (seçkili dövlət hakimiyyəti) idarəçilik formasıdır. İdarəçiliyin bu formasında əsas dövlət vəzifələri seçkili xarakter daşıyır. Doğrudur, burjuaziya formasiyasında mütləq monarxiyanın (mütləqiyyətin) mövcudluğu istisna olunmur. Lakin bu idarəçilik formasında monarxın səlahiyyətləri xeyli məhdud olur. Belə ki, o, əsasən dövlətin başçısı funksiyasını (xüsusilə də, xarici siyasət sahəsində) yerinə yetirir. Qanunvericilik hakimiyyətini parlament, məhkəmə hakimiyyətini isə məhkəmə həyata keçirir [5].

Yuxarıda qeyd olunanları göstərməkdə məqsəd ondan ibarətdir ki, Nizaminin yaşayıb-yaratdığı dövrdə orta əsrlər Azərbaycanı ancaq qeyri-məhdud feodal monarxiyası idarəçilik formasını tanıyırdı. Dövlətin başında şah dururdu. O, həm dövlət qanunverici, həm də məhkəmə hakimiyyətinin daşıyıcısı idi. Nizaminin həyat və yaradıcılığının təhlili ilə əlaqədar bu məqama toxunan H.Araslı yazır ki, "orta əsrlərdə yaşayan xalq kütlələri dövlət quruluşunda şahlıqdan başqa üsul-idarə tanımırdılar. Onlar "ölkə şahsız idarə oluna bilməz" təsəvvüründən xaricə çıxa bilmədikləri kimi, dövrün zülmkar hökmdarları ilə də razılaşmaq istəmirdilər. Odur ki, xalq mövcud şahlara qarşı öz istək və arzularına, öz tələblərinə uyğun ədalətli şah surətləri qoyurdu. Belə şahlar ya əməkçi xalq içərisindən çıxıb zülmkar şahla mübarizə aparır, ya da haqsızlığa məruz qalmış şahzadələrdən olub ölkəni ədalətlə idarə edirlər". Nizaminin sosial-siyasi görüşlərində xalqın istəyi ilə hakimiyyət başına gələn və ölkəni ədalətlə idarə edən hökmdar, yəni ağıllı, müdrik və ədalətli hökmdar probemi isə, mütəfəkkirin utopik ideyalarının əsas

məzmununu təşkii edir. Mütəfəkkirin "xalq hakimiyyəti" arzusu onu müasiri olduğu dövrdə utopiya olaraq qalırdı.

A.Quliyev yazır: "Yüksək insani və əxlaqi keyfiyyətlərə malik olan və mənəviyyat aləminə qulluq edən bir mühitdə (ailədə) dünyaya göz açmış, öz fitri istedadı və intkellektual səviyyəsi ilə dövrün, zəmanənin köklü problemlərinin mahiyyətini dərindən dərk etmiş Nizami özünün bütün yaradıcılığını insanlığa xidmətə həsr etmişdi. Mütəfəkkirin humanizmi zəmanəsinin qüdrətli mənəvi silahına çevrilərək, bütövlükdə sosial-iqtisadi və siyasi quruluşun qüsur və nöqsanlarına qarşı çevrilmişdi. Bu, artıq ictimai-siyasi fikrimizdə orijinal bir istiqamət idi. Nizami özünün sosial-siyasi ideyalarında hökmdarlar haqqa, ədalətə, özlərinin qeyri-insani instinktlərini boğaraq həyatın bütün nemətlərinin yaradıcısı olan insana və insanlığa xidmət etməyə çağırmışdır".

Zülm və zalıma qarşı mübarizə ideyası Nizami humanizminin baş xətti kimi onun bütün ictimai-fəlsəfi qəsidələrindən keçib gedir. Mütəfəkkir problemin həlli üçün burada bəzən dolayı vasitələrdən istifadə edir, dini etiqad və inamlara müraciət yolu ilə dövrün kəsirlərini-möhnət və haqsızlıqları qamçılayırdı. Mütəfəkkir dini görüş və şüarların öz demokratik ideyalarına xidmətə yönəldir, güc və hökm sahiblərini heç olmasa həmin yolla xeyirxah işlər görməyə, ölkə və xalqın asayişini gözləməyə səsləyirdi.

Nizami özünün sosial-fəlsəfi lirikasında olduğu kimi, "Xəmsə"yə daxil etdiyi əsərlərində də humanist bir mütəfəkkir, vətənpərvər vətəndaş mövqelərindən çıxış edərək, öz zəmanəsinin məruz qaldığı bəlalarında dərin narahatlıq hissləri keçirmiş, cəmiyyəti düçar olduğu müsibətlərdən xilas etməyin yollarını axtarıb-aramışdır. İnsanpərvər mütəfəkkirin bu yolda "... yeganə silahı-həkim bıçağı mənəvi-əxlaqi təkamül təlimi idi".

Məlum olduğu kimi, Nizaminin dövrü elmin müxtəlif sahələrinin sürətli inkişafı ilə yanaşı, sosial ziddiyyətlərin kəskinləşdiyi bir dövr olmuşdur. Elmi tərəqqi nöqteyi-nəzərindən ayrı-ayrı bilik sahələrinin meydana gəlməsi öz qabaqcıl və mütərəqqi dünyagörüşlü daşıyıcılarının da formalaşmasına şərait yaradırdı. XII əsrdə xüsusilə də fəlsəfənin ayrı-ayrı istiqamətlərdə inkişafi öz nümayəndələrinə malik olan məktəb və cərəyanların meydana gəlməsinə səbəb olmuşdur.

Nizaminin sosial-siyasi məsələlərdən bəhs edən fikirlərində, müxtəlif həyati suallar doğuran əsərlərində toxunulan problemlər öz həlli nöqteyi-nəzərindən ciddi cavabların verilməsini zəruri edirdi. Nizaminin özü məhz belə mürəkkəb və təlatümlü mühitdə yetişdiyinə görə, mövcud ziddiyyətlərin mənasını dərindən dərk etməyə səy göstərmişdir. İctimai həyatın sosial ziddiyyətlərinin özü, eləcə də elmi və mədəni mühitin mütərəqqi təsiri Nizaminin sosial-siyasi, o cümlədən sosial ədalətə dair ideyalarının formalaşması üçün mükəmməl zəmin hazırlamışdır.

Ölkənin müqəddəratını düşünən, bağlı olduğu əməkçi xalqı, zülmkar hakimlərin, sərxoş darğaların talanından qorumağı arzu edən mütəfəkkir həmisə ədalatli şah arzusunda olmuşdur. Elmin, mədəniyyətin inkişafında dövlətin əhəmiyyətini başa düşən Nizami, bu zaman dövlət quruluşunun əsasını şahlıqda görürdü. Lakin onun arzuladığı şah xalqın, vətənin qeydinə qalan, ədalətli şah idi. O, yalnız yaradıcılığının son zirvəsində "İsgəndərnamə" əsərinin sonunda yeni dövlət quruluşu olaraq xəyali, hökmdarsız xalq hakimiyyəti fikrinə gəlib çıxmışdır. Əslində, bu, xalqın öz istəyinə uyğun qurduğu, xəyalında şəxsiyyətini canlandırdığı ədalətli hökmdarın icra etdiyi hakimiyyət idi. Bu dövlətin demokratikliyi onda idi ki, o, insanın hüquqlarını qoruyur, onun əməyini müdafiə edir və qiymətləndirir. Nizaminin təsəvvür etdiyi xalq hakimiyyəti şəxsiyyətlə dövlət və hökmdar arasında ahəngdarlığın və qarşılıqlı vəhdətin bərqərar olmasına rəvac verən siyasi hakimiyyət idi.

Tədqiqatçıların fikrincə, Nizami dühasının böyüklüyü ondadır ki, o, xalqla hökmdar arasındakı münasibətləri və bu münasibətlərin kölgəli cəhətlərini qorxmadan cəsarətlə açıb göstərə bilir. İbrətləndirmək, qorxutmaq, öyrətmək, xəbərdarlıq etmək yolu ilə onları ədalətə,

insanlığa ... istiqamətləndirir. Əsərlərində şahların ədalətini təsvir etmək Nizami üçün az əhəmiyyətlidir, dövrünün hökmdarlarını isə utandırmaq, ağıllandırmaq yolu ilə ədalətə yönəltmək, onların ədalətli olmasına nail olmaq mütəfəkkirin böyük irsinin əsas qayələrindən birini təşkil edir. Bu, eyni zamanda Nizaminin siyasi idealı, onun nail olmaq istədiyi, yaxud bərqərar olacağına ümid etdiyi məqsədlərindən biridir. Mütəfəkkirin müasiri olduğu hökmdarlara xəbərdarlıqları, müəyyən mənada kəskin vahimələndirici qınaqları, hər şeydən əvvəl, tövsiyə xarakteri daşıyır. Mütəfəkkirin ideyasına görə, hökmdar ilk növbədə aqil, ləyaqətli və nəcib insan olmalıdır. O, alicənablığı ilə seçilməli, nümunəvi və əxlaqlı bir fərd kimi insan, insanlıq adını uca tutmalıdır. Hökmdar xalqın etimadını siyasi cəhətdən səbatlı və tədbirli, ədalətli olması ilə qazanmalı, xalqın hakimiyyət iradəsinə arxalanmalıdır.

A.Quliyev qeyd edir ki, "Humanist mütəfəkkirin belə mövqeyi onun insan şəxsiyyətinə atəşin vurğunluğundan və sonsuz hörmətindən irəli gəlirdi. Nizami üçün insan ən uca varlıqdır. Həyatın bütün nemətləri və gözəllikləri yalnız insan naminə mövcuddur. Ömür insana şərəfli və layiqli yaşamaq üçün verilmişdir. İnsan yaşamalı və yaratmalıdır. Mütəfəkkirin məntiqinə görə, nəinki əmək və öz zəhməti ilə yaşamaq, hətta ləyaqətli və məğrur yaşamağın özü insan üçün şərəf işidir".

Lakin insan özü üçün şərəfli həyatı heç də həmişə yarada, təmin edə bilmir. Daha doğrusu, insanlıq şərəfinə nail olmaq yollarının qarşısını kəsənlər onun özünə sədd çəkənlər vardır ki, cəmiyyət belələrinə öz qoynunda yer verməməlidir. İnsanlıq şərəfini ucuz tutanları və bu şərəfi ayaqlar altına alanları sosial ədalətin qorunması üçün təhlükə hesab edən Nizami, onları rəzil və riyakar, şərəfsiz və ləyaqətsiz adamlar kimi qiymətləndirir. Cəmiyyət məhz belə xislətli tiplərdən həmişə ziyan görmüşdür. Öz nəfsinin əsiri olan, zəhmətkeş insanların əməyi hesabına yaşayan və hətta varlanan adamlarda insaf və dəlalət keyfiyyətləri axtarmaq əbəsdir.

Təkcə Azərbaycan ədəbi kəhkəşanında deyil, eləcə də dünya ədəbi məkanında Nizami Gəncəvinin "Xəmsə"si bir ədəbi günəş kimi dolanmaqdadır. O "günəşin" əbədi enerjisi Nizami dühası və sözdür. Tarix, bəşəriyyət keçmişdən doqquz əsr zaman məsafəsində uzaqlaşsa da "Xəmsə"nin ədəbi və əbədi enerjisi daha aydın dərk edilir ki, bu enerji bitib tükənməzdir. Bu ədəbi enerjinin nüvəsində böyük əxlaq, insana və insanlığa saf sevgi, bəşəri duyğular dayanır. Onların da mayası ədalətdən tutulub və "kündəsi" də ədalətlə kəsilib.

Professor Yaşar Qarayev yazırdı: "Öz bədii mahiyyəti və fəlsəfi ruhu ilə dirilik, intibah təbiətli Nizami dühası Şərqdə humanizm hərəkatının beşiyi başında durmuş, bəşərin zəka və sənət taleyində, "mən" və şəxsiyyət, əxlaqi dəyər və mənəvi sərvət axtarışlarında sərhəd və zirvə məqamı olmuşdur. Bir də məhz Nizaminin və "Xəmsə"sinin gördüyü işin, oynadığı rolun əks-sədası və nəticəsidir ki, bu əxlaqi meyarlar bütünlükdə şərqdə poeziyanın və fəlsəfi fikrin bünövrə və təməl daşlarına hopmuşdur [6].

Nizami hunanist şairdir. Onun humanizmi şəxsiyyətin buxovsuz (azad), müstəqil mövcudluğa (varlığa) hüququnu, düşüncə və istəkdə, əməl və iradədə fərdi, azad, sərbəst hərəkətə haqqını və bu haqqa, xeyrə yönələn mənəvi muxtariyyətini müdafiə və təsdiq edir.

Nizami nəhəngdir. "Xəmsə"si beş poemadan – beş kitabdan ibarət olsa da, özü və yaradıcılığı haqqında yüzlərlə kitab, minlərlə şərhlər və məqalələr yazılmışdır. Nizami sözü ümumbəşəri sözdür. "Nizami söz incisi mədəninin xəzinədarıdır. Nizami "Xəmsə"si öz məzmun və mənasına görə o qədər əzəmətli və ağırdır ki, onu ölçmək üçün göylər qədər böyük tərəzi, yer kürəsi kimi iri daş lazımdır" (Əlişir Nəvai).

Nizami haqq və ədalət şairidir. O, nədən yazırsa yazsın, həmişə haqqa və ədalətə rəvac verib. Onun yaradıcılığından bir qızıl xətt kimi keçən xalq və hökmdar, insan və cəmiyyət münasibətləri haqq və ədalətin axtarışlarında və onun işığında zühur edir.

Nizami ədalət şairidir! Respublikamızda ölkə prezidentinin sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi də böyük şairə - dünya müdrikinə hörmət və ehtiramın, həm də, ədalətin təsdiqi və təntənəsidir [7].

## ƏDƏBİYYAT

1. H.Araslı. «Nizami və yaradıcılığı" // Ədəbiyyat" qəzeti, 1939, 24 fevral
2. H.Araslı. Nizami və vətən. Bakı: 1942
3. H.Araslı. "Nizami" almanaxı, III kitab, Bakı: 1941
4. H.Araslı. Nizami və Azərbaycan xalq ədəbiyyatı. // "Nizami Gəncəvi" Məqalələr məcmuəsi. IV kitab, Bakı: 1947
5. Ömərov V. Nizami Gəncəvi yaradıcılığında insan haqlarının təbliği // Səs.- 2016.- 11 fevral.- S.15
6. Tarix: yaxından və uzaqdan. B.: 1996, s.154
7. Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı: 5 yanvar 2021-ci il

Quluzadə Z. Renessansın Şərq zəmini // «Azərbaycan Renessansı və Nizami Gəncəvi» məqalələr məcmuəsi. B.: Elm, 1984, s. 98-103

## NİZAMİ GƏNCƏVİNİN HUMANİST İDEYALARI

***Daxil Vəliyev***

## XÜLASƏ

Məqalədə Nizami Gəncəvinin əsərlərində humanism ilə bağlı ideyalar nəzərdən keçirilir. Göstərilir ki, Nizaminin bədii idealı mükəmməl insan, inkişaf etmiş cəmiyyət, yüksək əxlaqi keyfiyyətlərlə bağlı olmuşdur. Bu keyfiyyətlər onun yaratdığı bədii obrazlarda, qəhrəmanlarının əməllərində özünü bildirir. Hətta estetik təsvirdə də humanist yanaşma onda özünü bildirir ki, burada harmoniya ilk növbədə əxlaq ilə estetikanın bir-birinin tamamlanmasında bildirir.

## HUMANIST IDEAS OF NIZAMI GANJAVI

***Dakhil Valiyev***

## SUMMARY

The article considers ideas related to humanism in the works of Nizami Ganjavi. It is shown that Nizami's artistic ideal was associated with a perfect man, a developed society and high moral qualities. These qualities are reflected in the artistic images he creates, in the actions of his heroes. Even in the aesthetic description, the humanist approach manifests itself in the fact that here harmony is expressed primarily in the complementarity of morality and aesthetics.

## ГУМАНИСТИЧЕСКИЕ ИДЕИ НИЗАМИ ГАНДЖАВИ

***Дахил Велиев***

## АННОТАЦИЯ

В статье рассматриваются идеи, связанные с гуманизмом в творчестве Низами Гянджеви. Показано, что художественный идеал Низами ассоциировался с идеальным человеком, развитым обществом и высокими моральными качествами. Эти качества отражаются в создаваемых им художественных образах, в действиях его героев. Даже в эстетическом описании гуманистический подход проявляется в том, что здесь гармония выражается прежде всего во взаимодополняемости морали и эстетики.

# TARİX FƏLSƏFƏSİNİN TƏŞƏKKÜLÜ VƏ TARİXİ MƏRHƏLƏLƏRİ

***f.ü.f.d. Bilal Əlizadə***
***BDU-nun fəlsəfə kafedrasının dosenti***
***bilal.alizada@mail.ru***

***Açar sözlər***: tarix fəlsəfəsi, formalaşma mərhələləri, formalaşma və inkişafın təhlili.
***Ключевые слова***: философия истории, этапы становления, анализ становления и развития.
***Key words***: philosophy of history, stages of formation, analysis of formation and development.

Hələ antik dövrün filosofları tarixi anlamağa, onun inkişaf qanunauyğunluqlarını aşkar etməyə cəhd göstərmişlər. Yunan filosofu Platona görə cəmiyyət ona görə yaranıb ki, insanlar öz tələbatını ödəmək naminə bir-birinə möhtacdır. Aristotelə görə isə siyasi mövcudat kimi yaranan insan özünün instinktinə uyğun olaraq birgə həyata cəhd göstərir. Orta əsrlərdə filosoflar bəşər tarixini bir qayda olaraq ilahi mövqedən təhlil etməyə çalışmışlar: Tarix Allah tərəfindən əvvəlcədən müəyyən olunmuşdur; insanların bütün nöqsanları onların günahlarının nəticəsidir. Cəmiyyət bərabərsizliyə əsaslanır və insanlar bununla razılaşmalıdırlar.

İntibah dövründən başlayaraq dünyəvi xarakter daşıyan tarix fəlsəfəsinin elementləri özünü göstərməyə başlamışdır. Yeni dövrün (XVII-XVIII əsrlər) filosofları orta əsrlərdə mövcud olan tarix fəlsəfəsinə aid fikirləri kəskin tənqid edirdilər. Onlar cəmiyyətin tarixinə təbiərin tarixinin davamı kimi yanaşır və beləliklə də ictimai həyatın "təbii qanunları"nı aşkar etməyə cəhd göstərirdilər. Bu həmin dövrdə elmin mövcud vəziyyəti ilə bağlı idi və dünyanın vahid universal qanunlarını axtarırdılar və buna müvafiq olaraq vahid elm yaratmaq cəhdləri ilə bağlı idi. Cəmiyyətin tarixini təbiətin tarixinə bənzədirlərdi. Belə hesab olunurdu ki, əgər təbiətdəki prosesləri ilkin çıxış nöqtəsini atomlar təşkil edirsə, onda cəmiyyətdəki proseslər də belə atomlar insandır. Göstərilirdi ki, insanlar bir-birindən nə qədər fərqli olsalar da, onları belə ümumi əsas birləşdirir: özünü qoruyub saxlamağa cəhd göstərmək, bu hissdən isə insanların əməllərinə nəzarət yetirən yata rolunu oynayan ehtiraslar yaranır. Fəlsəfi fikirdə tarixi prosesin izahına dair müxtəlif baxışlar olmuşdur. Cəmiyyət inkişaf etdikcə bu baxışlar da uzun təkamul yolu keçmişdir. Təhlilə qədim yunan filosoflarının fikri ilə başlanılır. Bu təsadüfi deyildi. Antik dövrdə filosoflar cəmiyyət tarixi haqqında fikosofluq etməyə çalışmışlar. Amma onlar bitkin deyildi və buna görə də "tarix fəlsəfəsi" adlandırıla bilməzdi. Tarix fəlsəfəsi isə məlumdur ki, XVIII əsrdən başlayır. Qədim dünya filosofları tarixin ümumdünya xarakterini anlamaqdan uzaq idilər. Orta əsrlərdə xristian ilahiyyatçıları yunan və roma dünyasını qalan dünyadam ayırıb, vəhşi dünyaya qarşı qoyması nöqsanını aradan qaldırıb onu başqası ilə əvəz etdilər. Onların fikrincə tarix ilahi qüvvənin niyyətinin həyata keçməsi və insanın fövqündə duran xüsusi bir layihənin reallaşdırılmasıdır. Qədim Yunanistanda tarixi dərk etmək, tarixi prosesi anlamaq cəhdləri Qesiodum adı ilə bağlıdır. Protoqor, Demokrit, Platon, Heradot və başqa filosoflar tarixi anlamağa çalışmış, tərəqqi, inkişaf məsələlərinə diqqət yetirmişlər.

G.U.Hegel məncə bu filosofları nəzərdə tutur: "Ümumdünya tarixi" termini, yəni tarix fəlsəfəsi anlayışını irəli sürür və tarixşünaslığın üç növünü müəyyən etmişdir.

İlkin tarixə Hegel Heradotu və Fukididi aid edirdi ki, onlar şahidi olduqları tarixi hadisələri təsvir edirdilər. Burada Hegelin fikrincə tarixi refleksiyadan istifadə etmirdi. Frikidit "Tarix" əsərində ilk dəfə tarixi tədqiqatın məqsədi və metodu problemini həll etməyə çalışmışdır. İntibah dövrü fəlsəfəsində ümumdünya tarixini Hegel öz "Fəlsəfə tarixi üzrə mühazirələr"ində intibah dövrünü yeni dövrə doğru olan keçid adlandırmışdır. İntibah dövrendə insanın adi iradəsi ön plana çəkilir. İnsan ruhu həqiqi özünüdərk problemlərini tədqiq etməyə başlamışdır. Antroposen

tarixin və humanizmin, insnaın yeni aspektdən başa düşülməsi intibah dövrünün başlıca motivləri olmuşdur. Tarix fəlsəfəsi də bu ideyalardan qaynaqlanırdı.

Yeni dövrdə tarix fəlsəfəsinin görkəmli nümayəndələrindən biri C.Viko olmuşdur. C.Viko ilk dəfə cəmiyyət tarixini ilahi tarixdən fərqləndirməyə cəhd etmişdir. O tarixin mənasını təbii zərurət anlayışı ilə əlaqələndirirdi. C.Viko bunu daimi olan və heç vaxt pozulmayan "səbəb-nəticə qaydası" kimi naşa düşürdü. Bu təbii qayda bütün xalqların və millətlərin irəliyə doğru hərəkətini müəyyən edir. Bu hərəkət üç mərhələdən keçir: Allahlar əsri, qəhrəmanlar əsri və insanlar əsri. C.Viko tərəfindən əsası qoyulan bəşər tarixinin mənalandırılması problemini Fransa maarifçiləri davam və etdirmişlər.

A.Volter ilk dəfə "tarix fəlsəfəsi" anlayışını işlətməklə fəlsəfi fikri xüsusi tip reallıq olan tarixi mənalandırmağa yönəltdi. Bu reallığı Volter insanın zəkalı təbiətinin təkamülü və inkişafı ilə əlaqələndirirdi. Tarixə bu cür yanaşma cəhdini Volterdən sonra S.Dusso davam etdirmişdir. Onlar bəşəriyyət tarixinə zamanın tərəqqisi mərhələləri kimi baxırdılar. Bir qədər sonra da bu baxış  Kondorse tərəfindən əsaslandırıldı.

Kondorse tərəqqini tarixinin əsas meyarı hesab edirdi. Kondorse bəşəriyyətin tarixini on mərhələyə ayırırdı, onun yüksək optimizmi bəşəriyyətin qızıl əsrinin yaranmasında zəkanın rolu haqqında baxışlarını sonrakı dövr filosoflarının bir qismi qəbul etmədi.

Tarix fəlsəfəsinin təşəkkülündən bəhs edərkən XVIII əsr maarifçilik fəlsəfəsindən danışmamaq olmaz. Görkəmli filosof  L.Bolinqbrokun tarix fəlsəfəsi haqqında baxışları çox böyük maraq doğurur. L.Bolinqbrokun "Tarixim öyrənilməsi və faydası haqqında məktublar" əsəri maarifçilik fəlsəfəsində tarixi və fəlsəfi fikrin görkəmli abidəsi hesab olunur. "Həyatda insanın tarixə münasibətindən başqa təbii birşey ola bilməz: axı bu insanın özü-özünə olan məhəbbətidir. Aydındır ki, tarix haqqında fikir insanın təbiətindən ayrılmazdır və o zaman meydana gəlir ki, insan özü ilə cəmiyyət-təbiət sisteminin üzvi elementi keyfiyyəyinə təqdim olunur. Bütün bu sistemlər zahiri görünüşdən sehrlənmiş qəsrlərdən başqa birşey deyildir" (1).

L.Bolinbrok əslində ingilis tarix elminin nəzəriyyəçisi idi ki, ənənəvi, humanist tarixşünaslığın dərinliyində iki müxtəlif tarixin olduğunu açmış, onları "emosional (poetik), rasionalist" tarixlər kimi müəyyən etmişdir. Bununla belə L.Bolinqbrok hesab edirdi ki, tarixin öyrənilməsinin əsl mənası və onun əsl faydası, rasionalist tarixşünaslıq yolu ilə əldə oluna bilər. Sosial-tarixi təcrübə, onun cəmiyyət və insan həyatında rolu epoxalar təcrübəsi, təkcə, ayrıca bir insanın həyatında yox, bütövlükdə cəmiyyətin taleyində yol göstərən xətdir – bu fikrə XVI əsr humanizmi yetişə bilmədi. Təcrübə iki formada – müasir və tarixi mənada mümkündür" (1).

"Tarix Bolinqbroka görə xalqın əyalət məhdudluğunun aradan qaldırılmasına kömək edir, daha əlamətdar hadisə odur ki, başqa xalqların həyat və əxlaqı ilə tanış edərkən, insanların şüurundan, etnik və dini məlumatı və nəticədə isə özünün irqi və milli müstəsnalığı haqqında rəyi aradan qaldırdı.

L.Bolinqbrok təkcə bəşəri situasiyaların öyrənilməsi, dəyişilməsi ideyasına yaxınlaşması ilə yox, həm də tarixi epoxaların bir-birini əvəz etməsinə, bu epoxaların fərdi təkrar olunmazlığı ideyasına yaxınlaşması nəticəsində tarixin dərslərindən istifadə etməyin mümkünlüyü haqqında yeni motiv irəli sürür. Beləliklə, biz tarix fəlsəfəsinin öyrənilməsi yolunu vərəqlədik. Ç.Bolinbrokun tarix fəlsəfəsi ilə bağlı fikirləri həm fəlsəfi, həm də tarix elmi baxımından böyük maraq doğurur və fəlsəfi ideyaların təkamülündə yeni bir səhifədir.

XVIII əsr alman filosofi İ.Q.Herder tarixi prosesin təhlilində irəliyə doğru ciddi addım atdı. Herder ümumdünya tarix konsepsiyasını işləyib hazırlamışdır. İ.Herderin tarixi proses haqqında baxışları, ideyaları onların daha da konkretləşməsi əsasən onun "Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərində əsas yerlərdən birini ictimai inkişafın qanunları problemi tutur. Onlar ümumiyyətlə mövcuddurlarmı? Cəmiyyətdə tərəqqiyə oxşayan nəsə vardırmı? Filosof cəmiy-

yətdə elə sarsılmaz qanunlar aşkar edir ki, buna oxşar qanunlar təbiətdə də fəaliyyət göstərir. Herderin fikrincə təbiət aşağı səviyyədən ali səviyyəyə doğru qanunauyğun, fasiləsiz inkişaf vəziyyətində yerləşir, cəmiyyətin tarixi bilavasitə təbiətin tarixinə birləşir və onunla qovuşur.

Herder ictimai inkişafın səbəblərini daxili və xarici amillərin qarşılıqlı əlaqəsində izah etməyə çalışmışdır. Xarici amillərə insanların həyat şəraitinin bütün məcmusu kimi başa düşülən iqlimin təsirini aid edir. "Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərinin I hissəsinin VI kitabını İ.Herder bütövlükdə xarici amillərin insan cinsinə təsirinin təhlilinə həsr etmişdir. Bu kirabda şimal qütbünün yaxınlığında yaşayan xalqların, Asiyanın dağ silsilələri yaxınlığında yaşayan xalqların, Afrika xalqlarının, isti dəniz adalarında yaşayan Amerika xalqlarının üzvü quruluşunun xarakterik cizgiləri izah olunur (2. səh. 140).

Cəmiyyətin inkişafına təsir göstərən amillər cərgəsində Herder dinə xüsusi yer verir. Onun fikrincə din mədəniyyətin ən qədim elementidir. Dinin olmaması xalqın vəhşiliyinin göstəricisidir. Dinin meydana gəlməsini Herder təbii səbəblərlə izah etməyə cəhd göstərmişdir. İnsan səmanı, torpağı, havanı, suyu görünməz mövcudluqlarla bağlayır, onlardan qorxur və pərəstiş edir. Herderin fikrincə insan nəsli Asiyada meydana gəlmişdir. Burada ən qədim dilləri və yazılı abidələri tapmaq olar. Asiya heyvandarlığın və əkinçiliyin, ən qədim incəsənətin və elmlərin beşiyi hesab olunur (2. səh.305).

"Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərinin III hissəsimin III kitabını Herder bütövlükdə Yunanistanın coğrafi vəziyyətinə və əhalisinə, dininə, mifologiyasına, incəsənətinə, elminə və tarixinə həsr etmişdir. Herder qədim Yunanistanın mədəniyyətini təhlili zamanı incəsənətə xüsusi yer vermişdir və göstərir ki, Yunan dövlətlərinin quruluşu incəsənətin çiçəklənməsinə kömək etmişdir. Herderin bu əsərində Roma tarixinin əsas mərhələləri, onun dağılmasının səbəblərinin təhlili xüsusi maraq doğurur. Omun dağılmasının səbəblərini əxlaqın pozulmasında deyil, Roma dövlətinin özünün daxilində kök salmış amillərdə, hər şeydən əvvəl silklərin mübarizəsində, Roma ilə onun əyalətləri arasındakı ziddiyyətlərdə və nəhayət quldarlıqda görürdü.

Tarixi prosesin təşəkkülü və təkamülündə yeni mərhələ alman filosofu G.V.Hegelin fəlsəfi yaradıcılığı hesab olunurdu. Hegelin xidti ondan ibatdir ki, ilk dəfə olaraq "Tarix fəlsəfəsi" əsərində bütün təbii, tarixi və mənəvi aləmi proses halında, yəni daim hərəkət, dəyişmə, bir şəkildən başqa hala keçmə və inkişaf halında olan proses kimi baxmış, bu hırəkət və inkişafın daxili əlaqəsini aşkara çıxarmağa çalışmışdır. Hegelə görə "Ümumdünya tarixi dünya ruhunun ağıllı, zəruri təzahürü" kimi çıxış edir. Dünya ruhu öz inkişafında bir neçə mərhələdən keçir. Hegelin fikrincə ümumdünya tarixinin son məqsədi ruhun öz azadlığını başa düşməsi və həyata keçirməsidir. Hegelə görə "ayrı-ayrı xalqların ruhu" zamanında və mövcud varlıqda inkişaf edən dünya ruhunun momentləri və mərhələləridir" (3, səh.27).

Hegelin tarix fəlsəfəsində mühüm məqamlardan biri də tarixdə şəxsiyyətin yeri və rolu məsələsidir. Hegelə görə tarixi şəxsiyyətlər elə insanlardır ki, böyük bəşəriyyətlə tarixi proseslərin perspektivlərini anlayırlar. Belə insanlar tarixi –ümumdünya tarixi şəxslər hesab olunurlar. Onların məqsədlərində ən ümumi məzmun mövcuddur. Bu cür düşünən və vaxtında nəyin lazım olduğunu dərk edən, yaxın zamanda onlar dünyanın inkişafı üçün zəruri olanı bilmək, onu özünün məqsədi hesab etmək və onun həyata keçməsi üçün öz enerjisini qoymaq bu tarixi şəxsiyyətlərin işi idi. Hegelin tarix fəlsəfəsində maraq doğuran bölmələrdən biri də "Tarixin bölgüsü"dür. Hegelə görə ümumdünya tarixi Şərqdən Qərbə doğru istiqamət alır. Belə ki, Avropa ümumdünya tarixinin sonu, Asiya isə onun başlanğıcı hesab olunur. Tarixi proses haqqında fəlsəfi ideyaların təkamülündə Hegelin bu sahədə xidməti ondan ibarətdir ki, idealost dünyagörüşü çərçivəsində, özünün dialektik metoduna arxalanaraq ümumdünya tarixi prosesinin vəhdətini, bununla da bəşəriyyətin tarixi taleyinin vəhdətini ədaslandırmışdır və tarixi prosesi

təhlil edərkən onun fəlsəfi irsinə istinad edilməsi təbiidir.

Tarixi prosesin təhlilində, onun təkamülündə yer tutan görkəmli filosoflardan biri də XX əsrin görkəmli filosofu K.Yaspersdir. "Tarixin mənası və təyinatı" adlı əsərində filosof tarixi prosesin fəlsəfi inam mövqeyindən interpretasiyasını verməyə cəhd etmişdir. K.Yaspers müasir bəşəriyyətin taleyi haqqında düşünür, dünyada və Avropada elmin, texnikanın, sənaye sivilizasiyasının problemlərini təhlil edir. K.Yaspers göstərir ki, "bəşəriyyət vahid mənşəyə və vahid inkişaf yoluna malikdir". K.Yaspers əmindir ki, bəşər gerçəkliyi kimi tarix əhəmiyyətli dərəcədə mənəvi amillərlə müəyyən edilir.

K.Yaspers bütün bəşər tarixini üç ardıcıl bir-birini əvəz edən mərhələlərə, fazalara bölür. Bu mərhələlər "tarixə qədər", "tarix", və "dünya tarixi" adlanır:

1. "Tarixə qədər"ki uzun mərhələ insanın formalaşmasından, dilin və irqlərin meydana gəlməsindən, tarixi mədəniyyətlərin başlanmasına qədərki dövrü əhatə edir.

2. "Tarix" təxminən beş minillik keçmişdə, Çində, Hindistanda, Yaxın Şərqdə və Avropada baş verən hadisələri əhatə edir.

3. Bizim günlərdə meydana gələn dünyanın, bəşəriyyətin qlobal vəhdəti ilə faktiki olaraq yer kürəsinin universal tarixi – "Dünya tarixi" başlayır. Onu böyük coğrafi kəşflər hazırlamışdır və onun başlanğıcı bizim minilliyə aid edilir. (4, səh.120)

K.Yaspersin xalqların bölgüsü ilə bağlı fikirləri çox böyük maraq doğurur:

1. "Ox xalqları – bunlar elə xalqlardır ki, ardıcıl olaraq öz rarixlərini davam etdirərkən sıçrayış edərək, sanki ikinci dəfə doğuldular. Bununla da insanın və onun əsl tarixinin, mənəvi mahiyyətinin əsasını qoydular.

2. Yüksəlişə keçməyi bacarmayan xalqlar – özlərinin xarici mövcudluğu zamanı bu xalqlar yeni qüvvələrə tabe oldular. Bu xalqlar özlərinin daxili mədəniyyətlərini itirdilər və hər biri ayrı-ayrı hallarda yenidən doğuldular.

3. Son dövrün xalqları. K.Yaspersin fikrinə görə bütün xalqlar iki yerə -dünya mədəniyyətinin yaradılmasında əsas rol oynayanlara və bu prosesdən kənarda qalan xalqlara bölünürlər. K.Yaspers yazırdı ki, Çin və Hindistanın rolu bu gün həlledici qüvvə rolunda çıxış etməyə imkan vermir, amma zaman gələcək onların rolu artacaqdır. Artıq məlumdur ki, K.Yaspersin vaxtı ilə Çinin və Hindistanın dünya siyasətində rolu haqqında fikirləri reallaşmaqdadır. Müasir dünyanın probolemlərinin və dünyanın siyasi düzənlənməsində Çin və Hindistan kimi ölkələrin rolu K.Yaspersin yazdığı kimi həll edici qüvvəyə çevrilməkdədir.

## ƏDƏBİYYAT


1. Л.Бошингброк Би. Письма об изучении и пользе истории. М., 1978
2. И.Г.Гердер. Идеи к философии истории человечества. М., 1977
3. Гегел. Философия истории. М., 1935
4. К.Ясперс. Смысл и назначение истории. М., 1996


## TARİX FƏLSƏFƏSİNİN TƏŞƏKKÜLÜ VƏ TARİXİ MƏRHƏLƏLƏRİ

***Bilal Əlizadə***

## XÜLASƏ

Bu məqalə tarix fəlsəfəsinin ən mühüm problemlərindən biri olan tarixi prosesin fəlsəfi təhlilinə, onun formalaşmasına həsr edilmişdir. Problem fəlsəfi aspektdə təhlil edilir, tarix

fəlsəfəsinin əsas mərhələlərinin formalaşması və inkişafı da şərh edilir. Bu məqsədlə müxtəlif filosofların ideyaları nəzərdən keçirilir.

## ФИЛОСОФИЯ ИСТОРИИ: СТАНОВЛЕНИЕ И РАЗВИТИЕ

***Билал Ализаде***

## АННОТАЦИЯ

Данная статья посвящена философскому анализу исторического процесса, который является одной из важнейших проблем философии истории, ее формирования. Проблема анализируется в философском аспекте, также интерпретируется формирование и развитие основных этапов философии истории. Для этой цели рассматриваются идеи различных философов.

## PHILOSOPHY OF HISTORY: FORMATION AND DEVELOPMENT

***Bilal Alizadeh***

## SUMMARY

This article is devoted to the philosophical analysis of the historical process, which is one of the most important problems of the philosophy of history, its formation. The problem is analyzed in a philosophical aspect, the formation and development of the main stages of the philosophy of history is also interpreted. For this purpose, the ideas of various philosophers are considered.

# АРМЯНСКИЙ ФАШИЗМ: КРАТКИЙ ЭКСКУРС В ИСТОРИЮ

***Махмудова Севда Панах гызы, сотрудник***
***Исследовательского центра исламоведения факультета востоковедения БГУ***
***sevda.mahmudova.59@inbox.ru***

***Açar sözlər:*** təcavüz, işğal, daşnaklar, millətçilik, soyqırımı, qətl, dağılma, təbliğat, əzəmət, nifrət, süni dövlət, tarixi torpaq, qaçqınlar, məcburi köçkünlər, erməni faşizmi, qırğınlar.
***Ключевые слова:*** агрессия, оккупация, дашнаки, национализм, геноцид, убийство, разрушение, пропаганда, мания величия, ненависть, искусственное государство, историческая земля, беженцы, вынужденные переселенцы, армянский фашизм, резня.
***Keywords:*** aggression, occupation, Dashnaks, nationalism, genocide, murder, destruction, propaganda, megalomania, hatred, artificial state, historical land, refugees, internally displaced persons, Armenian fascism, massacre.

Выдвигая претензии на территории многих стран мира, история Армении изобилует белыми пятнами. Разбросанные по всем уголкам Европы, Азии и Америки, армяне, пользуясь имеющимися в их распоряжении различными рычагами влияния, постоянно стремятся воплотить в жизнь маниакальную идею о «Великой Армении». Отметим, что современное армянское государство - искусственное образование, созданное на исторической азербайджанской земле при политической и военной поддержке ведущих держав в целях реализации «Восточной политики». От армянской агрессии больше всех пострадал Азербайджан. Под давлением и по настоянию Советской России Зангезур, Дяряляйяз и другие исторические азербайджанские земли были отданы Армении. Таким образом, на протяжении всей истории, армяне постепенно захватывали азербайджанские земли. Тяжелым последствием оккупационной политики Армении является захват этой страной 20% территории современного Азербайджана. К сожалению, мировая общественность попустительствует агрессии Армении, закрывает глаза на факты геноцида и этнических чисток азербайджанцев со стороны армянских вандалов. В результате оккупационной политики Армении более миллиона азербайджанцев стали беженцами и вынужденными переселенцами.

Однако благодаря героизму азербайджанского народа, его доблестной армии, возглавляемой Президентом И. Алиевым, стране удалось восстановить историческую справедливость и освободить оккупированные территории.

Вернемся, однако, к истокам проблемы и зададимся вопросом: в чем причина подобной «гегемонии» армян в мире?! Над этим вопросом стоит призадуматься. На самом деле, за агрессивной политикой Армении стоит влиятельная армянская диаспора, армянское лобби и многочисленные про-армянские организации, представленные во всем мире и обладающие достаточными финансовыми ресурсами. Каким бы политическим или общественным организациям они не служили, армяне всячески пытались реализовать идею о «Великой Армении», представляясь незаменимым подручным средством в «Восточной политике», проводимой великими державами.

Человеческие и национальные качества армян, так точно и объективно усвоенные выдающимися личностями христианского мира в разные периоды истории, являются первостепенным фактором возникновения фашизма в армянском обществе. Одержимые бредовой идеей создания государства «Великой Армении» и истребления всех своих соседей, армяне всё больше и больше превращались в жертву своего больного

воображения. Это стало ясно даже врагу тюркских народов, первому премьер-министру армянской республики Качазнуни: «Мы создали в своём мозгу атмосферу, полную иллюзий. Мы навязали наши желания умам других; мы потеряли чувство реальности и позволили нашим мечтам вести нас...» (1).

Так, по утверждению историка Т. Драмбяна, лидеры партии «Дашнакцутюн» - одной из передовых террористических, военно-политических организаций в мире, «продолжают реализовывать свою антинародную политику. Вначале они, вступив в сговор с другими националистически-буржуазными организациями и белыми эмигрантами, пытались чинить препятствия для налаживания связей между Советской Арменией и зарубежными армянскими колониями. С этой целью дашнакские глашатаи очерняли армянскую советскую власть, проводя антисоветскую пропаганду». В последующие годы они продолжили свою антинациональную деятельность, а во время Второй Мировой Войны открыто поддержали Гитлеровский фашизм. И это неслучайно. С 1935 года сразу после установления в Германии фашистского режима, дашнаки связали свои надежды с этим преступным, зверским режимом.

Дашнакские газеты восхваляли преступные планы гитлеровцев, оправдывали их захватнические намерения, называя кровавый порядок, установленный в Германии, «высшей формой демократии». В большинстве статей говорилось о том, что в случае начала новой мировой войны, возникнут подходящие условия для свержения советской власти в Армении (2).

22 июня 1941 года, в день, когда гитлеровская Германия внезапно напала на Советский Союз, все народы, входившие в СССР, были глубоко потрясены этим фактом, погибли тысячи людей, ликовали только дашнаки, совершенно безразличные к судьбам людей, заботившиеся только об интересах армян. В то время один из дашнакских лидеров Рубен Дарбинян писал в газете «Айреник»: «К счастью, советская власть не настолько сильна, чтоб разгромить Германию, и не настолько внутренне крепка, чтоб противостоять немецким ударам» (3). В первые годы войны газета вела «успешную» пропаганду, прогнозируя со своих страниц скорый провал «кремлевской власти», уничтожение СССР, призывая общественность поддержать гитлеровцев. Кандидат исторических наук Т.Драмбян пишет далее: «... как насчет визитов дашнакского лидера Арцаха Джамаляна в Париж, Берлин и Каир, и участия Национальной Социалистической партии в Нюрнбергском съезде? И как насчет назначения Александра Хатисяна еще в 1940 году министром оккупированных Восточных земель, и его тесная связь с лидерами дашнакского движения в Берлине, а также переписка с фашистом Альфредом Розенбергом о создании «Армянского национального Совета? А тесное сотрудничество дашнаков с немецкими оккупационными управлениями и их карликовыми режимами в Румынии, Болгарии, Греции, Франции и самой Германии? А значит, дашнакские лидеры и их «орган» напрасно отрицают свою связь и тесное сотрудничество с немецкими фашистами. Как бы ни старались эти господа, им не стереть написанного своей же рукой - они не в силах отрицать исторические факты» (4).

Начиная с 50-х годов, армянские националисты с помощью своих покровителей начали оголтелую кампанию духовной агрессии против азербайджанского народа. В периодически распространяемых в бывшем советском государстве книгах, журналах и газетах они стремились доказать принадлежность армянскому народу самых выдающихся шедевров азербайджанской истории и культуры, классического наследия, памятников архитектуры». Сегодня в мире публикуется достаточно много документов, книг, статей об армянском фашизме.

Азербайджан взял на себя основной груз работы по разоблачению армянского фашизма. Невинные люди, женщины, дети были убиты потому, что являлись азербайджанцами. Мы ведём борьбу с армянским фашизмом и мстим за наши жертвы. Мы принимаем и будем принимать необходимые меры, чтобы фашисты понесли заслуженное наказание. Сегодня азербайджанская армия принимает все необходимые меры. В то же время в Армении чтят память фашистов, служивших Гитлеру, их именами называют улицы, площади, парки. Ветераны обратились с письмом к главам государств ряда стран, написали об армянском фашизме, о героизации фашистов в Армении. Я приветствую это. Об этом должен знать каждый» (4).

В подтверждение сказанного ниже приводятся отдельные высказывания авторитетных исторических деятелей, ярко характеризующих сущность армянского фашизма в исторической перспективе. «Армяне достаточно показали нам в течение последних 40 лет своё лицо, свою душу, свою совесть, свой нравственный и умственный облик. Это народ, один из самых развращённых, самых лживых, самых злобных и самых преступных» (5). «Только обезвредив армянское население, русская власть может занять в Закавказье, принадлежащее ей там по праву место...». «Их национализм чужд того благородства, который мы видим у европейских народов. Это узкий племенной эгоизм низшего пошиба, поддерживающий внутреннюю связь между разбросанными по всему свету армянскими колониями, но делающий их неуживчивыми и несносными для окружающих народов» (6). «Когда мы появились в Закавказье, то там никакой армянской интеллигенции не было: её мы создали ценою больших жертв, русскими деньгами; да и армян там совсем не было, и они представляли такую ничтожную силу, что поддерживать нас, конечно, не могли. Они могли сделать только одно из полного сознания своей пользы – они примкнули к силе, т.е. к русской власти, – прикинулись необыкновенно преданными ей слугами и так сумели заворожить её, что, когда она попала в руки лиц, страдающих политической слепотой, то и заселила ими все юго-восточное и юго-западное Закавказье». «Армяне получили заслуженное наказание». «Армяне не упускают случая выдвигать свои исторические «заслуги» и теперешние достоинства паразитическим способом, т.е. попутно набрасывая тень на соседние с ними народности, у которых была история более ясная, несомненная и достойная» (7).

Отметим, что «это исторический факт: кровь бесчисленных невинных жертв, в том числе убитых на этой войне женщин, детей и стариков, на совести не османцев, а только лишь на совести армянских лидеров, привлекших своих соотечественников к этому, заранее проигранному, сражению» (8).

Прикаспийская революция есть гангрена прилегающих друг к другу частей Персии, Турции и России. Общей заразой этой гангрены служат армяне» (9). «За нашими спинами армяне, эти кровожадные и трусливые борцы за свободу, уже начинают резать беззащитных турок − стариков, женщин и детей. Армяне, трусливо и гнусно убегающие с поля сражения от настоящих солдат, чрезвычайно храбры и беззаветно отважны в нападениях только на одиночных, безоружных, на стариков, на женщин и на детей» (10). «Хитрость, лукавство – необходимые качества непросвещённых, а тем более торговых народов, – свойственны армянам; всякий обман считается ими позволенным в покупке и продаже, всякая мера для приобретения − законною... Корысть − первый движитель всех их повышений и поступков» (11). «Не верьте, отец Архимандрит, не верьте документам армян, они мошенники, выдумывают поддельные документы, кладут их под навоз или сырые места, чтобы они постарели, пожелтели и поменялись». Написанный Моисеем Хоренским о древней истории армянского народа текст, вроде бы опирающийся на

древние исторические источники, не что иное, как выдумка, фантастическое искажение исторических фактов, мифологизация. Если учтём, что в истории нет ни одного следа о политическом единстве и силе, о культуре древних армян, то следует считать, что их у армянского народа и не было. Видимо, армяне всегда жили в виде малочисленного, дикого племени» (11). «Армяне – первая нация, начавшая использовать своих женщин в качестве подстилки под другие народы, как способ выживания. Многие женщины мира пытались так овладеть искусством блуда, практикой измены мужу, как это делали армянские женщины, но не многим удавалось. Армянские девушки-подростки так рано и с такой радостью отказывались от своей девственности, словно они не охраняют стену чести, а стряхивают с себя пыль» (11).

Армянский учёный А.Г. Периханян пишет о том, что «в те времена храмовая проституция была у армян своего рода традиционным мероприятием, в котором участвовали все слои населения, начиная со знати, заканчивая слугами» (13). Действия всех армянских политических партий и движений строились на психологии армянского фашизма. Вот выдержка из программы армянской фашистской партии «Ганчак», созданной в 1886 г.: «Убивать турок и курдов в любых условиях»..., используя такие методы, как «пропаганда, агитация, терроризм, создание подрывных организаций...» (14).

Следует обратить внимание на декрет Амбарцума Бояджняна, печально известного своей жестокостью в отношении женщин, стариков и детей: «Дети турок должны быть уничтожены. Они представляют собой серьёзную угрозу для будущей Армении» (). О преемственности идеологии и психологии армянского фашизма свидетельствует обращение небезызвестной С.Капутикян: «Турок, особенно их азербайджанское крыло, всегда нужно ломать, истреблять. Борьба против каждого азербайджанца должна вестись на уровне государственной программы» (14). Качества армян, о которых говорили лучшие умы христианского мира, в конечном итоге породили и сформировали звериную психологию армянских фашистов и террористов. В этой связи приведём лишь три выдержки. 1. Командующий русской армией генерал И.Одишелидзе: «Ночью 11-12 марта армянские палачи на территориях вокруг Эрзинджана убивали мусульман топорами и наконечниками. Эти хищники забрасывали своих жертв в основном в ямы, вырытые в целях реализации их «невинных» планов. В каждую яму сбрасывалось приблизительно 80 мусульманских трупов. Мой адъютант насчитал 200 таких ям и раскрыл эти преступления». Одишелидзе давал следующее заключение своим словам: «Эти действия направлены против цивилизации всего мира» (15).

В подтверждение сказанного приводим слова американского профессора Маккарти: «Эрзинджан − панорама трагедии. Ямы полны трупами мусульман. В садах вокруг домов разбросаны расчлененные трупы, отдельные руки, ноги, головы. Солдаты нашли 300 не погребённых трупов, 600 трупов заполнили ямы и рвы. Конечно, было убито людей намного больше этого. Судьба увезённых из города для строительных работ 650 мусульман неизвестна» (16). Имеются тысячи рапортов русских о геноциде турецких мусульман во всех местах, где проходило армянское войско. Армяне претворяли в жизнь геноцид хладнокровно и с согласия своих офицеров. Этот геноцид проводился в массовом порядке» (17).

Bu məqalədə biz orta əsrlərdə insan probleminin formalaşması məsələlərini araşdırdıq, çünki insan haqqında fəlsəfi fikirlər məhz bu dövrdə çiçəkləndi. İslam fəlsəfəsi çətin inkişaf yolu keçərək Qurani-Kərimin ideoloji əsaslarının bilavasitə davamı olmaqla insanın mahiyyəti və onun dünyadakı yeri ilə bağlı bir sıra konsepsiyalar irəli sürmüşdür. Onlar fəlsəfi məktəbin və ya konkret tədqiqatçının mövqeyindən asılı olaraq fərqlənirdilər.

# FEATURES OF THE FORMATION OF THE HUMAN PROBLEM IN ISLAMIC PHILOSOPHY IN THE MIDDLE AGES

***Abdullaeva Roya***

## SUMMARY

In this article, we examined the issues of the formation of the problem of man in the Middle Ages, since it was during this period that philosophical ideas about man flourished. Islamic philosophy, having passed a difficult path of development and being a direct continuation of the ideological foundations of the Holy Quran, put forward several concepts regarding the essence of man and his place in the world. They differed depending on the position of the philosophical school or a particular researcher.

# İNSAN-TƏBİƏT MÜNASİBƏTLƏRİNƏ TARİXİ BAXIŞ

***Əliyev Rəvan Əyyub oğlu***
***BDU-nun II kurs magistrantı***
***ravanaliyev.97@gmail.com***

***Açar sözlər:*** insan, təbiət, insan və təbiətin mahiyyəti, insan-təbiət münasibətləri, insan-təbiət münasibətlərinin fəlsəfi aspektləri.
***Ключевые слова:*** человек, природа, человек и сущность природы, отношения человек – природа, философские аспекты отношений человек- природа.
***Keywords****:* human, nature, the essence of human and nature, human-nature relations, philosophical aspects of human-nature relations.

Fəlsəfə meydana gəldiyi dövrdən etibarən insan problemi, onun təbiətlə münasibətləri əsas diqqət mərkəzində olmuşdur. İlk öncə insan təbiət münasibətlərindən danışarkən qeyd etmək lazımdır ki, fəlsəfi fikir özü birdən -birə yaranmayıb. Hər şeydən öncə fəlsəfi fikirin yaranmasında mifologiyanın da rolu böyük olmuşdur. Mif - insan və təbiətin qarşılıqlı təsiri ilə şərtlənən insan qavrayışının ölçüsü və fəlsəfi fikrin bir növ əsasıdır [6, s.14-15]. Artıq buradan aydın olur ki, insan-təbiət münasibətlərinin fəlsəfi aspektlərinə tarixi baxış fəlsəfənin yaranmasından etibarən daha mütərəqqi xarakter alır.

İnsan və təbiət anlayışlarının fəlsəfədə izahı həm də insan-təbiət münasibətləri barədə ilkin təsəvvür yaradır. Bəzən təbiət dedikdə əslində yalnız bir hissəni-biosferanı nəzərdə tuturlar. Məlumdur ki, bu biosferada canlı təbiətin üzvi hissəsi olan insan xüsusi mövqeyə malikdir.

Təbiət hər şeydən əvvəl obyektiv reallıqdır, yəni o insanın şüurundan və iradəsindən asılı olmayaraq mövcuddur. Hələ insanlar mövcud olmadığı zamanlardan təbiət mövcud idi. Ancaq təbii ki, bunun əksini iddia edən fəlsəfi cərəyanlar da olmuşdur.

Hələ qədim zamanlardan şərq fəlsəfəsində dünyanın meydana gəlməsi ilə insan və təbiət münasibətləri haqqında düşüncələr xüsusi diqqətdə idi. Bu problemlər öz əksini əsatirlərdə tapırdı. Məsələn, rəvayətlərin birinə görə, dünya yumurtavari xaosdan ibarət olmuşdur və bu qarmaqarışıq dünyada ilk insan olan PanQu yaranmışdır. Pan-Qunun yaranması nəticəsində yumurtavari xaos məhv olur, Səma və Yer meydana gəlmişdir. Pan-Qunun bədənindən bütün mövcud şeylər – Günəş və Ay, külək, ümumi yekunda isə insan əmələ gəlmişdir [2, s.139-140].

Qədim Çində geniş yayılmış konfutsiçilik, eyni zamanda daosizm təlimlərində insanın əxlaqı davranışı təbiətlə əlaqələndirilirdi [1]. Fəlsəfədə Konfutsinin insan-təbiət münasibətləri barədə fikirləri daha çox maraq doğurur. O, insan və təbiətin qarşılıqlı münasibətini qeyd edir və bir neçə başlıca prinsip ideyanı açıqlayırdı [2]:

1. Cəmiyyətin layiqli üzvü olmaq üçün insan təbiət haqqında biliklərə yiyələnməlidir.
2. Yalnız təbiət insana və cəmiyyətə həyat gücü və nəfəs vermək qüdrətinə malikdir. Konfutsi burada qeyd edirdi ki, insanlar təbiətlə davranmağı bacarmalıdırlar.
3. Müntəzəm olaraq təbiətə dua etmək lazımdır.

Şərq fəlsəfəsində insan-təbiət münasibətlərini özündə ehtiva edən fəlsəfi cərəyanlardan biri də daosizm idi. Dao bəzən "təbiət yolu" adlanır. Daosizm, təbiət prinsiplərinə riayət etməklə başqalarına zərər verməməyi əhatə edir. Daosizmdə qeyd olunurdu ki, insanlar təbiətlə daha çox əməkdaşlıq etməli və daha az rəqabət aparmalıdırlar. İdeyanın əsasında insanla təbiət arasında harmoniyaya nail olmaq məsələsi dururdu.

Daha yüksək səviyyədə insan problemi, və bu əsasda insan-təbiət münasibətləri məsələsi Aristotel və Palton tərəfindən öyrənilmişdir. Antik filosofların başlıca məqsədlərindən biri elə

dünyanın olduğu kimi dərk edilməsi idi və buna görə onlar təbiət və insanla bağlı bütün sahələr haqqında fikirlər irəli sürürdülər. İlk olaraq ətraf mühit və kainat daha sonra isə insanla bağlı təlimlərin əsası da məhz bununla qoyulmuşdur [4].

Antik fəlsəfədə bir sıra filosoflar təbiət və insan münasibətləri haqqında geniş fikirlərə sahibdir. Məsələn, Seneka təbiətə tabe olmaqdan söhbət açaraq qeyd edirdi ki, insan yalnız təbiətə tabe olaraq xeyrə çata bilər [4, s. 182]. Epiktetus qeyd edirdi ki, insan təbiətdə və cəmiyyətdə gedən prosesləri dəyişə bilməz. Ancaq həmin proseslərə öz münasibətini bildirə və onlardan mənəvi cəhətdən azad ola bilər [7, s. 159].

İnsan haqqında təlimi yaradan ilk filosof kimi Sokratı xüsusilə qeyd etmək lazımdır. Onun ideyaları insan mahiyyətinin sonrakı tətqiqinə xüsusi təsir yaratmışdır.

Qədim yunan ənənələri təbiətə hörmətlə yanaşmağı tələb edirdi. Yəni əsas olaraq insanın təbiət üzərində üstünlüyünü allahlara oxşatmaq iddiası ilə izah edirdi. Ancaq eyni zamanda insan-təbiət münasibətlərinə baxışda fərqli mövqe də var idi. Məsələn: Aristotel otların heyvanlar üçün mövcud olduğu kimi, heyvanların da insanlar üçün mövcud olduğunu qeyd edirdi.

Orta əsrlərdə xristianlıq isə öz tərəfdarlarında canlı təbiətə sevgi hissini tərbiyə edirdi: heyvanların və insanın bir canı vardır. Lakin, buna baxmayaraq təbiətə münasibətdə xrsitianlıq da ardıcıl mövqedə deyildi. Məsələn, Avqustin belə bir fikiri irəli sürürdü ki, heyvanların ruhunun zəkası yoxdur və buna görə də onların və insanın təbiəti müxtəlifdir [5, s. 308].

İnsan və təbiət münasibətlərinin şərhində Teyyar De Şardenin fikirləri də maraqlıdır. Belə ki, alim təbiətin daim inkişaf etdiyini və insanın təbiətin tarixi təkamülün prosesinin ən kamil məhsulu olduğunu vurğulayırdı. İnsan təbiət münasibətlərinə gəlincə isə o qeyd edir ki, təbiətin sonrakı təkamülündə insanın rolu xüsusidir.

Ümumilikdə fəlsəfədə insan və təbiət münsiətlərinə tarixi baxışda təbiət üzərində hökmranlığı təbliğ edən ideyalar bu münasibətlərin sonrakı axarına güclü təsir etmişdir. Məsələn, müasir Amerika sosioloqları xristianlığı günahlandıraraq qeyd edirdilər ki, xristianlığın "törəyin və artın", "yer üzünü doldurun və buna sahib olun" nəsihətləri insanın təbiətə dağıdıcı münasibətinin əsasını yaratmışdır [5, s. 309]. Təbiətdə insana lazım olan hər şey var. İnsan özü üçün zəruri olan məhsulları emal etmək üçün təbiətlə münasibətlərə daxil olur və ona təsir göstərir.

İnsan təbiət münasibətlərinin tarixi də qədim dövrlərə dayanır. Bu münasibətlər ilkin dövrlərdə insanın sağ qalması, özünü qoruması kimi mühüm seçimlərlə bağlı olmuşdur. Bu tarix ibtidai icma quruluşu dövrünə qədər gedib çatır. İbtidai icma quruluşunun yaranmasının təbii ehtiyatlar və təbii şəraitlə bağlı olması buna sübutdur. İlk dövrlərdə ibtidai insan təbiətdən əldə etdiyi məhsullarla qidalanmış, mezolit, neolit dövrlərində isə bir növ təbiətin hazır məhsulları ilə yanaşı əkinçilik, maldarlıqla məşğul olmağa başlamışlar. Məhz torpaqdan istifadə etməklə insan təbiət üzərində bir növ hökmranlıq etməyə başlayır. Zaman keçdikcə insan növünün sürətlə çoxalması səbəbindən başlayan qida çatışmazlığına qarşı insanın müxtəlif alətlər və avadanlıqlar hazırlaması, insanın təbiət üzərində hökmranlığının başlanğıcında önəmli rol oynayıb. Bu münasibətin əsasını artıq texnologiya təşkil edir. Əvvəlcə əsas ehtiyacları ödəmək üçün hazırlanan alətlərin bəşər tarixində ikinci dönüş nöqtəsinin yəni, Sənaye İnqilabının əsasını qoydu. Sənayedə buxarın tətbiqi ilə də maşınlar əl gücünü əvəz etməyə başladı və texnologiyanın bütün imkanlarından istifadə edərək insanın kütləvi istehsala keçməsini təmin etdi. Məhz bu insan-təbiət münasibətlərində yeni problemlərin meydana çıxmasına səbəb oldu ki, bunlar da ekoloji problemlərin sürətlənməsi idi.

Qeyd olundu ki, insanın təbiət üzərində hökmranlığa can atmaq ideyası insanın tələbatlarının ödənilməsi ilə bağlıdır. Yəni təbii sərvətlər talan edilir və insan yaşamı üçün nemətləri əldə edir.

İnsan-təbiət münasibətləri artıq burada yeni bir formada davam edir. Münasibətlərdə insanın üstünlüyü artıq texnika ilə xarakterizə olunur. Alman filosofu K.Yaspersə görə, texnika bilikli insanın təbiət üzərində hökmranlığa doğru yönəldilən fəaliyyətinin məcmusudur. Burada məqsəd kimi insanın öz ehtiyac yükünü öz üzərindən ata bilməsi və ətraf mühitdən özünə lazım olan formanı ala bilməsi məsələsi qeyd olunur. İnsanın təbiət üzərində hökmranlığının qüvvətlənməsi ilə yanaşı təbiətin indiyə qədər görünməmiş dərəcədə insanı özünə tabe etməsi qorxusu da artmağa başlayır. Yaspersin fikirlərinə görə texnikanın mənası insanı təbiətin hökmranlığından azad etməkdir [6, s. 433].

İnsanla təbiət arasında münasibət insanın istehsal fəaliyyəti nəticəsində təzahür edir. Burada təbiət insanın bu fəaliyyətinə ciddi təsir göstərir. Məsələn, münbit torpağın olmadığı yerdə əkinçilik daha yaxşı inkişaf edə bilməz. Məhz bu səbəblə insanlar əsasən yaşayış məskənləri seçərkən dəniz, göl ətraflarını, münbit torpaqların olduğu yerlərdə məskən salmağı üstün hesab etmişlər. Yəni ümumilikdə təbiətin yaratdığı şərait insanın inkişafına təkan verir. Ancaq, demək olmaz ki, coğrafi mühit inkişafın əsas həlledici şərtidir. Burada insan-təbiət münasibətlərinin araşdırılması baxımından mühüm bir məsələyə diqqət etmək lazımdır. Bəzi alimlər inkişafda təbiət və coğrafi mühitin rolunu inkar etsə də digərləri sosial proseslərin əsas səbəbini təbiət, coğrafi mühitlə əlaqələndirdi ki, bu da coğrafi determinizm anlayışı ilə xarakterizə olunurdu. Yəni insanın inkişafı təbiətlə, coğrafi mühitlə sıx bağlıdır.

Ümumilikdə fəlsəfədə insan-təbiət münasibətlərinə tarixi baxış zamanı bu münasibətlərin bir neçə tarixi mərhələsini qeyd edirlər. Bəzi alimlər bu mərhələni aşağıdakı formada fəlsəfi olaraq izah etmişlər [6]:

1. Yarandığı ilk zamanlarda insan təbiətlə bir tam idi. Bu insanın inkişafının ilk mərhələsidir və burada insan və təbiət münasibətlərinə kortəbii tarazlıq olmuşdur.
2. Növbəti mərhələdə insan təbiətdən daha çox ayrılmağa başlayır. Təbiəti dəyişmək ideyası ilə insan onu öz tələbatına uyğunlaşdırır. Təbiət üzərində hökmranlığa can atmaq onun dağılmasına aparır. Təbii sərvətlər talan edilir və insan təbiəti özünə tabe etməyə çalışır.
3. Üçüncü mərhələnin vəzifəsi cəmiyyətin təbiətdən ayrılmasını aradan qaldırmaqla yanaşı bütün əvvəlki inkişafın nailiyyətləri əsasında onların birliyini bərpa etməkdir.

İnsan təbiətin bir hissəsi olmasına baxmayaraq əməllərində özünü təbiətə qarşı qoyur. İnsan üçün təbiət yalnız onun mövcudluğunun təbii şəraiti, yaradıcı, qurucu fəaliyyəti üçün sahə olmaması insan və təbiətin münasibətlərinin digər formalarını yaradır . Bu dərketmə münasibətidir ki, bu da müasir cəmiyyətdə ilk növbədə təbii elmlər (təbiət haqqında elmlər) formasında həyata keçir [3, s. 85].

Təbiət fenomenini başa düşən naturfilosoflar bununla belə onu daxildən dərk etməyə cəhd edirlər. Onlar insandan asılı olmayan təbiətin mövcudluq qanunlarını aşkar etməyə cəhd edirlər [3, s. 90].

Ümumilikdə belə nəticəyə gəlmək olar ki, insan-təbiət münasibətlərində insan üstün tərəf kimi təbiətin ağası olmaq iddiasındadır. Bu gün insan elmi-texniki imkanlarla təbiətin fundamental xüsusiyyətlərini dəyişdirə biləcək qədər güclüdür. İnsan əslində təbiət üzərində qələbə çalsa bu qələbə məğlubiyyətə bərabərdir. Çünki, təbiət çoxsaylı rəngarəng tərkib hissələrə malikdir və eyni zamanda bütöv tamdır. Şəraitinə uyğun olaraq cəmiyyətin təbiətin ayrı-ayrı hissələrinə təsiri təbiətin nizamına da təsir göstərir. XIX əsrin ortalarında F.Engels məhz bu məsələyə diqqət edərək yazırdı: «Təbiət üzərindəki qələbəmizə çox sevinməməliyik. Hər bu cür qələbəyə görə o bizdən qisas alır. Bu qələbənin hər biri, şübhəsiz ki, ilk növbədə, bizim nəzərdə tutduğumuz faydanı verir. Sonradan isə ikinci və üçüncü anda heç gözləmədiyimiz nəticələrlə üzləşirik ki, bu nəticələr də birinci anda əldə olunan qələbəni məhv edir».

İnsan cəmiyyətinin inkişafı təbiətlə bağlıdır. Təbiət-insan münasibətləri zamanla daha yeni xarakter alır. İnsan isə təbiəti qorumaqla özünü qorumuş olur, çünki insan bütöv bir tam olan təbiətin parçasıdır. İnsan-təbiət münasibətlərinin fəlsəfi statusu da uzun bir tarixi dövrün məhsuludur və bu münasibətlərə tarixi baxışda özünü göstərən maraqlı bir nəticə var. Bu nəticəni təbiətin qlobal dayanıqlılığını təmin edən qanunlardan biri olan La Şatelye prinsipi ilə ifadə etmək olar. Prinsipin fəlsəfi mənası ondan ibarətdir ki, dayanıqlı tarazılıq halında olan hər hansı sistemə bu tarazılığını pozmağa çalışan xarici faktor təsir edərsə sistemdə həmin təsirə qarşı əks-təsir yaranacaq. Bu zaman həmin sistem elə bir yeni tarazılıq halına keçməyə çalışır ki, bu halda xarici təsir ya azaldılsın ya da tamamilə məhv edilsin. Tarazlıqda olan sistem kimi təbiəti, faktor olaraq isə insanı götürsək təbiəti qorumağın vacibliyini bir daha göz önünə gətirmiş olarıq.

## ƏDƏBİYYAT

1. Abbasova. Q.Y., Hacıyev. Z. C.Sosial fəlsəfə. Bakı, Ayna Mətbu Evi. 2001, 506 s.
2. Ağabəyova Ü.R. Qədim dövr Uzaq Şərqdə fəlsəfənin təşəkkülü və inkişafı. Dərs vəsaiti. Bakı: "Bakı Universiteti Nəşriyyatı", 2018, 220 s.
3. Əhmədov Y. P. Fəlsəfə- VI hissə -Təbiət və cəmiyyətin fəlsəfəsi. Bakı, "PG nəşrlər evi", 2013. 466 s.
4. Əlizadə A.A. Antik fəlsəfə tarixi. Bakı-2016, 288 s.
5. Mehdiyev R.Ə. Fəlsəfə. Bakı, Şərq-Qərb nəşriyyatı. 2010, 359 s.
6. Rüstəmov Y.İ. Fəlsəfənin əsasları (mühazirə kursu). Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007,504 s.
7. Беседы Эпиктета. М.: Ладомир, 1997.

## İNSAN -TƏBİƏT MÜNASİBƏTLƏRİNƏ TARİXİ BAXIŞ

***Əliyev Rəvan***

### XÜLASƏ

Fəlsəfə elmində varlığın əsas formalarından danışarkən insan və eyni zamanda təbiətin varlığı xüsusi qeyd edilir. İnsan təbiətin ən ali üzvüdür və təbiətlə qarşılıqlı təsirdə inkişaf edir. Nəticədə insan və təbiət münasibətlərinin fəlsəfi təhlili məsələsi daim aktualdır. Təqdim olunan bu məqalədə insan-təbiət münasibətlərinə tarixi baxış qeyd olunmuş, bu münasibətlərin fəlsəfi aspektləri açıqlanmışdır.

## ИСТОРИЧЕСКИЙ ВЗГЛЯД НА ОТНОШЕНИЯ ЧЕЛОВЕК – ПРИРОДА

***Алиев Раван***

### АННОТАЦИЯ

Говоря об основных формах бытия в философской науке, особенно подчеркивается бытие человека и одновременно бытие природы. Человек самый высший член прирлды и развивается во взаимодействии с природой. В результате философ кий анализ отнолшений человека и природы всегда актуален. В представляемой статье отмечен историяеский взгляд отношений человек – природа, раскрыты философские аспекты данных отношений.

## HİSTORİCAL VİEW OF HUMAN-NATURE RELATIONS

***Aliyev Ravan***

### SUMMARY

When talking about the basic forms of existence in philosophy, the existence of human and at the same time nature is emphasized. Human is the highest member of nature and develops in interaction with nature. As a result, a historical view of the relationship between human and nature was noted, and the philosophical aspect of this relationship was revealed.

# SOSİAL İŞ

## PENSİYALAR VƏ ONLARIN AZƏRBAYCANDAKI SON DURUMU

***f.ü.f.d. Abbasova Mətanət***
***BDU-nun Sosioloji tədqiqatlar labaratoriyasının elmi işçisi***

***Açar sözlər:*** pensiya, sosial təminat, qanun.
***Ключевые слова:*** пенсия, социальная защита, закон.
***Keywords:*** retirement, social security, law.

Çox qədim zamanlarda, daha dəqiq desək, eramızdan əvvəl neandertal icmalarda belə ahıllara və xəsarət alaraq icmadaxili funksionallığını itirənlərə qulluq və nəzarət mövcud olmuşdur.

Demək olar ki, bütün dinlərdə valideynlərə qarşı hörmətin təlqin edilməsi, ailədaxili məsələlərdə yaşlı insanlara daha çox söz haqqının verilməsi təməl anlayışlardır.

Pensiya hüququnun ilk dəfə dövlət tərəfindən rəsmiləşdirilməsi Roma İmperatorluğu dövründə Oktavian Avqust tərəfindən döyüşçüləri nəzərə alaraq həyata keçirilmişdir. Roma İmperatorluğunun həddindən artıq bu tip məsuliyyətlər altına girdiyi üçün iqtisadi tənəzzülə uğradığı iddia edilir [2, s. 39].

VIII əsrdə İrlandiyada qəbilə üzvlərinin, 1593-cü il İngiltərədə qazilərin, 1645-ci ildə Almaniyada kilsə keşişlərinin dul qalan həyat yoldaşlarının, 1667-ci il Almaniyada müəllimlərin, 1889-cu ildə Otto Bismark tərəfindən əsası qoyulan və hər baxımdan işçiləri əhatə edən ahıl və sağlamlıq imkanları məhdud şəxslərin, 1908-ci il İngiltərədə ahıl insanların sığorta olunması və sosial müdafiəsini tarixi təkmilləşdirmələrə nümunə kimi göstərmək mümkündür [2, s. 43].

Pensiya həyatlarını çalışaraq davam etdirən şəxslərin yaşlılıq səbəbilə artıq işləyə bilməyəcəkləri düşünülərək planlı şəkildə işləməkdən imtina etmələri ilə başlayan prosesə verilən addır. Həmin şəxslərə "təqaüdçü" deyilir.

Həyatlarını davam etdirmək üçün lazımi vəsait çalışdıqları dövrdə qazandıqları maaş əvəzinə pensiya məqsədilə əvvəlcədən yaradılmış fondlar istifadə olunur. Həmin fondlar dövlət, çalışdıqları iş yerləri və ya özləri tərəfindən uaradılmış ola bilər. Bəzən bu 3 formadan olan bir çox fond eyni insanın pensiya almasına istiqamətlənir. Lazımı məbləğ təqaüdçüyə davamlı gəlir, külli miqdarda ödəniş, bəzən isə bunların kombinasiyası şəklində ödəniləcək formada nizamlanır [5, s. 41].

Həyatın 3 mərhələsinin hazırlıq, çalışmaq və pensiyaya çıxmaq olduğunu nəzərə alsaq pensiya fondları uzun müddət ərzində yığılan və tükənən, mövcud olduğu müddət ərzində etibarlı, yaxşı gəlir əldə edilən fəaliyyətlərdə istifadə edilərək artırılması planlaşdırıldığı üçün iqtisadi cəhətdən vacib olan və davamlılıq təmin edən investisiya mənbəyidir [5, s. 43].

Bu uzunmüddətli investisiya, öz xüsusiyəti və faizin faizi faktorunun üstünlük təşkil etməsi səbəbindən fərdin pensiya fondunun yaradılması ilə əlaqədar detallarla bağlı preinformasiya, güclü nəzarət və yaxşı pensiya gəliri əldə etmək baxımından böyük əhəmiyyət kəsb edir.

Pensiya fondlarının toplanması və xərclənməsi müddəti ərzində bir sıra çətin amilə rast gəlmək mümkündür. Həmin dövr ərzində əsas məsuliyyət və riskləri kimlərin daşıyacağı, təqaüdlərin hansı müddət ərzində, nə qədər ödəniləcəyini təmin edən qanunlar və sazişlər həmin dövrdə fond investisiyalarının hansı dərəcədə yaxşı və məhsuldar idarə ediləcəyi, iqtisadiyyatın durumu, demoqrafiyanın vəziyyəti (məsələn, orta ömür müddətinin uzanması/qısalması), qaydaların, siyasi seçimlərin, faiz nisbətlərinin hansı yöndə olacağı nəticəni çox dəyişdirə bilər.

Müharibə, təbii fəlakət, pandemiya, yeni ixtiralar və proseslərə cəmiyyətin hansı sürətdə uyğunlaşması kimi faktorlar da gələcək dövrlərdəki təqaüdçü maaşlarına təsir göstərə bilər [4, s. 14].

Ümummilli lider Heydər Əliyevin də vurğuladığı kimi “Sosial təminat sistemi gündən-günə yaxşılaşdırılmalıdır”. Sosial təminat hüququnun sistemi dedikdə, onun daxilində hüquq normalarının elmi şəkildə əsaslandırılmış düzülüşü başa düşülür. Sosial təminat hüququnun normalarını ümumi və xüsusi hissədə qruplaşdırmaq olar.

Sosial təminat hüququnun ümumi hissəsinə hüquqi tənzimetmənin prinsip və vəzifələrini, sosial təminat sahəsində əsas hüquqları ifadə edən normalar daxildir.

Xüsusi hissəyə təminatın ayrı-ayrı növlərinin təyin edilməsini müəyyən edən normalar daxildir. Normaların bu qrupları hüquq sahəsinin institutlarını yaradır. Nümunə kimi aşağıdakı institutları göstərmək olar: yaşa görə, sağlamlıq imkanlarının məhdudluğuna görə, ailə başçısını itirməyə görə, xidmət illərinə görə əmək pensiyaları, işsizliyə, müvəqqəti olaraq əmək qabiliyyətini itirməyə görə müavinətlər və s.

Beləliklə, sosial təminat hüququnun sistemi tənzimlənən ictimai münasibətlərin spesifikliyinə uyğun olaraq müəyyən ardıcıllıqla yerləşmiş, bir-biri ilə qarşılıqlı əlaqədə olan institutların və normaların məcmusunu ifadə edir.

Sosial təminat hüququ əmək qabiliyyətini tam və ya qismən itirmiş vətəndaşların maddi tələbatının ödənilməsi üçün onlara dövlət tərərfindən müvafiq müavinətlərin ödənilməsindən və təşkilati-hüquqi digər tədbirlərin həyata keçirilməsindən ibarətdir. İnsan hüquqlarının digər növlərindən fərqli olaraq sosial-təminat hüquqlarının xüsusiyyətləri aşağıdakılardır:

- insan həyatının müəyyən - sosial-iqtisadi sahəsinə şamil edilməsi;
- əsas müddəalarda məsləhətverici, “qeyri-ciddi” təriflərin verilməsi (məsələn, “layiqli həyat”, “ədalətli və uyğun həyat şəraiti”);
- sosial-iqtisadi hüquqların həyata keçirilməsinin iqtisadiyyatın və ehtiyatların vəziyyətindən asılı olması.

Aşağıda göstərilən hallarda vətəndaşların sosial təminat hüququ müəyyənləşdirilir:

1. qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda;
2. xəstəliyi olduqda;
3. əlilliyi olduqda;
4. ailə başçısını itirdikdə;
5. əmək qabiliyyətini itirdikdə;
6. işsiz olduqda.

Azərbaycanda pensiyaların hansı şərtlərdə və kimlərə ödənildiyi barədə kifayət qədər və dolğun məlumat mövcuddur Belə ki, Azərbaycan Respublikasının vətəndaşlarına və Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər əsaslarla pensiya “Əmək pensiyaları haqqında” Qanuna əsasən təyin edilir və ödənilir.

Əmək pensiyası – “Əmək pensiyaları haqqında” Qanununda nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və məcburi dövlət sosial sığortaolunanların onlara əmək pensiyası təyin olunduqdan əvvəl aldıqları əməkhaqqı və digər gəlirlərin, yaxud sığortaolunanların ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədilə vətəndaşlara aylıq pul ödənişidir.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə 12 iyul 2019-cu il tarixli 1650-VQD nömrəli Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq 1 Oktyabr 2019-cu il tarixindən etibarən minimum əmək pensiyasının məbləği 200,00 manat müəyyən edilmişdir [1].

Azərbaycan Respublikasının qanunları ilə müxtəlif pensiya hüququ olan şəxslərə öz istəklərinə uyğun olaraq ilə yalnız bir pensiya təyin edilir.

Əmək pensiyası üç növdə müəyyənləşdirilmişdir:

-yaşa görə əmək pensiyası;

-sağlamlıq imkanlarının məhdudluğuna görə əmək pensiyası;

-ailə başçısını itirməyə görə əmək pensiyası.

Əmək təqaüdçüsünün yaşa görə əmək pensiyası növündən sağlamlıq imkanlarının məhdudluğuna görə əmək pensiyası növünə keçirilməsi istisna olmaqla, əmək pensiyasının bir növündən başqa növünə keçmə hüququ vardır.

Əmək pensiyasının sığorta hissəsinin 1992-ci ilin yanvarın 1-dək qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği, habelə, əmək pensiyasının sığorta hissəsinə əlavələr və qulluq stajına görə əmək pensiyasına əlavələr dövlət büdcəsinin, digər bütün məbləğləri isə məcburi dövlət sosial sığortası vəsaitləri və sosial sığorta ehtiyatı hesabına maliyyələşdirilir.

Yaşa görə əmək pensiyası və əlilliyə görə əmək pensiyası sığorta və yığım hissəsindən ibarətdir.

Əmək pensiyasının sığorta hissəsi - fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalının gözlənilən pensiya ödənişi müddətinin aylarının sayına nisbəti şəklində hesablanan məbləğdir.

Əmək pensiyasının yığım hissəsi - fərdi hesabın yığım hissəsində toplanan pensiya kapitalının gözlənilən pensiya ödənişi müddətinin aylarının sayına nisbəti şəklində hesablanan məbləğdir.

Ailə başçısını itirməyə görə əmək pensiyası yalnız sığorta hissəsindən ibarətdir.

"Əmək pensiyaları haqqında" Qanuna uyğun olaraq əmək pensiyasının sığorta hissəsi ildə bir dəfə ölkə üzrə aylıq orta nominal əmək haqqının illik artım tempinə və sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir. "Əmək pensiyası almaq hüququ olmayan şəxsin qanunvericilikdə nəzərdə tutulmuş hallarda yaşa görə, əlilliyə görə və ya ailə başçısını itirməyə görə sosial müavinət almaq hüququ vardır."

Yaşa görə əmək pensiyası "Əmək pensiyaları haqqında" Qanunun 7-ci maddəsinə əsasən, pensiya yaşına çatmış şəxsin fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ vardır.

Bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılaraq aşağıdakı qaydada müəyyənləşdirilir:

| Dövr | Kişilər üzrə pensiya yaşı | Qadınlar üzrə pensiya yaşı |
|---|---|---|
| 1 iyul 2017 – 30 iyun 2018 | 63 il 6 ay | 60 il 6 ay |
| 1 iyul 2018 – 30 iyun 2019 | 64 il | 61 il |
| 1 iyul 2019 – 30 iyun 2020 | 64 il 6 ay | 61 il 6 ay |
| 1 iyul 2020 – 30 iyun 2021 | 65 il | 62 il |
| 1 iyul 2021 – 30 iyun 2022 | 65 il | 62 il 6 ay |
| 1 iyul 2022 – 30 iyun 2023 | 65 il | 63 il |
| 1 iyul 2023 – 30 iyun 2024 | 65 il | 63 il 6 ay |
| 1 iyul 2024 – 30 iyun 2025 | 65 il | 64 il |
| 1 iyul 2025 – 30 iyun 2026 | 65 il | 64 il 6 ay |

| | | |
|---|---|---|
| 1 iyul 2026 və sonra | 65 il | 65 il |

Yaşa görə əmək pensiyası buna hüququ olan şəxsin müraciəti əsasında ömürlük təyin edilir [1].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 dekabr 2018-ci il tarixdə təsdiq etdiyi "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun 2019-cu ilin 1 yanvarından qüvvəyə minmişdir. Qanuna edilmiş və qüvvəyə minən dəyişikliyə əsasən, 2019-cu ilin əvvəlindən pensiyaların pensiya hüququ yaranan şəxsin heç bir müraciəti olmadan, sənəd təqdim etmədən və pensiya hüququ yaranan gün ərzində elektron qaydada təyin edilməsinə başlanılmışdır. Pensiya şəxsə təyin olunandan sonra ona bu, həmçinin pensiyanın məbləği, bank kartını əldə edəcəyi bank filialı və vaxt barədə "sms", e-mail və ya rəsmi məktubla məlumat verilir.

Əmək pensiyası yaş həddinə çatmış, lakin yaşa görə əmək pensiyası hüququ yaranmayan şəxslərə "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanuna əsasən əmək qabiliyyəti olmayan şəxslər işləmədikdə yaşa görə sosial müavinət (130 manat) almaq hüququ vardır [1].

Sağlamlıq imkanlarının məhdudluğuna görə əmək pensiyası sığortaolunanın xəstəlik və ya xəsarət nəticəsində yaranan əqli və ya fiziki qüsurlara görə əmək qabiliyyətinin məhdudlaşması ilə əlaqədar təyin edilir. Əlillik qrupları, əlilliyin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdudluğunun səbəbləri, habelə onların başvermə müddəti tibbi-sosial ekspert komissiyaları tərəfindən qanunvericiliyə uyğun olaraq müəyyən olunur.

Sağlamlıq imkanlarının məhdudluğuna görə əmək pensiyası I qrup əlillərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə, əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. II və III qrup əlillərə əlilliyə görə əmək pensiyası fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməsi şərtilə bu maddədə göstərilən sığorta stajı olduqda təyin edilir.

Hərbi qulluqçulara, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından I qrup müharibə əlili olan şəxslərə (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) əlilliyə görə əmək pensiyaları xidmət müddətindən asılı olmayaraq, əlillik hərbi qulluqçuların xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra, lakin xidmət dövründə alınmış xəstəlik və yaxud xəsarət (yaralanma, travma, kontuziya) nəticəsində təyin edilir.

Şəxsin əlilliyə görə əmək pensiyası hüququ yaranmadıqda qanunvericiliklə nəzərdə tutulmuş hallarda sosial müavinət almaq hüququ vardır [3].

Əlavə olaraq, I qrup əlilliyi olan şəxslərin 100 manat məbləğində və onlara qulluq edən şəxslər üçün 50 manat məbləğində Prezident təqaüdləri almaq hüququ vardır.

Vəfat etmiş və ya həlak olmuş ailə başçısının öhdəsində olan (vəfat edənin tam təminatında olan və ya ondan özlərinin yaşayışı üçün daimi və əsas vəsait mənbəyi kimi kömək alan) aşağıdakı ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır:

1.1. vəfat etmiş və ya həlak olmuş şəxslərin övladları:

1.1.1. 18 yaşına çatmamış şəxslər;

1.1.2. 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı sağlamlıq imkanları məhdud şəxslər;

1.1.3. təhsil müəssisələrinin əyani şöbəsində təhsil alanlar, lakin ən çoxu 23 yaşına çatanadək;

1.2. ata, ana, ər, arvad "Əmək pensiyaları haqqında" Qanunun 7-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş pensiya yaşına çatmışdırsa, yaxud I və ya II qrup əlildirsə;

1.3. yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən biri və ya ər (arvad), yaxud baba, nənə, qardaş, bacı vəfat etmiş və ya həlak olmuş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxırsa və işləmirsə [1].

Ailə başçısını itirməyə görə əmək pensiyasının təyin olunması üçün tələb olunan sənədlər - şəxsiyyət vəsiqəsinin və ya ümumvətəndaş pasportunun surəti, ümumi iş (sosial sığorta) stajını təsdiq edən sənədlər, ailə başçısının ölüm haqqında şəhadətnaməsinin surəti (və ya onun xəbərsiz itkin düşməsi, yaxud ölmüş elan edilməsi haqqında məhkəmənin qərarının surəti), pensiya almaq hüququ olan ailə üzvlərinin doğum haqqında şəhadətnamələrinin surəti, vəfat etmiş şəxsin 8 yaşına çatmamış uşaqlarına baxan və işləməyən valideynin və ya digər qanuni nümayəndəsinin (babası, nənəsi, qardaşı, bacısı, qəyyumu, himayəçisi) şəxsiyyətini təsdiq edən sənədin surəti, vəfat etmiş şəxsin 18 yaşından yuxarı (əyani təhsil alanlar təhsilini bitirənədək, lakin 23 yaşdan çox olmamaqla) uşaqlarının təhsil alması barədə arayışı, vəfat etmiş şəxsin 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı övladının əlil, ərinin (arvadının) I və ya II qrup əlil olması barədə tibbi-sosial ekspert komissiyasının qərarı ilə "Əmək pensiyaları haqqında" Qanunun 19-cu maddəsinə əsasən əmək pensiyasının sığorta hissəsinə əlavə hesablanmasına hüquq verən sənədlər əlavə edilir, hərbi hissədən, səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidməti orqanlarından və digər aidiyyəti dövlət orqanlarından hərbi qulluqçunun ölüm faktını, ölümün səbəbini və tarixini təsdiq edən, həmçinin hərbi qulluqçunun itkin düşdüyü barədə sənəd (Qanunun 17.2-ci maddəsinə əsasən əmək pensiyası hüququ yarandıqda) [1].

Şəxslərin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ yaranmadıqda qanunvericiliklə nəzərdə tutulmuş hallarda sosial müavinət almaq hüququ vardır.

Pensiya haqqında ümumi anlayışları vurğuladıqda onun gələcəkdə təkmilləşdirilməsinə təsir göstərən amillərdən biri olaraq pandemiyanı da qeyd etmişdim. COVİD-19 pandemiyası ilk dəfə 2019-cu ildə Çində yarandıqdan sonra bu günə qədər bütün dünyaya yayılan, yoluxmalara, bunun nəticəsində milyonlarla insanın ölümünə səbəb olan, bütün ölkələrdə sərtləşdirilmiş karantin rejminin tətbiq edilməsilə işsizliyə gətirib çıxaran, bu və ya digər fəsadlara yol açan amil olmaqda davam edir.

Sərtləşdirilmiş karantin dövründə dövlət tərəfindən işçilərə dəstək həyata keçirilmişdir. İşçilər evdə qalaraq virusdan qorunmaqla yanaşı aylıq məvaciblərini əldə etmiş, bundan əlavə olaraq həmin əmək haqlarına uyğun hesablanan sosial sığorta ayırmaları da dövlət tərəfindən ödənilmişdir. Əsas məqsəd gələcəkdə pensiya ilə bağlı problem yaranmasın deyə hər bir işçinin sosial müdafiəsinin təmin edilməsi olmuşdur. İndiyədək bu proqramın həyata keçirilməsi üçün dövlət büdcəsindən 97,5 milyon manat vəsait xərclənmişdir.

Bundan əlavə olaraq, pandemiyadan zərər çəkmiş mikro və makro sahibkarlar üçün də maliyyə dəstəyi proqramı həyata keçirilmişdir. Proqramın icrası nəticəsində fərdi sahibkarların hərəsi minimum 250 manat, maksimum 5000 manat həcmində maliyyə dəstəyi almışlar. İndiyədək bu proqramdan 106 min nəfərdən çox vergi ödəyicisi sahibkar faydalanmış və bu sahədə dövlət büdcəsindən 63,3 milyon manat vəsait xərclənmişdir [6].

Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaş amilinin dayanması pandemiya dövründə məşğulluğa və sosial rifaha dəstək yönümündə genişmiqyaslı tədbirlərlə bir daha təsdiqini tapmışdır. Dövlətin indiki çətin dövrdə də öz vətəndaşının yanında olduğunu bariz nümunəsi olan bu tədbirlər ilk növbədə dövlət və özəl sektorda muzdla çalışan 1 milyon 640 minədək işçinin iş yerlərinin və əməkhaqqı gəlirlərinin qorunmasına imkan vermişdir [6].

Sosial ödənişlərin davamlılığı təmin edilməklə, əsasən həssas qruplardan olan 2 milyon vətəndaşa sosial təminat növləri (pensiya, təqaüd, müavinət) üzrə ödənişlərin davamlılığı təmin edilmişdir.

600 minədək aztəminatlı işsiz şəxsi əhatə edən birdəfəlik ödəmə proqramına, məşğulluq imkanlarının artırılması üçün 90 minədək şəxsin ödənişli ictimai işlərə cəlb olunmasına, özünüməşğulluq proqramı çərçivəsində minimum 12 min ailənin kiçik təsərrüfatlarının qurulmasına başlanılmışdır.

82 min ailənin 340 minədək üzvü ünvanlı dövlət sosial yardımı ilə, 20 minədək şəxsin işsizlikdən sığorta ödənişi, 100 minədək aztəminatlı ailənin ərzaq yardımı ilə təminatı işləri aparılmaqdadır.

Beləliklə, pandemiya ilə əlaqədar təkcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən dəstək tədbirləri 4,8 milyondan çox vətəndaşı, yəni ölkə əhalisinin 48 faizini əhatə etmişdir.

Pensiya bir sıra hallarda yuxarıda sadaladığımız əhali qrupunun cari və ya gələcək həyatlarında yeganə gəlir mənbəyi kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu
2. Philippe Hoffman. New Beginning: discoveries, facilities, opportunities. MacMillanPress, 2012, s. 39-43
3. Robert Murphy, Henry Holt. The Body Silent. 1987
4. Richard Neely. Barter in the Court. //The New Republic. 1986, s. 14
5. Murat Özdamar. Tüm Yönleriyle Emeklilik. Yaklaşım yayıncılık, 2013, s. 41-43
6. https://qafqazinfo.az/news/detail/pandemiya-dovrunde-sahibkarlara-destek-modeli-nece-qurulub-293908

## PENSİYALAR VƏ ONLARIN AZƏRBAYCANDAKI SON DURUMU

***f.ü.f.d.Abbasova Mətanət***

## XÜLASƏ

Bəzi problemləri aydın şəkildə müşahidə etmək olar. Bu problemlər həm quruluşa, həm də cəmiyyətin bütün üzvlərinə təsir göstərir. Təqaüd, üzləşdiyimiz ən vacib problemlərdən biridir. Bu yazıda təqaüdə çıxmağın ümumi anlayışları, mənbələri, modelləri və pandemiya vəziyyətindəki vəziyyətləri qeyd edilmişdir.

## ПЕНСИЯ И ЕЕ ПОСЛЕДНИЙ СТАТУС В АЗЕРБАЙДЖАНЕ

***Аббасова Матанат***

## АННОТАЦИЯ

Некоторые вещи можно наблюдать четко. Эти вещи влияют как на структуру, так и на всех членов общества. Выход на пенсию - одна из самых важных вещей, с которыми мы сталкиваемся. В этой статье были упомянуты общие концепции выхода на пенсию, их источники, модели и их статус во время пандемии.

## RETIREMENT AND ITS LATEST STATUS IN AZERBAIJAN

***Abbasova Matanat***

## SUMMARY

Some things can be observed clearly. These things affect both the structure and all members of the society. Retirement is one of the most important things that we face. In this article general concepts of retirement, their sources, models and their status during the pandemic have been mentioned.

# AZƏRBAYCAN AİLƏSİNDƏ KİŞİ VƏ QADINLARIN STATUSU: MÜQAYİSƏLİ TƏHLİL

***Cavadova Aygün Elmar qızı,***
***ADMİU II kurs magistrantı***
aygunc avadova90@gmail.com

***Açar sözlər:*** qadın, kişi, cəmiyyət, ailə, gender rolları
***Ключевые слова:*** женский, мужской, общество , семейный, гендерные роли
***Key words:*** woman, man, society, family, gender roles

***Ailədə kişi və qadınların statusu.***

Ailədə və bizi əhatə edən cəmiyyətdə zorakılığın qarşısını almaq üçün ilk öncə bu problemə gender aspektindən nəzər yetirmək lazımdır. Gender rollarının həm ailədə, həm də cəmiyyətdə müəyyənləşməsinin vacibliyi vurğulanmalıdır. Gender yanaşmasında bir neçə anlayış vardır(gender rolları, gender streotipləri, gender statusu, gender identikliyi, gender idiologiyası, gender differensiyası). Hal-hazırda gender streotipləri qadın və kişi haqqında fikirləri formalaşdırır və bu proses fərdin sosiallaşmasından başlayır. Gender stroetipləri fərddə gender rollarını müəyyənləşdirir. Gender dedikdə hər hansı bir cəmiyyətin cinsiyyətinə müvafiq olaraq kişi və qadına verdiyi rollar, eləcə də qadın və kişilər üçün münasib olduğu düşünülən davranışlar, fəaliyyətlər və xüsusiyyətlər başa düşülür [9]. İlk öncə ailədə gender rollarına nəzər salaq və ailədaxili zorakılığın səbəblərini araşdıraq. Ailə cəmiyyətin əsasıdır və ilk olaraq hər şey ailədən başlayır. Ailədə ən çox zorakılığa məruz qalan isə qadındır. Azərbaycan ailəsi mentaliet streotipləri ilə yaşayan ailə olmuşdur və Azərbayacan ailəsində və həmçinin cəmiyyətində "əsl kişi" (yaxşı oğlan) və "əsl qadın" (yaxşı qız) kimi standartlar vardır. Bu standartlar ailədə və cəmiyyətdə qadın və kişi rollarını formalaşdırır. Kişi (maskulin) güc, qüdrət, rasionallıq, enerji, aktiv kimi, qadın isə passivlik, zəriflik, emosiaonalllıq kimi başa düşülür. Ailədə kişi patriarxal quruluşa görə söz sahibidir və hər şey demək olar ki ondan asılıdır. Ata evdə olanda evin-qız gəlini hündürdən danışmaz, uşağa kimi hamı hərəkətinə fikir verər. Odur ki, ata sözü qanundur, onun sözünün üstündən başqa söz ola bilməz [1, s. 50]. Müasir dövrdə də ailədə bir tərəfin (kişinin) sözü keçdiyi ailə münasibətləri qalmaqdadır. Bu isə ailədə bir tərəfi (kişini) dominanat edir və ailədə qadını patriarxat quruluşdan asılı edərək müəyyən mənada zorakılığa məruz qoyur. Ailədə qadına qarşı olan bir sıra tələblər onun psixloji, daha sonra isə fiziki zorakılığa məruz qalmasına şərait yaradır.

Qadına qarşı çoxsaylı tələblər irəli sürülür: təvazökarlıq, tabeçilik və kişilərin qərarları ilə razı olmadıqları hallarda belə sükunətlərini qorumağı bacarmaq.[8.s86] Ailədə qadının zorakılığa məruz qalması həmişə kişilər tərəfindən baş vermir. Anaya hörmət olunan ailələrdə həmin ailədə olan digər bir qadın zorakılığa məhz ana mövqeyində olan qadın tərəfindən qala bilər. Qafqazda qadın öhdəliyinin özəyində, hər şeydən əvvəl ailədə özündən böyük qadına tabeçilik durur və burada ən başlıca vəzifə anaya hörmətdir [8, s. 85] Bu zaman yenədə dominantlıq hökm sürür və belə halada qadın dominant olaraq ailədə digər qadını psixloji zorakılığa məruz qoya bilər. Qaynanalar övladlarını qısqanmamalı, gəlinlərini öz qızları kimik sevməli, səbirli və anlayışlı olmaldırlar "mən yaşadım sən də yaşa" məntiqi ilə hərəkət etməməli bunun əvəzinə gəlinin əmanət olduğunu bilməli və davranışlarını buna görə müəyyənləşdirməldir [3, s. 229]. Ailədə dominantlıq mövqeyi axtarılmamalıdır və münasibətlər qarşılıqlı hörmət əsasında qurulmalıdır.

İnsanları bir-birindən fərqləndirən amillərindən biri yaşadığı cəmiyyətin onda formalaşdırdığı mədəniyyətdir. Hər bir cəmiyyətdə qadın-kişi vəzifələri müəyyən mənada

müəyyən qəliblərdə özünü göstərir. Hər bir cəmiyyətin iş sahələrində özünəməxsus gender rolları üzrə bölgüləri mövcuddur və bu rollar mədəniyyətə görə dəyişir. Bir cəmiyyət üçün kişi işi hesab olunan bir iş, digər cəmiyyət üçün qadın işi hesab oluna bilir. Bu mədəniyyətdən mədəniyyətə dəyişə bilir. Məsələn, bir cəmiyyətdə qadın ev tikir, digərində bu sırf kişi işidir. Bir çox cəmiyyətlərdə qadınlar adətən yemək bişirirlər, lakin cəmiyyətlər də vardır ki, bu kişilərin cavabdehliyindədir [6, s. 73-74]. Hazırda bir çox cəmiyyətlərdə ailədə olan zorakılığı sırf gender vəzifələri ilə qarşılaşdırırlar və güclü qadın obrazına qadının kişi kimi ağır işdə işləməsi və eyni zamanda ev işlərini də görməsi kimi məsələləri əlavə edirlər. Ailədə qadının statusu və rollarında görünən dəyişmə qadından daha çox iş və fədakarlıq tələb edir, hər bir ailədə var olması lazım olan "super qadın" modelindən söz edilməyə başlandı [3, s. 223]. Bu isə qadının həm ailədə, həm də cəmiyyətdə zorakılığa və qüvvə cəhətdən istismarına yol açır. Məsələn, erkən dövrlərdə qadın və kişinin özünəməxsus vəzifə bölgüləri mövcud idi. Qadın kişi kimi ağır iş görmürdü, lakin qadın da kişi kimi iqtisadi və digər formalarda azad idi [6, s. 81]. Hal-hazırda cəmiyyətdə gender bərabərliyi qadının da ağır işlərdə işləməsi kimi başa düşülür. Burada belə bir təzad meydana çıxır-əgər qadında ailə vəzifələrindən savayı bir iş qadınıdırsa və kişi uşaq tərbiyəsi, ev işləri kimi məsələləri təkcə qadının vəzifəsi kimi başa düşüb ona dəstək olmursa bu hal qadına qarşı zorakılığa, eyni zamanda istismarına yol açır. Cəmiyyət feminizm analayışını düzgün formada anlayıb, həyatına daxil etmirsə nəticə olaraq qadın zahirən güclü, öz ayaqları üzərində duran bir qadın kimi görünsə də yenə də zorakılığa məruz qalmış olur. Qadının sosial rolları arasında yer alan həyat yoldaşı dəstəyinin rolu da feminst sosial xidmətin mərkəzində yer alan və alması lazım olan bir roldur [4, s. 243]. Modern dünyada qadın da ailədə iqtisadi cəhətdən azad və öz sözünü deyə bilən bir şəxsə çevrilmişdir. Buna baxmayaraq bir sıra ölkələrin (əsasən Şərq ölkərində) daha az inkişaf etmiş bölgələrində qadın daha çox ev işi görən və assosial həyata məhkum olur. Şəhərlər də isə buna nəzərən qadın da kişi kimi sosial bir varlıq kimi qəbul olunur. Bu ziddiyyət həmin ölkələrdə qadına münasibəti bir mənalı etmir və qadına qarşı aqressiya yaradır və ona qarşı psixoloji, məişət, fiziki, sosial zorakılıqlara yol açır.

***Müqayisəli təhlil***

İnsanın cəmiyyətdə müəyyən rol tutması onun müxtəlif aspektlərdən sağlam olmasına yardım edir. Biz fiziki, psixoloji sağlamlığı bura aid edə bilərik. Qadının sosiallaşmadan təcrid edilməsi onda bir sıra aqressiv psixoloji vəziyyətləri yaradır. Bu psixoloji vəziyyətlər qadının sağlamlığına zərər vurmaqla yanaşı onun tərbiyə etdiyi övladlarına da təsir edir. Müasir dövrdə insanların inkişafı ilə əlaqədar olaraq qadının keçmişdəki rolları dəyişir və bu əks cinsdə və eyni zamanda toplumda da aqressiya yaradır. Bu aqressiya və qəbul edilməmənin mövcud olması gözləniləndir çünki, cəmiyyət cinsiyyətə əsaslanan sosial status və rollardan ibarətdir. Cəmiyyətdə qadın işi və kişi işi kimi ifadələr formalaşmışdır. Bu ifadələr müxtəlif mədəniyyətlərə görə dəyişir. Beləki, Şərq mədəniyyətində qadın işi əsasən daha az fiziki əmək sərf olunan işlərə aid edilir, kişi işi isə əksinə olaraq daha çox fiziki əmək sərf edən işlər hesab olunur. İş həyatında kişilər daha aktivdir, qadınlar isə iş həyatında daha az aktivdirlər. Biznesdəki qadın liderlərin sayının son zamanlarda artmasına baxmayaraq, top-menecment pozisiyalarında qadınların sayı hələ də yetərli deyildir [8, s. 166].

Qadınların iş həyatında aktiv ola bilməməsinin bir sıra səbəbləri vardır. Bu səbəblərə bir neçə amili daxil edə bilərik: ev öhdəlikləri, iş yerində xoşagəlməyən əməllər və təzyiqlər, yeni ailə qurmuş qadınların özəl sektorda iş tapmasının çətinliyi, qızların üstünlük verdikləri təhsil sahələrinin məhdud dairəsi, gecəyə kimi işdə olmaq, işlə bağlı səfər etmək və s. Gender əsaslı çətinliklərin qadınların iş həyatını məhdudlaşdırması aysberqin görünən tərəfidir. Beləki, qadınların işə az cəlb olunması ümumilikdə iqtisadi göstəricilərə təsir edir. Gender əsaslı çətinliklər qadınların özəl sektorda gəlirli və stabil məşğulluq imkanlarını məhdudlaşdırmaqla

milli sosial təminat mexanizmləri, ictimai səhiyyə sistemi və yoxsulluğun azaldılması səyləri üçün gələcəkdə bir sıra çətinliklərin yaranmasına səbəb ola bilər [2, s. 49]. "Kişi işi" və "qadın işi" kimi streotiplər nəinki qadınların iş həyatında çətinlik yaradır, bu streotiplər kişilərin də iş həyatında bir sıra çətinliklər yaratmaqdadır. Kişilərin iş həyatında qarşılaşdığı çətinliklərə bir neçə amili daxil edə bilərik: ailədə kişilərin yeganə pul təminatçısı kimi qəbul edilməsi onların az maaşlı işlərdən imtina etməsinə səbəb olur, yaş və gender kimi amillər. Dünyada kişilərin ailə və iş tarazlığı mövzusunda xüsusilə də İsveçrə də ortaya çıxan "latte ata" tərifi ilə birlikdə, ataların ailələri və uşaqları ilə daha çox vaxt keçirmə istəyi və digər ölkələrdəki kişilərə yaxşı nümunə olması vəziyyəti, mövzunu daha çox gündəmə gətirmişdir [16].

Dövlət statistika komitəsinin gender əsaslı göstəricilərinə əsasən qadınlar və kişilər arasında işsizlik göstəriciləri müxtəlif illərdə qadınların kişilərə nisbətən daha çox işsizliklə qarşılaşdığı göstərilmişdir. 2010- cı ildə qadınların 6,1% kişilərin 4,4% işsiz olmuşdur. 2016-cı ildə də bu göstəricilər dəyişməmişdir. Beləki, qadınların 6,0% kişilərin isə 4,2% işsiz olmuşdur. 2019- cu ildə qadınların 5,7% kişilərin isə 4,0% işsiz olmuşdur [12]. Qadınların işsizlik səviyyəsinin daha çox olması onların təhsilə daha az cəlb edilməsi ilə əlaqədardır. Ali təhsili olan qadınların sayı 37,2% kişilərin isə 62,8% -dir [14]. Beləki, 2019-cu ildə dövlət məşğulluq qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin təhsil səviyyəsinə görə cins üzrə bölgüsünə nəzər saldıqda görmək olar ki, ali təhsil alan qadınların sayı kişilərin sayından azdır. Qadınların iş həyatında aktiv ola bilməməsinin səbəblərindən biri də ailə-ev öhdəlikləridir. Ailədə qadınların vəzifə öhdəlikləri çoxdur və bu öhdəliklərin yaxşı bir şəkildə yerinə yetirilməsi üçün qadınların üzərində basqı vardır. Ailədən dəstək almayan qadınlar rol qarşılaşması halları ilə qarşılaşır və bu halda ailə ilə iş arasında seçim etmək məcburiyyətində qalırlar. Qadınların iş həyatında aktiv olması üçün ailə və hökümət tərəfindən müəyyən tədbirlər görülməlidir. Tarazlığı qurmaqda qadının ala biləcəyi tədbirlər ilə yanaşı hökümətlər də işləyən qadına sosial dəstək təmin etməlidir [5, s. 189].

Qadına göstərilən dəstək problemləri azladacak və qadının eyni zamanda uşaqların sağlamlığı yolunda mühüm addım olacaqdır. Dəstək əvəzinə ailədə şiddət görən qadınların iş performansı aşağı olur və onların iş həyatında aktivlik dairəsi azalır. İş performansının aşağı düşməsini göstərən bir sıra məsələlər vardır. Bunlara işə gec gəlmə, işə fikrin cəmlənə bilinməməsi, işdən tez çıxmaq, tez-tez alınan icazələr, unutqanlıqları aid edə bilərik. Qadın işçilərin iş yerində daha aktiv ola bilməsi üçün yeni siyasət yaradılmalıdır. Şirkət qadının psixoloji dəstək alması üçün onu mütəxəssis qurumlara, vətəndaş cəmiyyəti quruluşlarına yönləndirilə bilər [11, s. 362] Şirkət tərəfindən zorakılığa məruz qalmış işçinin dəstək alması sayəsində şirkətin iş performansı yüksələr və daha aktiv iş kollektivi yaradıla bilər.

Qadınların iş həyatının olması onların iqtisadi müstəqillik qazanmasına şərait yaradır. Ailədə iqtisadi cəhətdən azad olan qadınlar məişət zorakılığı ilə daha az qarşılaşırlar. Müasir zamanda qadının ailədə iqtisadi cəhətdən azad olması vacib məsələlərdən biridir və buna görədə qadınların aktiv şəkildə məşğulluq sahəsinə cəlb edilməsi də günümüzün aktual məsələlərindəndir. Lakin qadının eyni zamanda ev öhdəlikləri ilə yanaşı iş həyatının da olması və ailədən dəstək görməməsi bir növ qadının yenə zorakılıq və çətinlik ilə qarşılaşmasına yol açır. Ailə içindəki rolları ilə iş həyatındakı rolları yerinə yetirmə öhdəliyi peşəkar səviyyədə qadın-kişi fəqləndirməsi, xülasə kişi məşğulluğunun qadın məşğulluğunu müəyyənləşdirməsi və ya cinsiyyətə əsaslanan iş bölümünün hiss olunur səviyyədə olması, işləyən qadın baxımından bu sözdə azadlığının konkret işarələridir [10, s. 143].

Ailədə yoldaşı tərəfindən dəstək görməyən iş qadınlarının daha çox çətinliklə üzləşdiyi görülmüşdür. Qadın rollarına, ümumiyyətlə işləyən qadınlara kişilər tərəfindən baxış aspekti də fərqlidir. Daha gənc kişilər qadınların iş həyatına daha ədalətli yanaşır. Beləki, Evli kişilər ilə

evli olmayan kişilərin sosial cinsiyyət rollarına baxış aspektləri fərqlidir. Evli kişilər evli olmayan kişilərdən daha mühafizəkar fikirlərlə çıxış edirlər və çox zaman məhz bu mühafizəkarlıq nəticəsində evli qadınların iş həyatı daha az aktiv olur. Kişilərin ailə vəziyyətlərinə görə cinsiyyət rolları ilə bağlı təsəvvürləri araşdırıldıqda qadın cinsiyyət rolları baxımından evli kişilərin daha ənənəvi, subay kişinin isə daha ədalətli bir münasibətdə olduqları görünməkdədir [13]. Bir çox dindar ailələrdə də işləyən qadınlara baxış aspekti mühafizəkardır. Dindar ailələrdə qadının işləməsi onun ailə öhdəliklərinin düzgün yerinə yetirə bilməməsi kimi qarşılanır. İşləyən qadın həm yoldaşına, həm də uşaqlarına düzgün vaxt ayıra bilmir kimi fikirlər irəli sürülür. 2006-cı ildə TÜİK-in hazırladığı Ailə Quruluşu Araşdırmasında ütü(84,3%) və yemək( 87,1%) ev işlərinin ümumiyyətlə qadınlar tərəfindən edildiyi aşkar edilmişdir [15]. Dindar ailələrdə ev öhdəlikləri yalnız qadının işi kimi göstərilir və çox zaman onlara dəstək olunmur və dindar ailədə qadın iş həyatını da seçmiş olarsa o ikiqat əziyyət çəkmiş olar.

## ƏDƏBİYYAT

1. Abbas Hüseyn. Azərbaycan ailəsi., Bakı: Elm və təhsil, 2016, 70 s.
2. Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər. 2018. 64 s.
3. Bayer, A. Ailede Yaşanan Anlaşmazlıklar ve Çözüm Önerileri. 2018. 215-234 s.
4. Genç, Y, Solmaz, U, Akalın, H. Erkeğin Başarı Trendinde Kadının Yeri ve Feminist Sosyal Hizmet Kuramı Açısından Değerlendirilmesi. Adam Akademi Sosyal Bilimler Dergisi. 2019. 229-265 s.
5. Hotun Şahin, N. İş-Aile Çatışlması ve Kadın Yaşamı Üzerine Etkileri. 2014. 188-184 s.
6. Kifayət Ağayeva . ABŞ- da gender məsələləri., dərs vəsaiti. Bakı : Elm və təhsil, 2018, 300 s.
7. Kifayət Ağayeva. Etika və gender: sosial- əxlaqi davranışın təhlili. Bakı 2007. 196 s.
8. Kifayət Ağayeva. Qafqazada gender məsələləri., dərs vəsaiti. Bakı: Elm və təhsil, 2017, 436 s.
9. Məişət zorakılığına qarşı müdafiə tədbirləri. Bakı: İSBN, 2014, 76 s.
10. Nurşen Adak. Kadınların ikilemi: İş ve aile yaşamı. 2007. 137-152 s.
11. Sivaslioğlu, F. Ailede şiddet gören çalişan kadinlarin iş performansi. 2020.350-367 s.
12. https://www.stat.gov.az/source/gender/az/qk/004_2.xls
13. https://dergipark.org.tr/tr/pub/tsadergisi/issue/21499/230533
14. https://www.stat.gov.az/source/gender/az/qk/004_5-6.xls
15. https://dergipark.org.tr/tr/pub/eskiyeni/issue/48044/596605
16. https://dergipark.org.tr/tr/pub/opus/issue/42322/522715

# AZƏRBAYCAN AİLƏSİNDƏ KİŞİ VƏ QADINLARIN STATUSU: MÜQAYİSƏLİ TƏHLİL

*Cavadova Aygün*

## XÜLASƏ

Cəmiyyətdə "kişi işi" və "qadın işi" kimi streotiplərin qalması, ailədə işləyən qadına daha çox yükün düşməsi, peşəkar səviyyədə qadın-kişi fərqləndirilməsi kimi məsələlərin mövcud olması nəinki qadın istismarı və zorakılığına yol açır, cəmiyyətin bu streotiplərə əsaslanması cəmiyyətin bütün fərdləri üçün mənfidir. Müasir dövrdə qadın və kişinin iş həyatının eyni haqlara sahib olması onların ailə həyatına da müsbət təsir etmiş olar. Cəmiyyətin əsası olan ailədə rol bölünməsi, evli insanlar arasında mübasibətlərin sağlam şəkildə qurulması həm ailənin sağlam şəkildə olmasını həm də işləyən insanların müvəffəqiyyəti artıracaqdır.

# СТАТУС МУЖЧИНЫ И ЖЕНЩИНЫ В АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬЕ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ

***Джавададова Айгюн***

## АННОТАЦИЯ

Стойкость в обществе стереотипов мужской труд и женский труд», в том числе большая нагрузка. котороя ложится на женщин, работающих в семье, приводит к профессиональной эксплуатации и насилию в отношении к женщинам, а зависимость общества от этих стереотипов оказывает негативное влияние на всех член общества. В современном периоде мужчины и женщины имеют одинаковые права на работу, так как это может положительно повлиять на их семейную жизнь. В семье, которая является основой общества распределение ролей и установление здоровых отношений между женатыми людьми помо со здоровую семью, также повышел успех работающих людей в семье.

# STATUS OF MEN AND WOMEN IN AZERBAIJANI FAMILY: A COMPARATIVE ANALYSIS

***Javadova Aygun***

## SUMMARY

The persistence of stereotypes such as "men's work" and "women's work" in society, the increasing burden on women working in the family, the differentiation of men and women at a professional level not only lead to exploitation and violence against women, but also negative for all individuals. In modern times, the fact that men and women have the same rights in working life can have a positive effect on their family life. The division of roles in the family, which is the basis of society, and the establishment of healthy relationships between married people will increase both the health of the family and the success of working people.

# UŞAQLARIN VƏ YENİYETMƏLƏRİN CİNAYƏTƏ CƏLB OLUNMASINDA AİLƏNİN ROLU

***Fəxriyyə Hüseynova***
***Azərbaycan Universitetinin magistrantı***
***fakhiyya.huseynova@student.au.edu.az***

***Açar sözlər:*** Yetkinlik yaşına çatmayanların cinayəti, ailə, ailə strukturları, xarakter dəyişikliyi, uşaq inkişafı, sosial birlik, emosional bacarıqlar, evlilik, cinayət əməlləri, antisosial davranış
***Ключевые слова:*** Преступность несовершеннолетних, семья, структура семьи, изменение характера, развитие ребенка, социальная сплоченность, эмоциональные навыки, брак, преступные действия, антиобщественное поведение.
***Keywords:*** Juvenile delinquency, family, family structures, character change, child development, social cohesiveness, emotional skills, marriage, criminal acts, antisocial behaviour.

Uşaqların və yeniyetmələrin cinayətə cəlb olunması dedikdə kiçik cinayətlərdən tutmuş ağır cinayətlərə qədər müxtəlif hüquq və sosial normaların pozulması nəzərdə tutulur.Ailə uşağın inkişafı üçün kritik element və uşaqların sonradan cinayətə cəlb olunması üçün müəyyən edici amil kimi görülmüşdür. “Ailə” termini müxtəlif tərifləri daşıyır, çünki ailələr ölçülərinə və tərkib hissələrinə görə çox fərqlidirlər. Uşağın tərbiyə olunduğu ailə tipi uşağın formalaşmasında mühüm rol oynayır, çünki ailələr uşaqların təhlükəsizliyini təmin edir, onların dəyərlərini, bacarıqlarını və cəmiyyətdə rol oynama qabiliyyətini inkişaf etdirir.

Uşaqların və yeniyetmələrn cinayətə cəlb olunmasına təsir edən bir neçə diqqətəlayiq ailə faktoru var. Bunlara valideyn münasibəti, ailə münasibətlərinin zəif olması, fiziki zorakılıq və valideyn məsuliyyətsizliyi daxildir. Yetkinlik yaşına çatmayanların cinayətkarlığına təsir edən qeyri-ailə amilləri də var ki, bunlara yuvenal ədliyyənin uğursuzluğu, yoxsulluq, təhsilin olmaması, narkomaniya və genetik problemlər daxildir.“Yetkinlik yaşına çatmayanların cinayəti” anlayışını müxtəlif nəzəri nöqteyi-nəzərdən başa düşmək olar. Sosioloqlar hesab edirlər ki, “yetkinlik yaşına çatmayanların cinayətləri” kiçik cinayətlərdən tutmuş ağır cinayətlərə qədər müxtəlif hüquqi və sosial normaların pozulmasını əhatə edir [1], kriminoloqlar isə hesab edir ki, “yetkinlik yaşına çatmayanların cinayətləri” 12-20 yaşlı gənclər tərəfindən edilən ictimai səhvi əhatə edir[2].Sosioloqlar antisosial davranışın ya uzun müddətli cinayət başlanğıcı, ya da böyümə prosesinin normal bir hissəsi ola biləcəyini irəli sürürlər [3].

Birləşmiş Millətlər Təşkilatının Yetkinlik yaşına çatmayanlar arasında Cinayətlərin Qarşısının Alınması üzrə Təlimatları antisosial davranışı “yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlıq” və ya gələcək cinayət meyllərinə səbəb ola biləcək davranış kimi təsnif etmir [4].Bunun əvəzinə, bu cür davranış çox vaxt böyümə və yetkinlik prosesinin bir hissəsidir və yetkinliyə keçid zamanı əksər fərdlərdə kortəbii şəkildə yox olur .Birləşmiş Millətlər Təşkilatı qeyd edir ki, gənclərin yeniyetməlik illərində, sonradan karyera cinayətkarlarına çevrilməmişdən əvvəl hansısa xırda cinayət törətmək üçün ümumi meyl var.Eynilə, 2003-cü il Dünya Gənclər Hesabatında da etiraf edilir ki, yeniyetmələr arasında cinayətkarlıq uşaqlıqdan yetkinliyə keçiddə adi bir hadisədir[5].BMT müəyyən edib ki, yetkinlik yaşına çatmayanlar arasında cinayətlər əsasən qrup hadisəsidir, çünki yetkinlik yaşına çatmayanlar arasında törədilən cinayətlərin üçdə ikisi və dörddə üçü dəstələr kimi qruplara daxil olan gənclər tərəfindən törədilir[6].Rusiya Federasiyasında qrup halında yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın yetkin cinayətkarlara nisbətən daha yüksək olduğu aşkar edilmişdir [6].Yetkinlik yaşına çatmayanların

qruplara mənsub olduqları halda cinayət fəaliyyətinə meyli ondan qaynaqlanır ki, gənc həmyaşıdlardan ibarət qruplar iyerarxik təşkilatlanma, yüksək səviyyəli sosial birlik və ümumi davranış qaydalarına əsaslanan davranış kodeksi kimi özünəməxsus xüsusiyyətlərə malikdir [7].Cinayət və ya cinayət davranışı, zorakılıq və aqressiyadan şəxsiyyətlərarası münaqişələrin həllində məqbul və hətta üstünlük verilən üsul kimi istifadə etməyə meylli olan müəyyən qruplar və uşaqların subkulturaları (zorakılıq subkulturaları) tərəfindən törədilir.

Uşaqlar geyim, sığınacaq və yemək kimi əsas ehtiyacları üçün ailəyə güvənirlər və ailələri əsas fiziki təhlükəsizlik hissini təmin edirlər. Onlar həmçinin başqa heç bir yerdə tapa bilməyən ailədən emosional təhlükəsizlik alırlar ki, bu da uşaqların özünə inamla böyüməsinə və özünü tam ifadə edə bilməsinə imkan verir. Uşaqlara müntəzəm ev rejiminin verilməsi onların özlərini təhlükəsiz hiss etmələrinə də kömək edir, çünki onlar müəyyən vaxtlarda yeyəcəklərini, içəcəklərini, çiməcəklərini və rahat yatacaqlarını bilirlər. Uşaqlar üçün təhlükəsizlik onların bacarıq və istedadlarını inkişaf etdirmələri, fiziki böyümələri və idrak və emosional inkişafları üçün bir reseptdir. Uşaqlar və ailə üzvləri arasında etimadın qurulmasında təhlükəsizlik də vacibdir. Uşaqlar ətrafdakılara etibar edə bildiklərini biləndə özlərini daha rahat və təhlükəsiz hiss edirlər.Ailə anlayışı müxtəlif təriflər aldı, çünki ailələr ölçülərinə və tərkib hissələrinə görə çox fərqlidirlər. Bu müxtəlif ailə növləri öz ailə üzvləri üçün fərqli şeylər həyata keçirir .Əhali İstinad Bürosu ailəni birgə doğuş, evlilik, yaşayış yeri, yaxın emosional bağlılıq və ya övladlığa götürmə yolu ilə bir yerdə saxlanılan insanlar qrupu kimi müəyyən etdiyi halda, [8] Desai üçün isə ailə qan, nikah, övladlığa götürmə və ya razılıq əsasında birləşən iki və ya daha çox şəxsin vahidi deməkdir [9]. Ailələrə eyni zamanda nəsil, qəbilə və ya qəbilənin bir hissəsi kimi ortaq əcdadları olan insanlar da daxil ola bilər. UNESCO geniş şəkildə ailəni sosial reallıq kimi müəyyən edir, baxmayaraq ki, qohumluq və üzvləri ortaq bir evi bölüşmək məcburiyyətində deyillər [10]. Dünyada rast gəlinən ailə tiplərində bir sıra fərqlər olsa da, onların bəzi ortaq cəhətləri var. Məsələn, ailələr cəmiyyətdə bir çox mühüm funksiyaları yerinə yetirir, o cümlədən sosiallaşma, iqtisadi dəstək, həssas üzvlərin tərbiyəsi, qorunması və saxlanması. Ümumiyyətlə, mədəniyyətlər arasındakı fərqlərə baxmayaraq, ailələr iqtisadi özünü təmin etmək, ailə şəraitinin yaxşılaşdırılması və yaşamaq kimi üç əsas məqsədə xidmət edir.Ənənəvi ailə anlayışı yaxınlıq və məhəbbət, təhlükəsizlik, uşaq dünyaya gətirmə və uşaq tərbiyəsi kimi məsuliyyət və funksiyaları ehtiva edir. Ənənəvi ailə vəzifələrinə rolların təyin edilməsi, ailə üzvləri arasında sosial qarşılıqlı əlaqənin təmin edilməsi, fiziki qayğının təmin edilməsi, resursların bölüşdürülməsi, mənəviyyat və motivasiyanın saxlanması, cəmiyyət ilə əlaqə daxildir [11].Uşağın inkişafının emosional, intellektual, sosial və fiziki tərəfləri var və bu inkişafın təməlini ailə təşkil edir. Ailə quruluşu uşağın dəyərlərini və bacarıqlarını inkişaf etdirərək onun təhlükəsizliyinin formalaşmasında mühüm rol oynayır [12]

Uşaqlara norma və dəyərlərin aşılanmasında ailə mühüm rol oynayır. Bunlara doğru və yanlışı anlamaq, hörmət, ədalət, şəfqət və məsuliyyət daxildir. Uşaqlar bu dəyərləri valideynlərinin davranışlarını müşahidə edərək, təqlid edərək və valideynlər tərəfindən öyrədilməklə öyrənirlər. Beləliklə, uşaqlar həm bu dəyərlərin əhəmiyyətini, həm də onlara əməl etməməyin nəticələrini öyrənirlər. Uşaqlar doğulduğu andan etibarən koqnitiv, emosional, qarşılıqlı əlaqə və dil bacarıqlarını öyrənməyə başlayırlar. Bu bacarıqlar zamanla əldə edilir və insanı formalaşdırdığına və potensialını reallaşdırmaq qabiliyyətini inkişaf etdirdiyinə görə çox vacibdir [13]. Məsələn, emosional bacarıqlar uşaqlar üçün vacibdir, çünki onlar onlara həyatın çətinliklərinin öhdəsindən necə gəlməyi və başqalarına nə vaxt rəğbət və şəfqət göstərməyi öyrədirlər. Emosional bacarıqları olmayan uşaqlar böyüdükdə dağıdıcı seçimlər etməyə meyllidirlər. Məsələn, emosional bacarıqları aşağı olan uşaqlar cinayətkar fəaliyyətə meyllidirlər [14].

Wardle görə, uşaqlar həyatda uğur və xoşbəxtlik üçün ən yaxşı hazırlıq və fürsətlərdən istifadə edə bilmələri üçün anaları və ataları arasında sabit bir evliliyə ehtiyac duyurlar[15]. Evlilik uşaqların rifahına güclü, müsbət və ardıcıl təsir göstərir və onların xoşbəxtliyinə, sağlamlığına və təhlükəsizliyinə töhfə verməkdə və beləliklə, onlara optimal həyat imkanları təmin etməkdə mühüm rol oynayırHafen evliliyin müsbət təsirini uşaqların rifahının müəyyən edilməsində ən mühüm səbəb amili kimi hesab edir. Valideynləri evli olan uşaqlar yeniyetməlik və uşaqlıq dövrü ilə bağlı bəzi "böyümə fəlakətlərindən" qaçmaq üçün daha yaxşı vəziyyətdədirlər. Məsələn, tək valideynli ailələrdə böyüyən uşaqların təhsil və təcrübə baxımından daha yüksək risk altında olduğu aşkar edilmişdir. Bildirilir ki, xüsusilə uşaqların atalarından ayrılması yeniyetməlik dövründə hamiləlik, cinayət, uşaq cinsi istismarı, məişət zorakılığı kimi bir çox sosial problemlərin əsas səbəbidir [16]. ABŞ Ədliyyə Departamentinin Yetkinlik yaşına çatmayanların Ədliyyəsi və Cinayətkarlığın Qarşısının Alınması Ofisi tərəfindən təqdim edilən Yetkinlik yaşına çatmayan Cinayətkarlar və Qurbanlar üzrə Milli Hesabatda müəyyən edilib ki, hər iki valideynlə yaşayan uşaqların cinsi zorakılıq və narkotik istifadəsi də daxil olmaqla cinayət əməllərinə daha az məruz qalırlar]17]Hesabatda müəyyən edilib ki, hər iki valideynlə yaşayan yeniyetmələrin yalnız 5%-i cinayət əməlləri törədib, digər ailə quruluşlarında yaşayan yeniyetmələrin 12%-i. 2010-cu ildə analoji hesabata görə, hüquq pozuntularına görə saxlanılan gənclərin 45%-i tək valideynli, 30%-i isə iki valideynli ailələrdəndir [18]. Buna görə də, hər iki valideynlə uşaq böyütmək emosional sağlamlığın təşviqində və universitetə davamiyyət də daxil olmaqla, akademik müvəffəqiyyət ehtimalının artırılmasında faydalı olduğunu sübut etdi. Nəticədə, 1970-ci illərdən bəri boşanmaların və ailələrin dağılmasının nəzərə çarpacaq dərəcədə artması ailədə əhəmiyyətli qeyri-sabitliyə və uşaqlara valideynlərin investisiyalarının azalmasına səbəb olmuşdur. Bu, uşaqların xarakterinin inkişafına mənfi təsir göstərmiş və onların cinayət əməllərinə daha çox meylli olmasına səbəb olmuşdur.

Valideynlərin boşanması, yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın ardıcıl proqnozlaşdırıcısı və uşaqlıq və yeniyetməlik dövründə cinayətin inkişafı üçün valideynlə əlaqəli əsas risk faktoru kimi qeyd edilmişdir ki, bu da cinayət məsuliyyətinin artmasına və antisosial davranışa səbəb olur. Valideynlərin boşanması nəticəsində yaranan emosional sıxıntı da daxil olmaqla, intizam və davranış problemləri bir çox nəzəri baxımdan tədqiq edilmişdir. Tək valideynli uşaqlar iki valideynli ailələrin uşaqlarına nisbətən cinsi zorakılığa daha çox məruz qalır.İki valideynli ailədən tək valideynli ailəyə keçid bir çox hallarda ailədə yalnız bir çörək pulu qazananın olması səbəbindən iqtisadi resursların itirilməsi ilə nəticələnir, nəticədə uşaq himayədarlığı azalır. Ayrı-ayrı ailələrdə yaşayan atalar da övladları ilə daha az ünsiyyət qurmağa meyllidirlər, bu da öhdəlik və inamı sarsıdır [19]. Amatoya görə, boşanmadan sonrakı mənfi nəticələr, məsələn, uşaqların başqa məktəblərə köçürülməsi də iqtisadi çətinliklərə səbəb ola bilər. Bu cür pozuntuların yoxsulluğu və depressiyanı artırdığı, nəticədə yüksək cinayət nisbətlərinə səbəb olan səmərəsiz valideynlik strategiyaları ilə nəticələndiyi aşkar edilmişdir[20]. Boşanma və hüquq pozuntusu arasındakı əlaqə Capaldi və Patterson tərəfindən mübahisə edilmişdir, lakin onlar cinayətin bəzi anaların antisosial şəxsiyyətlərə malik olması səbəbindən ola biləcəyinə inanırlar[21].Sarantakos tərəfindən cinayət törədən 74 uşaq üzərində aparılan araşdırma göstərdi ki, 74% nikahsız amma birgə yaşayan ailələrdən, yalnız 26% ənənnəvi ailələrdəndir. Bundan əlavə, nikahsız amma birgə yaşayan ailələrin uşaqlarının 49%-i üç və ya daha çox cinayət törətdiyi halda, ənənəvi ailələrin uşaqlarının yalnız 21%-i iki və ya daha çox cinayət törədir[22]Bu araşdırmalar açıq şəkildə göstərir ki, qeyri-sabitlik, məişət zorakılığı, düşmən valideyn münasibəti, valideyn maraqsızlığı uşaqların və yeniyetmələrin cinayətət cəlb edilməsinə daha çox təşviq edir.Amerika Davranış Nəzəriyyəsinin atası hesab edilən Con

Uotsona görə, uşaqlar stimul-cavab münasibətlərinə nəzarət etməklə formalaşa bilən passiv varlıqlardır[23].

"Məsuliyyət" Mitton və Harris tərəfindən seçim etmək və bu seçimlərin nəticələrini qəbul etmək qabiliyyəti kimi müəyyən edilmişdir, ona görə də uşaqların müsbət inkişafı uşaqlara öz hərəkətləri üçün tam məsuliyyəti qəbul etməyi öyrətməlidir[24].Bu, uşaqların tapşırıqlarda uğur qazanmalarına kömək etmək üçün valideynlərinin rəhbərliyinə ehtiyacı var. Whitebread və Wingham-a görə, tapşırıqlarda vərdiş edilmiş uğur uşaqları həyatda uğurlu edir. Əksinə, uyğun olmayan ev şəraiti və qeyri-sabit ailə mənfi münasibətlərə və vərdiş edilmiş vəzifələrdə uğursuzluğa səbəb ola bilər ki, buda uşaqları cinayətkarlığa sövq edir[25]. Uwo hesab edir ki, uşaqların düzgün tərbiyə edilməsi valideynlərin əsas vəzifəsidir, çünki uşaqlara verilən dəyərlər və onların valideynlərindən aldıqları təhsilin növü onların gələcək həyat tərzini böyük ölçüdə müəyyən edir [26]. Valideynlər uşaqlarına müəyyən davranış münasibətləri formalaşdırmağa kömək edir və bir dəfə qurulduqdan sonra bu münasibətləri dəyişdirmək çətindir. Övladlarına antisosial münasibət və davranışlar aşılayan valideynlər bu cür davranışların yetkinlik yaşına qədər də davam etməsini təşviq edirlər.Uşaqlar üçün ailə dostluğun, sevginin və təhlükəsizliyin əsas mənbəyidir. Valideynlər və onların uşaqları arasındakı münasibətlərin xarakteri uşağın cinayətkar olub-olmadığını müəyyən etməyə kömək edir. Müsbət ailə mühiti sağlam şəxsiyyətin inkişafına səbəb olduğu üçün sevən, dəstəkləyən və başa düşən evlər, çox güman ki, adaptiv və konstruktiv sosial davranışı təşviq edəcək [27]. Əksinə, valideyn sevgisinin və dəstəyinin olmaması və ya daha ciddi hallarda valideynlərin laqeydliyi, düşmənçiliyi və ya rədd edilməsi uşaqları emosional olaraq etibarsız hiss edir və şəxsiyyətin zəif inkişafına gətirib çıxarır, beləliklə, antisosial və ya cinayətkar davranışı təşviq edir. Valideynlərin mənfi münasibətinə çox vaxt danlamaq və sevginin olmaması daxildir. Digər mənfi münasibət avtoritar valideynlikdir, burada həddindən artıq nəzarət və sərt əmrlərdən istifadə uşaqları fikirlərini ifadə etmək azadlığından məhrum edir. İfadə azadlığının boğulması və sevginin olmaması uşaqları valideynlərinə qarşı üsyan etməyə, ailələrindən qaçmağa və nəticədə cinayətkar həyata qədəm qoymağa sövq edir [28]. Məlumatı gizlətmək və ya suallara cavab verməmək kimi mənfi valideyn münasibətlərinin uşaqlarda emosional və sosial etibarsızlıq hissləri oyadırdığı sübut edilmişdir. Bu növ etibarsızlıq psixi problemləri inkişaf etdirən uşaqlarda degenerasiya və ya cinayətkar davranışa səbəb ola bilər.

Shields və Clark, zəif aile münasibəti uşaqların və yeniyetmələrin cinayətə cəlb olunmasına səbəb olduğunu bildirmişdir [29].Oxşar şəkildə Sarantakos, uşaqların və yeniyetmələrin cinayətə cəlb olunmasının 73'%-nin ailə münasibətlərinin zəif olduğu olan ailələrdən, cinayətə cəlb olunanların ise sadece 27%-nin ailə münasibətlərinin güclü olan ailələrdən gəldiyini sübüt edi. Ayrıca, cinayətə cəlb olunmayan uşaq və yeniyetmələrin 91%-i ailə münasibətlərinin güclü olan ailələrdən gələrkən, cinayətə cəlb olunanların yalnız 9%-inin ailə münasibətlərinin zəif olduğu olan ailələrdən gəldiyini bildirdi[22].Valideynlər arasında və onların övladlarına qarşı zorakılıq səviyyəsi uşaqların və yeniyetmələrin cinayətə cəlb olunmasında da təsir edə bilər. Sarantakos aşkar etdi ki, uşaq cinayətkarlarının 78%-i fiziki zorakılıq və uşaq istismarı ilə üzləşmiş ailələrdəndir, uşaq cinayətkarlarının isə yalnız 22%-i zorakılıq olmayan evlərdən gəlib. Qeyri-cinayətkarların fiziki və ya emosional zorakılığa məruz qalanlardan daha çox zorakılıq olmayan evlərdən gəlmə ehtimalı daha yüksəkdir[22].Hearne görə, "laqeyd valideynlik" valideynlərin uşaqlarından emosional olaraq uzaq olduqları, az qayğı və mehribanlıq göstərmələri, az nəzarət etmələri, bilərəkdən onlardan qaçmaları, heç vaxt məktəb fəaliyyətlərinə getməmələri kimi göstərilir[30]. Sarantakos iddia edir ki, cinayətə cəlb olunan uşaq və yeniyetmələr qayğı göstərən ailələrdən daha çox laqeyd ailələrdən gəlir.Müəyyən edilmişdir ki, cinayət törədənlərin təxminən üçdə ikisi uşaqların valideynlərinin onlara əhəmiyyət vermədiyini hiss etdiyi

ailələrdən, cinayət törədənlərin isə yalnız üçdə biri valideynlərinin onlara qayğı göstərdiyi ailələrdəndir. Eynilə, cinayət törətməyənlərin 86%-i uşaqlarına "qayğı verən" valideynləri olan ailələrdən gəlib [22].

Yetkinlik yaşına çatmayanların cinayət törətməsinin əsas səbəbi təhsil imkanlarının olmamasıdır [31]. Uşaqların təhsilə çıxışına mane olan amillərə məktəb xərcləri, məktəbdən uzaqlıq, kobud və ya qeyri-peşəkar müəllimlər və keyfiyyətsiz tədris daxildir. Təhsilin olmaması uşaqlarda acizliyə və tənbəlliyə gətirib çıxarır, onları cinayət əməllərinə sövq edir.Narkotiklərdən istifadənin yetkinlik yaşına çatmayanlar arasında cinayət törətməsində əhəmiyyətli rol oynadığı aşkar edilmişdir, çünki narkotiklərin uşaqlara çoxlu mənfi təsirləri var. Məsələn, müntəzəm olaraq narkotik istifadə edən uşaqlar öyrənmə çətinliyinə, həmyaşıdları və ailə münasibətlərinin pisləşməsinə, sağlamlıq problemləri ilə üzləşirlər [32]. Narkotik istifadəsi həm də kompulsiv iqtisadi davranışa gətirib çıxara bilər ki, bu da bəzi narkotik istifadəçilərinin öz asılılığını dəstəkləmək üçün zorakılığa əl atdığı bir vəziyyətdir. Narkotiklər həmçinin idrak qabiliyyətini azalda bilər, bununla da istifadəçiləri yanlış ünsiyyətə məruz qoyur və onların kompromis və rasional dialoq imkanlarını məhdudlaşdırır/Bəzi uşaqlar anormaldüşüncə, qavrayış və başqaları ilə münasibətlərlə əlaqəli olan antisosial şəxsiyyət pozğunluğu ilə doğulur. Bu vəziyyət cinayətkar davranışla sıx bağlıdır, belə ki, bu vəziyyətdən əziyyət çəkən insanlar düzgün və yanlışa əhəmiyyət vermirlər və tez-tez narkomaniyaya və zorakılığa əl atırlar ki, bu da onların yetkinlik yaşına çatmayan cinayətkarlar olmasına səbəb olur [33].

Bu məqalə yetkinlik yaşına çatmayanların cinayətlərinin törədilməsində ailənin rolunu qiymətləndirməyə çalışır. Ailə və yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlıq anlayışları araşdırıldıqdan sonra belə nəticəyə gəlmək olar ki, uşağın və yeniyetmənin cinayət etməsinin və ya antisosial hərəkətlərə cəlb olunmasının müəyyən edilməsində ailə mühüm rola malikdir. Ailələr uşaqların həyatında mərkəzi yer tutduqlarına görə, onlar uşaqların dəyərlərinin, bacarıqlarının və mənlik hisslərinin inkişafında mühüm rol oynayırlar. Beləliklə, uşaqların inkişafı onların gələcək xarakterinə və onların hüquq pozuntularına yol vermə ehtimalına böyük təsir göstərir.

**Məqalənin elmi yeniliyi:** Məqalədə cinayətə cəlb olunmuş uşaq və yeniyetmələrin cinayətində ailənin rolunun əhəmiyyəti, uşaqlara və yeniyetmələrə göstərdiyi təsirlər və amillər qeyd olunmuşdur.Bunlar məqalənin elmi yenilikləri hesab olunmalıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi:** Məqalədən sosial istiqamətdə təhsil alan gənclər, yaxud bu sahədə çalışanlar, araşdırma aparanlar istifadə edə bilərlər.

**Nəticə** etibarilə demək olar ki, araşdırmalara əsasən uşaqların və yeniyetmələrin cinayətə cəlb olunması ildən-ilə artan sosial bir problemdir. Bu problemin aradan qaldırılması üçün ailənin və cəmiyyətin rolunu mütləq qeyd etmək lazımdır.

## ƏDƏBİYYAT

1. David Zembrosk Sociological Theories of Crime, 2011
2. Zipporah Wangeci Factors Influencing Juvenile Delinquency at Eldoret Juvenile, 2017,
3. Anthony Petrosino, James Derzon, Julia Lavenberg The role of the family in Crime and Delinquency: evidence from Prior Quantitative reviews, 2011
4. United Nations General Assembly Guidelines for the Prevention of Juvenile Delinquency (Riyadh Guidelines), 1990
5. World Youth Report Juvenile Delinquency (2003) http://www.un.org/esa/socdev/unyin/documents/ch07.pdf > accessed 3 August 2018

6. UN Fact Sheet on Juvenile Justice (undated) http://www.un.org/esa/socdev/unyin/documents/wyr11/FactSheetonYouthandJuvenileJustice.pdf, accessed 3 August 2018
7. Felson, R B., et al. "The Subculture of Violence and Delinquency: Individual vs. School Context Effects." (1994) 73(1) Social Forces 155–173
8. Citation: Enrique, J., Howk, H., & Huitt, W. 'An overview of family development' (2007) Educational Psychology Interactive. Valdosta, GA: Valdosta State University
9. Desai (1994) cited in - Rahul Sharma The Family and Family Structure Classification Redefined for the Current Times, 2013, https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC4649868/, accessed 29 August, 2018
10. UNESCO The changing family in Asia: Bangladesh, India, Japan, Philippines and Thailand, 1992 18 Office for National Statistics Families, 2005
11. Luke LaPort Emotional Security and Attitudes In Children, 2006
12. Gail E. Joseph Building Positive Relationships with Young Children http://csefel.vanderbilt.edu/modules/module1/handout5.pdf, accessed 29 August, 2018
13. Kruttschnitt, Candace, et al. "Abuse-Resistant Youth: Some Factors That May Inhibit Violent Criminal Behavior." Social Forces, 1987 (66)2 accessed 29 August, 2018
14. Lynn D. Wardle 'Children and the Future Of Marriage' (2004) 17 REGENT UNIVERSITY LAW REVIEW 280 https://www.regent.edu/acad/schlaw/student_life/studentorgs/lawreview/docs/issues/v17n2/Wardle.pdf; accessed 31 Aug 2018
15. Linda J. Waite, Does Marriage Matter? 32 D EMOGRAPHY 483, 497-98 (1995), available at http://www.jstor.org/view/00703370/di973888/97p00046/0.
16. Bruce C. Hafen, Bridle Your Passions: How Modern Law Can Protect the Family, 63 V ITAL S PEECHES, No. 20, at 5 (Aug. 1, 1997).
17. Howard N. Snyder & Melissa Sickmund Juvenile Offenders and Victims: 2006 National Report https://files.eric.ed.gov/fulltext/ED495786.pdf>; accessed 1 September 2018
18. Jennifer Flood Eastin Impact Of Absent Father-Figures On Male Subjects And The Correlation To Juvenile Delinquency: Findings And Implications, 2003 <
19. Steve G.A. van de Weijer et al 'The Effects of Parental Divorce on the Intergenerational Transmission of Crime' (2015) Societies 89–108
20. Amato, P.R. The consequences of divorce for adults and children., J. Marriage Fam. 2000, 62, 1269–1287.
21. Capaldi, D.M.; Patterson, G.R. Relation of parental transitions to boy's adjustment problems: I. A linear hypothesis. II. Mothers at risk for transitions and unskilled parenting. Dev. Psychol. 1991, 27, 489–504.
22. Sotirios Sarantakos 'Cohabitation, Marriage and Delinquency: The Significance of Family Environment' (1997) 30 The Australian and New Zealand Journal of Criminology
23. 53 John B. Watson 'Psychology as the Behaviorist Views it' (1913) 20 Psychological Review 158-177
24. Betty L Mitton and Dale B. Harris."The Development of Responsibility in Children.", (1954)54 [5] The Elementary School Journal 268–277, www.jstor.org/stable/998563, accessed 3 September 2018.
25. 56 David Whitebread & Sue Bingham: Habit Formation and Learning in Young Children, 2013, https://mascdn.azureedge.net/cms/the-money-advice-service-habit-formation-and-learning-in-young-childrenmay2013.pdf, [3 September 2018] David Zembrosk Sociological Theories of Crime, 2011

26. Uwo, Asukwo and Ekuri, Parenting and Responsibility: Holding Parents Accountable for Children's Antisocial Practices (2008) 24[1] J. Hum. Ecol. 51 – 57, http://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.577.2263&rep=rep1&type=pdf , accessed 3 September 2018
27. Sotirios Sarantakos Cohabitation, 'Marriage and Delinquency: The Significance of Family Environment' (1997) 30 The Australian and New Zealand Journal of Criminology http://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.907.4399&rep=rep1&type=pdf , accessed 1 Sept. 2018
28. Alok Kumar ;Family Environment and Juvenile Delinquency' (2015) 1(2
29. 4Glenn Shields & Richard D. Clark 'Family Correlates of Delinquency: Cohesion And Adaptability' (1995) 22(2) The Journal of Sociology & Social Welfare < https://scholarworks.wmich.edu/cgi/viewcontent.cgi?referer=https://www.google.com/& httpsredir=1&article=22
30. Brittany N. Hearne The Effect of Parenting Styles and Depressive Symptoms on Young Adult's Educational Attainment, 2015
31. Sitati Lenah Nanjala Analysis Of The Factors Leading To Juvenile Delinquency: The Case Of Murang'a Children's Remand Home, 2008
32. 3Michael A. Powell 'A Comprehensive Analysis of the Drug-Crime Relationship' 2011
33. Amanda Tufts Born to be an offender? Antisocial personality disorder and its implications on juvenile transfer to adult court in federal proceedings (2013) 71 [1]

## UŞAQLARIN VƏ YENİYETMƏLƏRİN CİNAYƏTƏ CƏLB OLUNMASINDA AİLƏNİN ROLU

***Fəxriyyə Hüseynova***

Ailə uşağın inkişafı üçün kritik element və uşaqların sonradan cinayətə cəlb olunması üçün müəyyənedici amil kimi görülmüşdür. Bu məqalə ailə ilə əlaqəli müxtəlif faktorlar və cinayət arasındakı əlaqəni araşdırmağa yönəlib. Eyni zamanda bu amillərin "yetkinlik yaşına çatmayanlar arasında cinayət törətməsi"nin törədicisi kimi çıxış edə biləcəyini və ya bunun ailə ilə digər xarici amillərin qarşılıqlı təsirindən qaynaqlandığını müəyyən etməyə çalışır.

## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ БУЛЛИНГА СРЕДИ ШКОЛЬНИКОВ

***Фахрия Гусейнова***

### АННОТАЦИЯ

Цель данной статьи заключается в оценке роли семьи в преступности несовершеннолетних. Изучив понятие преступности среди семьи и правонарушителей, можно сделать вывод, что семья играет важную роль в определении того, вовлечен ли ребенок или подросток в преступление или антиобщественное поведение. Поскольку семьи занимают центральное место в жизни детей, они играют важную роль в развитии детских ценностей, способностей и самооценки. Таким образом, развитие детей оказывает

большое влияние на их будущий характер и вероятность совершения ими правонарушений.

## THE ROLE OF FAMILY IN DEALING WITH JUVENILE DELINQUENCY

***Fakhriyya Huseynova***

### SUMMARY

This paper seeks to assess the role of the family in juvenile delinquency. After examining the concept of crime among the family and delinquents, it can be concluded that the family has an important role in determining whether a child or adolescent is involved in crime or antisocial behavior. Because families are central to children's lives, they play an important role in the development of children's values, abilities, and self-esteem. Thus, the development of children has a great impact on their future character and the likelihood of them committing offenses.

# SOSİAL DÖVLƏT, ONUN MODELLƏRİ, PRİORİTETLƏRİ VƏ ƏLAMƏTLƏRİ

***Hacıyev Elxan Hacı oğlu***
***BDU-nun II kurs magistrantı***
***Haciyevelxan.515@gmail.com***

**Açar sözlər:** sosial siyasət, sosial dövlət modeli, sosial prioritet,
**Keywords**: social policy, model of social state, social priority,
**Ключевые слова:** социальная политика, модель социального государства, социальная приоритет,

Əminliklə demək olar ki, müasir dövrümüzdə sosial dövlət modeli dövlət quruculuğu sahəsində insanlar tərəfindən kəşf edilən ən uğurlu dövlət modellərindən biridir. Məhz bu dövlət modeli humanist ümumbəşəri dəyərlərin həyata keçirilməsi və cəmiyyətin yüksək rifahını təmin etmək üçün ən məqsədəuyğun model hesab edilir.

Müasir elmi ədəbiyyatda sosial dövlətin müxtəlif modellərinə rast gəlmək olar

**1) Liberal tipli sosial dövlət modeli** – bu dövlət modeli əhalinin minimum gəlirinin, kifayət qədər yüksək əmək pensiyasının, tibbi sığortanın, təhsilin və sosial xidmətlərin təminatçısı olan dövlət modelidir. Lakin bu sadalanan xidmətlər hər kəs üçün keçərli deyil. Liberal dövlət sosial təminat və sosial dəstək təmin edən ölkədir. Bu cür dövlət sadalanan xidmətləri yalnız əhalinin sosial cəhətdən zəif və köməyə ehtiyacı olan hissəsi üçün təmin edir. Bu cür dövlət modelində diqqət daha çox təmənnasız dəstəyə yox, şəxsin fərdi iqtisadi azadlığına və şərəf və ləyaqətinin qorunmasına edilir. Bu dövlət modelinin tərəfdarlarının fikrincə yalnız liberal sosial siyasət cəmiyyətin sabit inkişafına yol aça bilər.

Liberal tipli sosial dövlət modelini tətbiq edən bəzi ölkələr . Avstraliya, Kanada, İsveçrə, Yaponiya

**2) Konservativ tipli sosial dövlət modeli** – bu modelin əsasında mühafizəkarlıq ideyaları dayanır. Bu cür sosial dövlət modelinin mərkəzində balanslı və sabit siyasət apararaq vətəndaşları tədricən yüksək rifah və iqtisadi sabitliyə çıxartmaq dayanır.

Konservativ tipli sosial dövlət modelini tətbiq edən ölkələr. ABŞ, Böyük Britaniya

**3) Korporativ tipli sosial dövlət modeli** – Bu cür dövlət modeli öz vətəndaşlarının rifahına görə məsuliyyəti öz üzərinə götürür, lakin eyni zamanda bu məsuliyyətin əhəmiyyətli bir hissəsini özəl sektorun hesabına verir. Bu yolla dövlət sosial proqramların həyata keçirilməsində özəl sektorun yaxından iştirakını təmin edir, və nəticədə özəl müəssisələr və təşkilatlar öz işçilərinin tibbi siğorta, sosial xərclər və pensiya təminatı məsələlərinin xərclərini öz üzərinə götürür. Bu model artıq onilliklərlə Avstya, Belçika, Almaniya, İtaliya, İrlandiya, Fransa və Niderlandda tətbiq olunur.

**4) Sosial dövlətin sosial demokratik tipi** – Bu tip dövlət modelində vətəndaşlar nəinki maddi ehtiyaclarını qarşılamaq, həmçinin mənəvi həyatlarının da sabitliyini təmin etmək üçün bərabər imkanlara malikdirlər. Bu tip sosial siyasət yeridən dövlət vətəndaşlarının bütün vətəndaş, siyasi, iqtisadi, sosial hüquqlarını və həyat imkanlarını təmin edir. Bu tip dövlət modelində xalq iqtisadiyyat üçün yox, iqtisadiyyat xalq üçün fəaliyyət göstərir. Həmçinin burada dövlətin sosial siyasəti xidmət və hakimiyyətin mərhəməti deyil, onun vəzifəsi sayılır. Məhz bu cür sosial dövlət modeli Danimarka, Norveç, İsveç kimi Skandinaviya ölkələrində uğurla həyata keçirilir . Əminliklə demək olar ki, Azərbaycan respublikasının yeritdiyi sosial siyasət də məhz bu modelə uyğunlaşır.

Konstitusiyamızın bəzi maddələrinə nəzər yetirdikdə bunu daha aydın görmək mümkündür.

M a d d ə 1 . **Hakimiyyətin mənbəyi**

I. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

M a d d ə 2 . **Xalqın suverenliyi**

I. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

M a d d ə 12 . **Dövlətin ali məqsədi**

**I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.**

M a d d ə 15 . **İqtisadi inkişaf və dövlət**

I. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir.

M a d d ə 16 . **Sosial inkişaf və dövlət**

**I. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.**

M a d d ə 17 . **Ailə, uşaqlar və dövlət**

I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. (2)

Bu gün tam əminliklə demək olar ki, Azərbaycanda əhalinin sosial müdafiəsi lazımi səviyyədə təmin edilir, bu məsələlər daim diqqətdə saxlanılır. Azərbaycanda genişmiqyaslı sosial siyasət aparılır. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son illər ölkəmizdə görülən işlərin əsas məqsədi Azərbaycan vətəndaşının rifah halını yüksəltmək, işsizliyi, yoxsulluğu aradan qaldırmaqdır. (1)

**Sosial dövlətin əsas prioritetləri**

- Maddi bərabərsizliyin səviyyəsinin azaldılması,
- Əməyin, insanların həyatının və sağlamlığının qorunması, minimum əmək haqqının zəmanəti
- Mənzil-kommunal təsərrüfatının keyfiyyətinin artırılması
- Yoxsulluğun aradan qaldırılması
- Sosial sığorta sisteminin səmərəliliyinin və etibarlılığının artırılması
- Sosial xidmətlər şəbəkəsinin artırılması
- Keyfiyyətli və yüksək səmərəli əməyə motivasiya mexanizmlərinin inkişafı
- Yeni peşəkar standartlar bazasında təhsil sisteminin inkişafı
- Dövlət pensiyalarının, müavinətlərin və digər formaların artırılması

**Müasir sosial dövlət modelinin əsas əlamətləri**

Sosial dövlət modelinin bir çox əlamətlərini misal göstərmək olar. Lakin elmdə hələ də, həqiqi tam sosial dövlətin dəqiq xüsusiyyətlərinin göstəriciləri təyin olunmayıb. Lakin bir çox araşdırmalara nəzər yetirsək görərik ki, bir neçə göstəriciləri sosial dövlətin müəyyən xüsusiyyətləri kimi misal göstərmək olar. Buna istinad olaraq demək olar ki, sosial dövlət o dövlətdir ki:

- ən yüksək dəyəri insan, onun həyatı və ləyaqətidir. Əksər hallarda bu əlamət konstitusiya ilə bərkidilir
- daxili və xarici siyasət ədalətli və dürüst yaşayan hər bir kəsin hüquq, azadlıq, və qanuni maraqları üçün çalışır.
- sosial dövlət sabitliyin və yüksək səmərəliliyin qorunmasına və cəmiyyətin mənəvi rifahına yönəldilmiş fəal və güclü sosial siyasət aparır
- sosial dövlət hakimiyyət, cəmiyyət, insan və vətəndaş arasında qarşılıqlı sosial məsuliyyətə əsaslanır

- sosial dövlət ətraf mühitin ekoloji təhlükəsizliyin və insan həyat fəaliyyətinin möhkəmləndirilməsi üçün qayğı göstərir
- sosial dövlət bürokratizm, korrupsiya, qanunsuzluq, kölgə iqtisadiyyatı və digər mənfi fəaliyyətlərə qarşıdır və onlarla mübarizə aparır

Bu əlamətləri əsas kimi götürdükdə biz bu nəzərdən çıxış edə bilərik ki, hüquqi demokratik sosial dövlətdə hüquq və azadlıq bölünməzdir və siyasi, iqtisadi, vətəndaş hüquqları bərabər şəkildə qorunmalıdır. Həmçinin sadalanan hüquqlardan hansısa birinə digər birinin ziyanı hesabına prioritet vermək qəbul olunmazdır.

**Sosial dövlətin məqsədləri, funksiyaları və prioritetləri**

Effektiv və səmərəli sosial dövlətin əvəzsiz zərurəti onun bütün qurumlarının yalnız qəbul olunmuş və bəyan edilmiş qanunlar çərçivəsində fəaliyyət göstərməsi yox həqiqətən cəmiyyətin üzvlərinin maddi və mənəvi ehtiyaclarının qarşılanmasına yönəlməsindədir. Bu cür hədəflərə köklənən sosial dövlət öz prioritetlərini müəyənləşdirir və müvafiq olaraq sosial xidmət göstərən agentlikləri və institutları belə standartlara əsaslanaraq səlahiyyətləndirir.

Bu cür sosial dövlət öz funksiyalarını yerinə yetirərək:

- Optimal yaşayış minimumunu təmin edir. Lakin yaşayış minimumu sosial yardım hesabına deyil, mövcud situasiyada mümkün qədər yeni iş yerlərinin artırılması, həmçinin məşğulluğun artırılması və minimum əmək haqqının saxlanılması hesabına təmin olunur.
- Yaşa, əlillik vəziyyətinə, yoxsulluğa və digər həyati əhəmiyyətli göstəriciləri nəzərə alaraq ciddi tənzimlənmiş sosial təminatı təmin edir. Burada əsas mexanizm sosial sığorta hesab olunur.
- Regional və mərkəzi standartlar əsasında təyin olunmuş sosial normalara uyğun ödənişsiz sosial mənzil hüququnu təmin edir.
- Pulsuz və ya əlverişli qiymətə rəsmi qəbul olunmuş standartlara cavab verən müasir göstəricilərə malik tibbi xidmət
- Əmək bazarına və cəmiyyətin ehtiyaclarına uyğun pulsuz və ya əlverişli qiymətlərə təhsilin mövcudluğunu
- Ətraf mühit və ekosistem üçün zərərli fəaliyyət göstərən təsərrüfatların qadağan edilməsini. Bu gün bu sahədə olan tənzimləmələr Avropa Birliyinin təyin etdiyi 200-ə yaxın normativ hüquqi aktlar əsasında aparılır.
- Vətəndaşların və istehlakçıların maraqlarının qorunmasını (xüsusilə orqanizmə zərərli və qadağan olunmuş məhsul istehsalçılarından)

## ƏDƏBİYYAT

1. Azərbaycan Dövlət İnformasiya Agentliyi https://azertag.az/xeber/Azerbaycanda_ehalinin_sosial_rifahinin_yaxsilasdirilmasi_dovlet_siyasetinin_esas_prioritetlerindendir-1023958
2. Azərbaycan Respublikasının Konstitusiyası http://www.e-qanun.az/framework/897
3. Azərbaycan Respublikası Prezidentinin rəsmi səhifəsi www.president.az
4. Bakı Dövlət Universiteti // SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ // Elmi əsərlər toplusu // BURAXILIŞ n27// (III HİSSƏ) // BAKI-2021 http://static.bsu.az/w22/a_yeni/MEQALE%20TOPLUSU%202021,%2027sayl%C4%B1%20III%20HISSE%20%20.pdf
5. https://mgimo.ru/upload/iblock/4a7/4a75dd4dbd292b449d82e27842c6b7fa.pdf

6. Электронн библиотека ИФ РАН // Новая философская энциклопедия // социальное государство
https://iphlib.ru/library/collection/newphilenc/document/HASHad66b0624897b321e87aad
7. An introduction to Social Policy http://www.spicker.uk/social-policy/socpol.htm

## SOSİAL DÖVLƏT, ONUN MODELLƏRİ, PRİORİTETLƏRİ VƏ ƏLAMƏTLƏRİ

***Hacıyev Elxan***

## XÜLASƏ

Məqalədə sosial dövlət modellərinin təsnifatı verilmiş və ölkəmizin sosial dövlət modeli təhlil olumuşdur. həmçinin müasir sosial dövlətin prioritetləri əlamətləri məqsədi və müəyyən funksiyaları araşdırılmışdır.

## СОЦИАЛЬНОЕ ГОСУДАРСТВО, ЕГО МОДЕЛИ, ПРИОРИТЕТЫ И ПРИЗНАКИ

***Гаджиев Элхан***

## АННОТАЦИЯ

В статье приведена классификация социальных государственных моделей и анализ социальной государственной модели нашей страны. также исследованы признаки приоритетов современного социального государства.

## SOCIAL STATE, İTS MODELS, PRİORİTİES AND SYMPTOMS

***Hajiyev Elkhan***

## SUMMARY

The article presents classification of social state models and analysis of social state model of our country. also investigated signs of priorities of the modern social state.

# AZƏRBAYCANDA ÖVLADLIĞA VERİLMƏ İLƏ BAĞLI HÜQUQİ BAZA

***Mədinə Əsgərzadə***
***BDU-nun II kurs magistrantı***
m.asgarzade@yandex.com

***Açar sözlər:***övladlığa verilmə,valideyn-namizəd, uşaq hüquqları,əcnəbilər və vətəndaşlığı olmayan şəxslər,qanun,qərar
***Keywords:*** adoption, parenting candidate, children's rights, foreigners and Stateless Persons,law,decision
***Ключевое слово:*** принятие, кандидат на воспитание, права детей, иностранцы и Лица без гражданства,закон, решение.

Xalqımızın ən dəyərli sərvəti olan uşaqların ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, onlarla birgə yaşamaq kimi hüquqları vardır. Bundan əlavə, uşağın öz valideynləri tərəfindən tərbiyə olunmaq, maraqlarının və hərtərəfli inkişafının təmin olunması və ləyaqətinə hörmət olunması hüququ da vardır.

İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsini özünün ali məqsədi elan edən Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsi ilə bağlı fundamental qanunvericilik bazası mövcuddur. Son illər ölkəmizdə ailə, mülki, inzibati, cinayət qanunvericiliyinin uşaq hüquqlarının təminini nəzərdə tutan normaları inkişaf etdirilmiş, “Uşaq hüquqları haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” qanunlar qəbul edilmiş və Azərbaycan Respublikası “Uşaq hüquqları haqqında”, “Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında” Konvensiyalara, “Uşaq hüquqları haqqında” BMT Konvensiyasının «Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair” Fakültativ Protokoluna qoşulmuşdur (2).

Valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsi hazırda cəmiyyət üçün ən aktual məsələlərdən biri kimi dövlət tərəfindən tənzimlənən çox mürəkkəb bir prosesdir. Məlum olduğu kimi, dövlətin övladlığa götürmə prosesi ilə bağlı müəyyən standartları mövcuddur. 3 yaşadək uşaqların övladlığa verilməsi Səhiyyə Nazirliyinin, 3-18 yaşlıların övladlığa verilməsi isə Təhsil Nazirliyinin öhdəliyindədir. Ölkələrarası övladlığa verilmə isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyətləri çərçivəsindədir.

Övladlığa götürmə və övladlığa götürmənin ləğvi kimi məsələlərə qanunvericiliyin tələblərinə uyğun olaraq məhkəmədə baxılır.Azərbaycanda övladlığa verilmənin iki istiqaməti var. Bunlardan biri uşaqların Azərbaycan vətəndaşlarına, digəri isə xarici ölkə vətəndaşlarına övladlığa verilməsi ilə bağlıdır. Qanunvericiliyə görə, Azərbaycan Respublikasında yaşayan hər bir Azərbaycan vətəndaşı azərbaycanlı uşaqları övladlığa götürə bilər. Bu zaman vətəndaşların hansı təbəqəyə mənsub olmasının heç bir əhəmiyyəti yoxdur. Əsas meyar uşağı övladlığa götürən ailənin həmin uşağın müdafiəsini və qayğısını təmin etməsi,onun bütün hüquqlarını qoruya bilməsidir.

Ölkəmizdə övladlığa verilmə ilə bağlı qanunvericilik bazası genişdir. Bunlara misal olaraq “Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanını, “Övladlığa götürməyə, qəyyumluğa və himayəyə imkan verməyən xəstəliklərin Siyahısı”nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin Qərarını, "Ölkələrarası

övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu, "Övladlığa götürmə və övladlığa götürmənin ləğvi ilə əlaqədar mülki işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarını misal göstərmək olar.

"Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1720-VQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə 2020-ci il 27 fevral tarixində qəbul edilmişdir (4). Bu qaydalar Azərbaycan Respublikası Ailə Məcəlləsinin 118.4-cü maddəsinə uyğun olaraq hazırlanaraq valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsi, həmçinin Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi, övladlığa götürülən uşaqların və onları övladlığa götürməyi arzu edən valideyn namizədlərinin vahid uçotunun elektron qaydada aparılması, uşaqların övladlığa götürülməsinin əsaslandırılması həmçinin, övladlığagötürmənin ləğvinin tələb edilməsi və övladlığagötürmə sahəsində yoxlamaların aparılması kimi prosesləri müəyyən edir.

Bundan əlavə,qaydalarda övladlığa verilmə zamanı yol verilməyən hallar da öz əksini tapıb.Belə ki,müxtəlif xəstəlikləri (sinir sistemi xəstəlikləri,vərəm xəstələri, bədxassəli onkoloji xəstəliklər, narkomanlıq, toksikomanlıq və xronoloji alkoqolizm, infeksion xəstəliklər və ruhi xəstəliklər) olan şəxslər, məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər, məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər,aralarında nikah olmayan şəxslər övladlığa uşaq götürə bilməz. Qaydalarda həmçinin ailənin gəlirlərinin hesablanması qaydası da göstərilmişdir. Belə ki, valideyn-namizədin və onun ailə üzvlərinin adambaşına düşən orta aylıq gəlirləri, Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada nəzərdə tutulan gəlirlər nəzərə alınmaqla, valideyn-namizədin müraciətindən əvvəlki ardıcıl gələn 12 ay ərzində onun və onun ailə üzvlərinin ümumi gəlirləri müvafiq dövr üzrə kredit (o cümlədən ipoteka, lizinq), kirayə, aliment ödənişləri, eləcə də "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra sənədləri üzrə digər öhdəliklər çıxıldıqdan sonra 12-yə bölünməklə ailənin orta aylıq gəliri hesablanır və ailə üzvlərinin sayına bölünməklə ailənin adambaşına düşən orta aylıq gəliri müəyyən edilir (4).

"Övladlığa götürməyə, qəyyumluğa və himayəyə imkan verməyən xəstəliklərin Siyahısı"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli, 141 saylı qərarı ilə bəzi xəstəlik daşıyıcılarının övladlığa uşaq götürməsinə icazə verilmir.Bu qərar "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 297 nömrəli Fərmanının 1-ci bəndinin 6-cı abzasının icrasını təmin etmək məqsədi ilə Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir (1). 15 avqust 2000-ci ildən qüvvəyə minmişdir.Bu xəstəliklərə vərəmin aktiv və xroniki vəziyyətində olan xəstələr, I, II və V qrup dispanser qeydiyyatında olan xəstələr, sinir sistemi xəstəlikləri olan şəxslərdir. Bundan əlavə, bədxassəli onkoloji xəstəliklər, narkomanlıq, toksikomanlıq və xronoloji alkoqolizm, infeksion xəstəliklər və ruhi xəstəlikləri olanlar da

övladlığa uşaq götürə bilməz. Həmçinin əmək qabiliyyətini itirməklə I və II əlillik qrupu olan şəxslərin övladlığa və qəyyumluğa uşaq götürməsinə icazə verilmir. Artıq 18 yaşına çatan şəxslər övladlığa verilmir və övladlığa götürənlə uşaq arasında yaş fərqi 16-dan az olmamalıdır.

Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanununda 30 mart 2004-cü ildə ölkəmizin bu Konvensiyaya qoşulması öz əksini tapmışdır. Ölkələrarası övladlığa götürülmə ilə bağlı bu konvensiyanı imzalayan Dövlətlər uşağın şəxsiyyətinin ahəngdar və tam şəkildə inkişaf etməsində ailə mühitində böyüməsinin vacibliyini irəli sürərək, ölkələrarası övladlığa götürmənin uşağın ən ümdə maraqlarına və onun əsas hüquqlarına hörmət etməklə həyata keçirməsinin təmin edilməsi, habelə uşağın qaçırılmasının, satışının və ya ticarətinin qarşısının alınması üçün tədbirlərin görülməsi zəruriliyini vurğulamışlar.

Bu məqsədlə Konvensiyanın müddəalarının yaradılmasında beynəlxalq sənədlərə,xüsusilə də Birləşmiş Millətlər Təşkilatının Uşaq hüquqları haqqında 1989-cu il 20 noyabr tarixli Konvensiyası,Uşaqların Müdafiəsinə və Rifahına aid olan Sosial və Hüquqi Prinsiplərə dair Birləşmiş Millətlər Təşkilatının Bəyannaməsi, Milli və Beynəlxalq səviyyədə Uşağın Yerləşdirilməsinə və Övladlığa Götürülməsi üçün Xüsusi Tövsiyələrdə əks olunan prinsiplər nəzərə alınmışdır. Bu Konvensiya, adətən Razılığa gələn bir Dövlətdə (mənşə dövlətdə) daimi yaşayan uşaq Razılığa gələn digər dövlətdə (qəbul edən Dövlətdə) daimi yaşayan ər/arvad və ya şəxs tərəfindən mənşə Dövlətində övladlığa götürüldükdən sonra və ya qəbul edən Dövlətdə, yaxud mənşə dövlətində belə övladlığa götürülmə məqsədi üçün köçürülmüşsə, köçürülürsə və ya köçürülməli olduqda tətbiq edilir

“Övladlığa götürmə və övladlığa götürmənin ləğvi ilə əlaqədar mülki işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı 29 oktyabr 2009-cu ildə qəbul edilmişdir. Bu qərar Övladlığa götürmə və övladlığa götürmənin ləğvi ilə əlaqədar işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən düzgün tətbiq olunması və vahid məhkəmə təcrübəsinin formalaşması məqsədilə qəbul edilmişdir (2). Qərarda məhkəmələrin ən ümdə vəzifəsinin uşaqların hüquq və mənafelərinin təmin edilməsi olduğu vurğulanır. Qərarda həmçinin övladlığa götürmə zamanı məhkəməyə təqdim edilən ərizələrin forma və məzmununa, ona əlavə olunmuş sənədlərin etibarlılığına, yəni səlahiyyətli orqanlar və vəzifəli şəxslər tərəfindən verilməsi, qüvvədə olma müddəti və s. kimi məsələlər də öz əksini tapır.

Dövlətimiz hər zaman vətəndaş üçün istənilən xidmət kimi,övladlığa götürmə prosesinin də daha səmərəli olması üçün qərarlarda mühim dəyişikliklər edir,layihələr həyata keçirir. Buna misal olaraq, ölkəmizdə uşaqların qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən övladlığa götürmə prosedurunun asanlaşdırılmasını göstərmək olar.

Layihəyə əsasən, uşağı övladlığa götürmək istəyən qohumlara bir sıra prosedurlar tətbiq olunmayacaq:

- övladlığa götürmək istəyən şəxsin (şəxslərin) təlimlərə cəlb edilməsi;
- övladlığa götürmək istəyən şəxsə (şəxslərə) uyğun uşağın, övladlığa götürülən uşağa uyğun valideynin seçilməsi;
- övladlığa götürülən uşaqla övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uşağın yerləşdiyi müəssisədə görüşünün təşkili;
- övladlığa götürülən uşağın sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) evində yerləşdirilməsi.

Qohumlara münasibətdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən 1 ildən çox olmayan müddətdə övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə aparılması proseduru isə qüvvədə qalır (5).

Ölkəmizdə övladlığa götürmə prosesində tətbiq olunan bu qanunvericilik bazası müstəsna əhəmiyyətə malikdir. Belə ki, dövlətimiz hər zaman bu məsələni diqqətdə saxlamaqla, valideyn himayəsindən məhrum olan uşaqların daha xoşbəxt həyata addımlaması üçün övlad həsrətində olan valideyn namizədləri ilə qovuşması yolunda hüquqi əsasda vasitəçilik edir. Hər bir vətəndaşın xüsusən də azyaşlıların sağlam, maddi və mənəvi baxımdan övlad yetişdirməyə hazır olan bir ailədə böyümə hüququ var və bu qanunlarda əks olunan müddəalar valideyn himayəsindən məhrum olan uşağın mənafeyinə istiqamətlənmişdir. Bundan əlavə, onun yaranan ailənin möhkəm zəminlər üzərində qurulmasında da çox vacib rol oynayır.

## ƏDƏBİYYAT

1. “Övladlığa götürməyə, qəyyumluğa və himayəyə imkan verməyən xəstəliklərin Siyahısı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərarı
2. “Övladlığa götürmə və övladlığa götürmənin ləğvi ilə əlaqədar mülki işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı
3. “Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasinin Qanunu
4. “Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı
5. https://apa.az/az/xeber/sosial-xeberler/Usaqlarin-qohumlari-trfindn-ovladliga-goturulmsi-proseduru-asanlasdirilir-628390

## AZƏRBAYCANDA ÖVLADLIĞA VERİLMƏ İLƏ BAĞLI HÜQUQİ BAZA

*Mədinə Əsgərzadə*

### XÜLASƏ

Bu məqalə Azərbaycanda övladlığa verilmə ilə bağlı mövcud olan qanunvericilik bazası haqqındadır. Övladlığa verilmə valideynləri olmayan və ya valideyn himayəsindən məhrum olan uşaqların uyğun valideyn-namizədlərə verilmə prosesidir. Övladlığa verilmə ilə bağlı qanun və qərarlarda əks olunan müddəalar məqalədə göstərilmişdir.

## ПРАВОВАЯ ОСНОВА Усыновления в АЗЕРБАЙДЖАНЕ

*Медина Аскерзаде*

### АННОТАЦИЯ

Эта статья о существующей правовой базе для усыновления в Азербайджане. Усыновление - это процесс передачи детей, не имеющих родителей или лишенных родительской опеки, соответствующим родителям-кандидатам. В статье содержатся положения, отраженные в законах и постановлениях, касающихся усыновления.

## LEGAL BASIS ON ADOPTION IN AZERBAIJAN

*Medina Askerzade*

### SUMMARY

This article is about the existing legal framework for adoption in Azerbaijan. Adoption is the process of transferring children without parents or deprived of parental care to appropriate parent-candidates. The article contains the provisions reflected in the laws and decisions related to adoption.

# TƏHSİL SAHƏSİNDƏ GENDER ƏSASLI AYRI-SEÇKİLİK VƏ BƏRABƏR İMKANIN TƏŞVİQİ

***Hüseynzadə Nərmin Rövşən qızı***
***AU-nun II magistrantı***
narmin.huseynzada@student.au.edu.az

*"Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir.*
*O milli məqsədlər, mənafelər əsasında qurulmalıdır".*
***Heydər Əliyev***

***Açar sözlər:*** təhsil sistemi, gender, gender bərabərliyi, ayrı-seçkilik, gender təhsili, beynəlxalq təcrübə.
*Ключевые слова:* гендер, гендерное равенство, дискриминация, система образования, гендерное образование, международный опыт.
*Keywords:* gender, gender equality, discrimination, education system, gender education, international experience.

Təhsil nədir? Sadə dillə ifadə etsək, bu, məktəb və digər təhsil müəsisələrində əldə olunan sistematik instruksiya prosesidir. Başqa sözlə, təhsil - təlim və tərbiyə üçün nəzərdə tutulan yeganə məqsədyönlü prosesdir ki, bu da özündə elm, bacarıq, vərdiş, dəyərlər sistemi, fəaliyyət təcrübəsi və səriştəliliyi ehtiva edir. Daha geniş anlamda təhsil "şəxsiyyətin ağlı, xarakteri və fiziki xüsusiyyətlərinin formalaşması..." prosesidir [4]. Təhsil sayəsində insan bütün ömrü boyu onu əhatə edən təbiətə və digər insanlara bir növ münasibət göstərir. Insanın bir şəxsiyyət kimi formalaşmasında, onun inkişafında, cəmiyyət həyatında iştirak etməsində və digərləri arasında öz yerini tapmasında təhsil böyük rol oynayır.

Azərbaycan Respublikasının qanunvericiliyində Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında qanun mövcuddur və bu qanunda təhsillə bağlı müddəalar da öz əksini tapır. Onlar aşağıdakı kimi təqdim edilir:

- Dövlət kişi və qadınlara təhsil hüququnun həyata keçirilməsi üçün bərabər imkanların yaradılmasını təmin etməlidir;
- Təhsil sistemində kişi və qadınların bərabər iştirakına şərait yaradılmalıdır;
- Qız və oğlanların təhsil alması üçün bərabər təhsil alma imkanlarının saxlanılması tədbirləri görülməlidir;
- Cəmiyyətdə cinsi bərabərlik ideyalarının yayılması üçün bir neçə mexanizm kimi təhsil sistemi inkişaf etməlidir;
- Həm qadın həm də kişilər üçün peşə fəaliyyəti ilə ailə həyatının harmonik və səmərəli şəkildə uzlaşdırılmasına kömək edilməlidir;
- Dövlət mülkiyyət növündən asılı olmayaraq, bütün tədris müəssisələrinə qəbulda, tələbələrin təqaüdlə təmin edilməsində, tədris planının seçilməsində və biliyin qiymətləndirilməsində kişi və qadınlar üçün bərabər imkanlar yaradılmalıdır;
- Dərsliklər gender bərabərliyi prinsipinə əsaslanmalıdır.

Lakin bir sıra sahələrdə olduğu kimi təhsil sistemində də gender əsaslı ayrı-seçkilik halları özünü göstərir. Təhsil sahəsində gender bərabərliyinin aktuallığı qadınlar və kişilər üçün sosial ədalət və hüquqların bərabər səviyyədə təmin olunması ilə bağlıdır. Təhsil və tərbiyə sisteminə gender probleminin gətirilməsi cəmiyyətin vacib sosial-iqtisadi, siyasi, mədəni məqsədlərinə daha tez və uğurla nail olunmasına kömək edir.

Təhsil cinsindən asılı olmayaraq hər kəsə ictimai həyatın müxtəlif sahələrində, idarəçilikdə iştirak etməyə imkan verir və onları layiqli fəaliyyət şəraiti ilə təmin edir. Məhz bu səbəbdən də təhsili gender bərabərliyinə nail olmaq və qadınların imkanlarının genişləndirilməsinin mühüm vasitələrindən biri kimi qiymətləndirmək lazımdır. Müasir dövrdə Azərbaycan qadınlarının sosial-siyasi proseslərdə fəal iştirakının zəruriliyi təhsil sistemində gender bərabərliyinə nail olmağı mühüm vəzifə kimi qarşıya qoyur. Ona görə ki, hər bir cəmiyyətin demokratik dəyərlərə malik olması onun qadına və onun azadlığına verdiyi dəyərlə də ölçülür. Bu cəhətdən qadınların və kişilərin bərabərhüquqlu tərəf- müqabil olması, eləcə də bu istiqamətdə təhsil, tərbiyə sahəsində həlli vacib olan işlərin görülməsi təhsilə yeni baxışın formalaşmasına zəmin yaradır [9].

Cinsi ayrıseçkilik təhsil təcrübələrində və sonrasında həm kişiləri, həm də qadınları təsir edir. Kişilər və qadınlar eyni səviyyədə təhsil ala bilsələr də, qadınlar üçün daha yüksək idarəetmə işlərinə sahib olmaq daha çətindir və gələcəkdə məşğulluq və maddi qayğılar güclənə bilər. Keçmişdə kişilər qadınlara nisbətən daha çox təhsil almağa meylli olmuşlar, lakin Qərb ölkələrinin əksəriyyətində və bir çox qeyri-qərb ölkələrində son onilliklərdə təhsildəki gender fərqi geri dönüb [7], [8].

Amerika və Avropanın digər ölkələrində qızlara təhsil verilməsi məsələsi daha erkən baş vermişdir. XIX əsrdə ABŞ-da sənayeləşmə inkişaf etdikcə bir çox iş yerlərində savadlı işçilərə ehtiyac yarandı. Əsrin birinci yarısında, xüsusilə də Amerikanın Şimali-Şərqində yerləşən şəhərlərdə oğlan və qızlar üçün dövlət məktəbləri açılmağa başladı. Əlbəttə, bütün bu məktəblər ağdərili əhali üçün nəzərdə tutulmuşdu. 1832-ci ilə qədər qadınlara kişilərlə bərabər eyni kollecə getməyə icazə verilmirdi. İlk belə kollec Ohayodakı Oberlin kolleci oldu ki, burada qızlar oğlanlarla eyni yerdə təhsil ala bilərdilər və hətta ilk dəfə qaradərili amerikalılara da bu kollecdə təhsil almaq imkanı verildi. Hələ də Harvard, Yeil və Prinston kimi prestijli universitetlər qadınlara təhsil almağa icazə vermirdi. Bundan ötrü onlar bir sıra səbəblər ortaya qoyurdular:

1) təbiətən qadınların intellektual səviyyələri aşağı olur;

2) qadınlar fiziki cəhətdən zərifdirlər, belə yerlərdə təhsil almaq onların orqanizminə təsir edər və onlar dünyaya sağlam uşaq gətirə bilməzlər;

3) burada təhsil alan qadınlar onlarla birlikdə oxuyan kişilərin fikrini dağıdar;

4) kollecdə oxumaq onları nəzakətsiz, vulqar və kobud edə bilər.

Yeil və Prinston Universitetlərində 1969-cu ilə qədər qızlara təhsil almağa icazə verilmirdi [4].

UNESCO-ya görə, dünyadakı təhsildəki gender bərabərsizlikləri, əsasən "yoxsulluq, coğrafi təcrid, azlıq statusu, əlillik, erkən nikah və hamiləlik və cinsiyyətə əsaslanan şiddət" ilə müəyyən edilir. Yalnız Şimali Amerikada, Latın Amerikasında və Karib dənizində qızlar oğlan uşaqlarına nisbətən məktəbə getmə ehtimalı daha çoxdur. Dünyanın qalan hissəsində oğlanlardan daha çox qız məktəbdən kənarda qalır [1].

Tələbə-müəllim münasibətində bəzi gender bərabərsizlikləri gözə dəyir. Məktəbə daxil olduğu ilk andan ta məktəbi bitirənə qədər oğlan şagirdlər müəllimlərdən daha çox diqqət görürlər. Mütəxəssislərin qeyd etdiyinə görə, qızlar dərslərdə sakit oturduqları üçün onlara dəfələrlə az irad tuturlar. Qızlar demək istədikləri sözü əl qaldırıb icazə istəməklə edirlər, oğlanlar yerlərindən söz ata bilirlər. Həmin hərəkət qız şagirdlər tərəfindən edildikdə ciddi iradlarla qarşılaşırlar. Müəllimlər şagirdlərin dərs buraxmamasında maraqlıdırlar, çünki hər gün dərsə gələn şagirdın özünə inamı və öyrənmə qabiliyyəti yüksək olur [4].

Təhsildə sistemində bərabərsizlik halları təkcə qızlara qarşı deyil eyni zamanda oğlanlara qarşı da özünü göstərir. Çox vaxt, sinifdə dəfələrlə çətinliklərlə üzləşən oğlanlar nə sosial, nə də

akademik cəhətdən ölçülmədiklərinə inanmağa başlayırlar. Oğlanların uğur qazanmasına kömək etmək - müəllimlər nə edə bilər:

- Oğlanların vizual-məkan üstünlüklərinə toxunmaq. (Film şeridi, Leqolar, bloklar, Prikol)
- Praktik materiallardan istifadə. (Veb saytlar, vərəqələr)
- Hərəkət üçün vaxt verin. (Oxucu Teatrları və tamaşaları, "Aktiv" Mnemonika)
- Təcrübəli materiallardan istifadə edin.
- Texnologiyanı birləşdirin. (Kompüter Öyrənmə Oyunları, Kiberhuntlar)
- Kişi rol modelləri təqdim edin.
- Rəqabət imkanlarına icazə verin
- Oğlanları cəlb edən kitabları seçin. (Yalnız oğlanlar üçün Kitab Klubu)
- Hər şeydən əvvəl, dəstəkləyici sinif mühiti yaradın [10].

Rodgers, ibtidai sinifdəki gender bərabərliyinə qarşı başqa bir problemin heteronormativliyin və heteroseksual stereotiplərin hakim olduğunu müəyyənləşdirir. Guasp'ın araşdırmalarına istinad edərək, həm məktəblərdə, həm də daha geniş qərb cəmiyyətində heteronormatif söyləmənin hələ də norma olduğunu bildirmişdir. Beləliklə, gender bərabərliyinin əsas problemlərindən biri, heteronormativliyin hakimliyi altında cinsi müxtəlifliyin gizlədilməsidir [3].

Hazırda MDB ölkələrinin əksəriyyətində təhsil müəssisələrində gender bərabərliyinin qorunması sahəsində addımlar atılır. Qazaxıstan, Gürcüstan, Özbəkistan bu ölkələr sırasına daxildir. Azərbaycanda bu sahədəki vəziyyət qənaətbəxş hesab olunsa da universitet rəhbərləri müəllimlər arasında gender bərabərliyini qorumağa və bu sahədəki vəziyyəti yaxşılaşdırmağa çalışır.

Gender üzrə mütəxəssis Aygün Eyvazlı deyir ki, təhsil müəsisələrində gender probleminə öncə iki nöqtədən yanaşmaq lazımdır. Birincisi təhsil sisteminin özündə, pedaqoji metodologiyada gender bərabərliyinə nail olmaq, ikincisi isə təhsil müəssisələrində gender tədrisinin, gender təhsilinin tətbiqidir. Ölkəmizdə və xaricdə bir çox araşdırmalar ənənəvi təhsil sisteminin, metodikanın çağdaş tələblər ilə ayaqlaşa bilmədiyini irəli sürür. Belə ki, təhsil müəssisələrində ənənəvi gender normaları, sosial və mədəni stereotiplər təlqin edilir və dəstəklənir, nəticədə gender şüuru formalaşdırılır. Beləliklə, bu müəssisələrdə “əsl kişi” və “əsl qadın” xarakteristikalarına əsaslanan gender şüurunun yaranması baş verir. Bu isə gender bərabərliyinin aradan qaldırılmasının qarşısını alır. Bütün bunlar yeni zamanla ayaqlaşan təhsil prinsiplərinin tətbiqini zəruri edir. Gender, gender bərabərliyi yeni dünyagörüşü, yeni düşüncə tərzi deməkdir, ənənələrin yenidən dərki deməkdir. Ölkəmizin təhsil müəssisələrində keçən yüzilin 90-cı illərindən başlayaraq gender intizamı-fənni tədris edilir. İlk dəfə gender 1999-cu ildə dövlət müəssisəsi olan BDU-nun “Sosial elmlər və psixologiya” fakültəsində təhsilə tətbiq edildi [6].

Gender təhsili seksuallığın idrak, emosional, fiziki və sosial aspektləri haqqında öyrənmə və tədris planına əsaslanan bir prosesdir. Bu təhsil uşaq və gəncləri onlara güc verəcək bilik, bacarıq, münasibət və dəyərlərlə təchiz etmək məqsədi daşıyır. Buraya sağlamlığını, rifahını və ləyaqətini dərk etmək; sosial əlaqələri inkişaf etdirmək; seçimlərinin özlərinin və başqalarının rifahına necə təsir etdiyini düşünmək; və ömrü boyu hüquqlarının qorunmasını başa düşmək və təmin etmək, kimi məsələlər daxildir.

Gender təhsili proqramlarının tərtib edilməsi və həyata keçirilməsi üçün təklif olunan addımlar:

1. Müstəqil və ya inteqrasiya olunmuş bir proqramın istifadəsi
2. Bir neçə il ərzində çoxsaylı, ardıcıl sessiyalar

3. Pilot cinsi təhsil tədris planı
4. Uşaqları və gəncləri fəal şəkildə cəlb edə biləcək təlim metodlarının istifadəsi
5. Məktəblərdə və qeyri-rəsmi şəraitdə tədris planlarını həyata keçirmək üçün bacarıqlı və həvəsli müəllimləri seçilməsi
6. Təhsil verənlərə həssaslıq, dəyərlərin aydınlaşdırılması, işdən əvvəl və işdə keyfiyyətli təlim və davamlı peşəkar inkişaf imkanları təmin olunması
7. Uşaqlar və gənclər üçün məxfiliyin və təhlükəsiz mühitin təmin edilməsi.

Beynəlxalq təcrübələr nəticəsində təklif olunur ki, gender təhsili ilə bağlı məktəbin siyasəti aşağıdakı kimi ola bilər:

• təlim keçmiş müəllimlər tərəfindən tədris planının hazırlanması;
• valideynlərin cəlbi;
• cinsiyyət, cinsi oriyentasiya və cinsiyyət kimliyindən asılı olmayaraq gender bərabərliyi və ayrıseçkiliyə yol verilməməsinin məktəb üzrə təşviq etmək və bütün şagirdlərin hüquqlarına hörmət etmək;
• məktəbdən yayınan uşaqların təhsilə cəlb edilməsi və yayınma məsələsinin araşdırlması (qızların təhsildən yayındırılması və erkən nigah hallarının qarşısının alıması üçün)
• gender təhsilini təmin etmək üçün məktəbi etibarlı bir mühit halına gətirmək. Məsələn, cinsi təcavüz və təhqirə, o cümlədən cinsi oriyentasiya və şəxsiyyətinə görə stiqma və ayrıseçkiliyə qarşı sıfır tolerantlıq siyasətinin olması;
• məktəbi sağlamlığa kömək edən bir mühit halına gətirmək. Məsələn, qızlar və oğlanlar üçün təmiz, ləvazimatlı və ayrı-ayrı tualetlər təmin etmək;
• siyasətin pozulması hallarında, məsələn, məxfiliyin pozulması, damğalanma və ayrıseçkilik, cinsi zorlamavə ya təhqirə məruz qalma hallarında tədbir görmək;
• gənclərin lazım gəldikdə yerli cinsi reproduktiv sağlamlıq mərkəzlərinə istiqamətləndirmək
• müəllimlərin gənc və yeniyetmələrlə işləmək üçün bacarıqlarının daimi artırılmasına nəzarət mexanizmlərini hazırlanmaq [11].

Müəllimləri narahat edən suallar:

- * oğlan və qızlar arasındakı münasibətlərin mədəniyyətinin olmaması;
- * kütləvi informasiya vasitələrinin mənfi təsiri;
- * kişi və qadının idealı haqqında fikirlərin olmaması;
- * kişilərin uşaq tərbiyəsində passiv iştirakı;
- * davranış mədəniyyətinin formalaşmasına qeyri -kafi diqqət (paltar seçimi, makiyaj);
- * valideynlərin təhsili və onlarla əməkdaşlıq.

Uşağın cinsiyyət idrakının ən böyük intensivliyi təhsil aldığı müddətə düşür. Bu zaman onun öz cinsi imici qurulur. Buna görə müəllimlərin gender münasibətləri mövzusunda səriştəli olması, bu problemi öyrənmək üçün məktəblilərin müstəqil işini stimullaşdırması son dərəcə vacibdir. Cins yanaşması bu gün təhsil müəssisələrinin tədris prosesində "fərdi, kişi, qadın və androgin xüsusiyyətlərə malik bir şəxsin özünü dərk etməsinin və özünü reallaşdırma imkanlarının" əsas şərti olaraq fəal şəkildə tətbiq olunur [12].

UNESCO baş direktorunun təhsil üzrə müavini Stefaniya Cianini Nizami Gəncəvinin elmə, təhsilə yüksək qiymət və önəm verdiyini söyləyərək, UNESCO-nun sülh qurmaq, yoxsulluğu aradan qaldırmaq və davamlı inkişafı təmin etmək missiyasının mərkəzində məhz təhsil durduğunu xatırladıb [13].

**Dilarə Əliyeva adına Qadın Hüquqları Cəmiyyətinin rəhbəri, hüquq müdafiəçisi Novella Cəfəroğlunun bu mövzuda fikirləri belə olmuşdur :**

“Təəsüf ki, problem oğlana təhsil vermək lazımdır, amma qızı isə tez-tələsik “baş-göz” etmək lazımdır fikrində yatır. Sanki qız ailədə artıq yükdür. Ailələr çalışırlar ki, qızı tez evdən

çıxartsınlar ki, ailədə az çörək yeyən olsun. O, çörəkdən məhrum olsun. Bu, ailədə olan tərbiyədən və ailənin baxışından asılıdır. Bu məqamda gender bərabərliyindən söhbət belə gedə bilmir. Məsələn, mənim ulu nənələrimdən biri həmişə deyirdi, qadınlar təhsilli olmalıdır ki, onlar kiməsə möhtac yaşamasınlar. Çünki kişilər daş daşıya bilər, amma qadınlar təmizlik işlərinə məcbur olub çörək qazanmamalıdır" [14].

DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, araşdırmaların nəticələrinə görə, qəbul imtahanlarında qızların hər bir fənn üzrə orta statistik nəticələri oğlanların orta statistik nəticələrindən daha yüksəkdir: "Amma müəyyən vaxt var idi ki, yüksək bal toplayanların arasında oğlanların sayı daha çox idi. Orta nəticələr göstərənlər isə əsasən qızlar olub. İndi isə bu tendensiya dəyişib. Artıq yüksək nəticə göstərənlərin sırasında qızların sayı çoxalıb. Yalnız Azərbaycanda deyil, bir çox ölkələrdə qızlar humanitar, oğlanlar texniki sahəyə meyil edir. On ildir ki, Azərbaycanda bu tendensiya dəyişib".

**Təhsil üzrə ekspert Əjdər Ağayev** deyir ki, bu işdə valideyn və məktəb birlikdə iştirak etməlidir: "Bu məsələ Sovet dövründə də mövcud idi. Məktəblərin ən yaxşı oxuyan şagirdləri qızlar idi. Qızların əlavə işlərdə iştirakı olmur. Onlar bir evi işi görürlər, bir də məktəbə gedirlər. Ona görə qızlar təlim-tərbiyə işində daha diqqətli və məsuliyyətli olurlar. Onlar çalışırlar ki, bu sahədə nailiyyətləri daha yüksək olsun. Amma oğlanların özünü göstərəcək sahələri çoxdur. Məsələn, idman, səyahətlər və s. bu kimi sahələrdə oğlanlar aktiv olduqları üçün elmə bir o qədər çox maraq yetirmirlər. Onu da deyim ki, məncə, elə belə olsa yaxşıdır. Çünki oğlan uşaqları ağır fiziki işlərlə də məşğul ola bilir. Amma qız zərif məxluqdur. Onların ağır iş görməsi məqsədəuyğun deyil. Yaxşı olar ki, qızlar təhsildə layiqli yerlərini tutub, yaxşı bir peşənin sahibi olsunlar. Düşdükləri mühit də oğlanların belə olmasına böyük təsir edir. Yəni yaxşı oxuyan oğlanın ətrafındakı pis oxuyanlar onu öz tərəflərinə çəkməyə çalışırlar. Və nəticədə onlar təsirə düşürlər. Amma qızlarda bu cür hal baş vermir. Bunun üçün də oğlanların aktivliyini təmin etmək üçün məktəb onlara pedaqoji-psixoloji cəhətdən elmi əsasla yanaşmalıdır. Oğlanların maraqlarını təmin edərək, təlimə cəlb etməlidirlər. Və bir də onların yoldaşlıq etdiyi şəxsləri öyrənmək lazımdır. Əgər o mühitdə tənbəl olan, müxtəlif xoşagəlməz vərdişlərə meyilli olan varsa, həmin insanlardan uşağı uzaq tutmalıyıq. Bu işdə məktəb də, valideyn də birgə iştirak etməlidir. O zaman oğlanları düzgün istiqamətdə formalaşdırmaq mümkün olar" [15].

## ƏDƏBİYYAT


1. "Education and gender equality". UNESCO. 25 aprel 2013.
2. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasinin qanunu, 2010
3. Homophobic Bullying in Britain's Schools: The Teachers' Ensiklopediya site:az.wikiqube.net 2009
4. Kifayət Ağayeva ABŞ-da gender məsələləri Bakı – 2018
5. Kifayət Ağayeva "Azərbaycanca gender məsələləri" Bakı- 2014
6. Təhsildə gender, yaxud genderdə təhsil amili: faktlar və rəqəmlər nə deyir? Layihə 2010
7. "The care-less manager: Gender, care, and new managerialism in higher education" 2009
8. "The Reversal of the Gender Gap in Education and its Consequences for Family Life" 2018
9. http://tehsiljurnali.az/yaradiciliq/1097-azrbaycan-respublikasnda-gender-thsili-v-trbiysinin-hmiyyti.html
10. https://web.archive.org/web/20110503030327/http://teacher.scholastic.com/products/instructor/Mar04_gendergap.htm

11. http://femiskop.org/azerbaycanda-gender-tehsilinin-ehemiyyeti/
12. https://rt82.ru/az/bezopasnost-na-obektah/teoreticheskie-osnovy-problemy-formirovaniya-gendernoi/
13. https://azertag.az/xeber/Nizami_Gencevi_felsefesine_hesr_olunmus_videokonfrans_kechirilib_VIDEO-1884929
14. https://musavat.com/news/tehsil-qadinin-mulkiyyetidir-yalniz-tehsil-qadinlarimizi-ireliye-apara-biler-novella-ceferoglu_447582.html
15. http://gencaile.az/t%C9%99hsild%C9%99-gender-b%C9%99rab%C9%99rsizliyini-nec%C9%99-aradan-qaldirmali/
16. https://www.coe.int/az/web/compass/education

## TƏHSİL SAHƏSİNDƏ GENDER ƏSASLİ AYRİ-SEÇKİLİK VƏ BƏRABƏR İMKANİN TƏŞVİQİ

***Hüseynzadə Nərmin***

### XÜLASƏ

Təhsil ictimaiyyətin əldə etdiyi biliklərini, bacarıqlarını və dəyərlərini bir nəsildən digərinə ötürən bir prosesdir. Təhsil özü bir insan hüququdur. O eyni zamanda digər insan hüquqlarını həyata keçirmək üçün əvəzsiz vasitədir. Savadlılıq yoxsulluğun aradan qaldırılması və insanın cəmiyyətdə iştirakını genişləndirilməsinə kömək edir. O təkcə fərdlər üçün deyil eyni zamanda həm ailə, həm cəmiyyət, həm də ictimaiyyət üçün fayda təmin edir. Buna görə də təhsil qız və oğlanlar üçün bərabər səviyyədə təşkil olunmalıdır. Qızların təhsil alması çox yüksək nəticələr doğurur. Bunlara yaşayışın yaxşılaşması, uşaq və ana sağlamlığının inişaf etməsi, qadınların digər sahələrdə öz rollarını layiqincə yerinə yetirməsi və s. aiddir. Qısaca savadlı qadınlar bütün inkişaf faktorlarına müsbət təsir göstərir.

## ДИСКРИМИНАЦИЯ ПО ПРИЗНАКУ ПОЛА В ОБРАЗОВАНИИ И ПРОДВИЖЕНИЕ РАВНЫХ ВОЗМОЖНОСТЕЙ

*Нармин Гусейнзаде*

### АННОТАЦИЯ

Образование - это процесс передачи знаний, навыков и ценностей, приобретенных обществом, от одного поколения к другому. Само образование - это право человека. Это также бесценный инструмент для реализации других прав человека. Грамотность помогает искоренить бедность и расширить участие людей в жизни общества. Это приносит пользу не только отдельным людям, но также семьям, сообществам. Следовательно, образование должно быть организовано одинаково для девочек и мальчиков. Образование девочек дает очень высокие результаты. К ним относятся улучшение жизни, развитие здоровья ребенка и матери, правильное выполнение женщинами

# GENDER-BASED DİSCRİMİNATİON İN EDUCATİON AND THE PROMOTİON OF EQUAL OPPORTUNİTY.

*Narmin Huseynzade*

## SUMMARY

Education is a process of passing on the knowledge, skills and values acquired by society from one generation to another. Education itself is a human right. It is also an invaluable tool for realizing other human rights. Literacy helps to eradicate poverty and increase human participation in society. It benefits not only individuals, but also the family, society and the community. Therefore, education should be organized equally for girls and boys. Girls' education has very high results. These include the improvement of life, the development of child and maternal health, the proper performance of women's roles in other areas, and so on. aiddir. In short, educated women have a positive impact on all developmental factors.

# AİLƏDƏ UŞAQLARIN SOSİALLAŞMASINA TƏSİR EDƏN AMİLLƏRİN ELMİ TƏHLİLİ

***Əzizova Həmidə Müşfiq qızı***
***BDU-nun ikinci kurs magistrantı***
***ezizova.h@mail.ru***

***Açar sözlər:*** sosiallaşma, ailə, şəxsiyyətin formalaşması.
***Ключевые слова:*** социализация, семья, формирование личности.
***Keywords:*** socialization, family, formation of personality.

Ailədaxili vəziyyət, ailə üzvləri arasındakı münasibətlər həmçinin ailədəki təlim-tərbiyə uşaqların şəxsiyyətinin formalaşmasında, onların sosiallaşma prosesində, cəmiyyətdəki mövqeyində təzahür edir. Sosiallaşma fərdin norma və dəyərləri, mövcud cəmiyyətdə onun yaşaması üçün zəruri olanların mənimsənilməsi prosesidir. Sosiallaşma uşaqlıqdan başlayır və uşağın idrak, fiziki və dil təkmilləşməsi ilə inkişaf edir. Nəticədə mənlik və şəxsiyyətin formalaşması kimi proseslər baş verir. Sosiallaşma prosesində uşaq əvvəlcə yaxın ətrafı ilə ünsiyyət qurur. Bu mühit əvvəlcə ailə, sonra məktəb və buna bənzər xarici mühitdir. Ailənin və ətraf mühitin rəhbərliyi ilə uşaq hansı davranışları nümayiş etdirməyi və necə davranmağı öyrənir. Öyrəndikləri ilə paralel olaraq davranışları inkişaf etdirir. Ondan hansı davranışların gözlənildiyini anlayan uşaq, bu davranışlarını ictimai münasibətlərində nümayiş etdirir. Sosiallaşma ömür boyu davam edən proses olsa da onun effektivliyi həyatın bütün pillələrində eyni deyil.

Sosiallaşma uşaqlıq dövründə sürətlə inkişaf edən proses olsa da onun təsiri yaşlandıqca zəifləyir. Ona görə də sosiallaşma özü-özlüyündə bir sıra mərhələləri əhatə edir. Bunlardan əsasları ilkin sosiallaşma və orta sosiallaşma dövrləridir. İlkin sosiallaşma Cooleyin də qeyd etdiyi kimi ilkin sosial qurumlarda gerçəkləşən və ilkin əlaqələrin əsas götürüldüyü sosiallaşma növüdür. İlkin sosiallaşma fərdin əlaqələrinin ilk və əsas xüsusiyyətləri baş verdiyi mərhələni təmsil edir, bu mərhələ də əsasən ailə quruluşunu ehtiva edir. Uşaq, şəxsiyyətinin əsas xüsusiyyətlərini həyatının ilk illərində və ailə mühitində əldə edir, ilk dəfə danışmağı, emosional paylaşımı və sosial dünyanı öyrənir. Sosiallaşmada ən vacib amil danışıq ailədə öyrənilir. Cəmiyyətə uyğunlaşmaq üçün vacib olan dəyərələr, adət-ənənələr, davranış qaydaları ailə vasitəsilə öyrənilir.

Ailənin sosiallaşmada rolu üç əsas elementi özündə birləşdirir.Birincisi valideynlər fiziki xüsusiyyətlərini uşaqlarına ötürür, ikincisi ailənin uşaq üçün yaratdığı mühitdir. Son olaraq isə valideynlərin uşaqlara aşıladığı mədəni elementləri qeyd edə bilərik. Ailənin sosiallaşmada əhəmiyyətini dərindən analiz etmək üçün Kinqsley Davisin 1945ci ildə nəşr etdirdiyi məqalədə təqdim etdiyi iki nümunəni nəzərdən keçirək.(3) Nümunələrdən birincisi Anna adlı qız haqqında idi. Anna həyatının ilk altı ilini qaranlıq bir otaqda keçirmişdi. Bu müddət ərzində ara-sıra ona yemək verən və ünsiyyət qurmayan əqli cəhətdən zəif anasından başqa heç kəslə əlaqədə olmamış və bu altı ili izolyasiya şəraitində böyümüşdür. O tapıldıqda nə gəzə, nə də danışa bilirdi və əqli cəhətdən yaşıdlarından geri qalmışdı.

Yalnızca iki il müddətində pedaqoq və psixoloqlarla müalicədən sonra Anna təməl insani davranışları qavramağa başlamışdı. İkinci nümunə isə kar və lal anası tərəfində balaca bir evdə böyüdülən və digər insanlarla heç bir ünsiyyətdə olmamıs İzabella idi. Tapılanda altı yaşında idi. İnsanların qarşısında qorxaq və aqressiv davranır, qəribə və çirkin səslər çıxarırdı. İzabella Anna kimi gəzə və danışa bilmirdi. Həm də anası kimi kar və lal idi. Ancaq əl hərəkətləri ilə anası ilə

məhdud bir əlaqəyə sahib idi. İzabella da Anna kimi iki il müddətində müalicə olunmuşdu, lakin onun inkişafı Annadan daha sürətli gedirdi. Anna və İzabellanın inkişaf prosesindəki fərqin səbəbi, Annanın digər insanlarla daha az təmasda olmasıdır. Digər tərəfdən, İzabella məhdud və dayaz olsa da, anası vasitəsi ilə əlaqələr sisteminin bir hissəsi olmaq imkanı əldə etmişdi. Hər iki nümunədə ailənin sosiallaşma və cəmiyyətə uyğunlaşma və ən önəmlisi insan şəxsiyyətini formalaşmasinda nə dərəcə də əhəmiyyətli olduğu öz təsdiqini tapır (3).

Uşağın şəxsi keyfiyyətlərinin əsası məhz məktəbəqədər yaşlarda təşəkkül tapmağa başlayır.Ailənin uşağa təsiri bu yaşlarda xüsusilə böyük olur. Uşaqların ailə modelini istifadə edərək sosiallaşmasının birinci nümunəsi təqliddir. Bir uşaq üçün ailədaxili münasibətlər sosial münasibətlərin ilk təcrübəsidir. Ailədə uşaq ailə rolları, evlilik, tərbiyə funksiyaları haqqında fikir əldə edir, valideynlərin davranışlarını təqlid edərək sosial davranış bacarıqlarını öyrənir. Bu haqda danışarkən George Herbert Mead-in sosiallaşma haqqında nəzəriyyəsini qeyd etməliyik. Bu nəzəriyyəyə görə uşaqların sosiallaşması üç mərhələni keçir . İlk olaraq təqlid mərhələsidir.Uşaq təfəkkürü yetkinləşmədiyi üçün onlar böyüklərin yaxşı və pis hərəkətlərini bir-birindən ayırmadan hər ikisini təqlid edirlər. Kortəbii təsirlər uşağa şüursuz, nəzarətsiz, təkrarlanan gündəlik təsirlərdir, məsələn, böyüklərin davranışı, kök salmış vərdişləri, onların gündəlik rutini və s. Uşaq ətrafdakı böyüklərin münasibətlərini müşahidə edərək insan münasibətləri haqqında ilkin fikirlərini formalaşdırır.Sosioloqların fikrincə təkcə ailənin məqsədyönlü tərbiyəsi yox,bütün ailə mühiti uşağa təsir edir və ailədə yaranmış mühit, əlaqələr sistemi uşağın xarakterinin formalaşmasının təməlini təşkil edir.

Valideynlərin sosial statusu, məşğulluq növü, maddi səviyyəsi və təhsil səviyyəsi də daxil olmaqla ailə şəraiti uşağın sosiallaşma istiqamətini əvvəlcədən müəyyənləşdirir.İkinci mərhələdə isə davranışlar şüurlu şəkildə təkrar edilir. Oyun mərhələsində uşaqlar tədricən sosial münasibətlərdən xəbərdar olur və həkim, valideyn, super qəhrəman və s. rolları ifa edirlər. Nəhayət, son-kollektiv oyunlar mərhələsində 8 və ya 9 yaşlı uşaqlar nəinki öz sosial mövqelərini, həm də ətrafdakıların mövqelərini başa düşürlər. İnsanın həyatında bu yaşlarda formalaşan xüsusiyyətlərinin böyük əhəmiyyəti vardır və bu formalaşma prosesində valideynlər xüsusi rol oynayır. A.S.Makarenka uşağın tərbiyəsində valideyn nümunəsinin əhəmiyyətini göstərərək demişdir: “Sizin öz davranışınız ən həlledici məsələdir.Elə bilməyin ki, siz uşağı yalnız onunla danışanda və ya onu öyrədəndə, yaxud ona əmr verəndə tərbiyələndirirsiniz. Siz onu öz həyatınızın hər bir anında, hətta evdə olmadığınız zaman datərbiyə edirsiniz. Siz necə geyinirsiniz. Başqa adamlarla və özgə adamlar haqqında necə danışırsınız, necə sevinir və necə kədərlənirsiniz, dostlar və düşmənlərlə necə rəftar edirsiniz , necə gülürsünüz-bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır.Uşaq sizin həyatınızın ahəngindəki ən kiçik dəyişikliyi görür, yaxud hiss edir, sizin fikrinizin bütün dönüşləri gözə görünməyən yollarla ona çatır, siz bunları görmürsünüz.

Ailə insanın xarakterinin, işə münasibətinin, əxlaqi, ideoloji, siyasi və mədəni dəyərlərinin təməlini qoyur. Burada uşağın gələcək sosial davranışının əsas xüsusiyyətlərinin formalaşması baş verir. Uşağın sosiallaşmasına təsir edən faktorlardan biri ailə daxilindəki emosional vəziyyətdi. Bura valideynlərin bir-biri ilə və uşaqla davranış formaları daxildir. Uşağın ən böyük ehtiyacı sevgi və valideynləri tərəfindən başa düşülməkdir. Anlama, valideynlərin uşağının fərdi xüsusiyyətlərini bildiyini, təcrübələrinə, emosional təzahürlərinə diqqətli olduğunu və duyğularını başa düşdüyünü əhatə edir. Valideynlər uşaqla empatiya qurur, onu şərh edə bilir, şəxsi təcrübəsinə əsaslanaraq uşağın hərəkətlərinin səbəblərini anlamağa çalışır və onları cəzalandırmağa tələsmir. Anlama, valideynlərin uşağının güclü və zəif tərəflərini bildiyini, müəyyən təhsil təsirlərinə reaksiyasını gözlədiyini, tərbiyə metodlarından çevik istifadə etdiyini

də ehtiva edir. Uşağı başa düşmək valideynlərə onunla əlaqə qurmağa, problemləri "demokratik" bir şəkildə həll etməyə kömək edir.

Valideynlərin uşaqlarla əlaqə formasına və tərbiyə üsuluna görə uşağın şəxsiyyəti formalaşır. Nümunə olaraq, avtoritar ailələrdə böyüyən uşaqların ictimai münasibətlərdə bəzi problemlərlə qarşılaşması təbii bir vəziyyət kimi qəbul edilə bilər. Çünki bu uşaqlar sıx təzyiq altında böyüyür. Bu təzyiq vəziyyəti, özlərinə güvənməmək və fikirlərini ifadə edə bilməmək kimi problemlərlə qarşılaşmalarına səbəb olur. Bu uşaqlar istəklərini ifadə etməkdə çətinlik çəkirlər , arzularına uyğun hərəkət edə bilmirlər.Digər bir nümunə qoruyucu ailə tiplərinin uşağın sosiallaşmasına təsiridir. Ümumiyyətlə, qoruyucu valideynlərin münasibətinin uşağın sosiallaşma prosesinə mənfi təsir etdiyini söyləmək səhv olmaz. Bu vəziyyətin ən əhəmiyyətli səbəbinin uşağın özünü inkişaf etdirmək imkanının olmamasıdır. Uşağın təməl vəzifələri və verməli olduğu qərarlar valideynlər tərəfindən təyin olunduğundan bu tip ailələrdə böyüyən uşaqlar gələcəkdə həyatında lazım olan bir çox bacarıqdan məhrum olacaq.

Bu vəziyyətdə uşaq həm işində, həm də ictimai münasibətlərində uğursuz olur. Uşağın sosiallaşma prosesinə digər mənfi təsiri, uşağın məsuliyyətlərini yerinə yetirməyən biri olmasına səbəb olmasıdır. Valideynləri tərəfindən ehtiyacları qarşılanan bir uşaq, gələcəkdə ehtiyaclarının başqaları tərəfindən qarşılanacağını gözləyə bilər. Bu vəziyyətdə məsuliyyət götürməyən uşaq, məsuliyyətlərin eyni şəkildə başqaları tərəfindən yerinə yetirilməsini gözləyir.Ailədə uşağa qarşı laqeydliyin olması kimi hallar da uşağın sosiallaşmasına mənfi təsir göstərir. Valideynlərin uşaqlarla maraqlanmamasının sosial nəticələrindən biri də, uşağın hansı davranışların doğru və hansının səhv olduğunu ayırd edə bilməməsidir. Bu uşaqlarda hansı davranışları nümayiş etdirmək lazım olduğuna dair problemlər yaranır.Uşağın ünsiyyət istəyini təmin etməyən valideynlərin laqeydliyi fərdin ictimailəşməsinin gecikməsinə və hətta cəmiyyətdə deviant davranışlar sərgiləməsinə yol aça bilər. Ən düzgün sosiallaşma demokratik tipli ailələrdə reallaşır. Bu tip ailələrdə uşaq nə istədiyini açıq şəkildə ifadə edə bilsə də, nə etməməli olduğunu da öyrənir. Çünki bu qarşılıqlı əlaqədə uşağa sadəcə bir şey "etməməli" olduğu söylənmir.

Bu vəziyyətin səbəbi izah edilir və uşaq vəziyyəti tam anlaya bilir .Uşaqlar əxlaqi dəyərləri və sosial konvensiyaları, çoxu valideynlərin barət olan bir sosiallaşma prosesi ilə öyrənirlər. Proses iki istiqamətlidir və genetik və sosial-mədəni faktorlar arasında kompleks qarşılıqlı əlaqəni əhatə edir. Uşaqların valideynlərin müdaxilələrini qəbul etməsi və ya mənasını təyin etməsi mərkəzi rol oynayır. Sosiallaşma, valideyn-uşaq münasibətlərinin fərqli aspektləri və müxtəlif tərbiyə üsulları ilə baş verir. Bunlara qoruma, qarşılıqlı əlaqələr, nəzarət, təlim və tərbiyə prosesi daxildir.

UNICEF-in araşdırmasına əsasən ata və anaların uşaqların sosiallaşma prosesində rolu olduqca fərqlidir (5). Uşaq həyatı öyrənərkən ilk tərbiyəçisi anası olur. Bir uşağın şəxsiyyətinin inkişafına diqqət yetirərkən onun emosional inkişafından söz açmalıyıq.Uşaqlıq dövründən təbii və praktik olaraq ən böyük sevgi,qayğı,rəhbərlikvə motivasiya mənbəyi olaraq qalan analardır.Uşağı tərbiyə etmək,fiziki və zehni böyüməsi, təhlükəsizliyi və təhsili ilə məşğul olmaqda yük daha çox anaların üzərinə düşsə də bu heç bir şəkildə atanın uşağın sosiallaşmasında və şəxsiyyətinin inkişafındakı məsuliyyətini azaltmır.Analar qızlara gələcək ana rollarında, atalar isə oğlanlara gələcək ata rollarını öyrədir.Atalar daha çox uşaqların real problemlərə hazırlaşmaqlarına, analar isə onların bu problemlərdən qorunmağına,müdafiəsinə kömək edir. Atalar daha çox risk almağa, araşdırma aparmağa, aktiv istirahətə və təşəbbüs göstərməyə meyllidirlər. analar daha çox rol oynayan, obyekt vasitəli oyun və uşaq baxımı ilə məşğul olurlar (2).

Bu üslublar bir-birini balanslaşdırır ki, bu da uşağın təcrübə qazanmasına kömək edir,onda özünə inamı artırır. Ailənin sosiallaşmaya təsiri dedikdə təbii ki,təkcə valideynlərin təsiri nəzərdə

tutulmur. Bura həmçinin nənə baba böyük bacı və qardaşların kiçiklərə həmçinin digər qohumların birbaşa və ya dolayı yolla uşağın şəxsiyyətinin formalaşmasına olan təsiri nəzərdə tutulur.Məsələn gənc cütlüyün uşağı olduqda nənə və baba həmçinin digər qohumlar uşağın sosiallaşmasına birbaşa və ya fərqli yollarla (bura əsasən təcrübələrindən qaynaqlanaraq yeni valideynlərə məsləhətlər vermək daxildir) təsir edirlər və hətta mühüm bir hissəsini əhatə edirlər.

Üstəlik ailədəki kiçik yaşlı uşaqların sosiallaşmasında onlardan yaşca böyük bacı və qardaşlarının da rolu böyükdür. Çünki kiçik yaşlı uşaqlar valideynlərin sonra nümunə götürdükləri şəxslər ailənin böyük uşağı olur və hətta əksər hallarda kiçik yaşlılar böyüklər nə edirlərsə onu təkrarlamağa meyilli olurlar. Bundan başqa ailənin böyük uşaqları kiçiklərin qayğısına qalır,onları müdafiə edirlər. Bu hal təkcə kiçik uşaqların sosiallaşmasında yox ailənin böyük uşağının sosiallaşmasında da əhəmiyyətli rol oynayır. Kiçik uşaq ehtiyacı olan emosional qayğı, qorunma hissi ilə təmin olunarkən böyük uşaq gələcək ana/ata roluna hazırlaşır.

Sosioloqlar uşaqların sosiallaşmasında valideynlərin yaşadığı mühitin ,onların sosial statusunun, ailənin yaşadığı ölkənin adət ənənələrinin,siyasətinin din və digər ictimai faktorların əhəmiyyətli yer tutduğunu qeyd edirlər. Nümunə olaraq yoxsul və zəngin ailələrdə uşaqların sosiallaşma prosesi bir-birindən bir çox xüsusiyyətlərinə görə fərqlənir.Məsələn, yoxsul ailələr uşaqlarını tərbiyə edərkən adətən itaətkarlığa və atraf-mühitə uyğunlaşmağa,varlı ailələr mühakiməyə və yaradıcılığa önəm verirlər (Nation Opinion araşdırma mərkəzi). Bunun səbəbi yoxsul ailələrin valideynlərinin daha az təhsili və əsasən təkrarlanan vəzifələrinin olmasıdır, bu valideynlərin iş yerlərində qaydalara riayət etmək əsas lazımlı xüsusiyət olduğundan övladlarına da bunu aşılayırlar.Varlı valideynlər isə daha yaxşı təhsilə sahib olurlar və əsasən rəhbər vəzifələrdə və ya yaradıcılıq tələb edən iş yerlərində çalışdıqlarından bu xüsusiyyətləri uşaqlarında formalaşdırmağa çalışırlar.

Bundan əlavə, hər bir ailənin cəmiyyətə uyğun olmasını təmin etmək üçün övladlarına ötürdüyü ənənələr, davranışlar və digər fərqli mədəni təcrübələri vardır. Beləliklə, fiziki və psixoloji miras, ətraf mühit və mədəniyyət ailənin uşağa öyrətdiyi əsas elementlərdir. Sosiallaşma, uşaqların bir cəmiyyətin funksional üzvləri halına gəlməsi ilə davam edən bir sosial qarşılıqlı əlaqə prosesidir. Müəyyən bir cəmiyyətdə funksional üzv olmağın nə demək olduğu daha geniş sosial-mədəni kontekstdən asılıdır. Valideynlər uşaqların ictimailəşməsində xüsusilə təsirli rol oynayır və bunu cəmiyyətlərinə uyğunlaşmaq üçün lazım olan davranış və münasibətləri təşviq etməklə əldə edirlər. A.N.Leontiyevin qeyd etdiyinə əsasən insan əsl insani xassələrə və qabiliyyətlərə ailədə yiyələnir.

İnsani xüsusiyyətlər dedikdə insanın nəyin səhv nəyin düzgün olduğunu ayıra bilməsi, ətrafda baş verən hadisələri düzgün qiymətləndirməsi və öz ədalət süzgəcindən keçirməsi nəzərdə tutulur. Hər ölkənin daha doğrusu hər mədəniyyətin özünün normaları adət-ənənələri özünə uyğun davranış tipləri var. Bütün bunların öyrənilməsinin təməli isə ailədə qoyulur. İlk olaraq uşağa "düz" və "səhv", "doğru" və "yanlış" arasındakı fərqlər öyrədilir. Ailə bu prosesi mükafatlandırma və cəzalandırma üsulu ilə həyata keçirir. Uşağın davranışına uyğun valideyn onu ya mükafatlandırır ya da cəzalandırır. Mükafatlandırılan uşaq hər dəfə mükafatlandırılmaq üçün eyni hərəkəti təkrar edəcək,cəzalandırılan uşaqsa bu davranışı bir daha etməmək üçün çalışacaq.Beləliklə uşaqlarda yaşadıqları cəmiyyətin normalarına uyğun davranış formalaşmağa başlayacaq.

Uşaqların sosial rollarını dərk etməsində də ailədaxili sosiallaşmanın mühüm rolu var. Sosial rolun dərk edilməsi dedikdə, cinsiyyət fərqləri və bir cəmiyyət içərisində iki cins arasında əmək bölgüsünün, davranışlarında fərqliliklərin mənimsənilməsi nəzərdə tutulur. Sosiallaşma nəzəriyyəsi, ailədaxili sosiallaşmanın - uşağın ailə üzvlərindən münasibətləri, dəyərləri və hərəkətləri öyrəndiyi zaman meydana gələn prosesin sosial inkişafın ən vacib mərhələsi

olduğunu və bütün gələcək sosiallaşmanın əsasını təşkil etdiyini söyləyir. Bu səbəbdən ailə, uşağın mənimsəyəcəyi münasibətlərə və uşağın sahib olacağı dəyərlərə təsir edərək uşağın inkişafında əsas rol oynayır. Yəni ailə daxilindəki mühit ata və ana arasındakı əmək bölgüsü və başqa bu kimi faktorlar uşaqların gender cəhətdən sosiallaşmasının və öz rollarını dərk etməsini təmin edir.Ailə daxilində gender sosiallaşmasına valideynlər tərəfindən bir qadın və ya kişi olaraq uşaqların sosiallaşması üçün lazım olan normaların, davranışların, dəyərlərin və bacarıqların ötürülməsinə aiddir. Valideynlər gender sosiallaşmasında bir çox cəhətdən rol oynayırlar: onlar modellərdir, uşaq davranışlarını gücləndirir/cəzalandırır, uşaqların mühitini seçir və bu mühitlərdə imkanları formalaşdırır və uşaqların bacarıqlarını inkişaf etdirir (4).

Uşaqların valideynlərini təqlid ettiklərini və nümunə götürdüklərini artıq məqalənin əvvəlində qeyd etmişdik ki, bu hal onların gender cəhətdən sosiallaşmasında da mühüm rol oynayır. Valideynlər arasındakı əmək bölgüsü: nümunə olaraq ananın daha çox ev işləri ilə məşğul olduğunu görən qız daha çox bu işlərə yönümlü olacaq və ya atanın evdə daha çox təmir işləri ilə məşğul olduğunu görən oğul təmir işlərini öyrənməyə meyilli olacaq.Hətta bu uşaqların oyunlarında da öz əksini tapır. Bundan başqa valideynlərin əzizləmə və ya müraciət forması da uşağın sosiallaşmasında rol oynayır. Məsələn “mənim zərif qızım” ‘mənim güclü oğlum” kimi müraciətlər uşaqların xarakterinin təməlini formalaşdırmaqda əhəmiyyətli rol oynayır. Gender sosiallaşmasının ilkin və ən sadə addımı uşaqların maraqlarının formalaşdırılmasıdır. Məsələn, valideynlər daha çox oğlanları üçün oyuncaq nəqliyyat vasitələri, hərəkət fiqurları və idman ləvazimatları və qızları üçün kuklalar, mətbəx dəstləri və bəzək oyuncaqları alırlar.Bunlar uşaqlarda öz genderlərinə uyğun ilk xüsusiyyətlərin, maraq dairəsinin formalaşmasına səbəb olur.

Ailədə sosiallaşmadan danışarkən qısa da olsa mədəni sosiallaşma haqqında qeyd etmək lazımdır.Mədəni sosiallaşma, valideynlərin mədəni dəyərləri, inancları, adətləri və davranışları uşağa çatdırma və ötürmə yollarını və uşağın bu mesajları nə dərəcədə mənimsəməsini ehtiva edir.Valideynlər yaşadıqları ölkənin tarixini,mədəniyyətini adətlərini uşaqlarına öyrətməklə nəsillər arasında bir növ körpü inşa edirlər ki, bu da mədəni sosiallaşmanın əsasını təşkil edir.Uşaqlar cəmiyyətdəki qaydaları və dəyərləri ilk növbədə yetkin olan valideynlərdən öyrənirlər. Uşağın yetkinlik yaşına çatmış valideynlərindən öyrəndiyi qaydalar və dəyərlər, sosiallaşma prosesini həyatı boyu formalaşdırır. Çünki sosiallaşma nöqtəsində həyatın ilk illərində öyrənilənlər çox vacibdir.Sosial və sosial dəyərlər fərdlərə nisbətən daha uzun müddət davam edir.Bu səbəbdən ictimai həyatda dəyərlər və həyat tərzi nəsildən -nəsilə ötürülür. Bu köçürmə prosesində, kiçik uşaqlar özlərindən daha böyüklərdən necə davranacaqlarına dair ipucları alırlar. Bu, sosiallaşma prosesində böyüklərlə qarşılıqlı əlaqənin əhəmiyyətini göstərir. Sosial sistemi inkişaf etdirmək və qorumaqda yetkin nəsillər gənc nəslə rəhbərlik edir.

## ƏDƏBİYYAT

1. “Ailədə baş verən zorakılıqlar və şəxsiyyətin formalaşmasına təsir edən amillər” // // Humanitar elmlərin öyrənilməsinin psixoloji məsələləri. Mianji N.E Bakı, 2007, № 6, s. 226-231
2. “ Developmental patterns and parental correlates of youth leisure-time physical activity” Lam CB, McHale SM J Fam Psychol. 2015 Feb; 29 (1):100-7.
3. “Final Note on a Case of Extreme Isolation”, Kingsley Davis, reprinted from American Journal of Sociology, vol. 52, 1947. pp. 432–447.
4. “ Infant Behavior and Development” 2011 article Marc H. Bornsteina,, Clay Masha, Martha E. Arterberry

5. "Socialization, and The Conceptual and Functional Transformation of Socialization in Social Media Channels" Saniye Vatandaş (Lect. Ph.D.) Isparta University of Applied Sciences 24.07.202 saniyevatandas@isparta.edu.tr

## AİLƏDƏ UŞAQLARIN SOSİALLAŞMASINA TƏSİR EDƏN AMİLLƏRİN ELMİ TƏHLİLİ

***Əzizova Həmidə***

### XÜLASƏ

Sosiallaşma fərdin cəmiyyətdə mövcud olan norma və dəyərlərin mənimsənilməsi prosesidir. Bu proses sosial institutların təsiri ilə baş verir ki, bunlardan ən əhəmiyyətlisi ailədir. Ailədəki üzvlər arasındakı əlaqələr, valideynlərin uşağa münasibəti, təlim və tərbiyə faktorları ailənin sosiallaşmaya təsirinin ilkin elementləridir. Bundan başqa qeyd etmək lazımdır ki, cəmiyyətdə qəbul edilmiş düzgün davranış formaları adət və ənənlər ailə vasitəsilə uşağa ötürülür.Yəni ailə uşağın şəxsiyyətinin formalaşması,digər insanlarla münasibətinin hansı şəkildə qurulması və nəhayət sosiallaşma prosesinin əsasını təşkil edir.

## НАУЧНЫЙ АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА СОЦИАЛИЗАЦИЮ ДЕТЕЙ В СЕМЬЯ

***Азизова Хамида***

### АННОТАЦИЯ

Социализация - это процесс усвоения человеком норм и ценностей, существующих в обществе. Этот процесс происходит под влиянием социальных институтов, важнейшим из которых является семья. Взаимоотношения между членами семьи, отношение родителей к ребенку, факторы обучения и воспитания являются первостепенными элементами влияния семьи на социализацию. Кроме того, следует отметить, что общественно принятые формы поведения, обычаи и традиции передаются ребенку через семью. То есть семья - это основа формирования личности ребенка, как выстраивать отношения с другими людьми и, наконец, процесс социализации.

## SCİENTİFİC ANALYSİS OF THE FACTORS İNFLUENCİNG THE SOCİALİZATİON OF CHİLDREN İN THE FAMİLY

***Azizova Hamida***

### SUMMARY

Socialization is the process by which an individual assimilates the norms and values that exist in society. This process takes place under the influence of social institutions, the most important of theirs is family. Relationships among family members, the attitude of parents to the child, factors of education and upbringing are the primary elements of the influence of the family on socialization. Besides that, it should be noted that the socially accepted forms of behavior, customs and traditions are passed on to the child through the family. So, the family is the foundation how to for the formationof the child's personality, how to building relationships with other people and,finally,the process of socialization.

# AZƏRBAYCANDA AHILLARIN SOSİAL HƏYATA CƏLB EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ YOLLARI

***f.ü.f.d.Rəcəbəli Əliyev***
***BDU-nun Sosioloji tədqiqatlar laboratoriyası, baş elmi işçi***

Azərbaycanda ahıl insanlara, onların sosial müdafiəsinə daim xüsusi diqqət və qayğı göstərilir. Bunun nəticəsi kimi hələ 1993-cu ildən ölkəmizdə də hər il Beynəlxalq Ahıllar günü yüksək səviyyədə qeyd olunmaqla, bu kateqoriyadan olan vətəndasların təminatlarının artırılması üçün ardıcıl işlər aparılıb. Uğurla davam etdirilən və daha da gucləndirilən bu siyasət ahıl insanlarımızın etibarlı sosial müdafiəsinə yönələn tədbirlərin ildən-ilə geniş miqyas almasına imkan verir. Ahıl insanların sosial müdafiəsinin gücləndirilməsinə pensiya təminatı xüsusi rola malikdir. Hazırda ölkəmizdə əmək pensiyaların mühüm bir hissəsi də ahıl vətəndaşlar təşkil edir. 2006-çi ildə sığorta prinsiplərinə əsaslanan yeni "Əmək pensiyaları haqqında" qanun qüvvəyə mindikdən ötən dövrdə ölkəmizdə əmək pensiyasının məbləği minimum 8 dəfə artib [1].

Ölkəmizdə minimum pensiya 2019-cu il martın 1-dən 116 manatdan 160 manata, oktyabrın 1-dən isə 200 manata çatdırılıb. Beləliklə, Azərbaycanda əmək pensiyasının minimum məbləği təkcə cari il ərzində 72,4 faiz artırılıb həmçinin yeni məbləğdə ölkəmizdə minimum pensiya məbləği pensiyaçılar üçün yaşayış minimumu 34,2 faiz üstələyib. 18 iyun 2019-cu il tarixli sərəncamı ilə dövlət qulluqçularının, hərbi qulluqçuların, ədliyyə, fövqəladə hallar, miqrasiya orqanları əməkdaşlarının xüsusi rütbəli şəxslərin əməkdaşları cari il sentyabrın 1dən ciddi şəkildə artırılıb. Ahil insanların bir qismi də ikinci Dünya Müharibəsi iştirakçılarıdir [2].

Hər il 9 may, yəni Qələbə günü ərəfəsində dövlət başçısının müvafiq Sərəncamı imzalanır. İkinci dünya müharibəsi istirakçılarına və ya sonradan vəfat etmiş döyüşçülərinin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardımlar verilir. Prezident İlham Əliyev 15 aprel 2019-cu il tarixli fərmana əsasən cari il aprelin 1-dən müharibə əlilliyi olanlar üçün təqaüdlər l dərəcə əlilliyi olanlar üçün 250 manata, ll dərəcə əlilliyi olanlar üçün 230 manata, lll dərəcə əlilliyi olanlar üçün 210 manata çatdırılıb [3].

Dovlət Qroqraminin əsas məqsədi ahıl adamlarının sosial müdafiəsinin gücləndirilməsinə Nail olmaqdır. Dövlət Qroqraminin əsas vəzifəsi aşağıdakılardır: ahıl vətəndaşların cəmiyyətin sosial- iqtisadi və siyasi həyatında inkişafın təmin edilməsi; ahıl vetəndaslarin cəmiyyətin sosial iqtisadi və siyasi həyatında iştirakının təmin edilməsi; ahıl vətəndaşların sağlamlığının qorunması; BMT Baş Məclisinin 1992 -ci ildə qəbul etdiyi müdafiə qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar günü kimi qeyd olunması cəmiyyətdə ahılların probllerinin həllinə diqqət və qayğının artiirasi məqsədi daşıyır.

"Sosial Xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ölkəmizdə yaşı 70-ə çatmış şəxslər ahıl hesab olunur. Ahıl vətəndaşların bir qismini təşkil edən 1941-1945-ci illər İkinci Dünya müharibəsi istirakcilarının ödənilən orta aylıq pensiya məbləği 356 manatdir [4]. Aylıq əmək pensiyası ilə yanaşı Azərbaycan prezidenti İlham Əliyev müvafiq fərmanı ilə 2008-ci ilin sentyabrından digər müharibə əlilləri kimi, İkinci Dünya müharibəsi əlillərinə də Azərbaycan Prezidentinin aylıq təqaüdü ödənilir.

Deməli, təbiətlə qarşılıqlı münasibətlərin mahiyyətini mümkün qədər düuzgün dərk etmək və onların, rasional qərarlaşması istiqamətində çalışmaq mühüm həyati məna, dəyər kəsb edir. Bu, milli hüdudlardan kənara çıxan, dövlətlərin əməkdaşlığına əsaslanan, əlbir fəaliyyəti nəzərdə tutan təxirəsalınmaz sosial vəzifədir. Lakin etiraf etməliyik ki, qonşu Ermənistanın yeritdiyi siyasət və reallaşdırdığı praktika terrorçuluq, vəhşilik və saxtakarlıq istiqamətlidir, ciddi faciələrə yol açır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq qeyd etmişdir ki, "Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycanın işğal olunmuş torpaqlarında ekoloji terror törədib. Qədim tarixə, nadir maddi və mənəvi irsə, özünəməxsus flora və faunaya, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Qarabağ düşmən tərəfindən vəhşicəsinə istismar edilib. Regionun meşə örtüyü məqsədli şəkildə məhv edilib, münbit torpaqlar, su ehtiyatları ekoloji və radioaktiv çirklənməyə məruz qalıb" (5). Bakı Dövlət Universitetinin Coğrafiya ixtisası üzrə dosenti T.İbrahimov vaxtilə iki illik hərbi xidmətini Xankəndində keçirmiş, ermənilərin xislətitni daha yaxından öyrənə bilmişdir. O yazır: "Bu iki ildə erməni millətinin çürüklüyünü, xəyanətkarlığını və bizə qarşı düşmənçiliyini tam öyrənə bildim. Bu proseslər elə açıq-aydın gedir ki, bunu duymamaq, hiss etməmək mümkün deyildi. Onu da qeyd edim ki, doğulub, böyüyüb boya-başa çatdığım və 17 il Qərbi Azərbaycanın Göyçə mahalında yaşadığım zaman duyduğum düşmənçilik daha zəif, Xankəndində isə millətçilik və düşmənçilik siyasəti daha qabarıq getdiyindən iki ilin ərzində mənə çox şey aydın oldu" (6).

Ermənistanın törətdiyi ekoloji terrorun miqyaslarını aydın təsəvvür etmək üçün bir neçə faktın qeyd olunmasını məqsədəuyğun hesab edirik.

- İşğal olunmuş ərazilər müxtəlif növ minalarla, digər döyüş sursatları ilə deformasiyaya məruz qalmış, torpaqların xeyli qismi özünün əvvəlki keyfiyyətini itirmişdir. Ermənistan tərəfi minaların xəritələrini verməkdən imtina etmiş, müxtəlif təkidlərdən sonra verdiyi xəritələrin dəqiqlik əmsalı təxminən 25 faiz olmuşdur. Sahələrin minalardan təmizlənməsi əməktutumlu prosesdir, ciddi diqqət və vaxt tələb edir.
- Təbii sərvətlərin istismarı və mənimsənilməsi qeyri-qanuni şəkildə həyata keçirilmişdir. Həmin ərazilərdəki qiymətli sərvətlər dağıdılmış və Ermənistana daşınmışdır.
- Yaşıllıqlar, meşələr qırılıb, talanıb, satılıb, hətta meşələr qəsdən yandırılıb ki, ekoloji fəlakət, faciə baş versin, nizamsızlıq artsın. Məlumatlara görə, işğala məruz qalmış torpaqlarımızda 280 min hektar meşə sahəsi var idi. Bundan 13197,5 hektarı qiymətli ağac növləri olmuşdur. Bu ağac növlərinin çoxu yarımfabrikat kimi xarici ölkələrə daşınmışdır. Ermənistan ekoloji terroru davam etdirməkdə maraqlı olduğundan noyabr ayında Şuşa şəhəri ətrafında Topxana meşəsini zəhərli və dünyada istifadəsi qadağan olunmuş ağ fosfor maddəsindən istifadə etməklə yandırmış, hətta döyüş bölgəsindən uzaqda yerləşən Ağgöl və Göygöl milli parklarının ərazilərində raketlə yanğın törətmişdir. Düşmən Qubadlı şəhərinin mərkəzində təbiət abidələri olan, yaşı 150-300 ilə çatan Şərq çinarlarını, çoxillik qoz ağaclarını 2 hektar sahəsi olan meşə-parkı tamamilə məhv etmişdir.
- Rəsmi məlumatlar göstərir ki, ekoloji terror nətcəsində su ehtiyatları, çaylar da çirklənməyə məruz qalmışdır. Məsələn, Araz çayının Azərbaycan ərazisindən keçən 43 kilometr hissəsində mikroflara və mikrofauna məhv edilibdir; suyun tərkibindəki ağır metalların miqdarı normadan dəfələrlə çoxdur. Araz çayını ən çox çirkləndirən çaylardan biri Oxçuçaydır. Zəngilan rayonunun ərazisindən axan bu çay Ermənistanın dağ-mədən kombintlarının yüz min tonlarla ağır metal duzlarını, kimyəvi turşuları axıtmaqla ekoloji terrorun miqyasını genişləndirir. Yeri gəlmişkən qeyd edək ki, ötən yaxın vaxtda BMT-nin rəsmi sənədində ətraf mühitə zərərli təsir göstərən mənbələr sırasında Oxçuçayın adı da öz əksini tapmışdır. BMT həmin mənbə ilə bağlı ciddi tədbir görülməsini, çirklənmənin zəiflədilməsi vacib hesab edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il oktyabrın 15-də MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında çıxış edərək iştirakçıları real vəziyyətlə tanış etmişdir. O bildirmişdir ki, "hazırda Azərbaycanın qarşısında duran əsas problemlər azad edilmiş ərazilərin minalardan təmizlənməsi və dağıdılmış infrastrukturun, binaların, evlərin, Azərbaycan xalqının tarixi abidələrinin bərpasıdır. Müharibədən sonra 150-dən çox vətəndaş minaya düşərək həlak olub, yaxud ciddi xəsarətlər alıb…. Mən işğal illərində dəfələrlə bəyan etmişdim ki, işğal olunmuş ərazilərdən narkotrafik məqsədilə və beynəlxalq terrorçuların hazırlanmasv üçün istifadə edilir. Bu gün bu, sübut edilmiş faktdır». Prezident əlavə etmişdir ki, artıq müharibə və münaqişə tarixdə qalmışdır. "Biz ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitsiyasına dair Ermənistanla danışıqlara başlamağa hazırıq, həmçinin Ermənistan ilə sülh sazişinə dair daşınıqlara başlamağa hazırıq. Azərbaycan qalib ölkə kimi münasibətlərini normallaşdırmağa hazırdır" (1). Prezident öz çıxışında Azərbaycan ərazilərində vandalizm təzahürlərinə tam aydınlıq gətirilibdir: Füzuli şəhərində və Füzuli rayonunun bütün kəndlərində binalar və evlər 100 faizi dağıdılıb, Ağdam şəhərində və Ağdam rayonunda da eyni vəziyyətdir. Cəbrayıl rayonunda cəmi 2 bina salamat qalıb, orada Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları yerləşirdi. Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında da oxşar vəziyyətdir. 60 min hektara yaxın meşənin qırılması da təbiətə çox böyük zərbədir.

Hazırda Qarabağda kompleks bərpa və quruculuq prosesləri gedir. Nəzərdə tutulur ki, həmin torpaqlar "yaşıl enerji zonasına çevrilsin". Qaçqın və məcburi köçkün düşmüş əhalinin böyük qayıdış proqramı hazırlanır. Bu hazırlıq həmin proqram çərçivəsində insanların öz dədə-baba yurdlarına tədricən, hissə-hissə qayıdacağına tam əminlik yaradır. Yeri gəlmişkən, qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən "Azərbaycan 2030: sosial-iqtisadi inkşafa dair Milli Prioritetlər" təsdiqlənmiş, yaxın onilliyin əsas strateji istiqamətləri müəyyənləşdirilmişdir. Bu sənəddə strateji istiqamətlər qismində ekoloji problemlərə xüsusi diqqət yetirilməsi təqdirəlayiqdir: qlobal iqlim dəyişikliklərinin miqyasının azaldılması, Azərbaycanın yaşıllıqlar diyarına çevrilməsi, sağlam, təmiz ətraf mühitin təmin olunması, su ehtiyatlarından səmərəli qənaətcil texnologiyalar əsasında istifadə edilməsi. Bu işlərin məntiqi davamı olaraq prezident İ.Əliyev 2021-ci ilin 20 oktyabrında "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" xüsusi sərəncam imzalamışdır. Sərəncamda qeyd olunur ki, Ermənistanın Azərbaycana təcavüzü insan hüquqlarının, çoxsaylı beynəlxalq hüquq normalarının pozulması, sosial-iqtisadi fəsadlar və mədəni irsə vurulan ziyanla yanaşı, misli görünməmiş ekoloji terror, təbii sərvətlərin genişmiqyaslı və uzunmüddətli talanı ilə nəticələnmişdir.

Prezident işğaldan azad olunan ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərini və obeyktlərinin təbii vəziyyətdə qorunub saxlanılması məqsədilə qərara almışdır ki, "Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun inzibati ərazisində 107 hektar sahədə yerləşən Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyəti bərpa edilsin" (2). Sənəddə respublikanın Nazirlər Kabinetinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, habelə digər aidiyyəti dövlət orqanlarına müvafiq tapşırıqlar da öz əksini tapmışdır.

Ətraf mühitə dymiş ziyanın real mənzərəsini üzə çıxarmaq üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən işlərin görülməsi də təqdirəlayiqdir. Belə ki, Nazirlik Ermənistanın törətdiyi ekoloji terrorla bağlı ekologiya və ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən 31 beynəlxalq təşkilata müraciət olunmasını təşkil etmişdir. İşğaldan azad olunmuş ərazilərdə hələ keçən ildən başlayaraq müxtəlif növ ağacların əkilməsi işləri aparılır. Bundan əlavə,

Nazirliyin əməkdaşları Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində yaradılmış müvəqqəti xüsusi idarəetmənin imkanlarından da istifadə edirlər. Onlar ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə təşkil edilmiş əməliyyat qərargahlarında təmsil olunmuşlar. Nazirliyin əməkdaşları Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlər keçiriblər. Məlum olub ki, işğalçılıq siyasəti və silahlı təcavüz nəticəsində Azərbaycana çox böyük miqdarda ekoloji ziyan dəymişdir. Ermənistan vurduğu ziyanı kompensasiya şəklində ödəməlidir (9). Hazırda işğaldan azad olmuş ərazilər minalardan təmizləndikcə, təhlükəsiz vəziyyətə gətirildikcə ağacəkmə tədbirləri bütün Qarabağ bölgəsini əhatə edəcəkdir.

Ekoloji vəziyyətin yaxşılaşdırılmasında, sağlamlaşdırılmasında ölkənin birinci xanımı Mehriban Əliyevanın xidmətləri, çoxcəhətli fəaliyyəti xüsusi qeyd olunmalıdır. Onun "Hərəmiz bir ağac əkək!" təşəbbüsü ölkəmizin hər yerində rəğbətlə qarşılanır, ciddi maraq doğurur, konkret fəaliyyət təzahürlərini səfərbər edir. O, böyüməkdə olan nəslin milli-mənəvi ruhda böyüməsinə, fəal vətəndaşlıq mövqeyi nümayiş etdirilməsinə xüsusi əhəmiyyət verir. "İDEA" İctimai Birliyinin həyata keçirdiyi layihələr böyüməkdə olan nəslin düzgün formalaşmasında , yaxşı təcrübə qazanmasında əhəmiyyətli rol oynayır. Onun təşəbbüsü ilə xüsusi səliqə-sahman yaradılmış məhəllələr göz oxşayır, həqiqətən heyrətamizdir.

İşğaldan azad olunmuş ərazilərdə kompleks proqramın reallaşdırılması kifayət qədər mürəkkəb prosesdir. Lakin araşdırmalar göstərir ki, bütövlükdə pandemiyanın doğurduğu fəsadlara, mənfi təsirlərə baxmayaraq, Baş nazir Əli Əsədovun qeyd etdiyi kimi, makroiqtisadi sabitlik təmin olunmuş, bir sıra göstəricilər xeyli yaxşılaşmışdır. 2020-ci ildə nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ct yerdədir. Dünya Bankı tərəfindən Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarında da ölkəmiz bir sıra mövqelər üzrə ən qabaqcıl yerlərdədir. Bundan əlavə, Heritic Fondunun 2020-ci ilin nəticələrinə əsaən elan etdiyi İqtisadi Azadlıq indeksinə görə Azərbaycan 38-ci pilləyə yüksəlmişdir (3). Hökümət dövlət başçısının tapşırığına uyğun olaraq azad edilmiş torpaqların təxminən 100 min hektarında əkin işlərinin aparılması həm ölkəmizin ərzaq təhlükəsizliyinə, həm də bölgənin sosial-iqtisadi inkişafına təkan verəcəkdir. Su ehtiyatlarından səmərəli istifadə məsələlərinə xüsusi yetirələcək, azad edilmiş torpaqlarda ən müasir suvarma sistemləri yaradılacaqdır. Su elektrik stansiyalarının tikintisi imkanları da nəzərdən keçiriləcəkdir.

Nəzərə almaq lazımdır ki, Azərbaycan 2021-2030-cu illəri əhatə edən keyfiyyətcə yeni bir strateji mərhələyə daxil olur. Bu mərhələdə də bütün zəruri məsələlərə, o cümlədən ətraf mühitin sağlamlığına, rasionallığına daha ciddi diqqət yetiriləcək, ekoloji problemlərin vaxtında, maksimum səmərəli şəkildə həlli təmin olunacaqdır. Dövlətin maliyyə imkanlarının genişlənməsi fonunda ölkənin hərbi potensialı və müdafiə qabiliyyəti güclənəcəkdir. ".... Biz işğaldan azad edilmiş yerlərə həyatı qaytaracağıq, bütün viran qalmış yerləri bərpa edəcəyik… Həmin ərazilərin bərpası ilə bağlı ilkin işlərə artıq başlanılmışdır. Bütün ərazilərin və şəhərlərin bərpası prosesinin vahid konsepsiya əsasında həyata keçirilməsi nəzərdən tutulur" (yenə orada). "Ağıllı kənd" və "ağıllı şəhər" layihələri bu konsepsiyada özünəməxsus yer tutur.

Bir mühüm məqam da unudulmamalıdır: "Ekologiya, təbiət, ətraf mühit – onlarla bağlı problemlər təkcə ölkələrin, dövlətlərin, dövlət rəhbərlərinin problemi deyil, Yer kürəsində yaşayan hər bir insanın problemidir. Hamımızın ümumi evi olan ana təbiətimizi – torpağımızı, suyumuzu, birlikdə nəfəs aldığımız havamızı qorumaq hər birimizin mənəvi borcudur. Gəlin, nə qədər gec deyil, hər birimiz təbiətə vurduğumuz ziyanın aradan qaldırılmasına çalışaq, təbiətə ətraf mühitə ogey münasibətimizi dəyişək. Yoxsa, ekoloji problemlərin miqyasının yolverilməz

həddə qədər genişlənərək ekoloji fəlakətə çevrilməsi təhlükəsi bütün bəşəriyyət üçün ciddi təhdiddir" (5).

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il oktyabrın 15-də MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında çıxışı // "Azərbaycan" qəzeti, 16 oktyabr, 2021-ci il, №223 (8816).
2. "Azərbaycan Respublikasının Bəstiçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı// "Azərbaycan" qəzeti, 21 oktyabr 2021-ci il. №227 (8820).
3. Baş Nazir Əli Əsədovun Milli Məclisdə çıxışı // "Azərbaycan" qəzeti, 17 mart 2021-ci il, №59 (8652).
4. Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N. Umumi sosiologiya. Dərs vəsaiti. Bakı: Diplomat. Azərbaycan ADPU-nun mətbəəsi, 2014, 493 s.
5. Əliyeva Mehparə. Ekoloji vəziyyəti yaxşılaşdırmaq dövlətin diqqət mərkəzindədir // "Respublika" qəzeti, 22 aprel 2021-ci il, №83 (6979).
6. İbrahimov Tahir. Erməni xəyanətkarlığı// «Respublika» qəzeti, 22 dekabr 2020-ci il.
7. Marks K., Gnqelğs F. Soçineniə, t.42, s.92.
8. Mükərrəmoğlu M. Zəngilan və Qubadlı ərazilərində erməni ekoloji terroru // "Xalq qəzeti", 13 aprel, 2021-ci il
9. Mükərrəmoğlu M. Ermənistan Qarabağda törətdiyi ekoloji terrorun kompensasiyasının ödəməlidir// "Xalq qəzeti", 17 mart 2021-ci il, №059 (2960).


## QARABAĞ: İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ SAĞLAM EKOLOJİ MÜHİT QƏRARLAŞIR

***Vahidov Fazil***

### XÜLASƏ

Məqalə təxminən 30 ilə yaxın müddət ərzində Ermənistanın işğalı altında olan Qarabağ ərazilərində törədilmiş dəhşətlərin Vətən müharibəsi nəticəsində aradan qaldırılması üçün geniş imkanlar açılmasına, ekoloji mühitin sağlamlaşdırılması istiqamətində tədricən həyata keçirilən kompleks tədbirlərə həsr edilmişdir. Məqalədə bu istiqamətdə görülən işlər konkret faktlar əsasında təhlil olunur və belə bir nəticə əsaslandırılır ki, sağlam ətraf mühitin qərarlaşması ən müasir texnologiyalardan bəhrələnməklə keyfiyyətlə başa çatdırılacaqdır, çünki çox mühüm ictimai tələbatın reallaşdırılmasıdır.

## КАРАБАХ: НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ ФОРМИРУЕТСЯ ЗДОРОВАЯ ЭКОЛОГИЧЕСКАЯ СРЕДА

***Вахидов Фазиль***

### АННОТАЦИЯ

Статья посвящена анализу широкого спектра возможностей и комплексных мер, которые принимаются для постепенного улучшения окружающей среды и преодоления зверств, совершавшихся на оккупированных армянами территориях Карабаха на протяжении почти 30 лет. Все это стало возможным в результате победоносной Отечественной войны. В статье анализируется проделанная в этой сфере работа на основе конкретных фактов. Делается вывод о том, что создание здоровой окружающей среды будет завершено качественно с использованием новейших технологий, так как это реализация очень важной социальной потребности.

## KARABAKH: HEALTHY ECOLOGICAL ENVIRONMENT IS FORMING IN THE LIBERATED TERRITORIES

***Vakhidov Fazil***

## SUMMARY

The article is devoted to the analysis of a wide range of opportunities and comprehensive measures that are being taken to gradually improve the environment and overcome the atrocities that have been committed in the Armenian-occupied territories of Karabakh for almost 30 years. All this became possible as a result of the victorious Patriotic War. The article analyzes the work done in this area on the basis of specific facts. It is concluded that the creation of a healthy environment will be completed with high quality using the latest technologies, since this is the implementation of a very important social need.

# MÜASİR DÜNYADA SOSİAL DÖVLƏT MODELLƏRİ

***İsgəndərov Yadigar Xanlar oğlu***
***BDU-nun II kurs magistrantı***
***yadigarisgenderov99@gmail.com***

***Açar sözlər:*** sosial dövlət, sosial təminat, liberal model, sosial sığorta, konservativ-korporativ model, sosial qayğı, sosial demokratik model
***Ключевые слова:*** социальное государство, социальное обеспечение, либеральная модель, социальное страхование, консервативно-корпоративная модель, социальная забота, социал-демократическая модель
***Key words:*** social state, social security, liberal model, social insurance, conservative-corporate model, social care, social democratic model.

XIX əsrdə sənaye və post-sənaye cəmiyyətlərində sosial dövlətin formalaşması ictimai həyatın bütün sahələrində dövlətin sosial rolunun artması ilə bağlı olmuşdur. Bu da L.fon Şteyn tərəfindən sosial dövlət konsepsiyası irəli sürülməsinə gətirib çıxartdı. Sosial dövlətin müxtəlif modelləri (liberal model, konservativ-korporativ model və sosial demokratik model) hər ölkədə özünəməxsus şəkildə təzahürünü tapmışdır.

Sosial dövlətin liberal dövlət modeli aşağı sosial təbəqələrin minimal dərəcədə dövlət tərəfindən dəstəyini nəzərdə tutur. Bu model Böyük Britaniyada, ABŞ-da, İrlandiyada, Kanadada, Avstraliya və Yeni Zelandiyada geniş yayılmışdır.

İngiltərədəki müasir sosial dövlət 1906-1914-cü illərdə baş nazir H.H.Asquith dövründə liberal rifah islahatları ilə fəaliyyətə başladı. Hazırda Böyük Britaniyada pensiya təminatının üç səviyyəli strukturu mövcuddur. I - icbari pensiya iş pensiyası ilə müəyyənləşir. II – icbari pensiya sığortası dövlət və şəxsi pensiya sığortası cədvəlləri əsasında formalaşır və birinci səviyyəni tamamlayır. Pensiya cədvəllərinə gəlirlərlə bağlı əlavə pensiya, həmçinin şirkətlərin pensiya təminatı sığortası və özəl pensiya cədvəlləri daxildir. III səviyyə - özəl pensiya fondları çərçivəsində qeyri-məcburi pensiya sığortasını ehtiva edir.

Böyük Britaniyada dövlət səhiyyə sistemi bütün vətəndaşlara pulsuz səhiyyə xidmətləri göstərdiyi halda, İrlandiyada dövlət tibbi xidmətdən ancaq az maaşlı vətəndaşlara istifadə hüququ verir. Britaniyada işsizliklə yanaşı xəstəliklərə, analığa və qüsurlu şəxslər üçün müavinətlər verilir. Qüsurlu şəxslərə təqaüd istehsal prosesində alınan xəsarətlər və peşə xəstəliklərinə uyğun müəyyən edilir. Milli sığorta sistemi tərəfindən istehsalatda zədələnməyə görə ayrılan təqaüd sığorta sistemi tərəfindən verilir.

İrlandiyada sosial təminat sistemi üç əsas ödəniş növünə bölünür:

- Sosial sığorta ödənişləri
- Sınaq ödənişləri
- Universal ödənişlər [1].

Bütün sosial yardım ödənişləri ilə, hər bir sxem üçün qaydalarda göstərilən xüsusi şəxsi şərtləri təmin etməlisiniz. Məsələn, tək valideynli ailə ödənişini tələb etmək üçün təkbaşına valideynlik etməli və buna görə də birgə yaşamamalısınız. Lazımi şərt meyarlarını təmin etməklə yanaşı, digər qaydalar da tətbiq olunur. Uzun müddətli işsiz insanları işə qayıtmağa təşviq edən bir sıra məşğulluq sxemləri və digər dəstəklər də mövcuddur.

Sosial sığorta ödənişləri zəruri şərtlərə əlavə olaraq xüsusi sosial sığorta töhfəsi şərtlərini (PRSI şərtləri) təmin edən insanlara verilir. Bu şərtlər müraciət etdiyiniz ödənişdən asılı olaraq dəyişir. Hər bir ödəniş üçün zəruri şərtlərin (PRSI) xülasəsi İrlandiya Sosial Müdafiə

Departamentinin saytında mövcuddur. Sosial sığorta əməkdaşlığına əsaslanan ödənişlərə iş axtaranların müavinəti, xəstəlik müavinəti, analıq müavinəti, əlillik pensiyası, baxıcının müavinəti və dövlət pensiyası daxildir.

Gəlir sınaq ödənişləri ekvivalent sosial sığorta əsaslı ödənişlərə uyğun olmaq üçün kifayət qədər zəruri şərtlərə (PRSI) cavab verə bilməyən insanlar üçün nəzərdə tutulmuşdur. Buna misal olaraq, işsiz qalan və iş axtaranlara verilən müavinət üçün müraciət edən, lakin kifayət qədər sosial sığorta haqqı olmadığı üçün sosial sığorta ödənişi ala bilməyən bir şəxs ola bilər. O, bunun əvəzinə sınaqdan keçirilmiş ekvivalent ödəniş olan iş axtaranların müavinəti üçün müraciət edə bilər.

Universal ödənişlər bir şəxsin gəlirindən və ya sosial sığorta qeydindən asılı olmayaraq ödənilir və şəxsi şərtləri təmin edən iddiaçıdan asılıdırlar. Buna misal olaraq uşaq müavinətini göstərmək olar. Bir şəxsin sosial təminat qanunvericiliyində müəyyən edildiyi kimi yanında yaşayan bir uşağı olmalıdır.

ABŞ-da liberal sosial dövlətin yaranmasında dövlət xadimlərinin siyasi fəaliyyəti, liberal nəzəriyyəçilərin əsərləri və təsdiq edilmiş hüquqi sənədlər əsaslı təsirə malik olmuşdur. ABŞ-ın sosial siyasətində insanın şəxsi inisiativinə, öz gücünə, dövlət strukturlarının təsirinin azaldılmasına istiqamətlənmə nəzərdə tutulur. ABŞ-da sosial müdafiə və sosial təminat sistemlərinə xüsusilə diqqət yetirilir.

ABŞ-dakı sosial müdafiə sistemi özündə iki istiqaməti - sosial sığortalanma sistemini və sosial yardım sistemini ehtiva edir. Sosial sığortalanma proqramları kifayət qədər yüksək statusa malikdir. Bu sistem iqtisadi-aktiv məşğul əhalinin əsas sosial-iqtisadi risklərdən dəstəkləyir. Yardım sistemi ABŞ-da bir neçə böyük və çoxlu kiçik proqramları özündə cəmləşdirir. Yardım almaq hüququna rəsmi müəyyənləşdirilmiş yoxsulluq səviyyəsindən aşağı yaşayan əhali malik olur. Mühüm sosial proqramlar sırasına asılı uşaqlara malik ailələrə yardım proqramı, yoxsulluq həddində yaşayan şəxslərə tibbi yardımı nəzərdə tutan "Medikeyd" proqramı, 20 yaşına qədər olan analara yönələn "Help" proqramı, kasıb ailələrdən olan uşaqlara yönələn "Hedstart" proqramı daxildir. 1974-cü ildən əlavə gəlir federal proqramı mövcuddur ki, 4 milyon əhalini əhatə edir. Bu proqrama əsasən, sosial sığorta üzrə pensiya və müavinətlər almayan yaşlı vətəndaşların və əlillərin təminatı həyata keçirilir. Sosial yardım sistemində xüsusi rola uşaq müəssisələri malikdir.

ABŞ-da sosial təminat sistemində böyük rol ictimai və fərdi xeyriyyəçiliyə verilir. ABŞ-dakı sosial təminat sistemi hər şeydən əvvəl, himayəçiliyə deyil, özünüreallaşdırmaya, özünütəminə, şəxsi uğurun əldə olunmasına istiqamətlənib. Son illərdə əhalinin maddi rifahının inkişafı ilə bağlı ABŞ-da ödənişli sosial xidmətlərin artımı halları müşahidə olunur [2].

Almaniya Avropada ilk konservativ sosial dövlət quruculuğunu reallaşdıran ölkələrdən biridir. Almaniyada sosial dövlət sistemi XIX əsrin ikinci yarısında sənayeləşmə dövrünə gedib çıxır və Otto von Bismarkla əlaqələndirilir. İşçilər üçün ilk dəfə icbari tibbi sığorta 1883-cü ildə tətbiq edildi və sonrakı illərdə genişləndirilən sosial qanunvericiliklə rifah halına yönəlmək üçün zəmin yaradıldı. Sosial dövlət prinsipi Almaniya Federativ Respublikasının Konstitusiyasının 20-ci maddəsinin 1-ci bəndində və 28-ci maddəsində təsbit edilmişdir. Siyasətçilər və sosial oyunçular dinamik bir prosesdə hansı formada olacağını daim yenidən müzakirə etməlidirlər.

Bu gün dövlət səhiyyə, pensiya, tibbi və sosial qayğı, qəza və işsizlik sığortası ilə sıx bir şəkildə birləşmiş şəbəkə vətəndaşları mövcud risk və təhdidlərdən qoruyur. Bundan əlavə sosial şəbəkə təqaüdçülər və daimi işləyə bilməyənlər üçün əsas gəlir ilə yanaşı ailə müavinət sistemi (uşaq müavinəti, vergi güzəştləri) kimi maliyyə güzəştlərini əhatə edir. 2018 və 2019-cu illərdə artımların ardından ailələr birinci və ikinci uşaq üçün ayda 204 avro, üçüncü uşaq üçün 210 avro

və üçdən əlavə uşaqların hər biri üçün 235 avro alır. Bundan əlavə Koalisiya Sazişi uşaq hüquqlarının Əsas Qanunda təsbit edilməsini nəzərdə tutur.

2014-cü ildə qüvvəyə minən pensiya paketi xüsusilə yaşlı insanların vəziyyətini yaxşılaşdırır. İslahat 63 yaşından etibarən tam pensiya və anaların uşaq yetişdirmə işlərinin bir töhfəsi olaraq xidmət etməyi nəzərdə tutan ana təqaüdünün tətbiqini gördü. Ananın təqaüdü qadınların uşaq tərbiyəsində gördüyü işləri əhatə edir. 2014-cü ilin iyul ayından bu yana təxminən 9.5 milyon qadın (və az sayda kişi) hər uşaq üçün ildə 300 avrodan çox pensiya ödənişi aldı. Bundan əlavə 1 İyul 2014-cü ildən etibarən 45 il ərzində pensiya sığortası sisteminə daxil olan insanlar pensiyalarının kəsilmədən 63 yaşında pensiya almaq hüququna malikdirlər.

2020-ci ilin əvvəlində Federal Nazirlər Kabineti əsas pensiya təyin etdi. Ən azı 33 il pensiya sığortası sisteminə pul ödəyən adam gələcəkdə plana görə bonus alacaq. Əsas pensiya bir çoxu qadın olmaqla təxminən 1,3 milyon insana veriləcək. Sxemin 1 yanvar 2021-ci ildən etibarən tətbiqi planlaşdırılır.

Sağlamlıq sığortası paketi Almaniyada qanuni bir tələbdir. Tibbi xidmət geniş bir xəstəxanalar, təcrübələr və reabilitasiya klinikaları tərəfindən təmin edilir [3].

Yaponiyadakı sosial dövlət sistemində tipik olmayan konservativ-korporativ rejim var. Digər konservativ-korporativ ölkələrdə olduğu kimi Yaponiyada da peşə seqmentli sosial sığorta sistemi mövcuddur. Müharibədən əvvəlki Yaponiya bir vaxtlar Prussiya tipli sosial siyasət qəbul etmişdir. Bundan əlavə Yaponiyanın sosial dövlət sistemi ailəni özündə cəmləşdirir, bununla da sosial şəbəkəni hökumətdən çox ailə təmin edəcəkdir. Nəticədə Yaponiyada gender bərabərsizliyi şiddətlidir.

1960-1970-ci illərin sosial siyasəti uğursuz sənaye və iqtisadi siyasətlərin kompensasiyası olaraq edildi. Sosial siyasət yalnız Yaponiyanın Liberal Demokrat Partiyasının (LDP) 1993-cü ildə parlamentdəki hakimiyyəti itirdikdən sonra seçki strategiyası platformasına çevrildi [4].

Yaponiyada əsas pensiya yaşı ən azı 10 il töhfə olmaqla 65 yaşdır. Tam əsas pensiya 40 illik töhfə tələb edir və müavinətlər daha qısa və ya daha uzun töhfə müddətləri üçün mütənasib olaraq düzəldilir. İşçilərin pensiyası pensiyaçıya baza pensiyası hüququ olduğu təqdirdə, bir aya bərabər olan minimum töhfə ilə baza pensiyasına əlavə olaraq ödənilir. Qazancla əlaqədar pensiya yaşı hal-hazırda kişilər üçün 62, qadınlar üçün 61-dir, kişilər üçün 2025-ci il və qadınlar üçün 2030-cu il arasında 65 yaşa qədər artırılacaqdır.

Yaponiyada yaşlılar da daxil olmaqla bütün vətəndaşların fərq qoymadan və bərabər şəkildə ala biləcəyi bir sosial yardım sistemi mövcuddur. Sosial yardım pensiya kimi digər sosial təminat müavinətləri də daxil olmaqla, mövcud aktiv və qabiliyyətlərindən istifadə edə bilsələr də, hələ də həyat ehtiyacı olan insanlar üçün minimum həyat səviyyəsini təmin edir [5].

Cənubi Avropada konservativ sosial dövlətin Aralıq dənizi modeli formalaşmışdır. Maurisio Ferreraya bu modeli "Cənub" modeli adlandırmışdı və onun fikrincə modeli "Cənub" modeli üçün əsas əlamət milli gəlirin bölüşdürülməsidir. "Cənub" modeli İtaliya, Portuqaliya, İspaniya və Yunanıstan üçün xarakterikdir.

İtaliyada dövlət qarant olunmuş sosial minimumunun ödənilməsi üzrə öhdəliyi demək olarki öz üzərinə götürmür. Bu cür qarantlar yalnız vilayətlərdəki yerli hakimiyyətlərin bəziləri verir. Portuqaliya, İspaniya və Yunanıstanda əhalinin sosial müdafiəsi hələki formalaşma vəziyyətindədir. Bu cür ölkələrdə qarantiya olunmuş minimal gəlir yoxdur və sosial xidmət heç də bütün vətəndaşlara əlçatan deyildir.

Finlandiyada sosial demokratik model digər ölkələrlə müqayisədə çox əhatəlidir. 1980-ci illərin sonunda Finlandiya bütün finlər üçün layiqli həyat şərtləri təmin edən dünyanın ən inkişaf etmiş sosial sistemlərindən birinə sahib idi.

Finlandiya digər Skandinav ölkələri kimi sosial proqramlarının çoxunu gəlir təminatını təmin edənlərə və sosial və sağlamlıq xidmətləri göstərənlərə bölür. Gəlir təminatı proqramları iki kateqoriyaya bölünür: sosial sığorta kimi təsnif edilən gəlir təminatı və rifah kimi təsnif edilən gəlir təminatı. Birinci kateqoriyalı proqramlar sosial təminat üçün xərclənən vəsaitin 80%-ini alır.

Finlandiyada sosial sığorta olaraq təsnif edilən gəlir təminatı proqramlarına milli pensiya planı, işçilərin pensiya planları, xəstəlik sığortası, işsizlik sığortası və işçilərin təzminatı daxildir.

Finlandiyada rifah olaraq təsnif edilən gəlir təminatı proqramlarına ailə yardımı, rifah xidmətləri, uşaq baxımı xidmətləri, əlillər üçün xidmətlər və maddə istifadə edənlər üçün xidmətlər aiddir [6].

Danimarka beşikdən məzara qədər vətəndaşlarına qayğı göstərən yaxşı inkişaf etmiş bir sosial dövlət olaraq göstərilir. Danimarka xoşbəxtlik, insan inkişafı, bərabərlik indekslərinin üstündə görünür və yoxsulluq və sosial təcrid səviyyəsi aşağıdır.

Danimarkada orta pensiya yaşı 65 yaşdır, fəqət, bir çox danimarkalı daha uzun müddət işləməyə üstünlük verir. Ən azı 40 il Danimarkada yaşayan hər kəs avtomatik olaraq, dövlət təqaüdünə sahib olur. 40 ildən az yaşadığı təqdirdə isə, müəyyən bir miqdar təminat alınır. Dövlət təqaüdündən əlavə, bir çox şirkət tərəfindən müqavilə əsasında şirkət təqaüdü alırlar. Həmçinin kollektiv təqaüd planı, özəl pensiya sxemi də mövcuddur [7].

Pensiya sxemlərinə dövlət pensiya sxemi, əmək bazarı əlavə pensiya sxemləri, şirkət pensiya sxemləri və fərdi pensiya sxemləri (fərdlərin banklardan, yaxud pensiya fondundan aldıqları pensiya təminatıdır) daxildir.

Səhiyyə dövlət tərəfindən vergilər hesabına maliyyələşdirilir. Sığorta haqlarını dövlət ödəyir. Bütün vətəndaşlara pulsuz tibbi xidmət göstərilir. Həmçinin, özəl səhiyyə sektoru da vardır, fəqət əhalinin çoxu dövlət səhiyyə sistemindən istifadəni üstün tutur.

İsveç də sosial dövlətin sosial demokratik modelindən istifadə edir [8]. Hazırki dövrdə İsveçdə əhalinin sosial müdafiəsi 3 tip sığortalanma növünü nəzərdə tutan "Ümumi sığorta haqqında" qanunla tənzimlənir: valideynlərin sığortalanması və xəstəliyə görə sığortalanma sistemi; xalq pensiyaları sistemi; əlavə pensiyalar sistemi.

İsveçdə daimi yaşayanlar 16 yaş və ondan yuxarı olanlar sosial sığortalanmanın 26 yerli konturlarından birində qeydiyyatdadırlar. Xəstəliyə görə sığortalanma və valideynlərin sığortalanması özündə bu növ sığortalanmanı birləşdirir: icbari tibbi, stamotoloji, valideynlərə müavinətlər, xəstəliyə görə müavinətlər.

Xalq pensiyaları sistemi özündə xalq (əsas), əlavə (əmək), hissə (tam olmayan) pensiyaları birləşdirir [9]. Bütün hallarda ödəmələr hökumət tərəfindən illik təsdiq olunan və inflyasiyaya müvafiq olaraq avtomatik artan baza məbləğə əsaslanır. İsveçdə pensiya yaşı qadınlar və kişilər üçün eynidir (65 yaş).

Əlavə pensiyanın alınması üçün 30 il əmək stajına malik olmaq lazımdır. Natamam pensiya üçün isə 3 il kifayət edir. Əlavə pensiyalar sistemi əlilliyə görə, həyat yoldaşının itirilməsinə və yetimliyə görə (19 yaşa qədər) pensiyaların alınması imkan verir.

Təhsil İsveçdə əsasdır və vergi hesabına maliyyələşdirilir. İsveçli uşaqlar İsveç Təhsil Qanununun tələb etdiyi kimi altı yaşından etibarən ən az on il məktəbə gedirlər. İsveçin təhsilə uzun müddət diqqət yetirməsi ölkənin innovasiya qabiliyyətinin izahlarından biridir [10].

## ƏDƏBİYYAT


**1.** https://www.citizensinformation.ie/en/social_welfare/irish_social_welfare_system/social_welfare_system_in_ireland.html
**2.** https://archives.history.ac.uk/history-in-focus/welfare/articles/katzm.html
**3.** https://www.tatsachen-ueber-deutschland.de/en/germany-glance/strong-welfare-state
**4.** Peng, Ito (2004). "Postindustrial Pressures, Political Regime Shifts, and Social Policy Reform in Japan and South Korea". Journal of East Asian Studies. 4 (3): 389–425.
**5.** https://www.oecd.org/els/public-pensions/PAG2019-country-profile-Japan.pdf
**6.** https://en.wikipedia.org/wiki/Welfare_in_Finland
**7.** https://www.norden.org/en/info-norden/danish-pension-system
**8.** https://www.britannica.com/place/Sweden/The-welfare-state
**9.** https://www.pensionsmyndigheten.se/other-languages/english-engelska/english-engelska/pension-system-in-sweden
**10.** https://en.wikipedia.org/wiki/Welfare_in_Sweden#Education


## MÜASİR DÜNYADA SOSİAL DÖVLƏT MODELLƏRİ

*İsgəndərov Yadigar*

### XÜLASƏ


Məqalədə müasir dövrdə müxtəlif dövlətlərdə formalaşmış sosial dövlətin özünəməxsus xüsusiyyətləri haqqında fikirlər yer almışdır. Məqaləyə nəzər salsaq görərik ki,  sosial dövlət modelini seçərkən  müasir dövlətlər yerli şərait, adət-ənənə, qanunvericilik və s. kimi amillərə fikir verirlər. Sosial demokratik modeldən istifadə edən dövlətlərdə ağırlıq mərkəzi gəlirlərin vergi siyasəti vasitəsilə sosial bölüşdürülməsinə və məşğulluğa keçirilir. Bu model onunla səciyyələnir ki, əhalinin böyük hissəsi əmək bazarında təmsil olunur və məşğulluq dərəcəsi də kifayət qədər yuxarıdır. Konservativ-korporativ modeldən istifadə edən dövlətlərdə əsas diqqət sosial təkrar bölüşdürməyə deyil, məşğulluğa verilir.

Bu modeldə mərkəzi prinsiplər bazara istinad etmə və dövlətin müşahidəsi altında sığortalanmadır. Liberal modeldən istifadə edən ölkələr də bazara əsaslanır, ancaq bu ölkələrdə sosial təminatın qalıq tipi (insanların cəmiyyətdə sosial təminatsız da yaşaya bilməsi) nəzərdə tutulur. Burada hökumət vətəndaşların sosial təminatı üçün məhdud, lakin ümumi məsuliyyət daşıyır.


## МОДЕЛИ СОЦИАЛЬНОГО ГОСУДАРСТВА В СОВРЕМЕННОМ МИРЕ

***Искандаров Ядигар***

### АННОТАЦИЯ


В статье представлены представления об особенностях социального государства, сложившегося в разных странах в новое время. Если мы посмотрим на статью, то увидим, что современные государства при выборе модели государства обращают внимание на такие факторы, как местные условия, обычаи, законодательство и так далее. Центр тяжести в странах, использующих социал-демократическую модель, сосредоточен на социальном распределении доходов через налоговую политику и занятость. Эта модель

характеризуется тем, что большая часть населения представлена на рынке труда, а уровень занятости достаточно высок. В странах, использующих консервативно-корпоративную модель, основное внимание уделяется не социальному перераспределению, а занятости.

Основными принципами этой модели являются рыночная справка и страхование, контролируемое государством. Страны, использующие либеральную модель, также основаны на рынке, но в этих странах существует остаточный тип социального обеспечения (люди могут жить в обществе без социального обеспечения). Здесь правительство несет ограниченную, но общую ответственность за социальную безопасность граждан.

## SOCIAL STATE MODELS IN THE MODERN WORLD

***Isgandaov Yadigar***

## SUMMARY

The article contains ideas about the peculiarities of the social state formed in different countries in modern times. If we look at the article, we can see that modern states pay attention on factors like local conditions, customs, legislation, etc. when chosing state model. The center of gravity in countries that are used a social democratic model, the focus is on the social distribution of income through tax policy and employment. This model is characterized by the fact that the majority of the population is represented in the labor market and the employment rate is quite high. In countries that use the conservative-corporate model, the focus is not on social redistribution, but on employment.

The central principles in this model are market reference and state-controlled insurance. Countries that use the liberal model are also based on the market, but in these countries there is a residual type of social security (people can live in society without social security). Here, the government has a limited but general responsibility for the social security of citizens.

# SİYASİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINDA KİV-in ROLUNUN ÖYRƏNİLMƏSİ YOLLARI

***Rza Xaqan***
***BDU-nun II kurs magistrantı***
***rza.khagan@mail.ru***

***Açar sözlər:*** siyasi mədəniyyət, gənclik demoqrafik qrupu, sosioloji tədqiqatlar, metodologiya və metodlar.
***Ключевые слова:*** политическая культура, молодежная демографическая группа, социологическое исследование, методология и методы.
***Keywords:*** political culture, youth demographic group, sociological research, methodology and methods.

Tədqiqatın əsas elementləri həmin tövratın ümumi məntiqi xemiriyle təyin olunur. Məntiqi sxem inşa qəribə səviyyəsindən, kanan istiqamətlənməsindən, fəlsəfi, qnoseoloji və metodoloji əsaslarından asılıdır. Burada əhəmiyyətli tərəflər sosiologiyanın anlayışlar aparatı, burada istifadə edilən simvolik vasitələr, düşüncə üslubu, bütünlükdə mədəni-tarixi kontekst və aparılan tədqiqata qarşı xarici amil rolunu oynayan xüsusiyyətlər nəzərə alınmalıdır. Digər tərəfdən tədqiqatın ümumi məntiqi sxemi, məsələn empirik sosioloji tədqiqatın xüsusiyyətləri onun daxili komponentlərin xarakterindən asılıdır. Beleliklə, burada nəzərə alınmalı tərəflər aşağıdakılardır: obyekt problemlər fərziyələr sistemi metroloji strategiyalar materialın toplanması metodları və sair. Məlumdur ki, sosiщloji tədqiqatlar empirik, nəzəri, tətbiqi və metodoloji xarakter daşıya bilər. Siyasi mədəniyyətin formalaşmasında kütləvi informasiya kommunikasiyalarının rolunu öyrənmək üçün keçirilən tədqiqatlar çoxpilləli struktura malik olmalıdır. Buraya məntiqi mahiyyət daşıyan mərhələlərinin həyata keçirilən məntiqli prosedurlar məcmusu daxildir. Həmin mənbələr ilk növbədə sosioloqun təfəkküründə formalaşır, sonra isə tədqiqatın texnologiyalarında ifadə olunur. Aydındır ki, belə tədqiqatların məntiqi sxemi xaricdən gətirilmir, yalnız tədqiqatçının təfəkküründə müasir elmi-tədqiqat imkanlarının xüsusiyyətlərindən irəli gələrək formalaşdırılır.

Tədqiqatı aparmazdan əvvəl nəzərə alınmalıdır ki, onu müxtəlif istiqamətdə aparmaq olar: tipoloji, sosioloji, konseptual, sistemli, riyazi, informativ. Tədqiqat obyektinin təyin edilməsi zamanı ilk növbədə nəzəri tərəflərini təhlil etmək lazımdır. Məsələn, əgər söhbət siyasi mədəniyyətdən gedirsə, mədəniyyətin mahiyyəti, cəmiyyətin sosial strukturuna aid olan müxtəlif təbəqələrdə onun formalaşması xüsusiyyətləri təhlil edilməlidir. Əпər söhbət siyasi mədəniyyətdən gedirsə, onun nəzəri obyekt olaraq təsviri verilməlidir. Siyasi mədəniyyət ümumi mədəniyyətin tərkib hissəsidir. Onun formalaşması cəmiyyətdə siyasi təşkilinin xüsusiyyətlərindən asılıdır. Dövlətin inkişafında demokratik dəyərlər, insan hüquqları, idarəçilikdə əyanilik gözlənilirsə, təbii şəkildə həmin siyasi qurumlara və proseslərə münasibət də formalaşır. Həyat səviyyəsi, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və gənclərin şüurunda aşılanması – bütün bunlar siyasi mədəniyyətin təşəkkülünə təsir göstərir. Təbii ki, burada insan şüuruna təsir edən imkanlardan biri də kütləvi informasiya vasitələridir. Informasiya-kommunikasiya texnologiyaları mətbuatın, televiziyanın fəaliyyətinə təsir göstərir. Burada operativlik, əyanilik, obyektivlik daha yüksək səviyyədə təmin olunur. Bunları nəzərə alaraq bu hadisələrin insan süuruna, onun siyasi dəyərlərə və normalarına təsirini qiymətləndirmək mümkün olur.

Nar hansı bir tarixi mərhələnin siyasi mədəniyyətini,xüsusiyyətlərini təyin etmək üçün burada çox və tez-tez müşahidə edilən vəziyyətləri, əlamətlərinəzərə almaq lazımdır.Bununla da elmi reallıq təyin edilir,sonradan öyrənilən hadisələrlə müqayisə edir.

Siyasi mədəniyyətin formalaşmasında ictimai rəyin rolu kifayət qədər böyükdür.Ictimai rəyə isə təsir edən hallar onun təhsili, əmək fəaliyyəti,ünsiyyət formaları,siyasi qiymət vermələr və s. daxildir.Burada tədqiqatçı öyrəndiyi hadisələrin müxtəlif olmasını nəzərə alaraq elə bir tesadüfi seçməni formalaşdırmalıdır ki,nəticədə istatistik baxımında həmcins toplumlar əmələ gəlsin.Beləliklə burada qeyri sosioloji vasitələrlə ji problemleriniz tapır:müxtəlif statistik fəndlər istifadə etməklətədqiqatçı statistik həmcinsliyi ideal şəkildə təsvir etməyə çalışır. Qarşımıza qoyduğumuz problemə uyğun olaraq ilk növbədə siyasi mədəniyyətin müasir nəzəriyyə tərifini təyin etmək lazımdır. Siyasi mədəniyyətümumi mədəniyyətin tərkib hissəsi olaraq özünə ideyalar, təsəvvürlər, adi şüur səviyyəsində qavranılan stereotipləri daxil edir. Bu stereotiplər hər bir sosial qrupda özünəməxsusluğa malikdir. Cəmiyyətdə formalaşan siyasi münasibətlərdən, burada qəbul olunmuş ideoloji bazadan asılı olaraq siyasi idarəetmə, dövlət başçısı, məmurlar, yerli idarəçilik strukturları, siyasi liderlik və s. haqqında təsəvvürlər formalaşır. Cəmiyyətin keçid dövründə bu təsəvvürlər də əsaslı şəkillə rmüxtəlif təsirlərə məruz qalır, kütlə psixologiyasında siyasi qiymətvermə formalaşır.

Müxtəlif siyasi qüvvələr o cümlədən partiyalaröz fəaliyyətini insanların şüuruna təsir etməklə formalaşdırmağa çalışırlar.Nöşün müxtəlif siyasi texnologiyalardan istifadə olunur.Şübhəsiz həm dəm bulud texnologiyalarının əsasını insan psixologiyası, kütlə psixologiyası haqqında biliklər təşkil edir. Nəticədə insanlarda ruh yüksəkliyi, yaxud əksinə, bədbin əhval-ruhiyyə formalaşır. Bu insanların siyasi fəaliyyəti siyasi iştirak tərəfini məhdudlaşdırır, müəyyən istiqamətdə fəaliyyət göstərməyi sövq edir.

Tədqqiqatçılar hesab edirlər ki, "İctimai rəyin öyrənilməsi tədqiqat proseduru və empirik sosioloji tədqiqatın təşkili üçün eyni tələbləri irəli sürür. Eyni zamanda, onun özünəməxsus xüsusiyyətləri var:

1) ictimai rəyin öyrənilməsi çox vaxt tətbiqi xarakter daşıyır, praktiki yönümlüdür, buna görə də onların nəticələri praktiki tövsiyələrin proqnozları, qərarların hazırlanması və qəbulu üçün bilavasitə uyğun olan analitik materiallar şəklində təqdim edilməlidir;

2) tədqiqat adətən qısa müddətdə gedir və çox vaxt ictimai həyatda hansısa aktual hadisə (seçkilər və s.) ilə əlaqələndirilir, ona görə də tədqiqatçının onları daha münasib vaxta və ya daha çox hazırlamaq üçün təxirə salmağa imkanı yoxdur" [1].

Ümumiyyətlə, ictimai rəy elmi təhlili baxımından əslində son dərəcə mürəkkəbdir. İctimai rəy fenomeninin quruluşu bir çox fərqli tərəfləri ehtiva edir, bunların hər biri mütləq qeyd edilməlidir və məsələ yalnız tərəflərin sayında deyil, həm də təbiətindəki fərqdədir: ictimai rəy sosial, ideoloji, psixoloji, məntiqi və digər elementlərin üzvi birləşməsinin bir növüdür.

Qeyd etmək lazımdır ki, bu halda hər hansı bir qarşıya qoyulan vəzifədən asılı olaraq seçmə təyin edilir və son nəticə etibarilə informasiyanın toplanılması metodları ilə yekunlaşır. Sosial hadisənin sosioloji tədqiqi xüsusiyyəti məhz bundan ibarətdir. Təcrübə zamanı xüsusi tədqiqatçı situasiyanı təyin etmək lazımdır. Sosial hadisələr sırasında ilk növbədə insan amili nəzərə alınmalı və ya informasiya mənbəyi kimi istifadə edilməlidir. Konkret tədqiqatçı prosedurlarda sosial prosesin sosial-mədəni əsasları mütləq öz əksini tapmalıdır. Sosial-mədəni əsaslar dedikdə cəmiyyətin umumi inkişaf istiqaməti, sosial hadisələr faktlar kimi təsvir edilir. Adları çəkilən obyektlər sırasında fərqlərin təyin edilməməsi nəticə etibarı ilə sosial hadisələr barədə birtərəfli təsəvvürlərin əmələ gəlməsinə gətirib çıxardır.

Aydındır ki, kütləvi informasiya vasitələri cəmiyyətin fəaliyyəti, özü də siyasi mədəniyyətin formalaşması istiqamətində ümumi sosioloji əsaslar üzərində guruldduğu üçün burada sosial

məlumat toplanarkən hər bir sosial hadisənin fəaliyyətinin modallığı nəzərə alınmalıdır. Institutlaşma prosesi haqqında məntiqi modallıq formalaşır, bu modallıq ictimai suur səviyyəsində qavranılır, sosial əhəmiyyətli formada insanların şüurunda həkk olunur və davranışda öz ifadəsini tapır.

Obyektin modallığı onu bildirir ki, burada müxtəlif ifadə formaları nəzərə alınmalıdır. Hər bir sosioloq bilir ki, sosial hadisənin həm normativ, həm də mövcud, real ifadələri var. Aydındır ki, sosioloji tədqiqatlarda ilk növbədə real faktlar öyrənir və ümumiləşdirir. Insanlarda sosial davranış xüsusiyyətləri, onların sosial faktlara münasibəti, sosial proseslərdə iştirakı dərəcəsi və formaları sosioloji tədqiqat əsasında müəyyən etməyə imkan verir ki, burada siyasi mahiyyətli dəyərlər və normalar barədə hansı təsəvvürlər əmələ gelir.

Cəmiyyətdə baş verən hadisələrin, proseslər və faktların aktuallaşması mürəkkəb bir haldır. Hər hansı bir sosial hadisə bizim gözlədiyimiz qədər aktuallaşmır. Bunun səbəbini təyin etmək olduqca çətindir. Sual oluna bilər ki, nə üçün sosial həyatda qadağan edilmiş hərəkətlər faktları təkrarlanır. Burada baş verən hadisələrin qiymətləndirilməsi üçün birbaşa ictimai praktikaya müraciət etmək lazımdır.

Məsələn, siyasi mədəniyyətin ünsürlərindən biri siyasi fəallıqdır. Bu fəaliyyət özünü müxtəlif siyasi qurumların yaradılması cəhdlərində, hökmətin hərəkətlərinə qarşı etiraz aksiyalarında, siyasi bəyanatlarda, hər hansı bir hərəkətin tənqid atəşinə tutulmasında ifadə edir. Yenə öz dövrünə görə belə insanlar radikal xarakterli çıxışlara meyllidir. Digər tərəfdən, konformist mahiyyətli fəaliyyətə malik insanlar da var ki, onlar ümumi axarla getməyə üstünlük verir, barışıq taktikasına daha meyilli olur. Tədqiqat obyekti olan insanın xarakteri və iradəsi, daxili psixoloji durumu, etnik özünüdərk xüsusiyyətləri, onu əhatə edən sosial mühit, aldığı təhsil və sair təsir edir.

Bu hallarda sosioloji təhlili aparmaq üçün tədqiqatın metodoloji modelində insan amilinin nəzərə alınması və insan fəaliyyətinin müvafiq sahələrinin cəlb edilməsi nəzərdə tutulmalıdır. Bu amillərdən biri də müxtəlif siyasi qüvvələrin beynəlxalq miqyasda xüsusi ictimai rəyin yaradılması cəhdləridir. Belə bir faktı da gətirə bilərik. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən Türk Şurası Media Forumuna göndərdiyi video mesajda deyib ki, "Türk dünyası rəqəmsal faşizmdən başqa beynəlxalq medianın ikili standartından da əziyyət çəkir. Xüsusilə 44 gün davam edən Qarabağ müharibəsi zamanı şahidi olduğumuz riyakar münasibət ölkələrimiz üçün məsələnin əhəmiyyətini ortaya qoydu. Ermənistan ordusunun dinc əhalini hədəf alan qətliamı və ballistik raket hücumları heç gündəmə gətirilmədi. Medianın müstəqilliyindən və obyektivliyindən bəhs edən beynəlxalq media orqanları Ermənistanın rəsmi xəbər agentliyi kimi çıxış etdilər" [2].

Burada nəzərə alınmalıdır ki, belə hallar da siyasi mədəniyyətin formalaşmasına təsir edən amillərdən biridir. Buna görə də Azərbaycan mediası II Qarabağ müharibəsindən sonra fəal şəkildə göstərilən dövrdə və daha əvvəl baş verən hadisələrin dünya ictimaiyyətinə çatdırılması olduqca vacib bir amilə çevrilməlidir. Bildiyimiz kimi, dəfələrlə dövlət qurumları, ilk növbədə Prezident administrasiyası Azərbaycanda qeydiyyatdan keçən və öz ölkəsini təmsil edən müxtəlif qurumlar, o cümlədən media, səfirliklər nümayəndələrini düşmən tərəfin istifadə etdiyi taktikaları ve bunların acı nəticələri olan kəndlərin, şəhərlərin, qəsəbələrin hədlərində, heç müharibə arazisi olmayan yerlərdə baş vermiş dağıntılar və insan tələfatı barədə xəbər verilir. Belə faktların aşkarlanması, bu barədə bütün ölkələrə xəbər verilməsi eyni zamanda yerli əhalinin şüuruna, siyasi iştirakı dərəcəsinə və formalaşmasına, onların problemə münasibətinə, milli-mənəvi dəyərlərin özündə aşılanmasına öz təsirini göstərir. Diplomatlar və jurnalistlər həm də mütəmadi şəkildə Ermənistanın işğalından azad olunan rayonlarına səfər edərək vəziyyətlə tanış olurlar: "Cəbrayıl və Zəngilan rayonlarına səfər edən Azərbaycandakı xarici səfirlər, hərbi

attaşelər və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin rəhbərləri Cəbrayılın Cocuq Mərcanlı kəndindəki vəziyyətlə tanış olduqdan sonra Cəbrayıl şəhərinə yola düşüblər" [3].

Beləliklə, tədqiqat metodlarından biri də məhz belə aksiyaların ictimai şüuura təsir etmə imkanları və yollarının da öyrənilməsidir. Bu istiqamətdə müəyyən işlər aparılır. Ilk növbədə burada Sosial Araşdırmalar mərkəzinin fəaliyyətini qeyd etmək lazımdır. Belə ki, həmin mərkəzin rəhbəri Zahid Oruc bildirmişdir ki, İkinci Qarabağ müharibəsi: ictimai rəydə" mövzusunda keçirilmiş sosioloji sorğu nəticəsində Xalq-Prezident birliyi, ölkə rəhbərinin düzgün xarici siyasəti, Ali Baş Komandanın dərin və sistemli ordu quruculuğu siyasəti, düşmən üzərində son illərdə əldə edilmiş qələbələr, bir sıra ölkələrlə uğurlu hərbi əməkdaşlıq, müharibəyə hazırlıq səviyyəsi, Azərbaycan dövlətinin bütün növ Silahlı qüvvələri dair quruculuq siyasəti, dövlətimizin regional və qlobal mövqeyinin güclənməsi, nəticədə Milli Ordumuzun Ermənistan ordusundan güclü olduğunu sübut etməsi, növbəti dəfə düşməni psixoloji məğlubiyyətə uğratması ictimai fikirdə də müsbət qiymət almış, potensial müharibə şəraitində tərəflərə (Ermənistan və Azərbaycan) hansı ölkələrin nə dərəcədə və hansı istiqamətdə dəstək verəcəkləri, ATƏT Minsk Qrupunun fəaliyyəti və digər önəmli faktorlar haqqında dəqiq ictimai baxışlar və aydın fikir formalaşmışdır [4]. Beləliklə, bu istiqamətdə aparılan sosioloji tədqiqatlar mövcud vəziyyətdən, yəni siyasi fəallıq və siyasi sosiallaşma məsələlərin həyat keçirilməsinə təsir edən faktorlar barədə bizə məlumat verir.

Məlumdur ki, hər hansı bir elmi fakt real məzmuna malikdir, həm dəözündə bəzi hadisələrin, proseslərin vəziyyətini əks etdirir. Bu da eyni zamanda tədqiqatçının praktiki fəaliyyətini həyata keçirmək imkanının olması deməkdir. Beləliklə, bu formalara uyğun olan anlayışlar elm tərəfindən əldə edilən bir sıra alətləri, o cümlədən metodlar, texnika, dərketmə prosedurları istifadə etmək imkanını verir.

Tədqiqatçılar öyrənmə yolunun müxtəlifliyini nəzərə alaraq hesab edirlər ki, tək-tək hallardan empirik ümumiləşdirmələrə dogru və daha sonra nəzəriyyə istiqamətində getmək lazımdır. Burada həm empirik, həm də nəzəri interpretasiya mümkündür. Hesab olunur ki, biliklərin səviyyələrin ardıcıllığı bu cürə olmalıdır: faktlar, ümumiləşdirilmiş faktlar, empirik qanunlar, nəzəri qanun. Əsas metodoloji əməliyyat ayrı-ayrı faktların ümumiləşdirilməsindən ibarətdir. Konkret tədqiqat səviyyəsində isə biz ayrı ayrı faktlardan irəli gələrək onların ümumiləşdirilməsinə, status paylanmasına, əlamətlər arasında əlaqələrin axtarılmasına, məcmu göstəricilərin paylanmasına, əlaqənin axtarılmasına doğru getməliyik. Başlıca metodoloji fəaliyyət aşağıdakı mərhələlərdən ibarətdir: empirik xüsusiyyətlərin və əlaqələrin nəzəri interpretasiyası və əldə edilən məlumatların və əlaqələrin konseptuallaraşdırılması [5].

- 1941-1945 - Böyük Vətən Müharibəsi, bunun nəticəsində Azərbaycan əhalisi 568,4 min nəfər və ya 17,4 % azalıb;
- 1948-1953 - indiki Ermənistan ərazisində 150 mindən çox azərbaycanlının orijinal yaşayış yerlərindən deportasiya edilməsi. (Azərbaycan əhalisinin müharibədən əvvəlki səviyyəsinə yalnız 1955-ci ilin əvvəlində çatdı. Müharibədən əvvəlki əhalinin bərpasının belə çətin bir prosesi keçmiş Sovet İttifaqının yalnız dörd respublikasında - Rusiya, Ukrayna, Belarusiya, Azərbaycanda müşahidə edildi. 1941-1945 -ci illər Böyük Vətən Müharibəsi zamanı ən böyük insan itkisi verən ölkələr idi;

- 1988-ci ildən bəri Ermənistan-Azərbaycan müharibəsi zamanı 18 mindən çox azərbaycanlı öldü, təxminən 1 milyon qaçqın və məcburi köçkün, o cümlədən 250 mindən çox azərbaycanlı Ermənistan ərazisindən çıxdı. (Ümumiyyətlə, iki əsr ərzində 1,5 milyondan çox azərbaycanlı tarixi məskənlərindən zorla qovulmuşdur).

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə baş verən həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsir göstərdi. Demoqrafik proseslərin cəmiyyət həyatının bir çox aspektləri ilə bir-biri ilə əlaqəli olması səbəbindən bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və demoqrafik proseslərin sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. 2006 -cı ilin statistikasına görə, Azərbaycan Respublikasında 8 milyon 436 mindən çox insan yaşamışdır ki, onlardan 51,6% -i şəhərlərdə, 48,4% -i kənd yerlərində yaşayır.

Keçid dövründə Rusiyada və keçmiş Sovet İttifaqının digər ölkələrində olduğu kimi Azərbaycanda da demoqrafik proseslər əlverişsiz tendensiyaya malik idi. Respublika əhalisinin həyat səviyyəsinin aşağı düşməsi, sosial-iqtisadi vəziyyətin pisləşməsi, Ermənistanla müharibə, 1 milyona yaxın qaçqının olması, köhnə sənaye münasibətlərinin pozulması və bazar iqtisadiyyatına keçid, işsizlik, iş çatışmazlığı, real və nominal əmək haqqının aşağı səviyyəsi və daha çox nəticədə doğum nisbətinin, evlilik nisbətlərinin azalmasına, respublikadan ixtisaslı işçi qüvvəsinin axınının artmasına, ölüm hallarının artmasına və s təsir etdi. Əhalinin inkişafındakı bütün bu meyllər olduqca açıqdır, amma əsl təhlil davam edən proseslərin ölçülməsini tələb edir.

90 -cı illərdə bütövlükdə Azərbaycanda doğum nisbəti azalma tendensiyasına malik idi. İstisna 1997 -ci il idi, 8 il ərzində ilk dəfə olaraq doğulanların sayı əvvəlki illə müqayisədə 2805 uşaq artaraq 132 052 uşaq idi. Eyni zamanda, ümumi doğuş nisbəti (əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı) 17.1% -dən 17.4%-ə yüksəldi. Bu prosesin təxirə salınmış doğumların həyata keçirilməsinin nəticəsi olub, yoxsa respublikada demoqrafik vəziyyətin yaxşılaşmasından irəli gəldiyini söyləmək çətindir. Mövcud doğum nisbəti əhalinin genişlənmiş istehsalını təmin edir, buna baxmayaraq 1993-2002 -ci illərdə onun davamlı azalması demoqrafik proseslərin inkişafında əlverişsiz tendensiyalardan biri kimi qiymətləndirilir.

Çox güman ki, respublikamızda əsrin əvvələrində müşahidə olunan doğum nisbətinin aşağı düşməsi, maddi çətinliklər yaşayan ailələrin əksəriyyətinin ikinci, üçüncü, bəzən də ilk uşaqların doğumunu təxirə salmaq məcburiyyətində qalmasının nəticəsidir. Respublika əhalisinin uzunömürlü reproduktivliyi təmin edən orta uşaq sayına istiqaməti, üçüncü doğum sırasındakı uşaqların payının tədricən azalması və 2004 -cü ildə 12.4% olmasıyla sübut edilir və bu 1990-cı illə müqayisədə 2,2 dəfə azdır [3, s. 55].

Bu gün Azərbaycanda demoqrafik vəziyyət yuxarıdakı nümunələrdən fərqlənir. BMT-nin məlumatına görə, Azərbaycan əhalisi artmağa davam edəcək: 2040-cı illərin ortalarında Azərbaycanın əhalisi 11 milyon olacaq, yəni 2020-ci illə müqayisədə bir milyon artacaq. 50 il ərzində Azərbaycan əhalisi üç dəfə artdı (1950-ci illərin ortalarında - 2,92 milyon, 2010-cu illərin ortalarında - 9,03 milyon). Azərbaycan, Zaqafqaziya qonşularından fərqli olaraq təbii əhalinin artımını yaşayır: Ermənistan və Gürcüstan demoqrafik keçidi başa vuraraq 1990-cı illərin ikinci yarısında "əhali boşalması" mərhələsinə qədəm qoysa da, Azərbaycan isə hələ də "demoqrafik partlayışının" nəticələrini yaşayır [4, s. 18-19].

Azərbaycan rəhbərliyi əhalinin artımından xəbərdardır və bu əhali artımı Azərbaycan xalqı üçün bir nemət kimi qəbul edilir: məsələn, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, iş yerlərinin açılması həmişə ölkədə demoqrafik inkişafdan üstün olmalıdır.

## ƏDƏBİYYAT

1. Демографическое развитие постсоветского пространства: сб. статей и аналитических материалов / под ред. М. Б. Денисенко, Р. В. Дмитриева, В. В. Елизарова. — М: Экономический факультет МГУ имени М. В. Ломоносова, 2018. — 46 с. («Демографические исследования», вып. 27).
2. Инглхарт Р., Вельцель К. Модернизация, культурные изменения и демократия: Последовательность человеческого развития. М.: Новое издательство, 2018. – 36 с.
3. Мамедова М.Г., Рагимова З.Р. Современные особенности брачно-семейного состояния населения Азербайджана. Политика народонаселения: настоящее и будущее. // Четвертые Валентеевские чтения. Сборник докладов. Книга 2 / Ред. В.В. Елизаров, В.Н. Архангельский. М., МАКС Пресс, 2020, с. 55-60
4. Lesthaeghe R. The second demographic transition: A concise overview of its development // Proceedings of the National Academy of Sciences. 111 (51), 2019, pp. 18-19.

## AZƏRBAYCANDA DEMOQRAFİK VƏZİYYƏTDƏKİ DƏYİŞİKLİKLƏR

***Nurşən Bayramova***

### XÜLASƏ

Dünyanın bütün ölkələri kimi Azərbaycan da demoqrafik bir keçid yaşayır: ölümlərin aşağı olması, əhalinin artımı üçün əlverişli yaş quruluşu və doğum nisbəti, bir çox postsovet ölkəsindən daha üstün mövqedədir və bu dövrdə demoqrafik partlayış zamanı Azərbaycanda əhalinin təbii artımını təmin etmişdir. Bu gün doğulan uşaqların sayı valideynlər tərəfindən idarə olunur. Halbuki bu hal 19 -cu əsrin sonu və 20 -ci əsrin əvvəllərində ağlasığmaz hesab edilə bilərdi.

## ИЗМЕНЕНИЯ В ДЕМОГРАФИЧЕСКОЙ СИТУАЦИИ В АЗЕРБАЙДЖАНЕ

***Нуршан Байрамова***

### АННОТАЦИЯ

Как и все страны мира, Азербайджан переживает демографический переход: низкая смертность, благоприятная возрастная структура и рождаемость для прироста населения превосходит многие постсоветские страны, и в этот период демографический взрыв обеспечил естественный прирост населения в Азербайджане. Количество рожденных сегодня детей контролируется родителями. Однако в конце 19 - начале 20 веков такое положение можно было считать немыслимым.

## CHANGES IN THE DEMOGRAPHIC SITUATION IN AZERBAIJAN

***Nurshan Bayramova***

### SUMMARY

Like all countries in the world, Azerbaijan is experiencing a demographic transition: low mortality, favorable age structure and birth rate for population growth, is superior to many post-Soviet countries, and during this period, the demographic explosion provided natural population growth in Azerbaijan. The number of children born today is controlled by the parents. However, this situation could be considered unthinkable in the late 19th and early 20th centuries.

## FİLOLOGİYA

**UOT:82-1.512:162**

# HƏSƏNƏLİ AĞA XAN QARADAĞSKİ (QARADAĞİ) ŞEİRLƏRİNDƏ ƏSAS MÖVZULAR

***Gülarə Əliyeva***
***Əlyazmalar İnstitutu, büyük elmi işçi***
*gularealiyeva@mail.ru*

***Açar sözlər:*** Həsənəli ağa Xan Qaradağski, Mirzə Fətəli Axundzadə, İşKirilov, dərslik, şer.
***Ключевые слова****:* Гасанали ага Хан Гарадагский, Мирза Фатали Ахундзаде, И. Крылов, учебник, стихи
***Keywords*****:** Hasanali agha Khan Garadagsky, Mirza Fatali Akhundzade, I. Krylov, textbook, poems.

**Giriş.** Tədqiqatçıların göstərdiyinə görə, Azərbaycanda maarifçilik ideyalarının ilk əlamətləri XIX yüzilliyin 30-40-cı illərində özünü göstərməyə başlamışdır. Bu dövrdə fəaliyyət göstərən görkəmli şair və mütəfəkkir Abbasqulu ağa Bakıxanov əsərlərində geriliyə, köhnəpərəstliyə, cəhalətə, nadanlığa qarşı çıxır, elmi, maarifi təbliğ edirdi. XIX yüzilliyin ikinci yarısında ölkədə ziyalıların sayı artır. Yeni tədris üsulu ilə dərs deyən məktəblər fəaliyyət göstərməyə başlayır, milli dramaturgiyanın əsası qoyulur, maarifçilik ideyalarını təbliğ edən ilk mətbu orqan – “Əkinçi” qəzeti nəşr edilir. Maarifçilik hərəkatının miqyası genişlənməkdə davam edir. “XIX əsrin sonundan Azərbaycan ictimai-siyasi və mədəni həyatanın əlamətdar xüsusiyyətlərindən biri də bu idi ki, bu illərdə maarifçilik hərəkatı genişlənməyə, milli ictimai-siyasi və mədəni həyatını bütün sahələrinə tədricən qüvvətli təsir göstərməyə başlamışdı. Bu dövrdə H.Zərdabi və N.Vəzirovla yanaşı Qori, Tiflis, İrəvan gimnaziyalarında, Rusiya və Qərbi Avropanın bir sıra mərkəzi şəhərlərinin ali məktəblərində təhsil alan istedadlı, vətənpərvər gənc Azərbaycan ziyalıları – Ə.Haqverdiyev (1870-1933), S.M.Qənizadə (1866-1937), R.Əfəndiyev (1863-1942), H.Mahmudbəyov (1864-1928), M.Şaxtatinski (1863-1920), C.Bayraməlibəyov ( 1862-1937) və başqaları doğma xalqının intibahı, iqtisadi, sosial və mədəni tərəqqisi uğrunda fəal mübarizə aparmağa başlayırlar. Onlar yüksək ideya-bədii məziyyətləri ilə seçilən komediya, faciə və povestlər yazır, dövri mətbuatda “Kaspi”, “Kavkaz”, “Novoye obrozeniye”, “Tərcüman” qəzetlərində publisist, ədəbi-tənqidi məqalələr dərk etdirir, teatr tamaşaçıları verir, yeni tipli dərsliklər hazırlayır, qiraətxanalar açır, müəllimliklə məşğul olur və ölkənin başqa ictimai-siyasi və mədəni tədbirlərində iştirak edirdilər (1, s.280). Həsənəli ağa Xan Qaradağski dövrün bu cür maarifçi, yeni növ dərsliklərin yaradılmasında iştirak edən, müəllimliklə məşğul olan, didaktik mövzulu şeirlər yazan ziyalılardan biri idi.

**Əsas hissə** Həsənəli ağa Xan Qaradağskinin babası 1804-cü ildə Cənubi Azərbaycanın Qaradağ xanlığından Şuşaya köçmüşdür. Anasının bətnində ikən atasını itirmiş, anasının və əmisinin himayəsində böyümüşdür. Təhsilini rusca almasına baxmayaraq şəxsi mütaliə yolu ilə ərəb və fars dillərini də mükəmməl öyrənə bilmişdir. Həsənəli ağa gənclik illərində şeir yazmağa başalamış, Şuşada fəaliyyət göstərən “Məclisi-fəramuşam” ədəbi məclisinin fəal ezvlərinədn olmuş, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Sədi Sani Qarabaği və başqaları ilə ədəbi söhbətlərdə iştirak etmişdir. Şairin yaradıcılığının bu dövründən lirik-aşiqanə şeirləri, qəzəlləri, növhələri dostları, tanışları ilə mənzum məktublaşmaları qalmışdır. Həsənəli ağa Mir Möhsün

Nəvvab, Mirzə Ələkbər Əzizbəyov, Nurullah bəy Fətəlixanov, Sədi Sani Qarabaği, Mirzə Ələsgər Növrəs, Bəhram bəy Fədai və dövrünün başqa ziyalıları ilə dostluq edirdi və onlarla məktublaşırdı. Şair gəncəli dostlarına yazdığı mənzum məktubunda əsl dərdin xalqının geridə qalması, cəhalət içində yaşaması ilə bağlı olduğunu bildirir:

Tanrı şahiddi ki, çıxıb yaddan,
Hamı dərdim, irəli hər zaddan.
Mənə bir dərd-millətin dərdi,
Zəni-nadan məhzidir mərdi.
Tərbiyət körpəlikdə çün yoxdur,
Böyüdükcə qəbahətən çoxdur.
Fikr elə, varıdıq nə halətdə,
Qalmışıq indi biz cəhalətdə
Kimi bizdəndir elmsiz molla,
Kimi dərvişdir, kimi mövla (2, s.141).

Şeirinin sonunda Həsənəli ağa xalqına rifah arzulayır, elm, təhsil yolu ilə irəliləməyin vacibliyini bildirir:

Daima ürəkdən var bir arzum,
Olmasın nə zalım, nə məzlum.
Kəsb edək biz də ülumi fünun,
Olmayaq ta əsiri-sərnigun (2, s.142).

Həsənəli xan Qaradağskinin lirik-aşiqanə qəzəlləri dilini sadəliyi, axıcılığı, səmimiliyi ilə diqqəti cəlb edir. Bu əsərlərində şair klassik poeziyadan, xüsusilə də Füzuli yaradıcılığından bəhrələnmişdir. Qəzəllərində müəllif sevgilisinin gözəlliyinin vəsfinə xüsusi fikir vermişdir:

Bəh, bəh bu dilbərin nə əcəb xoş məqalı var!
Gülgun camalı üzrə gözəl xəttü xah var!
Gər aftab olmaya məhşərdə, yoxdu qəm,
Çün günəşdən də ötə yarın camalı var.
Şahbaz baxışı uçurubdur könül quşun,
Seyr etməyə yəqin edərəm kim, xəyalı var (2, s.74).

Şair sevgilisindən ayrı keçirdiyi dəmləri həyatının ən kədərli vaxtları hesab edir:

Görünür gözlərimə xar bu gülşən sənsiz,
Edərəm sübhə kimi naləvü şivən sənsiz
Eylədi dərdü qəmim səndə fərağət hasil,
Ağladı qan mənim əhvalıma düşmən sənsiz (2, s.72).

Şairin ictimai mövzularda yazdığı şeirlər kəskinliyi, sərtliyi ilə diqqəti cəlb edir. "Olsun" rədifli qəzəlində müəllif müsəlmanlar arasında ittifaqın olmadığından, imkanlı insanların xalqının mənafeyini unudaraq yalnız özünü düşündüyündən şikayət edir:

O kəs ki, bir müsəlmanın tifaqını nifaq istər,
İlahi, qan udub yeksər həmişə əşkbar olsun.
Adın müslüm qoyan dinsiz, imansız bihəyalardır,
Deyirlər qarnımız doysun, soyaq xalqı dinar olsun.
Qoyub xəllaqını, rizgin dilər məxluqi-ərzəldən,
Vicdanına tamaşa qil, belə bi arə ar olsun (2,s.126).

Ümumiyyətlə, H. Xan Qaradağskinin ədəbi irsi qəzəl, qəsidə, təmsil, müstəzad, müxəmməs, mənzum məktublar və s. ibarətdir.

Həsənəli ağanın uşaqlar üçün didaktik mövzulu şeirlər yazmaq, tərcümələr etmək sahəsindəki istedadı XIX əsrin sonralarında azərbaycanlı uşaqlar üçün tərtib edilən "Vətən dili" dərsliyi yaradılarkən meydana çıxdı. Doğrudan da, bu cür şeirləri yalnız müəllimlik edən, şairlik qabiliyyətinə malik şəxs yaza bilərdi. Vüqar Qaradağlı bu barədə yazır: Azərbaycan dilində yeni tipli dərsliklərdən biri və ən mükəmməli olan "Vətən dili"dərsliyini Qori seminariyasının müfəttişi, görkəmli pedaqoq A,O.Çernyayenski tərtib etmişdir. Bu işi ona Qafqaz təhsil okruqu 1879 cu ildə seminariyada Azərbaycan şöbəsi açılarkən uşaqların Azərbaycan dilində dərs kitabı olmadığından tapşırılır. A.O. Çernyayenski isə seminariyanın azərbaycanlı tələbələrinin köməyi ilə "Vətən dili" adlı dərsliyi tərtib edir. Kitabın birinci hissəsi 1882-ci ildə. İkinci hissəsi isə 1888-ci ildə Tiflisdə nəşr olunur. Kitabin qiymətli cəhətlərindən biri də onun üçüncü hissəsində A.O.Çernyayenskinin müəllim yoldaşları Səfərəli bəy Vəlibəyov, Firidun bəy Köçərli və Həsənəli ağa Xan Qaradağskinin köməkliyi ilə rus ədəbiyyatından, xüsusən də Krilovdan bir sıra tərcümələrin verilməsidir. Bundan başqa, "Vətən dilinə" Krılov üslubunda azərbaycan dilində yazılmış xırda bədii əsərlər də daxil edilmişdir. Bütün Bu işlərdə XIX əsrin qabaqcıl ziyalılarından olan Həsənəli ağa Xan Qaradağski böyük kömək göstərmişdir" (3,3.8)

Həsənəli ağanın "Vətən dili" dərsliyi üçün yazdığı, tərcümə etdiyi şeirlər uşaqlara həyatı, təbiət hadisələrini anladır, onlarda vətənə məhəbbət aşılayır, uşaqları mənəvi - əxlaqi normalara riayət etməyə çağırırdı.

Bu şeirlərin dili uşaqların anlayacağı qədər sadə və aydındır.

İ.Krılovun "Ördək, balıq və xərçəng" təmsilinin tərcüməsində üç heyvanın bir arabanı daşımaq istəməsindən söhbət gedir. Lakin onların hərəsi arabanı bir tərəfə çəkdiyindən araba yerindən tərpənmir. Və bu tədbir həyata keçirilməmiş qalır. Müəllif uşaqlara başa salır ki, arada həmrəylik olmazsa, heç bir tədbiri ortaq olaraq həyata keçirmək olmaz. Şeirin başlanğıcında əsas mətləb çatdırılır:

Yoldaşlıqda gər olmaya ittifaq,
Əmrilər yeriməz, bulunar nifaq.
Düz gətirməz əhli - nifaq işləri.
Ağrıyar başları, sınar dişləri (2,s. 149).

"Tülkü və şir" təmsilində Tülkü Şiri ilk dəfə gördükdə qorxusundan uzaqlara qaçır. Ikinci, üçüncü dəfə onunla yaxından tanış olmağa başlayır, daha qorxmur. Müəllif uşaqlara anladır ki, insan bilmədiyi, tanımadığı şeydən qorxur. Həmin şey haqqında məlumat artdıqca qorxu hissi onu tərk edir:

Görmədiklərimizi
Biz də əvvəl görməmiş,
Xof edirik, bir neçə
Dəfə yavuğ durmamış (2,s. 150).

"Cırcırama və qarışqa" şeiri də ibrətamiz, nəsihətamiz mövzuda yazılmışdır. Bütün yayı deyib, gülüb oynayan cırcırama qış gələndə soyuqdan donur, yeməyə bir şeyi olmur. Qarışqa isə bütün yayı işləmişdir, özünə ev tikmiş, azuqə toplamışdır. Şeirdə uşaqlara vaxt itirməmək, gənclikdən səylə çalışaraq qocalığı təmin etmək tövsiyə olunur.

"Qaz və durna" təmsilində bir qaz lovğalanaraq üzməyi də, qaçmağı da, uçmağı da hamıdan yaxşı bacardığını deyir. Bu sözləri eşidən durna isə ona xatırladır ki, uçmağı da, qaçmağı da, üzməyi də ondan daha yaxşı bacaranlar var:

Bir durna eşidib bunu, anlayıb,
Məzəmmətlə deyib, onu danlayıb:

“Balıq kimi üzmək, tərlan tək uçmaq,
Ceyran kimi bacararsanmı qaçmaq (2,s. 162).

Yəni, hər kəs nəyi daha yaxşı bacarırsa, o xüsusiyyətinə uyğun özünə peşə seçməlidir.

“İt dostluğu” təmsilində müəllif qarşılıqlı münasibətdə ədavətdənsə səmimiyyətin, mehribanlığın hamı üçün daha faydalı olduğunu bildirir.

Şair Krilovun “Meymun və gözlük” təmsilini məharətlə tərcümə etmişdir. Burada söhbət qocaldığı üçün gözləri zəifləmiş meymundan gedir. Ona deyirlər ki, eynəkdən istifadə etsə problem həll olunar. Meymun altı eynək alır. Lakin onları istifadə etmək qaydasını bilmir. Onları gah iyləyir, gah dilinə sürtür, gah alnına qoyur. Axırda onlardan bir fayda görməyib sındırır. Müəllif uşaqlara başa salmaq istəyir ki, istifadə etmək qaydasını bilməsək, heç bir şeydən faydalana bilmərik.

Şeirlərindən birində Həsənəli ağa ömrünü uşaqların, şagirdlərin təhsilinə sərf etməsi barədə belə yazır:

Sibyan üçün çox əmək sərf etdim,
Mən də belə qayda ilə getdim.
Gər türki dilində “Leyli – Məcnun”,
Vardır, uşağı edən o məftun.
Uşaq məzaqında indi bir söz,
Bizlərə gərəkdir, ta açə göz.
Hər kimsə ki, bildi, bunu qandı,
Billəm, məni rəhmət ilə andı (2,s.229).

Bu misralarda H. Qaradağskinin mənalı həyatı əksini tapmışdır.

**Nəticə.** Azərbaycanın görkəmli maarifçi ziyalısı Həsənəli ağa Xan Qaradağski (Qarabaği) (1850 – 1929) mənalı həyatını gənc nəslin, uşaqların təlim – tərbiyəsinə, təhsilinə həsr etmişdir. O, gənc yaşlarından şeirə - sənətə həvəs göstərmiş, Şuşada fəaliyyət göstərən “Məclisi – fəramuşan” ədəbi məclisinin ən fəal üzvlərindən olmuşdur. Doğulub, böyüyüb, boya-başa çatdığı Şuşa şəhərində pedaqoji fəaliyyətlə məşğul olan Həsənəli ağa A.O.Çernyayevskinin tərtib etdiyi “Vətən dili” dərsliyi üçün Krılov və Uşinskidən tərcümələr etmiş, özü də bu dərslik üçün kiçik şeir və hekayələr yazmışdır.

Həsənəli ağa Xan Qaradağskinin pedaqoji fəaliyyəti o dövrün ziyalı nəslinin yetişdirilməsində mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. Dördüncü cild. Bakı: “Elm”, 2011, 860 s.
**2.** Həsənəli ağa Xan Qaradağski. (“Qaradaği). Fələyin bir belə dövrü olacağmış... Şeirlər, tərcümələr, tarixi salnamə/ Tərtib edən və nəşrə hazırlayan: Raqub Kərimov. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2003,280s.
**3.** Qaradağlı Vüqar. “Vətən dili” və Həsənəli ağa Xan Qaradağski/ Həsənəli ağa Xan Qaradağski: (Qaradaği). Fələyin bir belə dövrü olacaqmış... Şeirlər, tərcümələr, tarixi salnamə. Tərtib edəni Raqub Kərimov. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2003,1 s. 7-14.

# HƏSƏNƏLİ AĞA XAN QARADAĞSKİ (QARADAĞİ) ŞEİRLƏRİNDƏ ƏSAS MÖVZULAR

***Gülarə Əliyeva***

## XÜLASƏ

XIX əsrin ikinci yarısında Qarabağ ədəbi mühitinin yetirdiyi görkəmli maarifpərvər şairlərdən biri də Həsənəli ağa Xan Qaradağskidir (1850-1929). O, dünyaya gəldiyi Şuşa şəhərində qəza məktəbində təhsil almış, bundan sonra doğma şəhərdə qəza məktəbində təhsil almış, bundan sora doğma şəhərdə müəllimliklə məşğul olmuşdur. Bu illərdə o, şeirlər yazmağa başlayır, Şuşada fəaliyyət göstərən "Məclisi-fəramuşan" ədəbi məclisinin fəal üzvü olur. Həsənəli ağa rus, fars və ərəb dillərini mükəmməl öyrənmişdi, dövrünün ən savadlı ziyalılarından hesab olunurdu. 1873-1878-ci illərdə, o, Tiflisdə Qafqaz canişini idarəsində məsul vəzifədə işləyən əmisi Məhəmmədhüseyn ağanın yanında yaşayır, burada milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadə ilə tanış olur.

1879-cu ildə Qafqaz təhsil dairəsi A.O.Çernyayevskiyə azərbaycanlı uşaqlar üçün dərslik tərtib etməyi tapşırmışdı. Azərbaycan müəllimlərindən Səfərəli bəy Vəlibəyov, Firidun bəy Köçərli və Həsənəli ağa Xan A.O. Çernyayevskiyə bu işdə kömək etmişdilər. Həsənəli ağa Xan dərslik üçün kiçik şeir və hekayələr yazır, Krılov və Uşinskinin təmsillərindən tərcümələr edirdi. Bu fəaliyyət onun yaradıcılığının əsas istiqamətini müəyyən etdi. Əvvəllər lirik şeirlər yazan şair didaktik mövzulu pedaqoji şeirlər yazmağa başladı.

## ОСНОВНЫЕ ТЕМЫ СТИХОВ ГАСАНАЛИ АГА ХАН ГАРАДАГСКОГО

***Гюларе Алиева***

## АННОТАЦИЯ

Гасанали ага Хан Гарадагский (Гарадаги) (1850 – 1929) был одним из поэтов просветителей, который был выходцем из Карабаха. В Шуше, где он родился, поэт учился в окружной школе, после этого занимался учительством. В эти годы он начал писать стихи, стал активным членом литературного меджлиса «Меджлиси – фарамушан», который был в Шуше. Гасанали ага хорошо изучил русский, персидский и арабский языки, считался одним из самых образованных людей своего времени. В 1873 – 1878 г.г. он пожил в Тифлисе, у своего дяди, Мухаммедгусейн ага, который был ответственным работников в Кавказском наместничестве. Здесь он познакомился и приблизился с основоположником азербайджанской национальной драматургии Мирза Фатали Ахундзаде.

В 1879 году Кавказский отдел образования поручил А. О. Черняевскому составить для азербайджанских детей учебник родного языка. В этом деле А.О. Черняевскому помогают азербайджанские учителя – Сафарали бек Велибеков, Фиридун бек Кочарли и Гасанали ага Хан. Гасанали ага пишет для учебника маленькие стихи и рассказы, переводит басни Крылова и Ушинского. Это деятельность составляет основную часть творчества поэта. Гасанали ага, который раньше писал лирические стихи, начинает писать педагогические стихи дидактического содержания.

# THE MAIN THEMES OF THE POEMS OF HASANALI AGHA KHAN OF GARADAGH

***Gulara Aliyeva***

## SUMMARY

Hasanali agha Khan of Garadagh (Garadaghi) (1850-1929) was one of the enlightenment poets who came from Karabakh. In Shusha, where he was born, the poet studied at the district school, after that he was engaged in teaching. During these years, he began to write poetry, became an active member of the literary majlis "Majlisi - faramusham", which was in Shusha. Hasanali agha studied Russian, Persian and Arabic well, and was considered one of the most educated people of his time. In 1873-1878, he lived in Tiflis, with his uncle, Muhammedgusein agha, who was a responsible worker in the Caucasian viceroyalty. Here he met and approached the founder of the Azerbaijani national drama Mirza Fatali Akhundzade.

In 1879, the Caucasian Department of Education commissioned A. O. Chernyavsky to compile a textbook of the native language for Azerbaijani children. Azerbaijani teachers Safarali bey Velibekov, Firidun bey Kocharli and Hasanali agha Khan are helping A.O. Chernyaevsky in this matter. Hasanali agha writes small poems and short stories for the textbook, translates the fables of Krylov and Ushinsky. This activity is the main part of the poet's work. Hasanali agha, who used to write lyrical poems, he begins to write pedagogical poems of didactic content.

# О РАБОТЕ НАД ТЕМАТИЧЕСКИ СВЯЗАННЫМИ ЛЕКСИЧЕСКИМИ ГРУППАМИ НА ЗАНЯТИЯХ РКИ

***Микаил Джафаров***
***проф. зав. кафедрой русского языка естественных факультетов, БГУ***
***Азиза Фейзиева, ст. лаб. БГУ***
***mikayilceferov@mail. ru***

***Ключевые слова:*** лексическая группа, ситуация, тематическая связь, лексическое окружение.
***Açar sözlər:*** leksik qrup, situasiya, tematik əlaqə, leksik əhatə.
***Key words:*** lexical group, situation, thematic connection, lexical environment.

В современной методике обучения иностранным языкам доминирующим направлением является коммуникативность, которая «предполагает использование изучаемого языка с самых начальных стадий обучения в естественных для общения целях и функциях или максимально приближённых к ним, имитирующих их» (5, с. 10-11).

Одним из существенных проявлений коммуникативности является ситуативно-тематическое представление учебного материала. Дело в том, что «характер ситуации» (место, время, отношения собеседников, предмет речи, вид, тип и форма речи и т.п.) оказывает влияние на выбор и функционирование языковых единиц, на развитие способности общаться» (5, с. 22). Более того, ситуация является движущим началом, условием общения. Во многих случаях темой нашей беседы становится ситуация. Она подспудно создаёт фон для разговора и проявляет себя в том, что помогает определить состав тематической группы языковых средств и в первую очередь лексики. «Изучение тематически связанной лексики позволяет выработать у учащихся умение вести беседу на определённую тему, чего нелегко добиться при знании ими хоть и большого числа слов, не организованных тематически» (4, с. 68).

Учитывая это обстоятельство, при отборе языкового материала для каждого занятия следует исходить из характера его тематики. Так, например, при изучении темы «Семья» необходимо уделить основное внимание изучению лексической группы, обозначающей родственные отношения: **муж, жена, отец, мать, сын, дочь, брат, сестра, дедушка, бабушка, дядя, тётя** и т.д. Данные слова составляют основное ядро лексической группы, обозначающей родство людей, хотя, как и в других тематических группах, помимо ядерных, здесь имеются так называемые периферийные элементы (ср.: **двоюродный брат, двоюродная сестра, зять, шурин, племянник, племянница** и т.д.). В состав данной тематической группы следует включить также прилагательные - **родной, любимый дорогой, старший, младший**, местоимения – **мой, твой, свой**, и числительные – один, два, три и т.д.

Отсюда можно сделать вывод о том, что состав тематической группы слов обычно бывает неоднородным в лексико-грамматическом отношении, т.е. в неё могут войти слова разных частей речи – существительные, прилагательные, местоимения, числительные, глаголы, наречия и т.д. И это вполне закономерно, поскольку многие из перечисленных разрядов слов могут употребляться в сходных синтагматических рядах. Так, например, в предложении «Пушкин был одарён памятью неимоверною и на одиннадцатом году уже знал наизусть всю французскую литературу» встречаются слова почти всех частей речи,

связанные друг с другом на основе трёх типов синтаксических связей – согласования, управления и примыкания.

Наличие аналогичного соотношения слов в рамках других тематически связанных лексических групп, а также некоторые функциональные параметры самих лексических единиц требуют соблюдения определённых методических принципов предъявления учебного материала. В методической литературе принято опираться на следующие принципы:

1. Коммуникативная ценность слова;
2. Ситуативно – тематическая продуктивность слова;
3. Частотность слова, его употребительность;
4. Сочетаемость слова;
5. Словообразовательные возможности слова;
6. Семантическая ценность слова;
7. Многозначность слова;
8. Стилистическая нейтральность слова;
9. Учебно - методическая целесообразность изучения слова (3, с.31).

Вместе с тем, анализируя проблемы преподавания лексики в нерусской аудитории, не следует забывать о том, что «описание лексики русского языка» «глазами русского» оказывается недостаточным с точки зрения нерусского: многое из того, что для носителя русского языка как родного является «само собой разумеющимся», для изучающего этот язык как неродной оказывается неясным и непонятным» (7, с.18).

Следует также помнить, что сам коммуникативный процесс чаще всего осуществляется в соответствии с характером конкретных ситуаций общения. По справедливому мнению Е.И. Пассова «…весь процесс общения – это фактически непрерывный ряд сменяющих друг друга ситуаций» (6, с.49). И, в свою очередь, каждая ситуация предполагает реализацию определённой тематической группы языковых средств, в том числе и слов. Такая закономерность обусловлена тем, что «наше сознание устанавливает ряд аналогий между словами, ряд перекрещивающихся связей» между их звуками, понятиями и предметами, ими обозначаемыми. Слово никогда не всплывает в нашем сознании одиноко. Даже когда только одно слово в одном значении присутствует в нашем сознании, то другие, остающиеся в тени, масса понятий и эмоций, связанных с ними тончайшими нитями, каждую минуту готовы ворваться в наше сознание. Слова, проходящие через наше сознание, находятся в непрерывной связи со всей нашей интеллектуальной и эмоциональной жизнью» (2, с.176). В то же время слова, входящие в состав тематически связанных групп, как правило, обозначают круг взаимосвязанных явлений в окружающей действительности или в социальной жизни. Так, например, тематически связанная группа со стержневым словом **театр** охватывает в основном следующие лексические единицы: актёр, сцена, главная роль, постановка, пьеса, ряд, портер, амфитеатр, касса, билет, публика, аплодисменты, конферансье, смотреть, слушать, купить, ходить, сидеть, антракт, первый, второй, средний, последний и т.д. Наблюдения показывают, что отношения между словами в рамках тематически связанных лексических групп характеризуются следующими признаками:

1. Семантическая (смысловая) согласованность;
2. Функциональная соотносительность;
3. Текстуальная обусловленность;
4. Ассоциативная предсказуемость;
5. Синтагматическая упорядоченность.

Каждый из этих признаков требует определённого пояснения на основе типичных примеров.

1. Семантическая согласованность проявляется в том, что в пределах тематически связанных лексических групп слова соотносятся друг с другом как обозначения логически совместимых явлений, процессов и действий. К примеру, слово *вода* предполагает наличие лексического окружения, состоящего из глаголов (пить, кипятить, лить – **воду**; жить, находиться - **в воде**; плыть, скользить - **по воде**; шумит, бурлит, затопила, размыла **-вода;** смотреть, спустить **– на воду)**; прилагательных (холодная, тёплая, горячая, чистая, прозрачная, мутная, питьевая , морская, лечебная, минеральная - **вода**); существительных (струя, поток, бутылка, вкус , цвет, капля - **воды**) и т.д.

В то же время с понятием вода абсолютно несовместимы такие действия, как сжечь, сшить, читать, писать – **воду**. Таким образом, семантическая согласованность обусловливает характер лексического окружения каждого слова.

2. Функциональная соотносительность предполагает взаимодействие слов как выразителей определённых звеньев той или иной цепочки процессов и явлений. Это можно обнаружить на фоне парадигматических связей между синонимами и антонимами, которые в сущности выражают различные аспекты проявления одного и того же признака, явления, или действия.

По мнению Д.Н. Шмелёва, «лексические единицы, противопоставленные по таким признакам, которые оказываются несущественными в определённых условиях, можно рассматривать, как **синонимы**. Лексические единицы, само значение которых обусловлено их противопоставленностью (противопоставление дано в самой «семантической теме») – как **антонимы** (8, с.193). Так, например, у слова **говорить** в значении «устно выражать свои мысли, соображения» есть несколько синонимов (**сообщать, заявлять, изрекать, вещать, высказывать, толковать**), а также антоним **молчать**. Все эти слова имеют общую понятийно – предметную основу и соотносительны в функциональном отношении.

3. Текстуальная обусловленность предусматривает употребление того или иного слова в строгом соответствии с характером ситуации, с особенностями стилистического плана данного текста. Показательно в этом отношении употребление эвфемизмов типа **задерживается** вместо **опаздывать**, **кто крайний** вместо **кто последний**, **поправился** вместо **потолстел**, **попросили** вместо **выгнали** и т.д.

4. Ассоциативная предсказуемость проявляется между словами, которые обозначают составные части целого (**тело** – **рука, нога**, **голова**, **лицо**, **уши**, **глаза** и т.д.) или же последствия каких – то процессов и явлений (**свадьба** – **музыка**, **радость**, **веселье**, **танцы**, **счастье; смерть – горе, плач, страдание, похороны, поминки**).

5. Синтагматическая упорядоченность проявляется в том, что тематически связанные лексические группы при их употреблении в потоке речи подвергаются влиянию закономерностей сочетаемости слов в составе различных типов синтаксических единиц, т.е. подчиняются правилам согласования, управления или примыкания, а также выстраиваются в линейном ряду в соответствии с нормами соблюдения порядка слов в предложениях. Так, например, в зависимости от своего смысла слова могут занимать различные места в предложении. Существует более обычный порядок слов, который называется **прямым**, и менее обычный, который называется **обратным**. Ср.: **Наши бойцы водрузили в Шуше трёхцветный флаг Азербайджана**. Как видно из данного примера, подлежащее стоит в начале предложения, за ним следует сказуемое, затем идут обстоятельство места и дополнение. Важно и то, что определения **наши** и **трёхцветный** в

соответствии с нормой стоят перед определяемыми существительными. При обратном порядке слов последовательность расположения членов предложения меняется. Ср.: **Трёхцветный флаг Азербайджана водрузили в Шуше наши бойцы**. В содержательном плане данное предложение отличается от первого тем, что здесь логическое ударение падает на словосочетание **наши бойцы,** а не на словосочетание (как это имеет место в первом предложении) **флаг Азербайджана**.

Многолетний опыт преподавания русского языка, как неродного, показывает, что изучение лексики в рамках тематических групп позволяет студентам понять особенности соотношения семантики слов с их функционированием, хотя в процессе реального общения недостаточность этого фактора становится очевидной. Как справедливо отмечает А. А. Бердичевский, «для того, чтобы активно пользоваться языком как средством общения, помимо значений слов и правил грамматики нужно знать: 1) когда сказать / написать, как, кому, при ком, где; 2) как данное значение/ понятие, данный предмет мысли живёт в реальности мира изучаемого языка» (1, с.100).

Следовательно, работа над тематически связанными лексическими группами в методическом аспекте не должна быть завершена только определением состава таких групп. Более того, основная работа должна развернуться в сфере синтагматики, т.е. сочетаемости слов друг с другом в составе соответствующих словосочетаний и предложений. Именно здесь проявляются основные лексико – грамматические признаки каждого слова как представителя той или иной части речи. Усвоение этих признаков возможно путём выполнения соответствующих типов упражнений, направленных на решение коммуникативных задач способствующих развитию умственной и творческой деятельности студентов.

В заключение можно сделать вывод о том, что целесообразность изучения слов в рамках различных тематических групп обусловливается тем, что при таком подходе функциональный аспект языковых единиц выступает на передний план, что полностью согласуется с природой самого языка как средства отражения действительности.

## ЛИТЕРАТУРА

1. Бердичевский А.А. Отражает ли русская грамматика русскую ментальность. //Русский язык за рубежом, № 3, 2016, с. 99 -105.
2. Вандриес Ж. Язык. М.: 1937.
3. Джафаров М.М. Лексический аспект в преподавании русского языка как неродного. Методическое пособие. Баку: Изд-во Бак. ун-та, 2000, 80с.
4. Иткис Г.И. Организация лексики при обучении развёрнутому высказыванию /Сб. статей по истории преподавания языка. М., 1986.
5. Костомаров В.Г., Митрофанова О.Д. Методическое руководство для преподавателей русского языка иностранцам. М: Русский язык, 1988, 158 с.
6. Пассов Е.И. Основы коммуникативной методики обучения иностранному языку. М.: Рус. язык, 1989.
7. Филин Ф.П., Иванов В.В. Современная теоретическая русистика и преподавание русского языка нерусским // Русский язык за рубежом. М.: 1982, №3, с. 15-26.
8. Шмелёв Д.Н. Современный русский язык. Лексика. М.: Просвещение, 1977, 335 с.

# О РАБОТЕ НАД ТЕМАТИЧЕСКИ СВЯЗАННЫМИ ЛЕКСИЧЕСКИМИ ГРУППАМИ НА ЗАНЯТИЯХ РКИ

***М. Джафаров, А.Фейзиева***

## АННОТАЦИЯ

Тематически связанные лексические группы служат опорным материалом для построения различных типов высказываний в процессе общения. Состав таких групп предопределяется характером конкретных ситуаций, в которых употребляются данные слова. Усвоение тематически связанной лексики обеспечивает формирование у студентов навыков ведения беседы на различные темы. И это не случайно, поскольку в состав тематически связанной лексики входят необходимые для создания высказываний слова различных частей речи.

## RUS DİLİ DƏRSLƏRİNDƏ TEMATİK CƏHƏTDƏN ƏLAQƏLI OLAN LEKSİK QRUPLAR ÜZƏRİNDƏ İŞ HAQQINDA

***Mikayıl Cəfərov, Əzizə Feyziyeva***

## XÜLASƏ

Tematik cəhətdən əlaqəli olan leksik qruplar ünsiyyət prosesində müxtəlif növ kələmlərin yaradılması üçün dayaq material kimi işlənir. Bu qəbildən olan qrupların tərkibi verilən sözlərin işləndiyi konkret situasiyaların xarakteri ilə müəyyənləşir. Tematik cəhətdən əlaqəli olan leksikanın mənimsənilməsi tələbələrdə müxtəlif mövzuda söhbət aparma vərdişlərin formalaşmasına imkan yaradır. Bu da təsadüf deyil, çünkü sözü gedən leksik qrupların tərkibinə kəlmələrin yaradılması üçün lazım olan müxtəlif nitq hissələrinə aid olan sözlər daxildir.

## ABOUT WORK ON THEMATICALLY RELATED LEXICAL GROUPS IN RUSSIAN LESSONS

***Mikayil Jafarov, Aziza Feyziyeva***

## SUMMARY

Thematically related lexical groups serve as bearing material for the construction of various types of statements in the process of communication. The composition of such groups is predetermined by the nature of the specific situations in which these words are used. The study of thematically related vocabulary ensures the formation of students' skills in conducting a conversation on various topics. This is not accidental, since the thematically related vocabulary includes the words of various parts of speech necessary for creating utterances.

**UOT:82-1,512.162**

# MİRZƏ MEHDİ NACİ ŞEİRLƏRİNİN MÖVZU DAİRƏSİ VƏ JANR XÜSUSİYYƏTLƏRİ BARƏDƏ

***Samirə Gəncəli***
***Əlyazmalar İnstitutu Böyük elmi işçi***
***samireGenceli@gmail.com***

***Açar sözlər:*** Mirzə Mehdi Naci, Mirzə Şəfi Vazeh, Gəncə, qəzəl, qoşma.
***Ключевыеслова:***Мирза МехдиНаджи, Мирза Шафи Вазех, Гянджа, газель, гошма.
***Key words:*** Mirza Mehdi Naji, Mirza Shafi Vazeh, Genja, gazel, goshma.

**Giriş.** XIX əsrin əvvəllərində Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal edilsə də bu dövr ölkənin mədəni inkişafında böyük tərəqqi dövrü olmuşdur. Maarifçi dünyagörüşünə malik fədakar ziyalıların yorulmaz əməyi sayəsində təhsil sistemində bir sıra yeniliklər meydana çıxdı, milli dramaturgiya, milli mətbuat yarandı. Ölkədə fəaliyyət göstərən mütərəqqi istiqamətli milli qurumlardan biri də Tiflis, Quba, Gəncə, Şuşa, Şamaxı, Bakı, Lənkəran, Naxçıvan və s. yerlərdə fəaliyyət göstərən ədəbi məclislər idi. Tədqiqatçı Nəsrəddin Qarayev "XIX əsr Azərbaycan ədəbi məclisləri" adlı monoqrafiyasında bu məclislərin səciyyəvi xüsusiyyətləri barədə yazır: " XIX əsr ədəbi məclisləri bir demokratik, kütləvi yaradıcılıq ittifaqları səciyyəsi daşıyırdı... Ədəbi məclislərdə müşairələr çox vaxt gözəllərin vəsfindən, şərabdan, musiqidən həcvlərdən getdiyi üçün burada (Dərbənd məclisi nəzərə alınmır) dini məzmunlu şeirlər az oxunurdu" (1, s.18-19).

Gəncə ədəbi məclisinin üzvü Mirzə Mehdi Nacinin şeirlərində də dünyəvilik real gözəlin, təbiətin vəsfi, ictimai motivlər mühüm yer tuturdu. Bütün bunlar şairin, ümumiyyətlə,dövrün ədəbiyyatının realizmə meyl etdiyinin göstəricisi idi. XIX əsr ədəbiyyatında satirik şeirin inkişafı da əslində bundan xəbər verirdi. Tədqiqatçılar əsrin poeziyasındakı bu səciyyəvi xüsusiyyətlər barədə yazırlar: "Dövrün şairləri milli ədəbiyyatımızın real gerçəkliklə, xalq həyatı ilə, onun mühüm, aktual, sosial və mənəvi problemləri ilə qarşılıqlı əlaqələrinin qüvvətlənməsində satirik-realist təsvir meyllərinin inkişafında, ədəbiyyatla ictimai inkişaf arasında qarşılıqlı təsvir mexanizmlərinin yaranmasında güclü rol oynamışlar" (2, s. 1).

## Əsas hissə

Mirzə Mehdi Naci əsərlərini Azərbaycan və fars dillərində yazmışdır.Onun əsərlərini müasir əlifbada nəşr etdirmiş professor Xəlil Yusifli buradakı şeirləri aşağıdakı başlıqlar əsasında bölgüləndirmişdir: qəzəllər, müxəmməs və müsəddəslər, müxtəlif şeirlər, həcvlərdən seçmələr, farscadan tərcümə edilmiş şeirlər. Nacinin lirikası güclü surətdə Azərbaycan klassik poeziyasının ənənələri ilə bağlıdır. Bu şeirlərdə ifadə olunan fikirlər, hisslər daha çox böyük şairimiz Məhəmməd Füzulinin ədəbi irsi ilə bağlıdır. Nacinin lirik qəhrəmanı Füzuli şeirlərində olduğu kimi, eşqi yolunda hər cür fədakarlıqlara, məhrumiyyətlərə, hətta rüsvayçılığa belə hazırdır. Professor X.Yusifli yazır: "Klassik poeziyada eşq məfhumu geniş məna daşıdığı kimi, insanlığın, düzlüyün, ləyaqətin, paklığın ən yüksək ifadəsi olduğu kimi, bu yolda rüsva olmaq da həmin yolun yolçusunun sifətlərindən biridir. Əgər Məcnun sevgilisinə görə adi adamların gözündə rüsva olursa, bu, onun üçün nöqsan deyil, bəlkə eşqində bütövlüyün nəticəsidir (3, s.11).

Nacinin "Gəlmədi" rədifli qəzəlində Füzuli təsiri, Füzuliyanəlik özünü daha qabarıq göstərir. Xüsusilə "Yandı canım hicr ilə, vəsli-rüxi-yar istərəm" deyən böyük şairin qəzəlini xatırladır:

Yandı canım hicrdən, ruhi-rəvanım gəlmədi,
Çıxdı əflakə fəğani-ələmanım, gəlmədi.
Keçdi ömrüm, natəvan oldu tənim, ey vay kim,
Noldu, yarəb, bülbüli-şirinzəbanım gəlmədi.
Gəlmədi, aya səbəb noldu vücudum səhhəti,
Deməgə bir kimsə yox sirri-zəbanım, gəlmədi (4, s.30).

Şair əksər qəzəlləri kimi, xalqın anladığı dildə yazdığı "Buraqmış" rədifli qəzəlində şamda alışan pərvanə misalında eşqdə fədakarlığı təqdir edir, klassik poeziyada adları tez-tez çəkilən aşiq obrazlarını xatırladır:

Sən bilmə ki, pərvanə özün narə buraqmış,
Nurin həvəsilə özini yarə buraqmış.
Qəm ləşkəri məhsur eləyübdür dili-Qeys,
Məşəlin anın sübhü məsa zarə buraqmış.
Əfğan çəkər ol bülbüli-biçarə şəbü ruz,
Gül vəslini gör kim, necə ol xarə buraqmış (4, s.34).

Qəzəl klassik Şərq poeziyasında lirik-aşiqanə poeziyanın əsas janrı olsa da, XIX əsrdə ictimai mövzulara toxunan qəzəllərin də meydana çıxdığını görürük. Mirzə Mehdi Nacinin "Aparur" rədifli qəzəlində zəhmətkeş, yoxsul xalqın, rəiyyətin məzlum vəziyyətindən narazılığını bildirən vətənpərvər şairin ürək çırpıntılarını eşidirik:

Hər nə nemət ki, Xuda xalqa verüb, bad aparur,
Dəst xali qalu, hər kimsənə fəryad aparur
Demə kim, aləm ara nemət gəzməz kim var,
Özgələr bilməz anı ləzzəti ustad aparur.
Eşqi-Şirin eləyübdür dili-Fərhadı zəbur,
Vəslə Xosrov yetüşüb, zəhməti Fərhad aparur (4, s. 36).

Nacinin bəndlərdən ibarət janrlarda yazdığı şeirləri, xüsusilə müxəmməs və müsəddəsləri də diqqətəlayiqdir. Bu şeirlərin əksəriyyəti lirik-aşiqanə mövzuda olsa da, onların içində məişət məsələlərinə aid olanları da vardır. Bəzi şeirlər sujetlidir.

Naci qoşma formasında yazdığı iri həcmli şeirini "Taxıl qıtlığı və şəhər əhalisinin pis halı" adlandırmışdır. Həmin qıtlığın baş verdiyi il göstərilməyib. Şeirin əvvəlində şəhər əhlinin, əlbəttə ki, daha çox zəhmət adamlarının baş vermiş qıtlıq ucbatından düşdükləri çətin vəziyyətdən danışılır.

Ey Xudayi-aləm, əziz bari,
Nə arpa tapılır, nə də ki, dari.
Bir bəla müsəllət eylədi tari,
Əkinçilər vermədilər heç zəkat (4, s.65).

Şairi ən çox narahat edən imkanlı, varlı şəxslərin yoxsullara kömək etməmələri, bəzilərinin qiyməti qaldırmaq üçün ərzaq mallarını satmamalarıdır:

Düşübdür qabağa hər çulu yırtıq,
Yığublar buğdanı anbara tığ-tığ,

Saman, arpa olub gümüşdən artıq,
Arbaçılar, faytonçular qalub mat (4, s. 65).

Şeirin sonunda həmşəhərlilərindən, müassirlərindən narazılığını bildirən Naci bir bənddə yeni tip vicdansız, tanrısı pul olan sahibkarların dəqiq portretini yaradır:

Bir adam var bu məxluqun içində
Puldur anın için məzhəb də, din də,
Ömr edüb bir müddət, tamam ömrində,
Qazanmıyıb özü içün həsənat (4, s.65).

Şairə görə, insanlar xüsusilə tacirlər, sahibkarlar mənfiyə doğru dəyişdiklərinə, mənəviyyatsızlaşdıqlarına görə əvvəlki xeyir-bərəkət də yoxdur. Şair bu xoşagəlməz halları görmək istəmədiyi üçün yaşadığı mühitdən uzaqlaşmaq istədiyini bildirir.

XIX əsr Azərbaycan poeziyasında mənzum məktublara müraciətin sayının artdığı müşahidə olunur ki, bu da əksər hallarda real həyati problemləri əks etdirmək zərurətindən irəli gəlirdi. Mirzə Mehdinin şeirləri içində də kifayət qədər maraqlı mənzum məktublar vardır. Bu əsərlər ölkədə Nacinin ayrı-ayrı adamlarla münasibətlərini, zəmanəsinin mənzərəsini necə gördüyünü öyrənmək baxımından diqqətəlayiqdir. Şair cavan bir qızla evlənmək istəyən varlı, lakin qoca olan Aslan ağa adlı şəxsə yazdığı mənzum məktubunda onu bu fikirdən daşındırmaq istəyir, deyir ki, cavan şəxs özünə yaxın yaşlı adamla evlənməlidir:

Aslan ağa! Yaxın durma cavana!
Cavan da özü tək bir cavan istər (4, s.69).

Qeyd edək ki, şeirdə bir zarafat ədası da vardır. Görünür, şairin bu sözləri Aslan ağaya deməyə ərki çatırmış. Sonda muəllif deyir ki, əgər sözümə baxmayıb bu sevdadan əl çəkməsən peşiman olacaqsan:

Keçmə bu sözümdən əzizim mənim,
Məsləhətdir, eşit, imanım, dinim,
Eşitməzsən, yəqinimdir, yəqinim,
Fikirsiz iş tutan peşiman istər (4, s.69).

Tədqiqatçılar göstərir ki, Naci bir sıra yerliləri, eləcə də başqa şəhərlərdə yaşayan şəxslərlə məktublaşmış, onlara mənzum məktublar yazmışdır. Bu baxımından onun köçüb Təbrizdə yaşayan həmyerlisi, dostu Ağa İsmayıl Təbihlə məktublaşmaları səmimiyyəti ilə diqqəti cəlb edir. Tədqiqatçı Nəsrəddin Qarayev Mirzə Mehdinin əlaqələrinin genişliyi barədə yazır: “Nacinin irəvanlı şair Molla Abbas, salyanlı Molla Səfər, trabzonlu Molla Hüseynə yazılmış mənzum məktubları göstərir ki, o, başqa şəhərlərdə olan şair və alimlərlə əlaqə saxlamış, onlarla məktublaşmışdır. Naci Tiflis və İrəvanda olmuş, hətta şeirlərinin bir qismini həmin şəhərlərdə yazmış, gürcü qızlarının məlahət, vəcahət və nəzakətini nəzmə çəkmişdir.

İstər Azərbaycanın başqa şəhər və mahallarından Gəncəyə gələn alimlər, şairlər istərsə də xarici ölkələrdən olan səyyahlar Gəncədən keçərkən Naciyə qonaq olardılar.

Məsələn, 1867-ci ildə Hacı Hidayət Təftişi, yenə həmin ildə Molla Məhəmməd Xeybəri, 1872-ci ildə Ağa Şeyx Cəlaləddin Bürucərdi, Hacı Məhəmməd Təbrizi kimi səyyahlar Gəncədə olan zaman Naci ilə görüşmüş, bəzisi bir neçə gün ona qonaq olaraq arifane söhbətlər etmişlər”

(1, s.47). Qeyd edək ki, XIX yüzillikdə yaşamış Qasım bəy Zakir, Mirzə Fətəli Axundzadə kimi sənətkarlarımız digər ziyalılarla ünsiyyətə, məktublaşmaya meyl etmiş, bu məsələdə xüsusilə Mir Möhsün Nəvvab, Xürşidbanu Natəvan, Seyid Əzim Şirvani, Mirzə İsmayıl Qasir seçilmişlər.

Nacinin Hacı Heydərə yazdığı həcv xarakterli mənzum məktubdan o zaman Gəncədə ziyalıların məclisinin necə keçdiyini öyrənirik. Nəzərə almaq lazımdır ki, bu ədəbi məclisin toplantısı deyil, dost məclisidir. Şair əvvəldə şeirin yazılma səbəbi barədə yazır: "Gecələr qonaqlarımız olurdu. Toplanırdıq, çay içib plov yeyirdik. Vaxtımızı xoş keçirirdik. O vaxt ki, qonaqlıq növbəsi Hacı Heydərə çatdı, istədi qonaqlıq verməsin. Bu bəndəyə dedilər ki, onun haqqında həcv yazım ki, tənbih olunsun. Mən həcv əvəzində bu nəzmi yazdım. Haman gecə gözəl tədarük gördü və qonaqlıq verdi" (4, s.70). Şeirində Naci nəsihətamiz şəkildə anladır ki, xəsislik yaxşı keyfiyyət deyil, hələ heç kim dünya malını özü ilə o dünyaya aparmayıb, evə qonaq gəlməsi bərəkəti artırar:

Olma ikrah, əzizim, bu ziyafətdən sən,
Bərəkət nazil olur hər yerə getsə mehman.
Yığdığı dövləti heç kim yemədi aləmdə,
Vermədi mətləbini gərdişi-çərxi-dövran (4, s.71).

Başlıqdakı qeyddən göründüyü kimi, Mirzə Mehdi mənzum məktublarından birini məşuqəsinə yazmışdır. Şair vəfalı sevgilisinə bildirir ki, bir müddət ondan bundan uzaq olmasının səbəbi vardır. Son vaxtlar onun vəziyyəti yaxşı deyil. Şair sevgilisinin ayrılığından xeyli pərişan olduğunu, həsrətdən əzab çəkdiyini bildirir, ona məktub yazmaqla könlünü şad etməsini xahiş edir:

Daim çəkirəm mən iştiyaqın,
Öldürdü bəni sənin fəraqın.
Yoxdur bana bir ənisü həmdəm,
Saldı bəni bəs əyaqdan qəm .
Məktub ilə eylə könlümü şad,
Qəmdən bəni eylə ta ki, azad ( 4, 77).

Naci Bala Məhəmmədə yazdığı həcv xarakterli mənzum məktubunda başına gələn əhvalatı şərh edir. Şairin bölgədə təbib kimi də tanındığı məlumdur. Bala Məhəmməd ağanın müalicəsi üçün şairi Şəmsəddin mahalına dəvət edirlər. O, xəstəni müalicə etdikdən sonra xəstə müalicə pulunu ödəyib divanbəyinin evinə gedir. Bundan sonra xəstənin anası Fatma xanım elə bir oyun çıxarır ki, şair aldığı pulu geri qaytarıb pərt halda evinə qayıdır. Pula görə özünə qarşı hərəkət edən ailədən şikayətlənən Mirzə Mehdi sonda onları ədəb – ərkana dəvət edir:

Yıxma bir qəlbi ki, Allah öz əlilə tikmiş,
Bu səbəbdən deyilübdür ona beytül – Rəhman.
Nəzəri – huş ilə bax, hökmi – xudanı fəhm et,
Nə buyurmuş bizə gör ayəti – hökmi – Quran,
Naciya! Söyləmə bihudə, özün incitmə,
Şəmsəddin əhli pis işdən ola bilməz peşman (4,s.94).

XIX əsr Azərbaycan şairləri içində həcv yazanlar az olmamışdır. Bunlardan qəsd – qərəz, düşmənçilik, paxıllıq səbəbindən yazılan, ədəbsiz sözlərlə dolu olan şeirlər də az deyildir. Lakin

ictimai məzmunlu, cəmiyyətdəki, insan xüsusiyyətindəki nöqsanları tənqid edən həcvlər də olmuşdur ki, tədqiqatçılar haqlı olaraq bu əsərləri satirik poeziya nümunəsi saymışlar. Qarabağlı şair Abdulla bəy Asinin qərəzlə, nankorcasına xan qızı Xurşidbanu Natəvana yazdığı həcvə Seyid Əzim Şirvani, Mirzə Mehdi Naci tərəfindən yazılan cavab həcvləri belə əsərlərdəndir. Mirzə Mehdi cavab həcvində Abdulla bəyin Natəvana qarşı nankorluğuna, ədalətsizliyinə dözə bilməyib bu şeiri yazdığını bildirir: " Qarabağ şairlərindən Asi həsəd üzündən mərhum Mehdiqulu xanın qızına həcv yazıb. Gəncəyə göndərib. Gördüm xalq arasında oxuyub gülürlər. Halbuki cəddi pambuq atan (həllac) olub. Mərhum xan onu gətirib saray yaxınlarından edib, yaxşı mənsəb verib, hələ bəyzadə edib. Bəndəyə onun bu sifəti çox pis gəldi. Bəlkə səbəb odu ki, mərhum Cavad xanın nəvələrindən idi. Təəssüf hissi ilə onun cavabını yazıb qohumlarına, yaxınlarına göndərdim" (4, s.109). Naci şeirində qadını həcv etmək səviyyəsinə enmiş A.Asiyə üz tutub deyir ki, sən onu qadın hesab edib həcv etdin, o isə əslində aslan balasıdır:

Zən hesab eyliyübən cürət edüb həcv dedin,
Genə aslan balasıdır, demə ona ki, zənəst.
Çək atın başını, çox cürət ilə səgritmə,
Çox sənin kimilərə qəbr qazan gurkənəst (4, s.115).

Nacinin farsca yazdığı şeirlər də mövzu genişliyi ilə diqqəti cəlb edir. Bunların içində şəxsi münasibətlərdən bəhs edən, ictimai məzmunlu əsərlər də vardır. Bu şeirləri tərtibçi professor Xəlil Yusifli dilimizə çevirmişdir.

**Nəticə.** Mirzə Mehdi Naci XIX əsr Azərbaycan poeziyasının istedadlı nümayəndələrindən olmuşdur. Onun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan şeirləri, mövzu genişliyi, ictimai məsələlərə toxunması ilə diqqəti cəlb edir. Naci klassik Şərq poeziyasının əksər janrlarında əsərlər yazmışdır. Onun şeirlərinin dili sadə, rəvan, müasirləri üçün başa düşülən olmuşdur. Şairin yeni nəşr edilmiş şeirlər toplusu onun yaradıcılığını daha ətraflı araşdırmaq imkanı verəcəkdir.

## ƏDƏBİYYAT

1. Qarayev Nəsrəddin. XIX əsr Azərbaycan ədəbi məclisləri: Bakı: Elm və təhsil, 2012, 325 s.
2. Azərbaycan ədəbiyyatı tarixi. Altı clddə. C.4. Bakı: Elm, 2011, 260 s.
3. Yusifli Xəlil. Mirzə Mehdi Naci və poeziyası //Mirzə Mehdi Naci. Seçilmiş əsərləri. Gəncə: Elm, 2021, s. 6-26.
4. Naci Mirzə Mehdi. Seçilmiş əsərləri //Transl., tərc., tərt., ön söz. müəl.: Xəlil Yusifli: Gəncə: Elm, 2021, 153 s.

## MİRZƏ MEHDİ NACI ŞEİRLƏRİNİN MÖVZU DAİRƏSI VƏ JANR XÜSUSİYYƏTLƏRİ BARƏDƏ

***Samirə Gəncəli***

## XÜLASƏ

XIX əsr Azərbaycan poeziyasının istedadlı nümayəndələrindən biri olan Mirzə Mehdi Nacinin həyat və yaradıcılığı haqqında tədqiqatçılar müəyyən fikirlər söyləsələr də indiyədək əsərlərinin az bir hissəsi nəşr edildiyindən onun şeirlərinin ən səciyyəvi cəhətləri barədə ətraflı

fikir söyləməmişlər. Son vaxtlar şairin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan şeirlər toplusu əməkdar elm xadimi, professor Xəlil Yusifli tərəfindən nəşr edildiyindən Nacinin poetik irsinin səciyyəvi xüsusiyyətləri haqqında daha geniş fikir söyləmək imkanı yaranmışdır. Mirzə Mehdi Naci yaradıcılığı boyu maarifçilik ideyalarını təbliğ etmiş, Gəncədə fəaliyyət göstərən "Divani-hikmət" ədəbi məclisinin ən fəal üzvlərindən olmuş, məclisin başçısı Mirzə Şəfi Vazeh vəfat etdikdən sonra ona rəhbərlik etmişdir.

Bir neçə peşəyə sahib olan, yaşadığı şəhərdə təbib, həkkak kimi də tanınan Mirzə Mehdinin şeirlər toplusu-"Divan"ına daxil olan şeirlərin mövzu dairəsi kifayət qədər genişdir. Təəssüf ki, o, bəzi mənbələrdə həcv yazan şair kimi tanıdılmışdır. Naci qəzəl, qəsidə, məsnəvi, müxəmməs, müsəddəs, müəşşər, rübai, qoşma janrlarında yazılmış şeirlər müəllifidir.

## ТЕМАТИКА И ЖАНРОВЫЕ ОСОБЕННОСТИ СТИХОВ МИРЗА МЕХДИ НАДЖИ

***Самира Гянджели***

### АННОТАЦИЯ

Мирза Мехди Наджи один из талантливых представителей азербайджанской поэзии XIX века. В последнее время профессор Халил Юсифли издал сборник его стихов, рукописи которых хранятся в Институте Рукописей им. Мухаммеда Физули НАН Азербайджана. Круг тематики стихов поэта достаточно широк. Он затрагивал и семейно – бытовые темы, посвящал стихи своим близким и друзья, в том числе писал стихи с социальной тематикой.

Мирза Мехди Наджи писал в разных жанрах классической восточной поэзии. В его сборник стихов входят газели, касыды, масневи, мухаммасы, мусаддасы, муащщары, гошма и.тд. Как и ряд своих современников Наджи написал немало писем в стихах. В этих стихах поэт обращается к своим друзьям и знакомым, разным поэтам, говорит о нуждах современного общества.

## THEMES AND GENRE FEATURES OF MIRZA MEHDI NAJI'S POEMS

***Samira Genjeli***

### SUMMARY

Mirza Mehdi Naji is one of the talented representatives of Azerbaijani poetry of the XIX century. Recently, Professor Khalil Yusifli has published a collection of his poems, the manuscripts of which are kept at the Muhammad Fuzuli Institute of Manuscripts of the National Academy of Sciences of Azerbaijan.The range of subjects of the poet's poems is quite wide.He also touched on family and everyday topics, dedicated poems to his family and friends, including writing poems with social themes.

Mirza Mehdi Naji wrote in various genres of classical oriental poetry.His collection of poems includes ghazals, kasyds, mesnevis, muhammases, musaddases, musashchars, goshma, etc. Like a number of his contemporaries, Naji wrote many letters in verse.In these verses, the poet addresses his friends and acquaintances, various poets, talks about the needs of modern society.

# О НЕКОТОРЫХ ПРИЁМАХ ОРГАНИЗАЦИИ ЛЕКСИЧЕСКОГО МАТЕРИАЛА В УЧЕБНОМ ПРОЦЕССЕ

***Микаил Джафаров, заведующий кафедрой,***
***Наиля Мир-Бабаева, старший преподаватель***
***кафедра русского языка (естественных факультетов)БГУ***
mirbabayevan@mail.ru

***Açar sözlər:*** söz, leksik materialın təşkil edilməsi, leksik xəritə, əsas söz, sözlərin birləşməsi.
***Ключевые слова:*** слово, организация лексического материала, лексическая карта, узловое слово, сочетаемость слов.
***Keywords:*** word, organization of the lexical material, the lexical map, the main word, combination of words.

В последние десятилетия во всём мире усиливается интерес к изучению иностранных языков, что обусловлено быстрыми темпами развития интеграционных процессов во многих сферах взаимоотношения людей разных специальностей и профессий. И это не случайно, так как «развитие» языковой способности человека обусловливает его общее развитие и в то же время является важной предпосылкой общественного прогресса, формирования способности … свободно ориентироваться в быстро меняющемся информационном пространстве (3, с.4).

Учитывая наличие социальной востребованности общения на иностранных языках, методисты и языковеды ведут интенсивные поиски наиболее эффективных приёмов и путей обучения иностранным языкам. В этом направлении немало усилий проявляют и преподаватели – русисты, которые прекрасно понимают, что отправной точкой в процессе изучения языка является усвоение его лексического фонда. И это вполне закономерно, так как слово, по общему мнению языковедов, является центральной единицей языка. Ещё в начале прошлого столетия Фердинанд де Соссюр писал: «Слово, несмотря на трудность определить это понятие, есть единица, неотступно представляющееся нашему уму как нечто центральное во всём механизме языка» (9, с.111).

Как справедливо отмечают авторы книги «Живая методика для преподавателя русского языка как иностранного», «лексику вполне обоснованно можно считать наиболее «обделённой» вниманием как методистов, так и преподавателей – практиков… Данное обстоятельство вполне обоснованно можно объяснить тем, что кажущаяся простота усвоения слова, обусловленная его непосредственной соотнесённостью с внеязыковой реальностью, обратила интерес как теоретиков, так и практиков, прежде всего, к фонетике и грамматике» (1, с. 180- 181). Именно по этой причине наблюдаются некоторые пробелы в методике преподавания лексики. Заслуживает всяческого одобрения сам факт включения в упомянутую выше книгу специального раздела – «Лексика в практическом курсе русского языка», где подчёркивается, что «трудности в преподавании лексики возникают в связи со сложностью лексической семантики, достаточно скрытым характером системности составляющих её единиц, многоаспектностью слова, обладающего, помимо собственно лексического статуса, ещё и грамматическим, словообразовательным, фразеологическим, лингвострановедческим и т.д. статусами. Говоря проще, именно единицы лексического уровня языка являются основными, без которых невозможно и бессмысленно существование всех остальных уровней» (1, с.18).

Такой важный статус лексики в системе языковых средств требует тщательной разработки целого ряда методических вопросов в области преподавания русского языка,

как неродного. В этой связи возникает необходимость предварительной организации изучаемого лексического материала на занятиях РКИ. Так, например, в методической литературе рекомендуется составление лексических карт, где вокруг узлового слова заносятся все возможные существительные (прилагательные, глаголы, наречия и т.д.).Ср.: **Читать что**? – книгу, газету, журнал, роман, стихи, рассказ, письмо, объявление; **читать кого?** – Пушкина, Низами, Толстого; **читать** кому? – чему? – студентам, сыну, друзьям.

Конкретные случаи взаимодействия слов, относящихся к разным частям речи, позволяют сказать, что на практике наблюдаются различные виды лексических карт. Даже у одного и того же слова может быть несколько видов таких карт, характер которых зависит от качества его (слова) реализуемой семы. Так, например, у того же глагола читать, помимо приведённой выше объектной семы, потенциально существуют и другие семы – обстоятельственные (места, времени, образа действия). Ср.: читать где?- дома, в классе, в библиотеке, в читальном зале, на кафедре; **читать когда**? – утром, днём, вечером, до экзамена, после обеда; **читать как**? - быстро, внимательно, сидя, лёжа, наизусть, по памяти. В данном случае показаны лексические карты с узловым словом **читать**, являющимся одним из самых частотных глаголов в русском языке. Аналогичные лексические карты могут быть составлены для любого слова, в том числе и для существительных, наречий и местоимений, выступающих в позиции узловых единиц. К примеру, лексическая карта с узловым существительным ***встреча*** имеет следующий состав: **встреча** чья?- моя, твоя, наша, ваша, его, её, их, друзей, спортсменов; **встреча какая**? – первая, неожиданная, случайная, дружеская, официальная, короткая; **встреча где**? – в городе, на улице, на бульваре, в университете, на конференции; **встреча с кем**? – с другом, с туристами, с писателями, с поэтом, с депутатом, с коллективом, со студентами.

Рассмотрим лексическую карту с узловым словом – прилагательным, которое из-за своей зависимости от существительного имеет сравнительно ограничительную сочетаемость, но в методическом отношении представляет определённый интерес с точки зрения согласования с определяемым словом в роде, числе и падеже. Этот аспект адъективной лексики имеет особо важное значение для студентов- иностранцев, изучающих русский язык. Приведём несколько лексических карт с узловым словом – прилагательным: **смелый** воин, солдат, разведчик, человек, мальчик ; **смелый** поступок, план, проект ; **смелая** идея, мысль, речь; **смелое** решение, выступление; **смелые** люди, офицеры, разведчики, бойцы.

Как видно из приведённых примеров, лексическая карта фактически служит отражением потенциальной сочетаемости слов, благодаря которой они употребляются в речевом потоке. О необходимости работы над составлением и применением лексических карт в книге «Русский язык как иностранный» отмечается, что «обучение составлению карт лексических групп предполагает выполнение упражнений, в которых отрабатываются необходимые для группирования мыслительные действия. Это может быть:

- нахождение слов к данным дефинициям;
- нахождение в серии слов той единицы, которая по семантико- категориальному признаку к данной серии не подходит;
- соотнесение разрозненных слов с заданными дефинициями и т.п.» (7, с.144).

Выполнение такого рода заданий способствует запоминанию слов не как изолированных единиц, а как важных звеньев лексического окружения, что служит опорным материалом для построения различных высказываний в процессе общения.

В методической литературе также встречаются рекомендации по использованию в качестве лексических карт и сочетания группы глаголов с одним и тем же существительным типа: говорить, нести, болтать, - чепуху (7, с.144).

Думается, что подобная организация лексического материала весьма полезна и может быть широко использована на занятиях РКИ. Можно предложить и следующий материал: провести, отметить, справить – **праздник**; подготовить, написать, прочитать, перевести, показать, опубликовать – **статью;** изготовить, приготовить, назначить, найти, купить, достать, заказать, получить, принять, пить – **лекарство.**

Для усвоения и закрепления изучаемого лексического материала можно предложить студентам и ряд заданий типа:

I.**Замените словосочетания словами, обозначающими людей по профессии**.

1. Специалист по тушению пожара - … (пожарник) 2. Мастер по укладке печей…(печник) 3. Солдат, служащий в артиллерии…(артиллерист) 4. Музыкант, играющий на гитаре….(гитарист) 5. Специалист по ремонту часов….(часовщик) 6. Боец, отправляющийся на разведку… (разведчик) 7. Учёный, изучающий атомную энергию….(атомщик) и т д.

II. **К данным глаголам подберите подходящие по смыслу существительные**.

Встречать, рисовать, решать, готовить, переводить, писать, мыть, чистить, ловить, строить, поднять, поливать, красить, открывать.

III. **Подберите и вставьте вместо точек нужные глаголы**.

Деревья… в лесу, рыбы… в море, птицы… в гнёздах, звери… в горах, медведь … в берлоге, больные… в больнице, студенты … в читальном зале.

IV. **Замените словосочетания подходящими по смыслу словами.**

Орган зрения-…, жилое здание -…., сильный холод -…, начало дня -…, прибор для глажения -…, главный город государства - …, небесное светило-…, автор стихотворных произведений -…, автор прозаических произведений -…

Своеобразным приёмом частичной организации лексического материала являются данные «Словаря эпитетов русского литературного языка», где определяемые явления снабжены детальной характеристикой с помощью соответствующих групп адъективной лексики. В качестве яркого примера можно привести материалы словарной статьи к слову **луна.** Здесь сообщается о размере, форме диска; о положении луны на небосклоне, времени её появления: **большая, высокая, круглая, молодая, поздняя, полная, пышная**, **серповидная, тонкая, узкая.** Ср.: **Молодая** луна в закате дня (Бунин); **Узкая** луна восходит над городом (Инбер).

Другая группа эпитетов обозначает цвет, прозрачность, блеск луны: **багровая**, **белая, бледная, блестящая, зеркальная, матовая, светлая**.Ср.: Светит **яркая** луна (Никитин); Снежная равнина, **белая** луна (Есенин).

В третью группу эпитетов к слову луна входят слова, повествующие о впечатлении, психологическом восприятии: **беззаботная, безмятежная, вольная, задумчивая, ласковая, нежная, одинокая, печальная, унылая**. Ср.: Гуляет **вольная** луна (Пушкин). Плывёт меж звёзд **холодная** луна (Сурков). (8, с.223- 226).

Вовлечение в учебный процесс различных групп адъективной лексики способствует усвоению студентами такой важной темы, как согласование прилагательных с существительными, а также обогащению их лексического запаса за счёт слов, несущих смысловую и экспрессивно – эмоциональную нагрузку.

Все эти приведённые выше приёмы организации изучаемого лексического материала несомненно будут способствовать более полному усвоению комбинаторных возможностей

лексических единиц, т.е. их сочетаемостных возможностей при конструировании различных типов высказываний, необходимых для общения в конкретных ситуациях.

## ЛИТЕРАТУРА


1. Аркадьева Э.В. Горбаневская Г.В. и др. Лексика в практическом курсе русского языка / Живая методика для преподавателя русского языка как иностранного М.,2015, с.180-209.
2. Бердичевский А.Л. Отражает ли русская грамматика русскую ментальность// Русский язык за рубежом, №3, 2016, с. 99-105.
3. Керимова С. Культура речи в общении на языке специальности. Практикум. Баку: Кооперация, 2020, 388 с.
4. Костомаров В.Г; Митрофанова О.Д. Методическое руководство для преподавателей русского языка иностранцам. М.: Русский язык, 1988, 158 с.
5. Москальская О.И. Грамматика немецкого языка. М: 1960.
6. Пассов Е.И. Основы коммуникативной методики обучения иностранному языку. М.: Русский язык, 1989
7. Русский язык как иностранный. Методика обучения русскому языку: учебное пособие для высших учебных заведений. М.: ВЛАДОС, 2004, 270 с.
8. Словарь эпитетов русского литературного языка. (К.С. Горбачевич, Е.П. Хабло). М.: Наука, 1979, 567 с.
9. Соссюр Ф. Курс общей лингвистики. М., 1933.


## О НЕКОТОРЫХ ПРИЁМАХ ОРГАНИЗАЦИИ ЛЕКСИЧЕСКОГО МАТЕРИАЛА В УЧЕБНОМ ПРОЦЕССЕ

***Микаил Джафаров, Наиля Мир-Бабаева***

## АННОТАЦИЯ

Развитие интеграционных процессов в глобальном масштабе усиливают интерес людей к овладению иностранными языками. Отправной точкой в изучении языка является усвоение его лексического фонда. Успешному овладению неродным языком способствует организация лексического материала. Одним из приёмов такой организации является составление лексических карт, где вокруг узловых слов приводится набор лексического окружения. Узловые слова могут быть представлены словами различных частей речи.

## TƏLİM PROSESİNDƏ LEKSİK MATERİALIN TƏŞKİL EDİLMƏSİNƏ DAİR BƏZİ ÜSULLAR HAQQINDA

***Mikayıl Cəfərov, Əzizə Feyziyeva***

## XÜLASƏ

İnteqrasiya proseslərinin qlobal miqyasda inkişafı insanların xarici dillərin mənimsənilməsinə olan maraqlarını artırır. Dilin öyrənilməsində başlanğıc nöqtə kimi leksik fondun mənimsənilməsi dayanır. Qeyri-doğma dilin uğurla mənimsənilməsinə leksik materialın təşkil edilməsi təkan verir. Bu cür təşkil edilmənin üsullarından biri də leksik xəritənin tərtib

edilməsidir. Burada əsas sözlərin ətrafında leksik əhatə verilir. Əsas sözlər müxtəlif nitq hissələrinə aid ola bilər.

## ABOUT SOME METHODS ON THE ORGANIZATION OF THE LEXICAL MATERIAL IN THE LEARNING PROCESS

***Mikayil Jafarov, Aziza Feyziyeva***

### SUMMARY

Development of the integration process on the global scale increases the people's interest in learning foreign languages. Mastering the lexical fund is the starting point of the language learning. The organization of the lexical material gives impetus to the successfully mastering of a non-native language. One of such organization methods is compiling the lexical map. Here is given a lexical coverage around the main words. The main words can belong to the different parts of speech.

**UOT:82-1.512.162**

# MİRZƏ ƏLƏKBƏR SƏBURİ POEZİYASININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

***Könül Əliyeva***
***Əlyazmalar İnstitutu mütəxəssis***
*konul77eliyeva@gmail.com*

***Açar sözlər:*** Mirzə Ələkbər Səburi, Mirzə İsmayıl Qasir, Lənkəran, qəzəl, mürəbbe
***Ключевые слова:*** Мирза Алекбер Сабури, Мирза Исмаил Гасир, Лянкаран, газель, мураббе.
***Key words:*** Mirza Alekber Saburi, Mirza Ismail Qasir, Lenkoran, ghazel, murabbe

***Giriş.*** XIX yüzillik Azərbaycan mədəniyytində, ədəbiyyatında yeni təmayüllərin özünü bariz şəkildə göstərməsi, dünya ədəbiyyatı ilə əlaqəsini genişlənməsi, milli dramaturgiya və mətbuatın meydana çıxması ilə əlamətdardır. Ədəbbiyyat, poeziya müasir elmi, yeni təhsili, mətbuatı təbliğ edir, xalqımızın dünyanın aparıcı ölkələrindən geridə qalmasının səbəblərini araşdırır, cəhalətə, geriliyə, dini fanatizmə qarşı çıxırdı. Tədqiqatçılar bu dövrün ədəbiyyatında baş verən hadisələr barədə yazırlar: "XIX əsrin son onilliyində Azərbaycanda maarifçilik ideologiyası öz inkişafının yeni bir mərhələsinə daxil olmağa başlayır. Ölkədə feodalizmin, feodal, bəy münasibətlərinin böhranı qüvvətlənir, kapitalist istehsal münasibətləri sürətlə inkişaf edir. əbiyyatın başqa sahələri kimi poeziyada yeni bir yüksəliş mərhələsinə qalxır, şeirdə maarifçilik və demokratizm ideyaları, xəlqilik və humanizm ruhu, tənqidi pafos və satira güclənir.

Bununla belə, həmin dövrdə klassik romantik şeirin üslub modeli və modelləri hələ dəyişmir. Əksinə, poeziyada füzuliyanəlik kütləvi şəkil alır, füzuliyanə yazmaq uğrunda qızğın yarış gedir. Şairlər öz oxucularını Füzulidən uzaqlaşmaq, ondan öyrənmək yolu ilə deyil, Füzuliyə yaxınlaşmaq, ona bənzəmək yolu ilə heyrətləndirməyə çalışırdılar" (1, 281-282). Xüsusilə Azərbaycanın bir sıra şəhərlərində (Tiflis, Gəncə, Quba, Dərbənd, Naxçıvan, Lənkəran, Şamaxı, Şuşa, Bakı) nisbətən kiçik məntəqələrdə fəaliyyət göstərən ədəbi məclis üzvləri klassik poeziyaya, Füzui irsinə sadiq idilər. Əlbəttə, bu ədəbi məclislərinin üzvlərinin klassik irsdən bəhrələnməyə üstünlük vermələri heç də onların müasir həyatın tələbləri ilə hesablaşmamaları demək deyildi. Tədqiqatçı Nəsrəddin Qarayev "XIX əsr Azərbaycan ədəbi məclisləri" kitabında məclis üzvlərinin dünyagörüşündə, yaradıcılığında baş verən dəyişiklikləri belə xarakterizə edir: "XIX əsrin ikinci yarısında məclis üzvlərinin bir çoxunu ictimai-siyasi, həyatı məsələlər, hətta beynəlxalq aləmdə baş verən hadisələr daha artıq düşündürməyə başlamışdı. Əsrin sonlarında isə onların yaradıcılığında zəmanədən narazılıq, "yaman əsr"dən şikayət, fırıldaqçı mollaların və mənsəb sahiblərinin tənqidi hiss ediləcək dərəcədə nəzərə çarpırdı" (2, s.25-26). Səburi də üzvü olduğu "Fövcül füsəha" ədəbi məclisinin bir sıra üzvləri kimi ictimai mövzulu, satirik şeirlər də yazmışdır.

***Əsas hissə.*** Mirzə Ələkbər Əliqulu oğlu Səburi 1886-cı ildə Lənkəranda dünyaya gəlmiş, ilk təhsilini burada almış, burada da evlənmişdir. Şair təbib təhsiini almış, oğlunun təhsilini təmin etmək üçün Bakıya köçmüş, 1913-cü ildə burada vəfat etmişdir.

Mirzə Ələkbər Səburi klassik poeziyanın, "Fövcül-füsəha" ədəbi məclisi üzvlərinin, məclisin rəhbəri Mirzə İsmayıl Qasir əruz və heca vəznində, Azərbaycanvə fars dillərində yazdığı əsərlərin təsiri ilə şeirlər yazan, lirik-aşiqanə qəzəllərlə bərabər ictimai mövzulu əsərlər müəllifi olmuşdur. Qeyd edək ki, Qasir Lənkaranda yeni tədris üsulu ilə dərs deyən məktəb

açmış, bir sıra şeirlərində yeni təhsili təbliğ edən şeirlər yazmış, bu iş də maneçilik törədən köhnəpərəstləri tənqid etmişdir. Səburi də maarifçi şair olmuş, bu məsələlərdə Qasirin ideya dostu olmuşdur.

Mirzə Ələkbər Səburini klassik poeziya ilə daha çox bağlayan onun qəzəlləridir. Məşuqənin vəsfi, onun zahiri və mənəvi gözəlliklərinin tərənnümü bu şeirlərdə mühüm yer tutur.

Arami-can, cani-cəhan, ruh ara rəvan,
Şirin zəbanü qönçə dəhanü şəkkər ləban.
Ahu baxış, üzrov rəviş, nazənin yeriş,
Qılman xüsalü hu cəmalü-firiştə şan.
Nərgis nigəh, bənövşı sipəh, mülki-hüsnə şəh,
Yandım, amandı, rəhm eylə, məni-zarə, əl`əman (3, s.15).

Səburinn şeirləri real bir gözələ həsr edilmiş dünyəvi şeilərdir. Bu şeirlərdə məşuqənin gözəlliyi ilə bərabər onu sevən aşiqin ürək çırpıntıları, sevgilisindən ayrılıq əzabları, daxili dünyası da əksini tapmışdır. Mirzə Ələkbərin bəzi qəzəllərində sıravi oxucunun anlamaqda çətinlik çəkəcəyi ərəb-fars mənşəli söz və ifadələr olsa da, onun elə şeirləri də vardır ki, burada deyilənlər müasir oxucuya belə təmamilə aydındır. Səmimiyyət, aşiqin məşuqəsinə sədaqətinin ifadəsi şairin lirik-aşiqanə şeirlərinin səciyyəvi cəhətlərindəndir. Onun qəzəllərindən biri sanki aşiqin sevgilisi ilə bir guşədə həyacanlı, pıçıltılı söhbətidir. Aşiq neçə müdətdir gözəli, sevdiyini həsrətlə arzulayır lakin ondan laqeydlik gördüyünü deyir, ona yalvarır. Şeirin dili aydın və anlaşıqlıdır:

Ey cəfapişə, yari-səngindil,
Nə səbəb bəndən olmusan qafil?
Ölməkdən hiras, yoxdu, vəli,
Qalacaqdır könüldə bu nisgil.
Sənlə bir yerdə olmağım həmdəm,
Mətləbim səndən olmadı hasil.
Neçə ildir yolunda zəhmətlər,
Çəkmişəm, axır eyləmə zail.
Rəhmə gəl, ey fəda mürüvvətinə,
Məni eylə vüsalına vasil (3, s.18).

Şairin lirik qəhrəmanı ölümdən belə qorxmur. Onu narahat edən, ürəyini ağrıdan illərin əziyyətindən sonra sevgilisinə qovuşa bilməməsidir. Müəllif qəzəlində bu ürək ağrısını məharətlə çatdıra bilmişdir.

Füzuli kimi Səburi də özünü klassik Şərq poeziyasının məşhur aşiq sürətləri ilə müqayisə edir, aşiqlikdə özünü üstün sayır. Şair bir tərəfdən sevgilisindən əzabları azaltmağı xahiş edir, digər tərəfdən eşqdə əzabkeşliyi ilə fəxr edir:

Fəda o zülmünə, az eylə, həddən keçdi,
Bu qədər eyləmə zülm eyləməglügündə təlaş,
Hədii Xosrovu Şirin, Leylini Məcnun,
Fəsanə oldular, şimdi bizik zəmanədə faş (3, s.19).
Sonuncu beyt Füzulinin
Sürdü Məcnun dövrünü, indi mənəm rüsvayi-eşq,
Doğru derlər, hər zaman bir aşiqin dövranıdır

─ beytini xatırladır ki, bu da təbiidir. Dövrün əksər şairləri, xüsusilə də ədəbi məclis şairləri kimi, Mirzə Ələkbər Səburi üçün də Füzuli sənət örnəyi olmuşdur.

Şairin bəndlərdən ibarət klassik janrlarda yazdığı şeirlərində, mürəbbe, müxəmməs, müsəddəslərində də məhəbbət lirikasının gözəl nümunələrinə rast gəlirik.

Dövrünün əksər şairləri kimi Səburi də dini mövzuya toxunmuş, "Qəsideyi-Müslim ibn Əğil mücahid həqiqi əleyhissalam" adlı şeirində Kərbəla vaqiəsini təsvir etmişdir. Kərbəla müsibəti birinci növbədə şairi haqq-ədalət, həqiqət uğrunda tərəddüd etmədən ölümə gedənlərin qəhrəmanlığı anlamında maraqlandırır.

Mirzə Ələkbər başqa şeirlərində də haqq yolunda tərəddüdsüz mübarizə aparmağın zəruriliyini diqqətə çatdırmışdır. Maarifçi, tərəqqipərvər şair cəmiyyətdə mütərəqqi yeniliklərin necə çətinliklə həyata keçdiyini, köhnəpərəstlərin hər işə necə mane olduqlarını görürdü. Buna görə də o, haqq işi uğrunda əyilməz, mübariz olmağı təbliğ edir, "Gər əziz olmaq dilərsən, həqqə ol yar aqibət" deyirdi. Müsəddəslərindən biri şairin həyat manifesti kimi səslənir-

Həqq yolunda həqq deyən kəslər çəkiblər çox bəla,
Gər bəla istərsən, həqq ilən aşina ol bərmələ,
Həqq deyənlər söyləyiblər "əlbəlaün-lil-vəla",
Həqqini eyni-bəlada gördü şahi-Kərbəla,
Ey bəradər, həq deyib həqq ilə yar olmaq gərək,
Vadiyi-fəqrü fənada xaksar olmaq gərək (3, s.108).

Səburi şeirlərində "nə üçün belə acınacaqlı halda qaldıq, dünyadan geridəyik, zəhmətkeş xalq yoxsulluq içindədir" sualına cavab axtarır. Cavab isə belədir ki, xalqın imkanlı nümayəndədləri yalnız özləri ilə məşğuldurlar, yoxsulların halına laqeyiddirlər. Din xadimləri, mollalar isə öz mənafelərinə uyğun olaraq riyakarlıqla, yalan danışmaqla məşğuldurlar, xalqın tərəqqisinə mane olurlar:

Çıxardır minbərə qüllabi olan göftarın,
Minbər üstə edər gərmi-yalan bazarın,
Yetirər ərsə bizim naləvü əfğanımızı,
Yoxdu bir pursiş edən hali-pərişanmızı,
Görə bu gözdən axan əşki-dürəfşanmızı (3, s.99).

Mirzə Ələkbər ürəkdən Allaha inanan mömin bir dindar olmuşdur. Lakin o başa düşündü ki, dini fanatiklər elmin və deməli, ölkənin, xalqın inkişafına mane olurlar, bununla da millətin gələcəyinini böyük bir təhlükə altına atmış olurlar. Şair oxucusuna, bütün xalqa müraciət edərək deyir ki, indi alimlərin dövrüdür, ən böyük hörmətə layiq olanlar xalqı maarif, tərəqqi yoluna dəvət edən alimlərdir:

Ehtiramı alimin vacibdir hər vaxt, hər zaman,
Çünki alimdir müsəlmana peyğəmbərdən nişan.
Hər qədər pis olsa alim, sənlə məndən yaxşıdır,
Vəzinin hər kəlməsi dürri-ədəndən yaxşıdır,
Çün münəzzəhdir daxi məkr ilə fəndən yaxşıdır,
Kaş bu mətləb ola cmlə müsəlmanə əyan (3, s.86).

Bu şeirində Səburi həyatını elmlə məşğul olmağa sərf edənlərin ehtiyac içində yaşadığını, nadanlarn isə var-dövlət sahibi olduğunu da xüsusi olaraq vurğulayır. Lakin, o, əmindir ki, indiki dövrdə millət övadının elm öyrənməkdən başqa çıxış yolu yoxdur. Yalnız elmin inkişafı xalqın gələcəyini təmin edə bilər:

Elm oxu, elmə mürəvvəc olub elm əxz eylə,
Elm ilə həll olunub müşkil olan əmri-zərur.
Elm ilən oldu bina hər bir ümuri-insan,
Geridə qalır elm, olmasa gər hər bir ümur.
Ham millət bu gün elmlə tapırlar rütbə,
Bir müsəlmandı qalan kişvəti-insandan ur.
Elm ilə qürreyi-bərqiyyəni icad eləyib,

Su içində paraxod, həm quruluqda vapur (3, s.79).

Səburinin şeirlərində ifadə etdiyi mütərəqqi fikirlərin onun bir sıra müasirlərinin, Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir və başqalarının maarifçi fikirləri ilə səsləşdiyini görürük. Səburinin bəzi şeirlərində böyük Sabirin kinayəli üsulundan istifadə eidilir. Burada mənfi tip öz dili ilə özünü ifşa edir. Şairin bir şeirində yeni təhsilə, elmə düşmən olan bir köhnəpərəst öz dili ilə deyir ki,bizə insan kimi yaşamaq, geyinmək yaraşmaz. Biz elmdən, maarifdən uzağıq, övladlarımızı yeni tədris müəssisələrində oxumağa heç bir vaxt göndərmərik:

Zindəganlıq bizlə dünyada yaraşmaz hərgiz,
Bir müsəlmanı hesab etmək olar əhli-qübur.
Cır və cında ola, lazımdı bizim əlbisəmiz,
Cənnət içrə geyərik ətləsü dibavü səmur.
Biz hara, elm hara, məktəbü şkola hara?
Bizi bu barədə bir kəs edə bilməz məcbur.
Qoya şkolaya hər müslüm əgər övladın,
Olacaq xalqın arasında yəqinən mənfur (3,s.80).

***Nəticə.*** XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində yaşamış, dövrünün istedadlı şairlrindən biri olan Mirzə Ələkbər Səburi Lənkəranda dünyaya gəlmiş, burada təhsil almış, "Fövcül-füsəha" adlı yerli ədəbi məclisin fəal üzvlərindən olmuşdur. Onun əsərləri ilk dəfə 2004-cü ildə filologiya üzrə fəlsəfə doktoru Aybəniz Rəhimova tərəfindən bir kitabça halında nəşr edilmişdir. Səburi qəzəllərində klassik poeziyanın, xüsusilə də Füzulinin ənənələrini davam etdirmişdir. Şair dini, məişət mövzularında da şeirlər yazmışdır. İctimai məzmunlu şeirlərində, o, maarifçilik ideyalarını təbliğ edir, elmin, təhsilin inkişafına mane olan köhnəpərəst qüvvələri tənqid edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. Dördüncü cild. Bakı: "Elm", 2011, 860 s.
2. Qarayev Nəsrəddin. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: "Nurlan" , 2012, 325 s.
3. Səburi Mirzə Ələkbər. Şeirlər / Mətni nəşrə hazırlayan Aybəniz Rəhimova. Bakı: "Nurlan" , 2004, 119 s.

## MİRZƏ ƏLƏKBƏR SƏBURİ POEZİYASININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

***Könül Əliyeva***

## XÜLASƏ

XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində yaşamış istedadlı Azərbaycan şairlərindən biri də Mirzə Ələkbər Səburi (1866-1913) olmuşdur. Səburi Lənkəranda fəaliyyət göstərən "Fövcül-füsəha" ədəbi məclisinin fəal üzvlərindən biri, məclisə rəhbərlik edən Mirzə İsmayıl Qasirin (1805-1900) yaxın dostlarından olmuşdur.

Son dövrlərə qədər şairin həyat və yaradıcılığı haq qında məlumat çox az olmuş, onun şeirləri çap edilməmişdi. Filologiya üzrə fəlsəfə doktoru Aybəniz Rəhimova ayrı-ayrı əlyazma məcmuələrindən Səburinin şeirlərini toplamış, axtarış zamanı onun əsərlərinin avtoqraf nüsxəsini aşkar etmişdir. Tədqiqatçı tərəfindən şairin şeirlərinin 2004-cü ildə ayrıca kitabda çap edilməsi onun ədəbi irsinin daha ətraflı araşdırılmasına imkan yaradır.

Mirzə Ələkbər Səburi şeirlərinin mühüm hissəsini lirik-aşiqanə mövzulu qəzəllər təşkil edir. Bundan başqa, şairin məişət,satirik mövzulu əsərlərin də vardır. Şairin şeirlər toplusuna qəzəllərdən başqa qəsidə, mürəbbe, mürəbbe-tərcibənd, müxəmməs, müxəmməs-tərcibənd və müsəddəslər daxildir.

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ПОЭЗИИ МИРЗА АЛЕКБЕРА САБУРИ

***Кенул Алиева***

## АННОТАЦИЯ

Мирза Алекбер Сабури (1186-1913) был одним из талантливых азербайджанских поэтов, живших во второй половине XIX- начале XX вв. Сабури был активным участником литературного маджлиса «Фовджул-фусаха», которая существовала в Ленкоране. Он был одним из близких друзей руководителя этого маджлиса Мирза Исмаила Гасира (1805-1900).

До последнего времени сведений о жизни и творчестве поэта было очень мало, его стихи не были изданы. Кандидат филологических наук Айбениз Рагимова собрала из разных рукописных рукописей стихи поэта, во время поисков обнаружила автограф,его поэта издала сборник его стихов отдельной книжкой 2004 году это сборник стихов Сабури, дает возможность более всестороннему изучению его литературного наследия. Важную часть произведений

Мирза Алекбера Сабури состовляют его газели лирического содержания. Кроме этого в сборник поэта входят касыда, мураббе, мураббе-тарджиббанды, мухаммасы, мухаммас-тарджиббанды.

## CHARACTERISTIC FEATURES OF THE POETRY OF MIRZA ALAKBAR SABURI

***Konul Alieva***

## SUMMARY

Mirza Alekber Saburi (1186-1913) was one of the talented Azerbaijani poets who lived in the second half of the 19th - early 20th centuries. Saburi was an active participant in the literary majlis "Fovjul-fusah", which existed in Lankaran. He was one of the close friends of the head of this majlis, Mirza Ismail Gasir (1805-1900).

Until recently, there was very little information about the life and work of the poet, his poems were not published. AibenizRahimova, candidate of philological sciences, collected the poet's poems from various handwritten manuscripts, during the search she found an autograph of his works, published a collection of Saburi's poems in a separate book in 2004, which makes it possible for a more comprehensive study of his literary heritage.

An important part of the works of Mirza Alakbar Saburi is composed of his lyrical gazelles. In addition, the poet's collection includes, in addition to ghazelles, qasida, murabbe, murabbe-tarjibband, muhammas, muhammas-tarjibband.

## PSİXOLOGİYA

# MƏKTƏBLİLƏR ARASINDA BAŞ VERƏN BULLİNQ HALLARININ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Günel Mirzəzadə***
***Azərbaycan Universitetinin magistrantı***
*gunel.mirzazada@student.au.edu.az*

***Açar sözlər:*** Məktəb, həmyaşıd, zorakılıq, bullinq aktı, buller, zorakılıq qurbanı, fiziki və verbal bullinq, kiberbullinq, ailədaxili zorakılıq, psixo-sosial nəticələr
***Ключевые слова:*** Школа, ровесник, насилие, буллинг (травля), буллер, жертва насилия, физическое и словесный буллинг, киберзапугивание, домашнее насилие, психосоциальные последствия
***Keywords:*** School, peer, violence, bullying act, buller, victim of violence, physical and verbal bullying, cyberbullying, domestic violence, psycho-social consequences.

Çox zaman uşaqlar arasında baş verən konfliktlərə çox kiçik bir məsələ kimi baxılaraq ciddi bir problem olmadığı söylənilir, uşaqların fiziki və psixoloji inkişafının çox təbii bir parçası olduğu söylənərək bu cür hallar görməzdən gəlinir və müdaxilənin mənasız olduğu düşünülür. "Uşaqdırlar, öz aralarında oynayırlar.", "Bir az keçsin, unudacaqlar.", "Bizim vaxtımızda o qədər belə davalar olub..." və s. kimi ifadələrlə biz nə qədər üzərindən keçməyə çalışsaq da son illərdə məktəblərdə uşaqlar arasında baş verən fiziki və psixoloji zorakılıq halları məsələnin ciddiliyini gözlər önünə sərir. Bu gün dünyanın bütün ölkələrində uşaqlar məktəbdə kifayət qədər çox zaman keçirirlər və təhsil müəssisələrində müşahidə olunan ən qabarıq problemlərdən biri təhsil alanların müxtəlif növ təzyiq və davranışların hədəfi olmasıdır. Hansı ki, bunlardan biri məhz son dövrlərdə leksikonumuza daxil olan "bullying"dir. Müxtəlif ölkələrdə aparılan araşdırmalar, demək olar ki, hər yaş qrupunda şiddətin bir növü olan bullinq hallarının meydana gəldiyinə və bu səbəbdən heç kimə qaynayıb-qarışmayan, özünə qapalı həyat keçirən, məktəbi tərk edən, intihara əl atan uşaqların sayının getdikcə artdığına diqqət çəkir.

Qeyd etmək istərdim ki, məktəblərdə baş verən bullinq ölkəmizdə də geniş yayılmış aqressiv davranışlardan biri olsa da təəssüf ki, bu mövzu geniş araşdırılmamış, problemin sosial, psixoloji tərəfləri öyrənilməmişdir. Bu baxımdan problemə şəxsi yanaşmamda daha çox xarici ədəbiyyatlardan istifadə etməyə çalışdım. Təbii ki, xarici ölkələrdəki məktəblərdə baş verən bullinq halları təbiət etibarı ilə Azərbaycan məktəblərində baş verən bullinq halları ilə tamamilə eynilik təşkil etmir, lakin düşünürəm ki, ümumilikdə uşaq psixologiyası və davranışlarından söhbət getdiyi üçün oxşarlıqlar da çoxdur. Bu baxımdan xarici tədqiqatlara əsaslanaraq ölkəmizdə də bu problemlə bağlı ümümi mənzərəni izah etməyə çalışacam.

İlk öncə problemi beynimizdə küçümsəməmək məqsədilə statistikaya nəzər salaraq başlamaq istərdim. Belə ki, ABŞ Təhsil Departamentinin məruzəsinə əsasən, 12-18 yaş aralığından hər dörd uşaqdan biri son məktəb ili ərzində bullinqin qurbanı olur [1]. Ukraynada UNICEF üçün aparılmış tədqiqatlara əsasən, məktəblilərin 89%-i bullinqlə rastlaşırlar. Qərb mənbələrinin məlumatına görə, 14 yaşa qədər şagirdlərin 50%-i məktəbdə təqiblərə məruz qalır. Rusiya məktəblərində isə bullinqin kütləvi hadisə olduğu müəyyən olunduqdan sonra bu sahədə tədqiqatlar 2000-ci illərin sonunda başlayıb. 2010-cu ildə tədqiqatçılar müəyyən ediblər ki, 11 yaşa qədər 22% oğlan və 21% qız həmyaşıdları tərəfindən təhqirlərə məruz qalıb. Moskvada 1200 şagird arasında keçirilən sorğudan məlum olub ki, onların 78%-i oxuduqları məktəbdə

bulinqin şahidi olublar. Norveçdə isə oğlanların 11, qızların 2.5 %-i öz həmyaşıdlarına qarşı aqressiv davranışda olduqlarını etiraf ediblər [7]. Azərbaycanda isə sosial mediada bullinqlə bağlı aktiv müzakirələrin başlanmasına 13 yaşlı Elina Hacıyevanın təhsil aldığı məktəbdə üzləşdiyi zorakı davranışlar səbəbindən intihara əl atması səbəb oldu. Yalnız bu hadisədən sonra hər kəs bullinq mövzusunda araşdırmalar etməyə və məsələnin nə qədər ciddi olduğu haqqında düşünməyə başladı.

Ümumiyyətlə bullinq nədir, bu zorakılıq formasına hansı tip davranışlar aid olunur? Əslində bullinqin rəsmi bir tərifi yoxdur, lakin ümumi olaraq xarici ədəbiyyatlarda bu davranışın izahı birinə onun irqi, dini, cinsi oriyentasiyası, xarici görünüşü və ya əlilliyi səbəbindən fiziki və ya psixoloji olaraq yönəldilən mənfi hərəkətlər olaraq verilir [2]. Bu izaha görə bullinq zorakılığın bir növü olaraq qəbul edilə bilər. Lakin ümumilikdə bullinq bir şəxs və ya qrupun zərər vermək səbəbilə digər şəxs və ya qrupu seçməsilə ortaya çıxır və buna görə də zorakılığın digər növlərindən tamamilə fərqlidir. Bullinqin qarşısının alınması Proqramının (Bullying Prevention Program) yaradıcısı Dan Owleusa görə bullinq bir şagirdin (bullinq qurbanı) bir və ya birdən artıq şagirdin (buller) mənfi hərəkətlərinə dəfələrlə və müntəzəm şəkildə məruz qalmasıdır. [3].

Bullinq davranışlarına aşağıdakılar aiddir:

- Ad qoyma (fərqli, xoşagəlməz adlarla çağırma)
- Qurbanı pis vəziyyətə salacaq hərəkətlər, qıcıqlar
- İtələmə, çimdikləmə, dişləmə, vurma, silkəlmə
- Əşyalarını götürmək, pulunu oğurlamaq
- Qurbanın dostlarını, yaxın çevrəsini ondan uzaqlaşdırmaq - sosial təcrid etmə
- İnternetdə təhqiramiz rəylər yazmaq, şayiələr yaratmaq
- Təhdidlər və hədələr, istəmədikləri hərəkətə məcbur etmə
- Təhdidkar telefon zəngləri
- Alçaldıcı, incidici mətnlər və mesajlar göndərmək [2].

Çox vaxt bullinqdən danışılanda ilk ağıla gələn yalnız fiziki zorakılıq olsa da davranış nümunələrindən də aydın olduğu kimi bullinq müxtəlif formalarda şəxsə yönələ bilər: Sözlü (Verbal), Fiziki və eləcə də son dövrlərdə informasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq geniş şəkildə yayılmış olan kiberbullinq. 13 yaşlı Elina bullinqin həm verbal, həm fiziki formasına məruz qalırdı. Rəfiqəsi hadisə haqqında danışarkən dəfələrlə onun yuxarı sinif şagirləri tərəfindən döyüldüyünü, təhqir olunduğunu və ona qarşı edilən alçaldıcı davranışlara sinif yoldaşlarının isə gülüş reaksiyası verdiklərini deyir [9].

Bullinq hallarında birbaşa iştirak edən iki tərəf olur ki, bunlar bullinqi törədən(buller) və bu davranışa məruz qalan şagirddir(bullied). Lakin bir çox hallarda üçüncü tərəfin də iştirakı baş verir ki, bu qrup müdaxilə etmədən kənarda duran "şahidlərdir". Ümumiyyətlə bullinqin qurbanı istənilən uşaq ola bilər. Mövcud olan ədəbiyyatdan məlum olur ki, daha zəif, yaxud güclü tərəflərinə görə yaşıdlarından fərqlənən uşaların qurbana çevrilmə ehtimalı daha böyükdür. Fərqlənən dedikdə isə yaşıdlarından daha ağıllı və ya əksinə olaraq əqli cəhətdən nisbətən geri qalmış, ləhcə ilə danışan, bəzi səslərin tələffüzündə çətinlik çəkən, fiziki məhdudiyyətli, xüsusi xarici görünüşə sahib, kollektivdə həyat təcrübəsi olmayan (ev uşaqları) və s. nəzərdə tutulur [4, səh.14-15]. Bu tip uşaqlar təcavüzkarlardan qorxduqları üçün və müəllimləri və ya məktəb direktorları tərəfindən mənfi reaksiyalardan ehtiyat etdikləri üçün adətən bu halların gizli qalmasına üstünlük verərək səslərini çıxarmırlar. Hansı ki, burada ikinci ehtimal həqiqətən də acınacaqlı bir durumdur. Elina keysinə qayıtsaq təəssüflər olsun ki, 13 yaşlı yeniyetmə məktəbdə üzləşdiyi zorakılıq halları ilə bağlı dəfələrlə məktəb müəllimlərinə və direktora şikayət etsə də əks münasibətlə qarşılaşmışdı. Hətta onu incidənlərlə bağlı şikayət etmək məqsədilə direktorun yanına gedən rəfiqəsi belə xəbərdarlıq alaraq təhdid olunmuşdu.

Thompson, Arora və Sharp araşdırmalarında bullinqin özünə hörmət, konsentrasiya pozulması, məktəbdən yayınma, depressiya, intihar düşüncələrinə gətirib çıxardığını qeyd edir. Bundan əlavə Hawker ve Boulton qeyd edirlər ki, bullinqin qurbanı olanlar qurban olmayan həmyaşıdlarına nisbətən özləri haqqında daha mənfi düşüncələrə sahib olurlar. Coloroso isə öz növbəsində bullinqi bir ölüm-qalım məsələsi olaraq izah edərək bu cür zorakı davranışların nəticəsi kimi intihara əl atan uşaqların həyat hekayəsini öz kitabında paylaşaraq bu uşaqların ortaq bir cəhətini bu cür vurğulayır: "Onlar zorakılıq qurbanları idi" [3]. Adolescent Health jurnalında (Yeniyetmələrin sağlamlığı) yer alan 17000-dən çox orta məktəb şagirdinin iştirakı ilə aparılan tədqiqat işinə görə kiberbullinqə məruz qalan uşaqların intihara təşəbbüs etmə ehtimalı bullinqə məruz qalmayan uşaqlardan 4 dəfə yuxarıdır. Əgər bullinq uşaqların irqi, etnik kökləri və cinsi oriyentasiyası ilə bağlıdırsa bu rəqəm 8-ə qalxır [5]. Araşdırmalardan bəlli olduğu kimi bullinqin ən son mənfi nəticəsi intihardır. Bundan əlavə isə depressiya, özünə qapanma, antisosiallıq, məktəbdən yayınma kimi hallar da qaçılmazdır ki, bu da öz növbəsində təhsil müəssisələrində təlim-tərbiyə prosesinin düzgün həyata keçirilməsinə birbaşa maneədir. Bəs nə kimi səbəblər cəmiyyətin ən saf varlıqları adlandırdığımız uşaların öz həmyaşıdına qarşı bu qədər çirkin zorbalıq törətməsinə gətirib çıxarır.

Colorosun araşdırmalarına müraciət etsək deyə bilərik ki, əsasən bullinqi törədən uşaqlar özündən razı və zorba uşaqlardır. Bəziləri bədəncə böyük, bəzisi kiçik, bəziləri zəkalı, bəziləri zəif qavrayışlı, bəziləri məktəbin "məşhur siması" olub, bəziləri olmaya bilir. Lakin bu tip uşaqların müəyyən ortaq cəhətləri vardır ki, onlar hər biri diqqət çəkmək, hökm etmək istəyinə sahibdirlər, empatiya hissləri olduqca zəifdir yaxud yoxdur, ancaq öz istəkləri ön plandadır, özlərindən zəif olanları isə yalnız şikar olaraq görür və etdikləri əməllərin məsuliyyətindən tamamilə boyun qaçırırlar. Təsadüfi deyil ki, Coloroso bulinq davranışının zərər veməyə yönəlmiş, şüurlu, məqsədli və istəkli şəkildə həyata keçirilən düşmənçilik aktı kimi tərifini verir. Və bütün bullerlərin psixologiyasında 3 ortaq cəhəti bu cür qeyd edir. Bu tip uşaqlar yaşıdlarına qarşı zorakı hərəkətlər törədərkən güclülük hissi yaşayaraq bundan həzz alırlar, ikincisi şüurlarındakı yeganə məqsəd qurbanlarına fiziki və ya emosional acı verməkdir və üçüncüsü davamlı olaraq bunu etməkdir. Yəni bullerlər çox zaman bir qurban tapdıqlarında uzun müddət yeni bir qurban dalıyca getmirlər. Çünki hazırki qurbanlarının onların hərəkətlərindən dolayı yaşadıqları fiziki və duyğusal acıları, sıxıntıları görüb bir müddət daha zorakı davranışlarına davam etməyə həvəslənir, bir növ motivasiya olunurlar. Bir uşağın bu həddə gəlib çatmasına səbəb olan yeganə bir səbəb və ya faktor yoxdur, lakin dəqiq bəlli olan bir fakt odur ki, uşaqlar bu davranışları öyrənirlər.Yəni onlara necə zorakılıq etmələri öyrədilir. Birbaşa və ya şüuraltı fərqi yoxdur.

Sosioloq Urie Bronfenbrennerə görə bir uşağın ailə mühiti, məktəb həyatı, cəmiyyət və ya mədəniyyət kimi ətraf mühit faktorları, onun yaşıdlarına qarşı kobud, zorakı davranışlar sərgiləyəcəyib sərgiləməyəcəyinə birbaşa təsir göstərə bilər. Eyni zamanda Sudermann, Jaffe ve Schieck qrupunun araşdırması göstərir ki, avtoritar valideynlərin uşaqlarına qarşı olan soyuq və müsbət olmayan rəftarı ona gətirib çıxarır ki, uşaqlar daim qərarlar üzərində valideynlərinin aşırı təsirini və basqısını görürlər və öz həyatları üzərində idarəetməni ələ almaq üçün, "hökmranlığı" yenidən qazanmaq üçün gücləri çatan yaşıdlarını kontrol etmək ehtiyacı hiss edirlər. Və beləliklə bullinq artıq başlamış olur [3]. Beləliklə bu cür anlaya bilərik ki, buller uşaqlar sanki öz dərin yaralarını və yetərsizlik hisslərini ört-basdır etmək məqsədilə bir növ hegemonluq havasına girərək bu "üstünlüklərinin" onlara kimlərəsə zərər vermə haqqı tanıdığını öz dünyalarında rasionallaşdırmağa çalışırlar. Lakin təəssüflər olsun ki, bu "hegemonluq" çox çəkmir. Olweusun da tədqiqatında qeyd etdiyi kimi bulinq törədən uşaqlar öz aqressiv davranışları ilə müəyyən bir qrup daxilində status qazana bilərlər, lakin bu prosesin uzunmüddətli nəticəsi isə təhsildən

yayınma, məktəbi atma, cinayətkarlıq, işsizlik, qeyri müvəffəq yetkinlik münasibətləri və s. kimi yüksək riskləri özü ilə gətirir [6].

Bullinqi törədən və bulinqə məruz qalmış olan uşaqların psixoloji vəziyyətindən, üzləşə biləcəkləri problemlərdən söz açdıq. Qeyd etdiyim kimi bullinq aktlarında iştirakçı tərəflərdən biri də şahidlərdir və zorakılıq halları hansı formada olur olsun ona şahid olan uşaqlar üçün də bu bir kabus rolunda çıxış edir. Belə ki, yoldaşlarının zorakılığa məruz qaldığını görən hər bir uşaq qorxudan dolayı əgər müdaxilə etmirsə belə hadisəni travma olaraq daxilində yaşayır. Və müdaxilə edə bilmədiyi üçün həmçinin günahkarlıq hissi və bir başqasının incinməsinə yol verdiyi üçün sonradan peşmanlıq hissi də qaçılmaz deyil. Digər bir tərəfdən isə zorakılığa şahid olan uşaq növbəti qurbanın özü ola biləcəyi haqqda həyəcan, təşviş hissi keçirə bilər və bütün bunlar da eyni zamanda depressiya, narahatlıq, müxtəlif sağlamlıq problemlərinə yol aça bilər [5].

Bütün bu qeyd etdiyimiz araşdırmalar, tədqiqatlar valideynlər, müəllimlər, ümumilikdə təhsil heyəti üçün çox şey ifadə etməlidir. Hər birimizə bəllidir ki, ideal məktəb şagirləri üçün təhlükəsizlik, öyrədicilik xarakteri daşıyan, və onların uşaq olduğunu unutmasaq bir az da əyləncəli bir məkan olmalıdır. Lakin təəssüflər olsun ki, yaxın tarixdə məktəblərimizin birində Elina Hacıyeva faciəsi yaşandıqdan sonra biz bullinqin ictimai sağlamlıq üçün nə dərəcədə böyük risk daşıdığının fərqinə vardıq. Halbuki öncə də qeyd etdiyimiz kimi bullinqin intihar həddinə çatdırana qədər də səbəb olduğu bir sıra neqativ hallar var. Və biz bir məsələnin ciddiliyini anlamaq üçün daha bir yeniyetmənin qurban getməsini gözləməməliyik. Bu gün və hər sonrakı gün bullinq hallarının qarşısının alınmasına aktual məsələ kimi yanaşılmalıdır. Bu məsələdə problemlər araşdırmamızdan da bəlli olduğu kimi birinci növbədə məktəb, ailə institutlarında olan boşluqlardan qaynaqlanır. Bu boşluqların doldurulması üçün isə ilk növbədə ümumilikdə şagird - məktəb - ailə münasibəti, əlaqələri düzgün şəkildə qurulmalıdır. Hər bir uşağın sosiallaşmasında ailə və məktəb ən əsas iki sosial institutdur. Ona görə də uşaqların sağlam inkişafı üçün onlar daim ailə, məktəb kimi yaşadıqları mühitdə daim hərtərəfli dəstəklənməlidirlər. Şagird - məktəb - ailə qarşılıqlı münasibətlərində ortaya çıxan hər hansı problemin həllində uşağa sosial-psixoloji dəstək verəcək peşəkar işçilər isə psixoloq və sosial işçidir.

Məktəb sosial işçisinin həyata keçirəcəyi vəzifələr şagirdlərin inkişaf dövrünə xas olan problemlərinin həlli, yaşadıqları ailə vəziyyətinin qiymətləndirilməsi, psixo-sosial ehtiyaclarının ödənilməsi və bununla da təhsil prosesini uğurla davam etdirə biləcəkləri bir mühitlə təmin etmək kimi bir çox xidməti əhatə edir. Bundan əlavə məktəb müəllimləri, psixoloqları və valideynlər mütləq şəkildə bir yerdə, komanda olaraq çalışmalıdırlar [8]. Lakin Elina keysində isə görünən odur ki, müəllimlər və psixoloqlar məsuliyyətdən yayınaraq hər biri məsələni digərinin üstünə atmağa çalışır. Və yeniyetmənin anası dəfələrlə qızına olan mənfi münasibətlərə görə məktəb direktoru və sinif rəhbəri ilə danışsa da bu danışıqlar bir nəticə verməmiş, əksinə onlar məktəbin kameralarla təchiz olunduğunu əsas gətirərək narahatlığa heç bir səbəbin olmadığını bildirmişdilər. Bu keysdə açıq şəkildə bullinqlə mübarizədə iştirak edən ən vacib komanda üzvünün – sosial işçi vəzifəsinin olmadığı görünür. Halbuki təhsil sahəsində kifayət qədər öz sözünü demiş qabaqcıl ölkələrdə məhz sosial işçilər məktəbdə bullinqlə mübarizə prosesində ən vacib rol oynayan kadr hesab olunur. Onlar uşaqlarla fərdi və ya qrup görüşləri, ailə ziyarətləri təşkil edərək şagirdin sosial həyatı ilə yaxından tanış olduqdan sonra fərdi qayğı planı hazırlaya bilər.

Həmçinin sosial işçi bullinqə şahidlik edən uşaqlarla işləyərkən onlara qıraqda durmaq əvəzinə yardım etməyin vacibliyini aşılaya, yardıma təşəbbüs yaratmaq üçün şagirdlərdə şəxslərarası müsbət davranış normalarının və daxili gücün, iradənin formalaşmasına kömək edə

Gənc oğlan və qızların qarşılıqlı münasibətləri də daxil olmaqla bütün sosial əlaqələrdə yaşlılara məxsus xüsusiyyətlər yaranır. Bunun əsasında tələbələrin qarşılıqlı hörməti və hüquq bərabərliyi dayanır. Gənc oğlan və qızlar yaxın dost olduqları həmyaşıdlarına səmimi hörmət bəsləyir, qalanlarla yalnız yoldaşlıq münasibətləri saxlayırlar. Bu yaş həddindəki gənclər arasında insanlara xeyirxahlıqla yanaşanlar xüsusilə populyar olurlar. Belə tələbələr təmkinli, həyatsevər, xeyirxah, güzəştə gedən və yumor hissinə malik olmalari ilə də digərlərindən seçilirlər. Onlar həmişə özlərini təbii aparır, özünəinamlı, enerjili, fəal olur, liderlik edir, müxtəlif işlərdə və şəxsi problemlərin həllində öz dostlarına kömək göstərirlər. Əksinə, qapalı, özünəinamsız olan gənc oğlan və qızlar isə bir çox hallarda sosial psixoloji baxımdan təcrid olunurlar. Tələbələrin qarşılıqlı münasibətlərdə əldə etdikləri uğurlar əhəmiyyətli dərəcədə empatiyanın inkişafı ilə bağlıdır. A.Rean hesab edir ki, hiss və emosiyaların tənzimlənməsi bu dövrdə real imkanlar əldə edir ( 7). Gənclər münasibətlərdə səmimi duyğulara istinad etməyə çalışırlar.

Gənclər üçün yalnız həmyaşıdları ilə birlikdə olmaq deyil, həm də onların arasında qaneedici yer tutmaq vacibdir. Bəziləri üçün bu qrupda liderlik etmək, bəziləri üçün sevimli yoldaş kimi özünü göstərmək, digərləri üçün isə hansısa işdə özünü nüfuz sahibi kimi özünü göstərmək arzusunu həyata keçirməyə yönələ bilər.

Tələbə qruplarında şəxsiyyətlərarası münasibətlər həmçinin onların birgə fəaliyyətini də şərtləndirir. Tədris prosesində qrup üzvlərinin fəaliyyət və şəxsiyyətlərarası münasibətlərində aşağıdakı prinsiplərə əməl olunması vacib şərtlərdən hesab olunur:

1. Qrup üzvlərinin fəallığı. Tədris prosesində qrup üzvləri müntəzəm olaraq müxtəlif fəaliyyət, ünsiyyət və qarşılıqlı münasibətlərdə olurlar. Onlar diskusiyalar keçirir, işgüzar, rollu oyunlar aparır, müxtəlif fəaliyyət növlərini yerinə yetirirlər. Təbii ki, qrupun fəaliyyəti ayrı-ayrı üzvlərin fəallığından asılıdır.
2. Qrup üzvlərinin yaradıcı fəaliyyəti. Müəllimin, liderin əsas vəzifələrindən biri də qrup üzvlərinin yaradıcı fəaliyyətini, potensialını müəyyənləşdirib, inkişaf etdirməkdən ibarətdir.
3. Davranışda obyektivlik. Qrup üzvlərinin davranışı, şəxsiyyətlərarası münasibətləri, ünsiyyəti tədricən impulsivlikdən obyektivə keçir.

Həmçinin tədris prosesində qrupun formalaşmasında, şəxsiyyətlərarası münasibətlərin qurulmasında müəllimin rolu böyükdür. O, müəyyən mənada, qrup normalarının

müəyyənləşməsi, davranış modelinin seçilməsi, vəzifələrin müəyyənləşməsində əsaslı rol oynayır. Hər bir müəllim qrupun formalaşmasında fərdi, özünəməxsus yol seçir. Lakin bununla belə, onların hamısı üçün ümumi olanlar aşağıdakılardır:

–vəzifələrin müəyyənləşdirilməsi;

–məqsədin qoyulması;

–dinləməyi bacarmaq.

Eyni zamanda qrup üzvləri də müəllimin fərdi xüsusiyyətlərini bilməli, onu nəzərə almalıdırlar. Tələbə qrupunda fəaliyyətin səmərəliliyi və müsbət psixoloji iqlimin yaradılması ona düzgün rəhbərliyin rolundan çox asılıdır. Həmçinin tələbə qruplarında psixoloji iqlimin pozitiv istiqamətdə inkişaf etməsi üçün qrupdaxili birlik, bağlılıq vacib faktlardandır. .

A.V.Petrovski və digər psixoloqlar öz tədqiqatlarında qrupların inkişaf səviyyəsindən asılı olaraq dörd növünü: diffuz, assosiasiya, korporasiya, kollektiv qruplar və onlarda qarşılıqlı münasibətlərin xarakterini vermiş və bunu aşağıdakı şəkildə səciyyələndirmişlər:

1.Diffuz qrupda şəxsiyyətlərarası münasibətlər mövcuddur, lakin onlar qrup fəaliyyətinin məzmunu vasitəsilə ifadə olunmur.

2. Assosiasiyada şəxsiyyətlərarası münasibətlər qrup fəaliyyətinin hər kəs üçün şəxsiyyət baxımından əhəmiyyətli olan məzmunu vasitəsi ilə ifadə olunur.

3. Korporasiyada şəxsiyyətlərarası münasibətlər qrup fəaliyyətinin şəxsiyyət baxımından əhəmiyyətli, lakin ustanovkalarına görə cəmiyyətə zidd məzmunu vasitəsilə ifadə olunur.

4. Kollektivdə şəxsiyyətlərarası münasibətlər qrup fəaliyyətinin şəxsiyyət baxımından əhəmiyyətli və ictimai cəhətdən qiymətli məzmunu vasitəsilə ifadə olunur.

Ümumiyyətlə, qrup fəaliyyətində şəxsiyyətlərarası münasibətlər düzgün qurulduqda hər bir qrup üzvünün psixoloji xüsusiyyətləri, fəaliyyət motivləri, tələbatları, məqsədi, meyli nəzərə alındıqda qrupda həm sağlam psixoloji mühit formalaşır, həm mənəvi-psixoloji, əxlaqi və sosial davranış normalarına düzgün əməl olunur, həm də fəaliyyətin məhsuldarlığı, onun səmərəliliyi yüksəlir. Şəxsiyyətlərarası münasibətlərin ziddiyyətli məqamları insan münasibətlərinin mövcud olduğu bütün sahələrdə özünü göstərir.

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya Bakı 2003
2. Əliyev B.H , Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı 2008
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial Psixologiya Bakı 2003
4. Mustafayev A.M. Birgə fəaliyyət şəraitində şəxsiyyətlərarası qavrayışın dinamikası. Bakı 2004
5. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı 1981
6. Андреев А.Н., Мдивани М.О., Рыжонкин Ю.Я. Методики измерения коммуникативной дистанции // Вопросы психологии.
7. От рождения до смерти. Под Пед.А.А. Реана М., 2002
8. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı: Araz,2000.

# TƏLƏBƏLƏRİN TƏLİM FƏALİYYƏTİNDƏ ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

***Eyyubova Mehriban, Səhrabova Səkinə***

## XÜLASƏ

Məqalənin mövzusu sosial psixologiyanin geniş problemindən olan şəxsiyyətlərarası münasibətlərdir. Tələbə kollektivində və ümumiyyətlə, təlim şəraitində tələbələrin birgə fəaliyyəti zamanı sağlam psixoloji mühitin yaradılması olduqca vacib faktlardan biridir. Burada ünsiyyət faktoru vacib amillərdən hesab olunur. Ümumiyyətlə, təlim şəraitində şəxsiyyətlər arasında sağlam mühitin yaradılması idarə olunan prosesdir və bütün təhsil subyektlərini əhatə edir.

## ХАРАКТЕРИСТИКИ МЕЖЛИЧНОСТНЫХ ВЗАИМООТНОШЕНИЙ В ОБРАЗОВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ

***Эюбова Мехрибан, Сахрабова Сакина***

## АННОТАЦИЯ

Тема статьи - межличностные отношения - обширная проблема социальной психологии. Создание здоровой психологической среды при совместной деятельности студентов в студенческом коллективе и в учебной среде в целом является одним из важнейших фактов. Коммуникационный фактор здесь является одним из важных факторов. В целом, создание здоровой межличностной среды в учебной среде - управляемый процесс, в котором участвуют все субъекты образования.

## CHARACTERISTICS OF INTER-PERSONAL RELATIONSHIPS IN STUDENTS 'EDUCATIONAL ACTIVITIES

***Eyubova Mehriban, Sahrabova Sakina***

## SUMMARY

The article of the article is interpersonal relationships, which is a broad problem of social psychology. Creating a healthy psychological environment during the joint activities of students in the student body and in the learning environment in general is one of the most important facts. The communication factor is one of the important factors here. In general, the creation of a healthy interpersonal environment in a learning environment is a manageable process and involves all subjects of education.

# TƏHSİLDƏ KEYFİYYƏT DƏYİŞİKLİYİ VƏ MÜƏLLİM HAZIRLIĞINA VERİLƏN TƏLƏBLƏR

***p.ü.f.d. Nuriyyeva Məlahət Rafiq qızı***
***BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının müəllimi***

***Açar sözlər***: təhsil,motivasiya, menecmen, təhsilin idarə edilməsi, xüsusi təhsil, sosiallaşma, vətənpərvərlik tərbiyyəsi.
***Keywords***: education, motivation, manager, education management, special education, socialization, patriotic education.
***Ключевые слова***: образование, мотивация, менеджер, управление образованием, специальное воспитание, социализация, патриотическое воспитание.

Sovet sosialist sisteminin süqutundan sonra postsovet məkanında qərb, Avropa təhsil sisteminə maraq və istiqamət artdı.Bu da səbəbsiz deyildi. Belə ki, uzun illər sosialist sistemi ilə qərb, Avropa liberal-demokratik dəyərləri arasında rəqabət sosialist sisteminin dağılması ilə nəticələnmiş, postsovet məkanı adamı istiqamətini Avropaya yönəltməli olmuşdur.Avropa dəyərləri də şübhəsiz ki, təhsil vasitəsilə mənimsənilə bildiyindən postsovet məkanı ölkələri Avropa təhsil sisteminə inteqrasiya olunmaq yoluna çıxdı.Ancaq bu gün qloballaşan dünyada rəqabətədavamlı təhsil və deməli, vətəndaş yetişdirmək əsas prioritetlərdəndir.Bir tərəfdən qlobal çağırışlara uyğun təhsil keyfiyyətinə nail olmaq, digər tərəfdən kürəsəlləşən dünyada milli identikliyini, adət-ınənələrini qoruyub saxlamaq milli strategiyanın əsas istiqamətlərindən hesab olunur.

Diqqətlə fikir versəniz ölkə başçısının 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş sosial-iqtisadi inkişafa dair milli prioritetlərdə qeyd olunan beş milli prioritetin hər birinin realizəsi məhz rəqabətədavamlı təhsil sistemindən, təhsildə keyfiyyət dəyişikliyindən keçir.Bu prioritelər içərisində dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi əsas istiqamətlərdəndir.

Şübhəsiz ki, yeni çağırışlara inteqrasiya öyrədənlə öyrənənin qarşılıqlı ünsiyyəti ilə başlayır. Məlumdur ki,öyrədən şəxs intellekt və davranış etalonları ilə hər insan üçün karyera və ideal seçimində vacib simalardan biridir. Buna görə də müəllim olmaq hər zaman böyük səriştə, yüksək intellektual imkan və ictimai nüfuz tələb edir. Ulu öndər Heydər Əliyev müəllimlik fəaliyyətinə hər zaman yüksək dəyər verərək deyirdi: “Müəllimlik çox çətin peşədir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir. Bütün varlığımla, keçdiyim həyat yolu ilə həmişə məktəbə, müəllimə borcluyam”.

Son illərdə ölkəmizdə təhsilin bütün sahələrinin inkişafı istiqamətində əhəmiyyətli işlər görülməkdədir. Ötən dövr ərzində təhsilin normativ hüquqi bazası təkmilləşdirilib, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilib. Qəbul edilən “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün genişmiqyaslı tədbirləri əhatə edir. Artıq biliklər iqtisadiyyatı və innovasiyalar dövründə təhsilin inkişafı ölkənin rəqabət qabiliyyətliliyinin vacib göstəricilərindən birinə çevrilir.

Müəllimlik peşəsinə yiyələnmək üçün şəxsiyyətin psixoloji, nəzəri imkanları və motivasiya vəziyyəti çox önəmlidir..Psixoloji biliklər öyrədənə öyrənənin fərdi-psixoloji imkanlarını qiymətləndirmək baxımından xüsusi məna kəsb edir. Mütəxəssislər haqlı olaraq müəllimdə hər şeydən əvvəl, dərin müşahidə qabiliyyətinə malik olmanı, öyrənənin bütün müsbət və mənfi cəhətlərini görmə bacarığını xüsusi vurğulayırlar. Eyni zamanda vurğulanır ki, müəllim dərin analitik təfəkkürə malik olmalı, baş verən bütün situasiyaları, o cümlədən, öyrənənin irəliləmə və geriləmə səbəblərini, onlara təsir edən amilləri təhlil edə bilməli və müvafiq nəticələr çıxarmağı bacarmalı, tədris prosesini yüksək emosional fonda, şagirdləri maraqlandıra biləcək səviyyədə, onlarda gərginlik yaratmadan, lakin şagirdləri öyrənməyə, yeni biliklər kəsb etməyə ruhlandırmalıdırmalıdır. Bu da çox mühüm məqamlardan biridir ki, qeyd olunduğu kimi müəllim öyrənən tərəfin düşüncəsinə, hisslərinə, fikirlərinə, ideya və istəklərinə hörmətlə yanaşmağı, onları qiymətləndirməyi özündə tərbiyə etməli, humanizmin yüksək səviyyəsinə malik olmağı bacarmalıdır.

Aydın həqiqətdir ki, müasir müəllim bütün yeniliklərdən xəbərdar olmalı, daim təkmilləşməyə önəm verməlidir. Daimi çalışqanlıq, davamlı dinamizm bu peşədə təkmilləşməni şərtləndirən əsas amillər sayıla bilər. Müasir dünya təhsilində bir sıra metodiki qaydalar rəqəmsal vasitə ilə həyata keçirilir.

Müasir mərhələnin ən mühüm təhsil trendlərindən biri ucqar kənd və ya şəhər mərkəzində yerləşməsindən asılı olmayaraq, bütün məktəblərin bərabər təminata malik olmasıdır.Yəni şəhərl\ə kənd arası fərqlər azaldılmalı, çütün oyrənənlər və öyrədənlər üçün bərabər imkanlar və bərabər şanslar yaradılmalıdır.Azərbaycanın hər bir rayonu üzrə bütün fənlər üzrə müəllim kadrlar bərabər paylanmalıdır, elektron resurs təminatı olmalıdır.Bu baxımdan "ağıllı şəhər", ağıllı kənd" layihəsi bütün Azərbaycanı əhatə etməlidir.Əfsuslar olsun ki, hələ də bəzi kəndlərimizdə məktəb yoxdur,və ya xarici dil və bir sıra fənlər üzrə müəllim qıtlığı vardır. Hərçənd, son illərdə ölkəmizdə təhsil sisteminin informatlaşdırılması, elektron dərslik, vasitə və resursların geniş tətbiq sahələrinin mövcudluğu, təhsil müəssisələrinin kompüter avadanlığı ilə təmin olunması, son illər uğurla həyata keçirilən müəllimlərin diaqnostik qiymətləndirilməsi, yerdəyişməsi, tələbə transferi, birinci siniflərə qəbul kimi layihələr məhz İKT-nin geniş tətbiqinə əsaslanır.

Müasir pedaqogika elminin tələblərinə görə daha səmərəli, motivləşmiş tədris vasitələrindən istifadə, kompüterləşmə, təhsilin informasiyalaşması müəllimin potensialının, peşəkar təfəkkürünün formalaşmasına əhəmiyyətli təsir göstərə bilir.

Bu gün dünyanın ən inkişaf etmiş təhsili olan ölkələrdə müntəzəm peşəkar təkmilləşmə kursları təşkil edilir. Məqsəd zamanla,yeniliklərlə ayaqlaşa biləcək müəllim kadrları hazırlamaqdır. Nəzərə almalıyıq ki, müasir şagirdin məlumat əldə etmək imkanları az qala müəlliminkindən çoxdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il 26 noyabr tarixində BDU-nun yubileyindəki çıxışı zamanı xüsusi olaraq vurğulamışdır: "... Müəllim peşəsi çox şərəfəli, məsuliyyətli, çox ağır peşədir. Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Mən deyim ki, biz müasir dövrdə köhnə baqajla yaşaya bilmərik. Ona görə indi internet dövrüdür, hər bir məlumatı əldə etmək üçün imkanlar var. Daim müəllimlər yeniliklərə baxsınlar, onların peşəsində hansı proseslər gedir, dünyada hansı proseslər gedir, texnoloji inkişaf nədən ibarətdir ki, tələbələrə keyfiyyətli biliklər versinlər. Ona görə müəllim peşəsi şərəflidir, hörmətlidir, ancaq, eyni zamanda, müəllimlər də daim öz üzərlərində işləməlidirlər.

Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir

ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi artan ölkəyik. Sovet dövründəki 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur. Vətənpərvər olmalıdırlar. Bu olmasa ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin….”.

Müasir dərs şəxsiyyətyönümlü olub inkişafetdiricilik əsas meyar kimi nəzərdə tutulur.İctimai mənafe anlayışı və cavabdehlik hissinin formalaşdırılması şəxsiyyətyönümlü təhsil islahatının əsas hədəflərindən biridir. Müəllim üçün ən vacib keyfiyyətlərdən biri də məhz humanistlikdir.

Pedaqoqların vyrğuladıqları kimi, müəllim milli şüuru inşa edən sosial mühəndisdir. Təhsil Haqqında" qanunda təsbit olunduğu kimi, "Müəllimin vəzifəsi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir".

Dərsin mövzusu yox, onun çatdırılma üsulu və mühiti önəmlidir. Bugünün müəllimi təkcə bilik ötürməklə, hazır şablonu yazıb tələbənin yaddaşında saxlaması ilə kifayətlənməməlidir. Daha çox düşünməyi öyrənmək məqsədilə bilik aşılamalıdır.

Mütəxəssislərin vurğuladığı kimi, müəllim şagirdlərinin mənəvi dünyasının memarı olmalı, müəllim-şagird münasibətləri əməkdaşlıq müstəvisində qurulmalıdır. Bunun üçün ilk növbədə müəllimlərdə bir sıra qabiliyyətlərin olması zəruri tələb kimi qarşıya qoyulur. Bu məsələ ilə bağlı müasir pedaqogikada da xeyli araşdırmalar aparılıb və müəyyən nəticələrə gəlinib. Xüsusən, müəllimin müasir dövr üçün xarakterik olan qabiliyyətləri tədris prosesinin məcburi tərkib hissəsidir. Bu da idarəetmə qarşısında mühüm vəzifələr qoyur. İdarəetmədə təhsil keyfiyyətinin qiymətləndirilməsinin xarakteri Təhsil müəssisəsinin idarə olunması mürəkkəb bir prosesdir. Bu prosesdə təhsil keyfiyyətinin qiymətləndirilməsi bu mürəkkəb prosesin aparıcı istiqamətlərindən biridir. Təhsilin keyfiyyətinin idarə edilməsi mexanizmi və strategiyasının seçimi hər şeydən əvvəl, qeyd edək ki, hər bir məktəbin rəhbəri, məqsədyönlü şəkildə məktəbliliərin, xüsusən məktəbi bitirməkdə olan gələcək məzunların təhsilinin keyfiyyəti ilə məşğul olmağı özünün və məktəbin əsas vəzifəsi hesab etməlidir. Menecment psixologiyasında xüsusi qeyd edirlər ki, insanın öz inkişafı üçün yalnız pula yox, həm də və hər şeydən əvvəl o stimullara ehtiyacı var ki, onlar əməkdaşların mənliyini, şəxsiyyətini, qürur hisslərini yüksəldir, onların müstəqil düşünmə, qərar qəbuletmə bacarığını qiymətləndirir.

Məşhur Amerika psixoloqu A.Maslou motivləşdirmə nəzəriyyəsindən danışarkən maddi stimullaşdırmanın əhəmiyyətini xüsusi qeyd edir və bildirir ki, insanların çoxsaylı tələbatları beş əsas qrupa bölünür. Bu qruplar aşağıdakılardır: 1) Fizioloji tələbatlar (qida, su, yaşayış yeri, istirahət ) 2) Təhlükəsizlik və gələcəyə ümid (fiziki və psixoloji hədəqorxudan müdafiəyə ümid və gələcəkdə fizioloji tələbatların təminatının əldə edilməsi); 3) Sosial tələbatlar (əhatədə olanların sənin tələbatlarının ödənilməsində iştirakı və köməyi); 4) Başqalarının hörmətinə ehtiyacın olması və özünəhörmət; Özünü təsdiqləmə tələbatı (başqa sözlə, potensial imkanlarının realizə olunması və şəxsiyyət kimi inkişafı); A.Maslou hesab edirdi ki, insanın motivləşməsində yüksək səviyyəli tələbatların ödənilməsindən əvvəl onun aşağı səviyyəli tələbatlarının ödənilməsinə ehtiyacı var.

A.Maslounun bu fikrini izah edən psixoloqlar K.Xoll və Q.Lindsey qeyd edirlər ki, «daha güclü» və prioritet hesab edilən tələbatlar ödənildikdən sonra yuxarı səviyyədə dayanan və ödənilmişlərdən sonra gələn tələbatların ödənilməsinə ehtiyac duyulur. O zaman bu tələbatlar da ödənilir, onda onlardan sonraki faktorlara ehtiyac duyulur, bu da insanın əxlaqını müəyyənləşdirir» Deməli, əgər müəllimlərin əmək haqlarının səviyyəsinin aşağı olmasından fizioloji tələbatları ödənilməyirsə, qalan tələbatlar onların tələbatlarının motivləşməsinə o qədər də ciddi təsir göstərə bilməz. Ancaq qeyd olunmalıdır ki, son illərdə mütamadi olaraq müəllimlərin əmək haqları dövlət tərəfindən artırıldığından demək olmaz ki, onların fizioloji tələbatları ödənilmir. Ona görə də maddi qiymətləndirmənin əhəmiyyətini o qədər də şişirtmək düzgün deyil.

Bunun üçün əvvəlki iki qrup tələblərin (Maslounun qeyd etdiyinə görə) ehtiyacların ödənilməsi ilə yanaşı, digər stimullaşdırma imkanlarından da istifadə edilməsi lazımdır. Məktəbdə müəllimə layiqli mövqe təmin olunmalıdır. Deyirlər ki, məktəb direktoru məktəbdə hər şeyə tədris prosesinə, madditexniki bazanın zənginləşməsinə, şagirdlərin tərbiyəsinə, metodik işin səviyyəsinə, müəllimlərin ixtisasının artırılmasına, ictimaiyyətlə əlaqələrin yaxşılaşmasına və s. işlərə məsuliyyət daşımalıdır. Bu həqiqətən də belədir. Ancaq bu vəziyyəti hərfi mənada başa düşmək düzgün deyil. Çünki məktəbin müxtəlif sahələri üzrə məsuliyyət məktəb administrasiyanın üzvləri arasında bölündüyü kimi müəllimlər də bu işlər üçün məsuliyyət daşımalıdır.

A.Maslou hesab edir ki, şəxsi inkişafa və artıma tələbat – tələbatların alt kateqoriyasıdır. O, bunu şəxsiyyətin aktuallaşması kimi qəbul edərək, qeyd edir ki, «Sağlam insanın başlıca hərəkətverici qüvvəsi onun bacarıqlarının tam şəkildə aktuallaşmasından asılıdır. Özünü fəallaşmış insan kimi təkmilləşməyə istiqamətləndirir, unikal imkanlarının tam inkişafına istiqamətlənir. Ona görə də özünü müsbət göstərmiş müəllimləri məktəb daxilində və kənarda müxtəlif ictimai işlərə irəli sürməli, onların fəaliyyətini qiymətləndirməyi məktəb direktoru unutmamalıdır. Inzibati təsirlər stimullaşdırıcı rola malikdir.

Müəllim qarşısında duran vəzifələrin layiqli yerinə yetirilməsi üçün onun ictimai nüfuuzu yüksək olmalıdır.Müəllim cəmiyyətin digər stratları ilə müqayisədə maddi-mənəvi dəstəklə,qayğı ilə daha çox əhatə olunmalıdır.Çünki o, bütün sahədən olan mütəxəssis hazırlığını həyata keçirən peşə sahibidir.

## ƏDƏBİYYAT

1. A.Mehrabov, Azərbaycan təhsilinin müasir problemləri, Bakı, 2007, 385 s.)
2. Orta ümumtəhsil məktəbinin Nümunəvi Əsasnaməsi.(12 mart 1994-cü il, Nazirlər kabinetinin 109 saylı qərarı)
3. «Azərbaycan Respublikası Təhsil Sahəsində Islahat Proqramı», «Azərbaycan müəllimi» qəzeti, №40, səh. 7, 17 oktyabr, 2008-ci il
4. M.Mərdanov. R.Ağamalıyev, A.Mehrabov, T.Qardaşov. «Təhsil sistemində monitorinq və qiymətləndirmə»
5. Yəhya Kərimov. «Müəllimin təlim fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi», Təhsil Problemləri Institutunun Elmi əsərləri, №2, səh 3-11,
6. Кларин М.В. Педагогическая технология в учебном процессе. М.: Знание 1989. стр.14-40 и 40-65 6. Петрушин В.Ж. «Технология менеджмента как сделать счастливым себя и своих подчиненных», М.: Институт Психологии, 1996, стр.89
7. А.Маслоу «Мотивация и личность» С.П.Б Евразия, 2001, стр. 104 и 232 8

# TƏHSİLDƏ KEYFİYYƏT DƏYİŞİKLİYİ VƏ MÜƏLLİM HAZIRLIĞINA VERİLƏN TƏLƏBLƏR

***Nuriyyeva Məlahət***

## XÜLASƏ

Təqdim olunan məqalədə yeni təhsil sistemi qarşısında duran vəzifələrdən, müəllimin peşə fəaliyyətinə verilən tələblərdən bəhs edilir.Eyni zamanda bildirilir ki, yeni çağrışlara uyğun cəmiyyət quruculuğu ilk növbədə təhsil institutu vastəsilə mümkündür.Məqalədə yeni təhsil sistemində müəllimin fərdi peşəkar bacarığı və onun işgüzar nüfüzunun artırılması məsələlərinə də geniş toxunulmuşdur.

## КАЧЕСТВЕННОЕ ИЗМЕНЕНИЕ ОБРАЗОВАНИЯ И ТРЕБОВАНИЯ К ПОДГОТОВКЕ ПРЕПОДАВАТЕЛЕЙ

***Нуриева Малахат***

## АННОТАЦИЯ

В статье рассматриваются вызовы, стоящие перед новой системой образования, и требования к профессиональной деятельности учителей, при этом констатируется, что построение общества в соответствии с новыми вызовами возможно прежде всего через реформирование образовательных учреждений.

## QUALITATIVE EDUCATION CHANGE AND TEACHER TRAINING REQUIREMENTS

***Nurieva Malahat***

## SUMMARY

The article examines the challenges facing the new education system and the requirements for the professional activities of teachers, while it is stated that building a society in accordance with new challenges is possible primarily through the reform of educational institutions.

# YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA MÜƏLLİMİN ROLU

***Abasova Səbinə***
***BDU-nun II kurs magistrantı***
***sebineabasova99@gmail.com***

***Açar sözlər:*** müəllim, yeniyetmə, şəxsiyyət, tərbiyə, sosiallaşma.
***Ключевые слова:*** педагог, подросток, личность, воспитание, социализация.
***Key words:*** teacher, teenager, identity, upbringing, socialization.

Yeniyetməlik olduqca mürəkkəb və böhranlı yaş dövrü hesab olunur. Məhz yeniyetməlik yaş dövründə fəal şəkildə böyüklərin həyatına daxil olmaq, öz həyat planlarını qurmaq prosesi və istəyi başlayır. Psixoloji ədəbiyyatın təhlil göstərir ki, yeniyetmələrin qarşılıqlı münasibətlərinin qurulmasında, inkişafında bir sıra müsbət keyfiyyətlərin olması zəruridir. Bura ilk növbədə yüksək mənəvi-əxlaqi keyfiyyətlər, yüksək fəaliyyət motivi, məqsədyönlü fəaliyyət və s. aid edilir.

Tərbiyə, yeniyetmənin şəxsiyyətinin maksimum inkişafına, onun müasir mədəniyyət kontekstinə girməsinə və insana layiq olan öz həyatının subyekti kimi formalaşmasına kömək edən müəllimin məqsədyönlü, mənalı peşə fəaliyyətidir. Bu fəaliyyətin təşkili şəxsiyyətin formalaşması prosesinin elmi mənzərəsinə əsaslanır, çünki yalnız peşəkar fəaliyyət bu prosesin sosial-psixoloji mahiyyətinə tam uyğun gəlsə, yüksək peşəkar nəticə əldə etmək mümkündür. Sosiallaşma, bir şəxsin digər biososial funksiyaları yerinə yetirmək qabiliyyətini, o cümlədən başqaları ilə münasibət və ünsiyyət sistemini, asudə vaxtın və istirahətin təşkili və s. nəzərdə tutulur. Yalnız yeniyetmələrdə ümumbəşəri insan əxlaqına uyğun olan əxlaqi hərəkətlər etmək istəyi aşılamaq və bu hərəkətlər vasitəsilə öz inkişafına təsir etmək mümkündür [1, s.21].

Təhsil psixologiyasında şagirdlərin erkən yaşlarından seçim vəziyyətinə daxil edilməsi, müstəqil qərar qəbul etməsi tətbiq olunur. Sosiallaşmanın nümunəsi öz həyat layihənizin qurulması və həyata keçirilməsidir. Özünü "standart"a uyğunlaşdırmaq ya cəmiyyət tərəfindən, ya da şəxsin özü tərəfindən müəyyən mənada özünü inkişaf etdirməsi, subyektivlik cəmiyyətdə öz yerini tapmaqdır [4, s.14].

Müəllimin vəzifəsi həyat istiqamətlərinin, məqsədlərinin və istəklərinin düzgün seçilməsinə maneəsiz kömək etməkdir. Bu, yalnız məzmunu və formaları yeniyetmələrin ehtiyacları, maraqları, cəmiyyətin şərtləri ilə kompleks olaraq təyin olunan inkişaf etmiş elmi və metodiki dəst olduqda mümkündür. Hal -hazırda, sosioloji araşdırmalara görə, yeniyetmələrin əhəmiyyətli bir hissəsinin, bazar iqtisadiyyatı şəraitində daxili harmoniya duyğusu verəcək ideoloji əminliyə, həyat istiqamətlərinə və ideallara ehtiyacı var. İnsan mənəvi ideal olmadan yaşaya bilməz, əks halda cəmiyyətin həyatına və ümumiyyətlə, öz həyatına biganə, laqeyd olacaqdır. Eyni zamanda, yeniyetməlik özünü dərk etmək üçün ehtiyac yarandıqda şəxsiyyətin inkişafında dönüş nöqtəsidir. Qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün problemləri kompleks və həll etməyə imkan verən təhsil işi sistemi təşkil etmək lazımdır [9, s.395].

Yeniyetmələrin tərbiyə sistemində yüksək vətənpərvərlik şüurunun, Vətənə sədaqət hissinin, Vətənin maraqlarının qorunması üçün məqsədyönlü fəaliyyət vacibdir. Yeniyetmələrin vətəndaş-vətənpərvərlik tərbiyəsi digər sahələr arasında prioritet olmalıdır. Son illərdə ictimai şüurda "vətənpərvərlik" anlayışının əhəmiyyətli dərəcədə dəyişdiyini və yeni nəsillər tərəfindən başa düşülməsini nəzərə alaraq işləmək lazımdır. Müəllim şagirdlərin fəal həyat mövqeyinin formalaşmasında, yaradıcılıq qabiliyyətlərinin inkişafında, onlarda mərhəmət, nəciblik, yaşlı insanlara qayğı hissinin aşılanmasında böyük rol oynayır. Tərbiyənin aparıcı əsas məqsədi çox

yönlü, ahəngdar inkişaf etmiş şəxsiyyətin formalaşdırılmasıdır. Yuxarıdakıları yekunlaşdıraraq müəllimin yeniyetmələrlə işin təşkilində fəaliyyət istiqamətləri haqqında aşağıdakı nəticələr çıxara bilərik:

- orta məktəb şagirdlərinin ənənəvi əxlaq normaları və əxlaq idealları, özlərinə, digər insanlara, cəmiyyətə, dövlətə, Vətənə və bütövlükdə dünyaya münasibətləri qiymətləndirmək və şüurlu şəkildə qurma qabiliyyətinin formalaşdırılması;
- mənəvi inkişafa hazırlığın və qabiliyyətin formalaşması, özünü inkişaf etdirmə, özünə hörmət, həyatının mənasını dərk etmək, fərdi məsuliyyətli davranış;
- əxlaq normaları, davamlı təhsil və "yaxşılaşmaq" üçün ümumbəşəri mənəvi və əxlaqi münasibətlər əsasında fəaliyyətdə yaradıcı potensialı reallaşdırmağa hazırlıq və qabiliyyətin formalaşdırılması;
- insanın əsas milli dəyərləri, milli mənəvi ənənələri qəbul etməsi;
- yeniyetmələrin digər insanların dəyərləri, insan həyatının dəyəri, həyatı, fiziki və mənəvi sağlamlığı, fərdin mənəvi təhlükəsizliyi, onlara qarşı durma qabiliyyəti üçün təhlükə yaradan hərəkətlərə və təsirlərə qarşı dözümsüzlüyün yaranması [3, s.29].

Bütün müasir tədqiqatçılar qeyd edirlər ki, müəllimin ən vacib şəxsi və peşəkar xüsusiyyəti şagirdlərə olan məhəbbətdir, onsuz səmərəli pedaqoji fəaliyyət mümkün deyil. Hətta Lev Tolstoy yazırdı: "Müəllimin yalnız iş sevgisi varsa, yaxşı müəllim olar. Müəllimin yalnız ata və ana kimi şagirdə olan sevgisi varsa, o, bütün kitabları oxuyan, amma nə işə, nə də şagirdlərə sevgisi olmayan müəllimdən daha yaxşı olar. Müəllim iş və şagird sevgisini birləşdirirsə, mükəmməl müəllimdir" [3, s.61].

Bundan əlavə, müəllim peşəsi hərtərəfli bilik, mənəvi sərhədsiz səxavət və yeniyetmələrə müdrik sevgi tələb edir. Müasir yeniyetmələrin bilik səviyyəsinin artdığını, onların müxtəlif maraqlarını nəzərə alaraq müəllim özü hərtərəfli inkişaf etməlidir. O, əxlaq, insan ləyaqətinin və dəyərlərinin daşıyıcısıdır. Müəllim yeniyetməni həyat yolu ilə aparmalıdır: öyrətməli, tərbiyə etməli, mənəvi və fiziki inkişafa rəhbərlik etməlidir. Şəxsi inkişaf yeni sosial mühitə girmək və onunla inteqrasiya prosesidir. Məktəblilər üçün belə mühit, həmyaşıdları ilə ünsiyyət qurmaq istəyində ifadə olunan yeni kollektiv münasibətlərin formalaşmasına, fərdin sosial yönümünün yaranmasına səbəb olan birgə fəaliyyətlə məşğul olduqları sinifdir. Şagird məktəbə gələn kimi yeni yetkinə sahib olur - müəllim, hansı ki, təsiri bəzən valideynlərindən daha böyükdür. Yeniyetmələrin bir-biri ilə tanış olmasını, ümumi iş, əməkdaşlıq və qarşılıqlı anlaşma mühitinin yaradılmasını təşviq edir. Ən dəyərli insan müəllimdir. Davranış tərzi, bir qayda olaraq, yeniyetmələr tərəfindən şüursuz şəkildə mənimsənilir və şagirdlərin bir növ mədəniyyətinə çevrilir. Yeniyetmə şəxsiyyətinin inkişafında müəllimin rolunun müasir tədqiqatları göstərir ki, əvvəllər qəbul edilmiş formadan fərqli olaraq, müəllimin şagirdlərlə qarşılıqlı əlaqəsi informasiya səviyyəsində olduqda, metodlardan geniş istifadə etmək vacibdir. Bu, müəllim və yeniyetmələr arasında əhəmiyyətli yaxınlaşmaya kömək edir. Fikrimizcə, müəllimin müsbət imici belə yaxınlaşmanı çox asanlaşdıra bilər [5, s.39].

Ünsiyyət prosesində şagirdlər təkcə materialın məzmununu deyil, həm də müəllimin onlara münasibətini öyrənirlər. Bu xüsusilə əhəmiyyətlidir, çünki müəllimə şəxs olaraq yeniyetmələr tərəfindən hörmət və etibar edildikdə psixoloji və pedaqoji təsir daha uğurlu olacaqdır. Təsir edəcəyi şagirdlərin onun şəxsiyyətini necə qavradığını və qiymətləndirdiyini onların reaksiyası ilə necə başa düşəcəyini bilir, bu halda təkcə şagirdin davranışı deyil, müəllimin şəxsiyyəti də dəyişir. Yeniyetmənin şəxsiyyətinin və idrak qabiliyyətlərinin inkişafında müəllim fəaliyyətinin səmərəliliyinin meyarları aşağıdakılar ola bilər:

- təhsil prosesində yeniyetmənin aktiv fəaliyyətinin təşkili;
- qarşıdakı fəaliyyət üçün motivin formalaşdırılması;

- müxtəlif, o cümlədən texniki bilik mənbələrindən istifadə;
- yeniyetmələrə məlumatları emal etməyin müxtəlif yollarını öyrətmək;
- şəxsiyyət yönümlü yanaşma;
- yeniyetmənin güclü tərəflərinə güvənmək;
- yeniyetmənin müstəqilliyinə və təşəbbüsünə güvənmək [6, s.238].

Şagird mərkəzli yanaşma tətbiq edən müəllim, şagirdin tədris prosesində fəal mövqe tutması, təklif olunan materialı mənimsəməsi deyil, həm də dünyanı öyrənməsi, onunla fəal dialoqa girməsi üçün imkanlar yaratmağa daha çox diqqət yetirməlidir. Hazırda pedaqoji təhsilin qarşısında yeni vəzifələr durur və hər şeydən əvvəl müəllim-humanist yetişdirmək vəzifəsi qoyulur. Müəllimin müasir modeli ona peşəkarlıq, bacarıq, yaradıcılıq, mənəvi, əxlaqi və insani keyfiyyətlər aşılamağı nəzərdə tutur. Müasir müəllimin öz pedaqoji fəaliyyət tərzi olmalı, yeniyetmələrlə humanist münasibət qurmalı, dəyərlər və davranış normaları üçün birgə axtarış təşkil etməlidir. Müasir təhsil, həm məzmun, həm də təhsil prosesində istifadə olunan texnologiyalar baxımından dəyişkənlik və müxtəliflik ilə xarakterizə olunur [2, s.114].

Təhsil, pedaqogika tərəfindən aparıcı amil olaraq qəbul edilir, çünki böyüyən insana yığılmış sosial təcrübəni köçürməyə təsir edən xüsusi sistemdir. Burada müəllimin rolu, xüsusən də onun bacarığı çox önəmlidir. Şəxsiyyətin inkişafında sosial mühit birinci dərəcəli əhəmiyyətə malikdir. İnkişaf səviyyəsi və ictimai münasibətlərin xarakteri insanların fəaliyyətinin xarakterini və dünyagörüşünü müəyyən edir. Genetika - insanların eşitmə qabiliyyətindən, qeyri -adi vizual yaddaşdan, ildırım sürəti ilə nadir riyazi və bədii istedadlara qədər yüzlərlə fərqli meyllərə sahib olduğunu müəyyən edir. Ancaq meyllər öz qabiliyyətlərini və yüksək performans nəticələrini hələ təmin etmir. Yalnız təhsil və tərbiyə prosesində, ictimai həyatda və fəaliyyətdə bilik və bacarıqların mənimsənilməsi qabiliyyətləri formalaşır. Meyllər yalnız orqanizm ətrafdakı sosial və təbii mühitlə qarşılıqlı əlaqədə olduqda həyata keçirilə bilər. Yaradıcılıq, insanın qabiliyyətlərə, motivlərə, bilik və bacarıqlara malik olduğunu, bunun sayəsində yenilik, orijinallıq və bənzərsizliyi ilə seçilən məhsulun yaradılmasını nəzərdə tutur [7, s.18].

Bu şəxsiyyət xüsusiyyətlərinin öyrənilməsi təxəyyülün, intuisiyanın, zehni fəaliyyətin şüursuz komponentlərinin, eləcə də yaradıcılıq qabiliyyətlərinin açılmasında və genişlənməsində şəxsiyyətin ehtiyaclarının vacib rolunu ortaya qoydu. K.D.Uşinski müəllimin sosial əhəmiyyətini açıq şəkildə ifadə edir: "Müasir tərbiyə səviyyəsində olan tərbiyəçi, insanların keçmiş tarixində nəcib və yüksək olan hər şey arasında vasitəçi olduğunu hiss edir. Yeni nəsil, müqəddəs əhdlərin saxlayıcısı, həqiqət və yaxşılıq uğrunda mübarizə aparan insanlar bütün təzminatlar onlar üçün yaşayır" [8, s.35].

Şagirdin şəxsiyyətinin formalaşmasında müəllimin rolu çox böyükdür. Müəllimin yeniyetmələri tərbiyə edərkən necə və hansı vasitələrdən istifadə etməsindən asılı olaraq, onların hansı insanlardan böyüyəcəyindən asılıdır. Müəllimin əsas məqsədi hər bir yeniyetmənin maksimum inkişafı, özünəməxsusluğunun qorunması və potensial qabiliyyətlərinin açılmasıdır.

Hər hansı bir fəaliyyət təşkil edərkən müəllim yeniyetmənin motivasiyasını nəzərə almalı, bu fəaliyyətin şagirdin şəxsiyyətinin istiqamətinə təsirini gözləməli, tədris fəaliyyətinin özündə olan ziddiyyəti nəzərə almalıdır. Yeniyetmənin təhsil fəaliyyəti və həyatı, motivasiya sahəsi nəzərə alınmaqla qurulursa, şəxsiyyət yönümünün formalaşması nəzərə alınarsa, təhsil fəaliyyəti tədricən müsbət əxlaq tərbiyəsinə gətirib çıxaracaqdır. Düzgün təşkil edilmiş tərbiyə insan həyatının təbii gedişatından ayrılmazdır.

**ƏDƏBİYYAT**

1. Dönər Ə. Yeniyetməlik dövrünün yol xəritəsi. Bak: Xəzər, 2009. 123 s.
2. Ergenlik dönemi gelişimsel ödevleri ve psikolojik problemler / T.C. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Psikoloji (uygulamali psikoloji) anabilim dali. Ankara-2006, 173 s.
3. Агеева И.А. Успешный учитель: тренинговые и коррекционные программы, Санкт Петербург: Речь, 2007, 208 стр.
4. Алексеева М.В. Ключевые компетенции в педагогической литературе, // Педагогические технологии, 2006, № 3, стр.3-18.
5. Выпряжкина И.Б. Критерии психологической компетентности учителя, // Сборник: Образование в век глобализации, Тезисы докладов Всероссийской конференции, М., МСЭУ, 2003, стр.37-41.
6. Гальперин П.Я. Лекции по психологии: учебное пособие для студентов вузов, М. Высшая школа, 2002, 400 стр.
7. Дубровина И.В. Практическая психология образования, СПб., «Питер», 2001, 43 стр.
8. Дусавицкий А.К. Развивающее образование: теория и практика - Харьков: 2002. 146 стр.
9. Шупейко И.Г.Основы психологии и педагогики: Курс лекций, Мн. Бестпринт, 2003, 528 стр.

## YENİYETMƏLƏRİN TƏRBİYƏSİNDƏ VƏ İCTİMAİLƏŞMƏSİNDƏ MÜƏLLİMİN ROLU

*Abasova Səbinə*

### XÜLASƏ

Məqalədə yeniyetmələrin tərbiyəsində və ictimailəşməsində müəllimin roluaraşdırılmışdır. Şəxsiyyət digər insanlar qarşısında məsuliyyət, görülən fəaliyyətlərə görə məsuliyyət ilə xarakterizə olunur. Bu o deməkdir ki, müəllim yeniyetmələrdə həyata keçirdikləri fəaliyyətlərə məsuliyyətli münasibət formalaşdırmalıdır. Ancaq fəaliyyətin məsuliyyətli icrası yalnız yeniyetmənin müsbət motivasiyasını - bir şey etmək istəyini deyil, həm də mövcud niyyətlərini həyata keçirməyi nəzərdə tutur.

## РОЛЬ УЧИТЕЛЯ В ВОСПИТАНИИ И СОЦИАЛИЗАЦИИ ПОДРОСТКОВ

*Абасова Сабина*

### АННОТАЦИЯ

В статье исследуется роль учителя в воспитании и социализации подростков. Личности свойственна ответственность перед другими людьми, ответственность за предпринятые действия. Это означает, что педагог должен формировать ответственное отношение к выполняемой деятельности в подростках. Однако ответственное исполнение предполагает не только положительную мотивацию подростка - желание что-то делать, но и реализацию имеющихся намерений.

## THE ROLE OF THE TEACHER İN THE EDUCATİON AND SOCİALİZATİON OF ADOLESCENTS

*Abasova Sabina*

### SUMMARY

The article examines the role of the teacher in the education and socialization of adolescents. Personality is characterized by responsibility to other people, responsibility for the actions taken. This means that the teacher must form a responsible attitude to the activities carried out in adolescents. However, responsible performance involves not only the positive motivation of the adolescent - the desire to do something, but also the realization of existing intentions.

# CİNSİ İSTİSMARIN UŞAQLARIN PSİXOLOGİYASI ÜZƏRİNDƏKİ TƏSİRİ

***Şövkət Məmmədəliyeva***
**sovketmemmedeliyeva1999@gmail.com**

***Açar sözlər:*** Cinsi istismar, uşaqların psixologiyası, təsirlər, psixoloji və sosial yardım.
***Ключевые слова:*** сексуальное насилие, психология чидренов, эффекты, психологическая помощь.
***Key words:*** Sexual abuse, chidrens' psychology, effects, psychological və social

Uşaqların cinsi istismarı qlobal bir problem olmuş, Azərbaycanda və dünyanın bir çox digər ölkələrində geniş şəkildə yayılmış və daha da yayılmaqdadır. Cinsi istismar dedikdə, psixososial inkişafını tamamlamamış və 18 yaşından kiçik olan uşaqların cinsi tələbatların ödənilməsi məqsədi ilə cinsi bərabərliyə məcbur edilməsi prosessi nəzərdə tutulur [10,s.291-300]. Cinsi istismar olduqca geniş yayılmasına baxmayaraq, çox hallarda gizli saxlanıldığı üçün uzun müddət davam edə və uşaqların psixoloji vəziyyətinə ciddi şəkildə zərər verə bilər. 1970 və 1980-ci illərdə aparılan araşdırmalara əsasən, müəyyən edilmişdir ki, qadınların 45% faizi uşaqlıq dövründə cinsi istismara məruz qalmışdır [4,s.9-10]. Digər bir araşdırmaya əsasən isə, müəyyən etmişdir ki, qadınlar kişilərlə müqayisədə cinsi istismara daha çox məruz qalırlar. Belə ki, bu göstərici kişilər üçün 1,3 % təşkil etsə də, qadınlar üçün bu göstərici 7,3 % olmuşdur. 2017-ci ildə dünya sağlamlıq təşkilatı tərəfindən aparılan araşdırmaya görə, dünya üzrə 15 və 19 yaş aralığında olan təxminən 15 milyona yaxın qız cinsi istismara məruz qalmışdır [7,s.172-173].

Uşaqlara qarşı törədilən bu istismarların artmasına bir çox səbəb vardır. Bunların arasında isə, boşanma, alkoqol və narkotik maddələrdən istifadə, ailədə ögey ata və qardaşın olması, işsizlik və nigahdan kənar uşaqların dünyaya gətirilməsi ən geniş yayılmış səbəblərdir.

Elə bu məqalənin də əsas məqsədi bu səbəbləri tam şəkildə izah etmək, istismarın uşaqların psixoloji vəziyyətinə təsirini analiz etmək və bu problemi həll etmək üçün nə kimi tədbirlərin görülə biləcəyini müəyyənləşdirə bilməkdən ibarətdir.Bunun üçün də uşaqların cinsi istismarı ilə bağlı öncədən yazılmış kitab və məqalələri analiz edilərək, daha öncədən toxunulmamış mövzulara toxunulmağa çalışılmışdır.

1. Cinsi istismar üçün əsas risk faktorları

Cinsi istismara səbəb olacaq risk faktorları çox olub, ən geniş yayılanları aşağıdakılardır:

Psixi və fiziki məhdudiyyəti olan uşaqlar. Belə ki, bu qrupa daxil olan uşaqların cinsi istismara məruz qalma riski daha çoxdur. Bir məktəbdə eşitmə əngəlli uşaqlarla aparılan araşdırmaya əsasən, müəyyən edilmişdir ki, 150 uşaqdan 75-i cinsi istismara məruz qalmışdır. Bu uşaqların 19-u , öz qohumları tərəfindən istismar edildiklərini qeyd etsələr də, 3 nəfər həm fiziki, həm də fizioloji şiddətə məruz qaldığını qeyd etmiş və bunu gizlətməyə üstünlük verdiklərini bildirmişdirlər [5,s.3-5].

Gender fərqi. Aparılan araşdırmalar göstərmişdir ki, qızlar oğlanlarla müqayisədə cinsi istismara 2-9 dəfə daha çox məruz qalırlar [8,s.58].

Yaş. Yaş faktoru uşaqların cinsi istismarında mühüm amillərdən biri olub, istənilən yaş qrupundan olan uşaqlara qarşı törədilə bilər. Cinsi istismar üçün ortalama yaş 9 olsa da, tədqiqatlar göstərir ki, 7 və 13 yaş aralığında olan uşaqlar daha çox istismara məruz qalmışdır.

Alkoqol və narkotik maddələrdən istifadə. Aparılan araşdırmalara əsasən, belə bir nəticəyə gəlinmişdir ki, alkoqol qəbulu və narkotik maddələrdən istifadə aqressiv davranış nümayiş etdirmə riskini artırmış və bu da öz növbəsində cinsi istismara gətirib çıxarmışdır. Abbey və onun kolleqasının apardığı araşdırmaya əsasən, seksual aqressiya və alkoqol istifadəsi arasında

bir əlaqə mövcuddur. Belə ki, az miqdarda alkoqol qəbul etmiş şəxslər, çox miqdarda qəbul edənlərlə müqayisədə daha çox seksual aqressiya nümayiş etdirmişdir [2,s.21].

Disfunksional ailə. İstismara məruz qalmış uşaqların ailələri ilə keçirilən danışıqlar əsasında belə bir nəticəyə gəlinmişdir ki, bu uşaqların bir çoxunun ailəsində ata və ana arasındakı münasibət qarışıq olmuş, ailədəki fərdlər öz öhdəliklərinə düşən rolları layiqincə yerinə yetirməmiş və valideynlər ilə övladları arasında sağlam münasibət olmamışdır. Bu cür ailələrdə problem həll etmə bacarıqları olduqca zəif olmuş, ata ailədə dominant mövqedə olmuş və qatı inanclar aiələdə üstünlük təşkil etmişdir [9,s.145].

İrq və milliyət. İrqçiliyin artdığı müasir dövrdə, uşaqlar da bundan öz payını almış və müəyyən dərəcədə zərər görmüşdür. Araşdırmalar sübut edir ki, ağ dərili uşaqlarla müqayisədə qara dərililər daha çox risk qrupuna daxil olmuş və iki dəfə çox istismar edilmişdirlər.

1.2 Cinsi istismarın uşaqlar üzərindəki təsirləri.

Qısa müddətli təsirlər. Seksual şiddətə məruz qalmış uşaqlarda ilkin mərhələdə bir çox reaksiyalar müşahidə edilir. Bunlar əsasən aşağıdakılardır:

Depressiya. Qurbanların bir çoxu hadisədən sonra depressiya yaşayır və bu hadisəni unutmaqda çətinlik çəkirlər. Bu uşaqlar uzun illər boyunca özlərini dəyərsiz hiss edir və özlərinə zərər yetirməklə bağlı suisidal düşüncələrə sahib olurlar. Başqaları ilə münasibət qurmaqda çətinlik çəkir və bəzi hallarda da başqalarına qarşı aqressiv davranışlar nümayiş etdirə bilirlər. Sübut edilmişdir ki, cinsi istismara məruz qalmış uşaqlar baş vermiş hadisədən özlərini cavabdeh tutmuş və bütün prosessi öz günahları olaraq görmüşlərdir.

Ümidsizlik. Briere görə, cinsi istismara məruz qalmış uşaqlar bunu şəxsi olaraq qəbul edir və bunu yaşamağa layiq olduqlarını düşünürlər. Belə ki, bu uşaqlar baş vermiş hadisəni müəyyən bir cəza olaraq görür və bundan yalnızca özlərinin günahkar olduqlarını düşünərək ümidsizliyə qapılırlar. Ümidsizliyə qapılmış bu uşaqlar öz növbəsində şiddətli aqresiya, gərginlik və depressiv simptomlar da nümayiş etdirə bilərlər.

Stress və gərginlik. Cinsi istismara məruz qalmış uşaqlarda görülən digər bir problem isə, stress və gərginlikdir. Çox hallarda qurbanlar xroniki gərginlikdən, fobiyalardan və posttravmmatik stressdən əziyyət çəkirlər. Hətta, müəyyən edilmişdir ki, bu təsirlər o dərəcədə ağır olur ki, özünü göstərən simptomlar müharibə qurbanı uşaqların göstərdiyi simptomların dərəcəsi ilə eynilik təşkil edir.

Aqressiya. Carman, Rieker və Millsə görə, seksual şiddət və aqressiya arasında müəyyən bir əlaqə vardır. Belə ki, seksual şiddətə məruz qalmış uşaqlar bu aqressiyanı bir çox şəkildə ifadə etməyə çalışırlar. Bu halda, uşaqlar özlərinə və ya başqalarına zərər verə, narkotik maddə və spirtli içkilərdən istifadə edə, cinayət əməli törədə və ya depressiv əlamətlər nümayiş etdirə bilər. Aqressiyanın bu cür nümayiş etdirilməsi uşaqların bu travma ilə başa çıxma üsulu olub, müdaxilə edilmədiyi təqdirdə olduqca ağır nəticələrə gətirib çıxara bilir.

Mənlik şüurunun formalaşması. Fərdin bir şəxsiyyət kimi formalaşmasında mənlik şüurunun rolu olduqca böyükdür. Lakin, bu inkişaf bəzi hallarda müəyyən travmaların təsiri ilə sağlam şəkildə davam etməyə bilər. Belə ki, uşaqlıq dövründə seksual şiddətə məruz qalmış uşaqların mənlik şüurunun formalaşması müəyyən dərəcədə zədələnmələrə məruz qalır. Bu uşaqlar yetkinlik dövrlərində başqaları tərəfindən şiddətə məruz qala, düzgün sərhədlər formalaşdırmaqda çətinlik çəkə və günahkarlıq duyğusu içində yaşamağa məhkum ola bilərlər. Bəzi hallarda bu uşaqlarda qeyri-adi davranışlar da müşahidə etmək mümkündür. Cinsi oqranları ilə oynama (masturbasiya), anal dəliyə və ya vaginal bölgəyə əşyalar daxil etmək, oyuncaqlarla seksual xarakterli oyunlar oynamaq, uyğun olmayan və təhrikedici seksual hərəkətlər nümayiş etdirmək bu davranışların bəzilərinə nümunə kimi göstərilə bilər. Həmçinin, cinsi istismara

məruz qalmış uşaqlar digər uşaqlarla müqayisədə sosial baxımdan daha passiv mövqedə olur və həmyaşıdları ilə oynamaqdan qaçına bilirlər. Bu passivlik özünü onların akademik fəaliyyətində də göstərir. Bu uşaqlar digərləri ilə müqayisədə akademik cəhətdən daha az uğurlu olurlar [3,s.3-25].

Uzun müddətli təsirlər. Cinsi isitismara məruz qalmış uşaqlar uzun müddət analiz edildikdə belə bir fakt ortaya çıxmışdır ki, bu uşaqların böyük bir qismində cinsi problemlər, qida pozuntuları və münasibətlərdə problemlər yaranmışdır.

Cinsi problemlər. Yuxarıda qeyd edilən amillərlə yanaşı, cinsi istismar həmçinin cinsi münasibətlər zamanı da problemlərin yaranmasına gətirib çıxarır. Belə ki, uşaqlıq dövründə istismar ediliş şəxslərin bir çoxunda cinsi istəksizlik, iyrənmə, orqasm olma problemləri və bu kimi bir çox problemlər özünü göstərir. Qurbanlar toxunulduğu zaman özlərini günahkar hiss edə və cinsi əlaqədən qaçına bilərlər. Bəzi hallarda isə, şəxsdə qeyri-adi və narahatedici seksual arzular meydana çıxa bilər. Oğlanlarda isə, iləriki yaşlarda ereksiya və orqasm problemləri meydana çıxa bilər [6,s.3-5].

Alkoqol və narkotik maddələrdən istifadə. Uşaqlıqda cinsi istismara məruz qalmış uşaqlar, yetkinlik dövründə içində olduqları deppressiv situasiyadan qurtulmaq üçün alkoqol və narkotik maddələrdən istifadə etməyə meyilli olurlar. Hətta müəyyən edilmişdir ki, cinsi istismara məruz qalan qadınlar digərləri ilə müqayisədə 10 dəfə daha çox alkoqol və narkotik maddələrdən istifadə etməyə meyilli olurlar. Bununla qurbanlar xoşagəlməz xatirələrdən xilas olmağa və acılarını bir az da olsa dindirməyə çalışırlar.

Sosial münasibətlərdə problemlər. Uşaq ikən istismar edilən uşaqlar, iləriləyən yaşlarda sosial münasibətlər qurmaq baxımından problemlər yaşayırlar. Belə ki, onlar yetkinlik dövrlərində belə, başqalarına güvənməkdə çətinlik çəkir və yaxın münasibətlər qurmaqdan qaçınırlar. Bu şəxslər başqalarından fərqli olduğunu düşünür və bir çox hallarda bu səbəblə özlərini izolasiya etməyi seçirlər. Həmçinin, qurbanlar başqa insanlarla da münasibət zaman sərhədləri qorumaqda çətinlik çəkirlər [1,s.72].

Dissosiasiya. Cinsi istismara məruz qalan şəxslərdə dissosiasiya özünü müxtəlif formalarda göstərə bilər. Bu şəxslərdə anidən ətraf mühitin və özünün qeyri-real olması ilə bağlı bir fikir yarana , yaşanmış travmanın xatirələri ilə əlaqədar olaraq amneziya ortaya çıxa və emosional kütlük özünü göstərə bilər.

Öz bədənindən iyrənmə. Cinsi istismar qurbanı uşaqların bir çoxunda görülən problemlərdən biri də öz bədənindən və ümumi görünüşündən iyrənmədir. Belə ki, bu uşaqlar özlərini çirkli və çirkin hiss edir və buna görə də, sevilməyə layiq olmadıqlarını düşünürlər.

2. Cinsi istismara məruz qalmış uşaqlara psixoloji və sosial yardım.

Bir çox insan uşaqların yaşları ilə əlaqədar olaraq bir çox şeyi anlamadığını və başlarına gəlmiş hadisələrdən çox az təsirləndiklərini düşünür. Əfsuslar olsun ki, bu belə deyil. İstismara məruz qalmış uşaqlar özlərini ifadə etməkdə və başlarına gələn hadisə haqqında danışmaqda ciddi problemlər yaşayırlar. Bunu nəzərə alaraq, bu cür uşaqlarla çalışarkən dostca yanaşmaq və bu uşaqların güvənini qazanmaq lazımdır. Bu səbəblə də, travma sonrası uşaqla işləyəcək olan psixoloq və ya sosial işçi bir çox amillərə diqqət etməli və bunları nəzərə alaraq uşaqlara yaxınlaşmalıdırlar:

1. İstismar edilən uşaqla işləyərkən, dəstəkləyici və qoruyucu olmağa xüsusilə diqqət etmək və uşaqda travmatik hadisəni canlandıracaq suallar verməkdən və davranışlar nümayiş etdirməkdən çəkinmək lazımdır. Uşaqla münasibətdə olarkən, ona inandığınızı və yanında olduğunuzu göstərməyə çalışın. Bunun üçün isə, “Sənin yanındayam”, “Mən sənə inanıram” kimi ifadələrdən istifadə edərək ona güvən verə bilərsiniz.

2. Uşaqlarla danışarkən, onun anlaya bildiyi şəkildə danışdığınıza diqqət edin və terminalogiyadan uzaq durmağa çalışın.

3. İstismar edilmiş uşaqlarla danışarkən onlarla nə üçün danışdığınızı qeyd edin. Uşaqla konsultasiya aparılarkən, öncədən uşağa və onun baxıcısına, ailə üzvlərinə bu görüşlərin əsas məqsədi izah edilməli və narahat edən bütün mövzular müzakirə edilərək, uşağın zərər görməsinin qarşısı alınmalıdır.

4. Uşaqların fikirlərinə və ehtiyaclarına qarşı diqqətli olmaq və daima bunları nəzərə almaq lazımdır. Nəzərə almaq lazımdır ki, bir fərd kimi uşaqların öz istəklərini, inanclarını və duyğularını sərbəst şəkildə ifadə etmək haqqları vardır. Bu səbəblə də görüşmə zamanı uşaqla işləyən şəxs uşağa fikirlərini ifadə etməkdə sərbəst olduğunu bildirməyə borcludur. Uşaq bilməlidir ki, istədiyi an söhbəti dayandıra və istirahət edə bilər.

5. Jest və mimikalar da diqqət edilməsi gərəkən əsas amillərdən biridir. Bədən dili bizə uşaq haqqında olduqca çox məlumat verir. Uşaq söhbət zamanı saçları ilə oynayır, dırnaqlarını gəmirirsə bu uşağın söhbəti sonlandırmaq istəməsinə dair bir işarədir. Eyni zamanda bizim bədən dilimiz də, uşağa çox informasiya verir. Əgər, biz uşaqla çalışarkən qollarımız bağlı bir vəziyyətdə çalışırıqsa, bu uşaqda ona qarşı sərhədlər qoyduğumuza dair bir fikir yarada və uşağı bizdən uzaqlaşdıra bilər [11,s.63].

Cinsi istismara məruz qalmış uşaqlar üçün psixoloji və sosial baxımdan yardım edilməsi məqsədi ilə mütəxəssislər tərəfindən plan hazırlanması olduqca vacibdir. Bu plana əsasən, ilk növbədə uşağa cinsi istismarla bağlı məlumat verilməli və bu prossesdə onun heç bir günahının olmadığını, həmçinin baş vermiş hadisə ilə bağlı yaranmış neqativ duyğuları necə aradan qaldıra biləcəkləri ilə bağlı müəyyən strategiyalar öyrədilməlidir. Bütün bu prosses boyunca uşaq emosional baxımdan dəstək gördüyünü və bu neqativ duyğuların daimi olmayacağını, hər şeyin düzələcəyini hiss etməlidir. Digər diqqət edilməsi gərəkən mövzu isə, uşağın ailə üzvləri və ya baxıcıları ilə görüşlərin keçirilməsidir. Uşaqlar başlarına gələn bu hadisədən sonra ailə üzvlərinin onlara qarşı olan davranışlarına xüsusilə diqqət edir və onlardan xüsusi bir qayğı və diqqət gözləyirlər. Bu məqsədlə də, ailə üzvlərinin uşağı utandıracaq, onda hər hansı bir günahkarlıq duyğusu oyadacaq davranışların qarşısını almaq məqsədi ilə ailə üzvləri ilə görüş keçirilərək bütün prossesin uşaq üçün nə dərəcədə travmattik və ağrılı olduğu açıq bir şəkildə izah edilməlidir. Bu planda nəzərə alınması vacib olan məsələlərdən biri də uşaq üçün güvənli bir mühitin yaradılmasıdır. Bu məqsədlə, uşağın yaşadığı evdə, məktəbdə və digər sahələrdə onun güvəndə və rahat hiss etməsi üçün rahat bir şərait yaradılmalıdır. Bundan əlavə isə, bəzi hallarda cinsi istismara məruz qalmış uşaqlar sosiallaşma ilə əlaqdər problemlər yaşaya bilərlər. Bir çox hallarda, bu uşaqlar məktəbdə, market və bu kimi bir çox məkanlarda görünməkdən narahatlılq hiss edə bilirlər. Bu məqsədlə də, müəyyən müddət uşaq məktəbə göndərilməməli və digər məkanlara valideynləri və ya baxıcıları ilə birlikdə getməlidirlər. Bütün bu prosess həyata keçərkən, diqqət edilməsi gərəkən mövzulardan biri də gizlilikdir. Məlumatların toplanılması və bu məlumatların müəyyən qurumlara ötürülməsi uşağın və valideynlərinin icazəsi olmadan edilməməlidir.

Uşaqlar bizim gələcəyimizdir, buna görə də cəmiyyətin bir üzvü kimi hər birimizin bu məsələ ilə bağlı məlumatlı olması olduqca vacibdir.

## ƏDƏBİYYAT

1. Angela, B. (1986). İmpact of child sexual abuse: A review of the research. Psychological Bulletin. 99(1), 72.

2. Erin, A. Casey. (2017). Sexual violence risk and protective factors: A systematic review of the litarutare. Washington State Department of Health. 21.
3. Joyce, S. (1998). Childhood sexaul abuse: long versus short term effects. University of Nothern Lowa. 3-25.
4. Karen, A. Duncan. (2004). Healing from the trauma of childhood sexual abuse. Greenwood publishing group. 9-10.
5. Leila, E. (2014). Child sexual abuse: report of 311 cases with review of literature. Pan African Medical Journal. 3-5.
6. Melissa, H and Joshua, H. (2011) The long-term effects of childhood sexual abuse: Counseling implications. 3-5.
7. Müne, A. (2020). İstismar ve ihmalin çocuk üzerindeki etkileri ve tedavisi. Gelişim ve piskoloji dergisi. 1(2), 172-173.
8. Saadet, G. (2017). Çocuk hakları ihlalı: Cinsel istismar. G.O.P. Taksim E.A.H. Jaren. 3, 58.
9. Sefa, B. Çocuk istismarı hakkında bir derleme. Türk piskolojik danışma ve rehberlik dergisi. 28, 145.
10. Turla, A. (2002). Çocuk istismarı ve ihmali olgularında tıbbi yaklaşım. Ondokuz Mayıs Üniversitesi Tıp Dergisi. 19(4), 291-300.
11. Uluslararası kurtarma komitesi. (2012). Cinsel istismar mağduru çocuklara bakım kilavuzu. 63.

## CİNSİ İSTİSMARIN UŞAQLARIN PSİXOLOGİYASI ÜZƏRİNDƏKİ TƏSİRİ

***Şövkət Məmmədəliyeva***

## XÜLASƏ

Ədəbiyyat araşdırması nəticəsində cinsi istismarın uşaqların həyatının bir çox sferasında öz təsirini gösətrdiyi müəyyən edilmişdir. Bu təsirlər həm travmattik hadisədən sonra qısa-müddətli reaksiyalar şəklində (aqressiya, qəzəb, depressiya, post-travmattik stress) , həm də yetkinlik dövründə uzun müddətli reaksiyalar şəklində (seksual pozuntular, dissosiasiya, alkoqol və narkotik maddlərdən istifadə) də göstərə bilər. Araşdırma əsasında müəyyən edilmişdir ki, bu uşaqlara zamanında psixoloji və sosial baxımdan lazımi yardım göstərilərsə bu uşaqların sağlam bir fərd kimi cəmiyyətdə böyüməsi təmin edilə bilər.

## ВЛИЯНИЕ СЕКСУАЛЬНОЙ ЭКСПЛУАТАЦИИ НА ДЕТСКУЮ ПСИХОЛОГИЮ

***Шовкат Мамедалиева***

## АННОТАЦИЯ

Литературное исследование показало, что сексуальная эксплуатация оказала влияние на многие сферы жизни детей. Эти эффекты могут проявляться в виде кратковременные реакции (агрессия, гнев, депрессия, посттравматический стресс) после травматического события и в виде длительных реакций (сексуальные расстройства, диссоциация, употребление алкоголя и наркотиков) в зрелом возрасте. Исследование показало, что если

бы этим детям была оказана необходимая психологическая и социальная помощь в то время, они могли бы воспитываться в обществе как здоровый человек.

## THE EFFECTS OF SEXUAL ABUSE ON CHİLDREN

***Shovkat Mammadaliyeva***

**SUMMARY**

A literature study found that sexual exploitation has had an impact on many spheres of children's lives. These effects can be shown in the form of short-term reactions (aggression, anger, depression, post-traumatic stress) after a traumatic event and in the form of long-term reactions (sexual disorders, dissociation, alcohol and drug use) during adulthood. The study found that if these children were given the necessary psychological and social help at the time, they could be raised in a society as a healthy individual.

# MÜASİR DÖVRDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Məmmədov Samir Mahir oğlu***
***BDU-nun II kurs magistrantı***
***samir14.98@mail.ru***

***Açar sözlər:*** ailə, ailədaxili münasibətlər, cəmiyyət, valideyn, uşaqlar
***Ключевые слова:*** семья, семейные отношения, общество, родитель, дети,
***Key words:*** family, family relationships, society, parents, children.

Müasir dövrdə ailə problemlərinin tədqiqi, onların qloballaşan ictimai-siyasi, sosial-psixoloji proseslər zəminində öyrənilməsi psixologiyanın aktual problemlərindən biri kimi diqqəti daha çox cəlb edir. Ailə həyatı mürəkkəb və çoxcəhətlidir. Ailə həyatının vektoru bilavasitə ailə münasibətləri ilə şərtlənir. Onlarm araşdırılması ailə psixologiyasının önəmli vəzifələrindən biridir. Ailə həyatının sosial-psixoloji effektləri hər şeydən öncə ailə konfliktləri məhz ailə münasibətləri zəminində əmələ gəlir və inkişaf edir. Ailə tərbiyəsi, ailədaxili münasibətlərin öyrənilməsi, tədqiqata cəlb olunması bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. Ailə tərbiyəsi, ailə-nikah, ailədaxili münasibətlərə bu qədər maraq və diqqətin artması bir neçə başlıca şərtlə bağlıdır. Birincisi, ailə münasibətləri birbaşa, açıq şəkildə cəmiyyət həyatında baş verən proseslərlə bağlıdır. Cəmiyyət daxilində gedən yeniləşmə qeyd-şərtsiz ailə həyatına da ciddi və güclü şəkildə təsir edir. İkincisi, ictimai mühit, cəmiyyətin inkişafı ailənin, insanların fiziki və mənəvi sağlamlığını təmin edən sosial institutun necəliyindən çox asılıdır. Üçüncüsü və daha əsası ondan ibarətdir ki, son dövrlərdə ailə həyatında, onun sosial funksiyalarında bir sıra neqativ hallar artmaqdadır. Bunları başlıca olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1) boşanma hallarının çoxalması;
2) ailədə uşaqların sayının azalması;
3) problemli ailələrin sayının artması;
4) ailənin uşaqların tərbiyəsi ilə bağlı funkiyasını yerinə yetirə bilməməsi;
5) ailə qurmaq istəməyən gənclərin sayının artması və s.

Ailə münasibətlərinin kökünü vəhdətdə olan ər-arvad və valideyn-uşaqlar arasındakı münasibətlər təşkil edir. Ənənəvi ailə həmin şaxəli sütun üzərində yaranmış və inkişaf etmişdir. Müasir ailədə isə bu baxımdan mahiyyətcə yeni cəhətlər əmələ gəlmişdir. Vaxtilə sosioloqlar və psixoloqlar ailənin möhkəmləndirilməsindən danışanda, diqqəti, ilk növbədə, valideynlərlə - övladlar arasındakı münasibətlərə cəlb edirdilər. İndi isə bir çox sosioloqlar və demoqraflar valideynlik münasibətlərini ər-arvadlıq münasibətlərindən təcrid edirlər. Ailə münasibətlərinin möhkəmləndirilməsi yollarının təkcə ər-arvad münasibətlərində axtarır, onlann cinsi tələbatlarının təmin olunmasına, intim əlaqələrinə daha çox diqqət yetirirlər. Bəzi psixoloqların fikrincə, müasir ailədə, xüsusilə şəhər ailəsində, şəxsiyətlərarası münasibətlərin psixoloji mərkəzi dəyişilmiş, ərin və arvadın şəxsiyyəti birinci dərəcəli əhəmiyyət kəsb etmişdir. Ər-arvad münasibətləri nisbi müstəqillik kəsb etmiş və ailə həyatında daha mühüm rol oynamağa başlamışdır.

Valideynlərlə uşaqların qarşılıqlı münasibətlərinin əhəmiyyəti böyük olsa da, onlar müasir ailədə artıq ikinci plana keçmişdir. Bəzi müəlliflər hətta ər-arvadın mənafeyinin öz-özlüyündə ailənin mənafeyindən daha üstün olduğunu iddia edirlər. 70-80-ci illərdə sosiologiyada, demoqrafıyada, psixologiyada ailə bu ölçülərlə təhlil olunub.Ailə münasibətlərində ər-arvad münasibətlərinin ön plana keçməsini humanizmin təntənəsi, zəfər çalması hesab ediblər. Lakin

indi mütəxəssislər ailənin böhran vəziyyətində olmasından və ya böhran həllinə çatmasından daha çox narahat olmağa başlamışlar. Sən demə, ailə münasibətlərində valideynlər - övladlar arasındakı münasibətlərin arxa plana keçməsi ilə ailənin möhkəmliyini şərtləndirən mənəvi-psixoloji dayaqlar sarsılmışdır. Boşanma zəminində dağılan ailələrin həddi-hüdudu yoxdur. Artıq bir çox sosioloqlar və demoqraflar belə hesab edirlər ki, ailə münasibətlərini təkcə ər-arvad münasibətləri ilə məhdudlaşdırmaq birtərəflidir. Ailəni möhkəmləndirməyin başlıca şərti valideynlər - övladlar arasındakı münasibətlərin optimallaşdırılması ilə bağlıdır [1].

Ailədə dəyərlərə, qeyri-hüquqi davranış normaları kimi əxlaqa, adət və ənənələrə əsaslanan qaydalar (məsələn, qulluq, nikahaqədərki davranış, ərlə arvad arasında hakimiyyət və vəzifə bölgüsü, ailənin asudə vaxtının təşkili və s.) kimi tənzimləyici normalar mühüm rol oynayır. Normalar kimi adət-ənənələr də zaman keçdikcə də - yişir və onlar arasındakı fərqlər ailənin həyat tsikli mərhələlərindən asılı olaraq, özünü daha aydın biruzə verir. “Ailə dəki qarşılıqlı təsirin həmin ailədə formalaşmış ənənələr, normalar və ya qaydalarla bağlılığı vardır və onlar məcburi əsaslara malikdir: onların pozulması və ya gözlənilməməsi ailənin özünün əsaslarının dağılmasına gətirib çıxarır” [ 2, s.275].

Ailə sosial-psixoloji baxımdan hər şeydən əvvəl sosial qrup olduğuna görə, digər sosial qrup və kollektivlər üçün səciyyəvi olan bir çox psixoloji fenomenlər ailə üçün də səciyyəvidir. Bunlara psixoloji mahiyyət kəsb edən birgə fəaliyyətin məqsədləri və motivlərini, ailənin bir qrup kimi qarşısında duran funksiyaları yerinə yetirməyə hazırlıq səviyyəsini, ailəni dağıda biləcək daxili və xarici təsirlərə qarşı onun möh - kəmlik dərəcəsini, ailənin məq sədləri və ideya sərvətləri, dəyərləri ilə şərtlənən ailədaxili münasibətlərin xarakterini və psixoloji iqlimini, emosional idenktikliyi, yekdilliliyi, ailədaxili uyuşmanı və.s aid etmək olar. Ailə həyatının dayanıqlı olmasının mühüm psixoloji amillərdən biri birgə yaşamağa alışma və qarşılıqlı adaptasiyadır. Ailədə ər arvad arasında qarşılıqlı münasibətin formalaşmasında mühüm amil olan adaptasiya öz mahiyyəti etibarı ilə psixoloji fenomendir. Bu məsələdən bəhs edən rus psixoloqu S.V.Kovalev ailədə ər-arvad arasında adaptasiyanın 3 əsas tipini fərqləndirir.

1) maddi-məişət;

2) mənəvi-psixoloji;

3) şəxsi – intim;

Onun fikrincə maddi-məişət səviyyəsində adaptasiya ərarvadın ev işlərini yerinə yetirmələrində hüquq və öhdəliklərini razılaşdırmalarını, ailə büdcəsini hər ikisini qane edən səviyyədə planlaşdırılmasını və bölünməsini əks etdirir. Mənəvipsixoloji səviyyədə adaptasiya dünya görüşlərinin, ideaalların, maraqların, sərvət meyllərinin, ustanovkaların, habelə, ər-arvadın şəxsi və xarakterik xüsusiyyətlərinin uyğunluğuna əsaslanır. Şəxsi-intim səviyyədə adaptasiya ər-arvadınn seksual tələbatlarında uyğunluğu, intim münasibətlərdən yalnız fizioloji deyil, həm də mənəvi-psixoloji baxımdan hər ikisinin məmnunluğunu ifadə edir

Ailədə maraqların toqquşması, qadın və ya kişi can Haiti əhəmiyyət kəsb edən dəyərlərin, onun tərəf müqabili can qəbuledilməz olması, onların ünsiyyət, fikir mübadiləsində ortaq məxrəcə gələ bilməmələri ailə mühitinin harmoniyasını pozur, ciddi narazılığa, kəskin fikir ayrılığına səbəb olur. Ailədaxili münaqişələri doğuran səbəblər kifayət qədər mürəkkəb və rəngarəngdir. Lakin, ümumilikdə bu səbələri iki qrupa:

1) ailə qurulanadək mövcud olan səbəblərə;

2) ailə qurulduqdan sonra yaranan səbəblər çoxluğuna ayırmaq mümkündür. Birinci səbəbləri çox zaman risk amilləri qrupu adlandırırlar. Bu elə səbəblər çoxluğudur ki, mümkün ailə böhranını və ya ailənin dağılma riskini ailə qurulmamışdan öncə özündə əks etdirir. Müvafiq cəhdlərə baxmayaraq, ailə qurulana qədər olan tamaşalıq əksər hallarda bu riski aradan qaldırmır. Risk amilləri insanın tərbiyəsi, şəxsiyyəti, milli, irqi, dini mənsubiyyəti, sosial statusu,

eyni zamanda, nigahın şərtləri ilə bilavasitə bağlıdır. Tədqiqatçılar aşağıdakı səbəbləri əsas risk amilləri qrupuna aid edirlər:

1) ailədə tərəf müqabillərinin təhsilində və yaşında böyük fərqin mövcudluğu (xüsusən, qadının kişidən yaşda nəzərə çarpacaq dərəcədə böyük olması);

2) tərəf müqabillərdən birinin spirtli içkilərə, narkomaniyaya meyililiyi və ya aludəçiliyi;

3) çox erkən yaşda nigaha daxil olma;

4) nigaha və ailəyə qeyri-ciddi münasibət;

5) ilkin tanışlıq müddətinin çox qısa olması;

6) ailə qurduqdan sonra uşağın dünyaya gəlməsi ehtimalı və tərəf müqabillərindən birinin bunu arzulamaması;

7) valideynlərin nigahın bağlanılmasına kəskin etiraz etməsi;

8) qarşılıqlı razılıq olmadan məcburiyyət qarşısında bağlanılan nigah.

Bu amillər ailə həyatının ilk illərində xüsusilə həlledici təsirə malik olur. Belə ki, dağılan ailələr və müvafiq olaraq boşananlar arasında 1 ildən 3-4 ilə qədər birgə yaşayanlar nisbi çoxluq təşkil edir. Bu onu göstərir ki, risk amilləri qrupu ailə quranların həyatını ilk illərdə bir çox cəhətdən təyin edir.

Ailə quranlar çox fərqli, müxtəlif, bəzən biri digərinə zidd olan qərar qəbul edirlər. Biri bu yolla öz gələcək həyatını və taleyini müəyyənləşdirdiyini düşünür, digəri isə fikirləşir ki, belə bir məsuliyyətli addım atmaqla müstəqil həyata qədəm qoya biləcək. Bəzən birinin acığına digəri ilə və ya "dostluq xatirinə" ailə quranlar da tapılır ki, bu da ümumilikdə ailə həyatına qeyri-ciddi münasibətdən xəbər verir.

Təcrübə göstərir ki, təhsil səviyəsinin artması bütövlükdə ilkin nigaha daxil olma yaşını ləngidən amillərdən biri kimi çıxış edir. Bu baxımdan, Azərbaycanda ali təhsil ocaqlarının və orta məktəbi bitirdikdən sonra təhsili davam etdirmək istəyənlərin sayının artması qurulan ailələrin tədricən sayının azalmasına, eləcə də ailədə doğulan uşaqların sayının planlaşdırılmasına təsir göstərən mühüm amillərdən biri kimi çıxış edir.

Hazırda qurulan ailələrin bir qisminin dağılması müxtəlif səbəblərlə izah edilir. Tərəf müqabillərinin ailə quranadək bəzən bir-birilərini yaxından tanıya bilməməsi, qadın və kişinin dünyagörüşündə meydana çıxan ziddiyyətlər nəticəsində yadlaşmanın baş verməsi və qarşılıqlı sevgi hissinin itirilməsi bu səbəblər sırasına aid edilir. Bu amilləri ümumilikdə fərdlərin təbii müxtəlifliyindən irəli gələn ziddiyyətlər kimi də səciyyələndirmək mümkündür. Başqa sözlə, bu o deməkdir ki, fərqli həyat və düşüncə təcrübəsinin daşıyıcısı olan iki gəncin - ailədə tərəf müqabili olmuş qadının və kişinin ailə barədə təsəvvürlərinin, müvafiq davranış və yaşam tərzinə olan münasibətlərinin toqquşması ailə böhranına gətirib çıxaran mühüm səbəblərdən sayıla bilər. Nəticə etibarı ilə ailədaxili münasibətlərin xarakteri ailənin taleyinə həlledici təsir göstərir. Tədqiqatçılar boşanmalara və ailənin dağılmasına gətirib çıxaran səbəbləri üç qrupa ayırmağı məqsədəuyğun hesab edirlər:

1) maddi-məişət problemləri;

2) şəxsi münaqişələr;

3) xarici təsirlər;

Maddi-məişət problemləri ailənin yaşayış tərzi ilə bağlı meydana çıxan müxtəlif çətinlikləri özündə əks etdirir. Yaşayış şəraitinin ağırlığı, tərəf müqabillərindən birinin ailə təsərrüfatını idarə etmək istəməməsi və ya bunu bacarmaması, maddi təminatın olmaması və digər müvaflq problemlər ailələrin dağılmasına səbəb olan mənfi amillərdən sayılır. Belə problemlərin davamlı xarakter alması ağır maddi mənəvi sıxıntılar doğurur. Bu vəziyyət son nəticədə ailədə ciddi fikir ayrılığının və kəskin münaqişələrin yaranmasına, daxili və xarici təsirlər nəticəsində ailənin ciddi mövcudluq böhranı yaşanmasına səbəb olur. Bəziləri bu böhrandan çıxış yolu taparaq ailə

həyatını öz sağlam məcrasına qaytarmağa nail olsa da, digərləri - öz həyat yoldaşından ayrılmağı üstün tuturlar.

Bir çox hallarda şəxsi münaqişələr də ailələrin dağılmasında həlledici təsirə malik olur. Öncə qeyd edildiyi kimi, ilkin sevgi hissinin itirilməsi, həyata fərqli baxışlar, kobudluq, qısqanclıq, şübhələr, inamsızlıq zəminində yaranan şəxsi ziddiyyətlər ailə həyatına olduqca mənfi təsir göstərir. Kobudluq, saymamazlıq və hörmətsizlik sadalanan amillər sırasında apancı yer tutur. Qarşılıqlı münasibətlərin sadalanan prinsiplər əsasında qurulması ailədə, necə deyərlər, "iki düşmən cəbhə"nin yaranmasına - qarşılıqlı laqeydliyə və yadlaşmağa gətirib çıxarır. Qadınlar, adətən, həyat yoldaşları ailəyə soyuq yanaşdıqda, içkiyə qurşandıqda, narkotik vasitələrə aludə olduqda, bu və ya digər səbəblərdən ailə məsuliyyətini daşımaq iqtidarında olmadıqda boşanmanı təşəbbüskar çıxış kimi hesab edirlər.

Belə hallarda qadının ailədə zorakılığa məruz qalması, şəxsi ləyaqət hissinin tərəf müqabili tərəfindən alçaldılması onu bu addımı atmağa vadar edir. Ailənin dağılmasına təsir göstərən xarici amillərə gəldikdə, burada xəyanət, tərəf müqabillərindən birinin həyat yoldaşına emosional-hissi münasibətlərin dəyişməsi və ya yeni ailə qurmaq təşəbbüsü, valideynlərin, bir sıra kənar şəxslərin ailə həyatına müdaxilə etməsi xüsusi əhəmiyyət kəsb edir. Xəyanət sözü yəgin ki, hər kəsə yaxşı tanışdır. Həyatında ən azı, bir dəfə ciddi xəyanətə uğrayan hər hansı şəxs bunun nə demək olduğunu yaxşı bilir. Psixoloqlar xəyanətin laqeydlik, inciklik və peşmançılıq hissini qüvvətləndirdiyini xüsusi vurğulayırlar.

Beləliklə, ailə həyatında meydana çıxan çətinliklər həm ailə qurmaq istəyənləri, həm də ailəsi dağılanları ciddi çətinliklərlə üzləşdirir. Bununla belə, bəzi ailələrin dağılmasının mütləq şəkildə mənfi amil kimi qiymətləndirmək mümkün deyil. Belə ki, bu amil istər-istəməz hər kəsin diqqətini ailə-nigah münasibətlərinə çəkir.

## ƏDƏBİYYAT

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı : 2008
2. Гришина Н.В. Психология конфликта. Питер, СПБ, 2006
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya: Dərslik. Bakı: 2003
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Ümumi psixologiya. Bakı :Maarif, 1989.

## MÜASİR DÖVRDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Məmmədov Samir***

## XÜLASƏ

Ailə bütün dövrlərin və bütün cəmiyyətlərin aktual problemləri hesab edilir. Bu baxımdan, ailə anlayışına olan maraq daimi və kütləvi xarakter daşıyır. Ailəni çox zaman obrazlı şəkildə "kiçik dövlət" adlandırır, onu cəmiyyətin, dövlətin mövcudluğunun və tərəqqisinin təməli, məhək daşı hesab edirlər. İnsanın müasir həyat tərzinin ahəngdarlığına, siyasi, iqtisadi, hüquqi və s. təsisatlarının rəngarəngliyinə baxmayaraq, demək olar ki, hər bir sosial-tarixi cəmiyyət tipində ailə özünəməxsus sosial bütövlük, necə deyərlər, cəmiyyətin sabit özülü, "nüvəsi" kimi çıxış edir.

# ВЛИЯНИЕ НА СЕМЕЙНЫЕ ОТНОШЕНИЯ В СОВРЕМЕННОМ ВОЗРАСТЕ ФАКТОРЫ

***Мамедов Самир***

## АННОТАЦИЯ

Семья - насущная проблема всех времен и обществ. С этой точки зрения интерес к концепции семьи постоянен и широко распространен. Семью часто образно называют «маленьким государством», она считается краеугольным камнем общества, существования и прогресса государства. Гармония современного образа жизни, политического, экономического, правового и так далее. Несмотря на разнообразие институтов, практически в каждом типе социально-исторического общества семья представляет собой некую социальную целостность, как говорится, прочную основу, «стержень» общества.

# EFFECTS ON FAMILY RELATIONS IN THE MODERN AGE FACTORS

***Mammadov Samir***

## SUMMARY

The family is considered an urgent problem of all times and all societies. From this point of view, the interest in the concept of family is permanent and widespread. The family is often figuratively called a "small state", it is considered the cornerstone of society, the existence and progress of the state. The harmony of the modern way of life, political, economic, legal and so on. Despite the diversity of institutions, in almost every type of socio-historical society, the family is a kind of social integrity, as they say, a stable foundation, the "core" of society.

# ŞƏXSİYYƏT POZUNTULARININ YARANMA SƏBƏBLƏRİ VƏ NÖVLƏRİ

***Arzu Qədizadə Vaqif qızı***
***BDU- nun II kurs magistrantı***
**arzuqedizade98@gmail.com**

***Açar sözlər***: Şəxsiyyət pozuntularının təsnifatı, Paranoid, Şizoid, Şizotipal, Anti-sosial, İsterik, Boderline, Narsistik, Çəkingən, Asılı, Obsessiv – Kompulsiv
***Ключевые слова***: классификация расстройств личности, параноидальный, шизоидный, шизотипический, антисоциальный, истерический, бордерлайн, нарциссический, застенчивый, зависимый, обсессивно-компульсивный.
***Keywords***: Classification of personality disorders, Paranoid, Schizoid, Schizotypal, Anti-social, Histrionic, Boderline, Narcissistic, Avoidant, Dependent, Obsessive – Compulsive.

Şəxsiyyət pozuntuları sərt və sağlam olmayan düşüncə və davranış tərzinə sahib olunan bir zehni xəstəlik növüdür. Şəxsiyyət pozuntuları olan şəxslər vəziyyətləri və insanları qavramaqda problem yaşayırlar. Onlara görə düşüncələri normaldır və problemlərində tez-tez başqalarını günahlandırırlar. Bu, münasibətlərdə, ictimai fəaliyyətlərdə, işdə və məktəbdə ciddi problemlərə və məhdudiyyətlərə səbəb olur.

Şəxsiyyət pozuntuları bənzər xüsusiyyətlərə və simptomlara görə 3 əsas kateqoriyada qruplaşdırılır:

- A qrupu : Paranoid, Şizoid və Şizotipal
- B qrupu : Antisosial, Borderline, Isterik, və Narsistik
- C qrupu: Asılı, Çəkingən və Obsessiv – Kompulsiv

A qrupu: Şübhəli

A qrupu şəxsiyyət pozuntuları qeyri-adi və qəribə davranışlarla xarakterizə olunur. Bu qrupa Paranoid şəxsiyyət pozuntusu, Şizoid şəxsiyyət pozuntusu və Şizotipal şəxsiyyət pozuntusu daxildir [2].

Paranoid şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Kin saxlamaq
- Başqalarına və onların motivlərinə yayılmış inamsızlıq və şübhənin olması
- Başqalarının onlara zərər verməyə və aldatmağa çalışdığına dair əsassız inamın olması
- Bəsit ifadələrin və təhdid edilməyən vəziyyətlərin şəxsi təhqir kimi qəbul edilməsi
- Həyat yoldaşının və ya cinsi tərəfdaşın xəyanət etdiyinə dair əsassız şübhənin olması

Şizoid şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Sosial və şəxsi münasibətlərə marağın olmaması
- Öz düşüncələrilə tək qalmağa üstünlük verilməsi
- Məhdud emosional ifadənin olması
- Əksər fəaliyyətlərdən zövq ala bilməmək
- İntim əlaqəyə marağın olmaması

Şizotipal şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Xüsusi geyim, düşüncə, inanc, və davranışın olması
- Sosial narahatlıq və yaxın münasibətlərin olmaması
- Başqaları ilə münasibət qurmaqda çətinlik çəkmək
- Təhrif olunmuş düşüncə və qavrayışın olması
- Reallıq və fantaziya arasındakı qarışıqlığın olması
- Bir ad eşitmək kimi və ya bir səs eşitmək kimi tək qavrayış təcrübələri

- Düzgün emosional ifadələrin olmaması və ya yersiz emosional cavabların olması
- Başqalarına laqeydlikliyin olması
- "Sehirli düşüncə" - düşüncələrlə insanlara və hadisələrə təsir edə biləcəyinə inanmaq
- Bəzi təsadüfi hadisələrin yalnız onlar üçün nəzərdə tutulan gizli mesajların olduğuna inamın olması

B qrupu: Duyğusal və impulsiv

B qrupu şəxsiyyət pozuntuları dramatik, həddən artıq emosional və gözlənilməz düşüncə və ya davranışla xarakterizə olunur. Bu qrupa Antisosial şəxsiyyət pozuntusu, Borderline şəxsiyyət pozuntusu, İsterik şəxsiyyət pozuntusu və Narsistik şəxsiyyət pozuntusu daxildir.

Antisosial şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Başqalarının ehtiyaclarına və hisslərinə əhəmiyyət verməmək
- Tez-tez özü və digər insanlar üçün nəticələri düşünmədən özünü təhlükəli və riskli vəziyyətlərə salmaq
- Davamlı yalan danışmaq, oğurluq etmək, ləqəblərdən istifadə etmək
- Aqressiv, təcavüzkar davranış və asanlıqla münaqişədə iştirak etmək
- Başqalarının hüquqlarının pozulması
- Davamlı məsuliyyətsizliyin olması
- Etdiyi əməldən peşman olmamaq

Borderline şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Qeyri-sabit əhval-ruhiyyə, sürətlə dəyişə bilən çox gərgin duyğuların olması
- Qeyri-sabit münasibətlərin olması
- Digər insanlara etibar edə bilməmək
- İntihar davranışı və özünə xəsarət yetirmə təhdidi
- Tək qalmaq və tərk olunmaq qorxusunun olması
- Davamlı tənhalıq hissinin olması

İsterik şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Daim diqqət axtarışı, diqqət qazanmaq üçün həddindən artıq emosional, dramatik və cinsi cəhətdən təhrikedici olmaq
- Sürətlə dəyişən duyğuların olması
- Fiziki görünüşlə bağlı həddindən artıq narahatlığın olması
- Asanlıqla başqalarının təsiri altına düşmək
- Yanlış qərarlar qəbul etmək

Narsistik şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Daimi tərif və heyranlıq gözləntisi [3].
- Xüsusi olduğuna və digərlərindən daha üstün olduğuna inanmaq
- Nailiyyətlərin şişirdilməsi
- Güc, müvəffəqiyyət və cəlbedicilik haqqında fantaziyaların yaranması [4].
- Təkəbbürlü olmaq, başqalarının ehtiyaclarını və hisslərini önəmsəməmək
- Tez-tez başqalarından faydalanaraq üstünlük əldə etmək

C qrupu: Narahat

C qrupu şəxsiyyət pozuntuları narahat, qorxulu düşüncə və ya davranışla xarakterizə olunur. Bu qrupa Asılı şəxsiyyət pozuntusu, Çəkingən şəxsiyyət pozuntusu və Obsessiv-Kompulsiv şəxsiyyət pozuntusu daxildir.

Asılı şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Özünə inamın aşağı olması
- Başqalarından həddindən artıq asılılıq və qayğıya ehtiyacın olması
- Başqalarına qarşı itaətkar davranışın olması

- Qərar qəbul etmək üçün başqalarından həddindən artıq məsləhət almaq, təkbaşına qərar qəbul edə bilməmək
- Özünə inamın olmaması səbəbindən layihələri təkbaşına başlamaq və həyata keçirməkdə çətinlik çəkmək
- Bəyənilməmək qorxusunun olması
- Yaxın münasibətlər bitdikdə təcili olaraq yeni bir əlaqəyə başlamaq

Çəkingən şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Sosial vəziyyətlərdə və şəxsi münasibətlərdə həddindən artıq utancaqlığın olması
- Tənqid və rədd edilmə qorxusunun olması
- Yeni fəaliyyətlərdən və yeni insanlarla ünsiyyətdən qaçmaq
- Tənha, təcrid olunmuş və başqalarından aşağı hiss etmək [5].

Obsesiv-kompulsiv şəxsiyyət pozuntusu əlamətləri aşağıdakılardır:

- Təfərrüatlar, səliqə-sahman və qaydalara riayət etmək
- Sərt və inadkar olmaq
- Əxlaq və dəyərlər mövzusunda həssaslığın olması
- Hər şeyi qaydasında və nəzarətdə saxlamaq
- Özü və başqaları üçün qeyri-real dərəcədə yüksək standartlar qoyulması
- Yanlış qərar vermək və yanlış davranmaq qorxusunun olması
- Vəzifələri kiməsə həvalə edə bilməmək
- İşə həddindən artıq bağlılıq səbəbi ilə dostlara və digər fəaliyyətlərə laqeyd yanaşmaq
- Sınıq və ya dəyərsiz əşyaları atmağın mümkün olmaması
- Büdcə və pul xərclənməsi üzərində sərt, həssaslıqla nəzarətin olması

Şəxsiyyət pozuntularının yaranma səbəbləri:

Şəxsiyyət pozuntuları ümumiyyətlə yeniyetmə yaşlarında və ya erkən yetkinlikdə başlayır. Bəzi növlər orta yaşda daha az görünə bilər. Bir sıra faktorların qarışığı bəzi insanlarda şəxsiyyət pozuntularını inkişaf etdirə bilər: genetik təsir, erkən həyat təcrübələri və ətraf mühit.

Şəxsiyyət pozuntularının diaqnozu qoyulan insanların əksəriyyətində bu problemin yaranmasında travmaların olması ortaya çıxır. Bunlara daxildir:

- Fiziki, emosional və cinsi istismar
- Qeyri-sabit və ya xaotik bir ailə həyatı, məsələn alkoqollu və ya zehni sağlamlıq problemi olan valideynlə yaşamaq
- Travmatik bir hadisə və ya vəziyyətlə qarşılaşmaq
- Məktəb həyatı boyunca dəstək çatışmazlığı və ya neqativ təcrübələr

Şəxsiyyət pozuntularının müalicəsi iki istiqamətdə aparılır:

- Psixoterapiya
- Medikamentoz müalicə

Müalicə şəxsiyyət pozuntularının növünə və şiddətinə görə dəyişə bilər.

Psixoterapiya

Psixoterapiya istiqamətinə bir sıra terapiya üsulları daxildir: KBT; psixodinamik və ya psixoanalitik terapiya və s…

Koqnitiv Bihevioral Terapiya düşüncə tərzini və davranışı dəyişdirməyə yönəlmiş terapiyadır.

Psixodinamik və ya psixoanalitik terapiya uzunmüddətli, xəstələrin problemlərini anlamalarına və həll etmələrinə kömək edən terapevtik bir prosesdir. Bunu daxili aləmləri barədə məlumatlılığı və həm keçmiş, həm də indiki münasibətlər üzərindəki təsirini artıraraq edir.

Medikamentoz müalicə

Şəxsiyyət pozuntularının müalicəsi üçün tövsiyə olunan xüsusi bir dərman yoxdur.

Lakin həkiminiz sizə narahatlıq, hirs və ya aşağı əhval-ruhiyyə kimi simptomlara kömək edəcək dərmanlar verə bilər [6].

## ƏDƏBİYYAT

1. Paul M. G. Emmelkamp, Katharina Meyerbröker; "Personality Disorders" (2019) 280 Pages
2. Esterberg, Michelle L.; Goulding, Sandra M.; Walker, Elaine F. (5 May 2010). "Cluster A Personality Disorders: Schizotypal, Schizoid and Paranoid Personality Disorders in Childhood and Adolescence"
3. Lenzenweger M.F., Clarkin J.F., Caligor E., Cain N.M., Kernberg O.F. (2018). "Malignant Narcissism in Relation to Clinical Change in Borderline Personality Disorder: An Exploratory Study". Psychopathology. 51 (5): 318–325
4. https://www.healthline.com/health/personality-disorders#treatment
5. https://www.mind.org.uk/information-support/types-of-mental-health-problems/personality-disorders/types-of-personality-disorder/#AvoidantPersonalityDisorder
6. https://www.rethink.org/advice-and-information/about-mental-illness/learn-more-about-conditions/personality-disorders/

## ŞƏXSİYYƏT POZUNTULARININ YARANMA SƏBƏBLƏRİ VƏ NÖVLƏRİ

***Arzu Qədizadə***

## XÜLASƏ

Şəxsiyyət pozuntuları sərt və sağlam olmayan düşüncə və davranış tərzinə sahib olunan bir zehni xəstəlik növüdür. Şəxsiyyət pozuntuları bənzər xüsusiyyətlərə və simptomlara görə 3 əsas kateqoriyada qruplaşdırılır:

A qrupu şəxsiyyət pozuntuları qeyri-adi və qəribə davranışlarla xarakterizə olunur. Bu qrupa Paranoid şəxsiyyət pozuntusu, Şizoid şəxsiyyət pozuntusu və Şizotipal şəxsiyyət pozuntusu daxildir

B qrupu şəxsiyyət pozuntuları dramatik, həddən artıq emosional və gözlənilməz düşüncə və ya davranışla xarakterizə olunur. Bu qrupa Antisosial şəxsiyyət pozuntusu, Borderline şəxsiyyət pozuntusu, İsterik şəxsiyyət pozuntusu və Narsistik şəxsiyyət pozuntusu daxildir.

C qrupu şəxsiyyət pozuntuları narahat, qorxulu düşüncə və ya davranışla xarakterizə olunur. Bu qrupa Asılı şəxsiyyət pozuntusu, Çəkingən şəxsiyyət pozuntusu və Obsessiv-Kompulsiv şəxsiyyət pozuntusu daxildir.

Şəxsiyyət pozuntularının yaranma səbəbləri:

Şəxsiyyət pozuntuları ümumiyyətlə yeniyetmə yaşlarında və ya erkən yetkinlikdə başlayır. Bir sıra faktorların qarışığı bəzi insanlarda şəxsiyyət pozuntularını inkişaf etdirə bilər: genetik təsir, erkən həyat təcrübələri və ətraf mühit.

# ПРИЧИНЫ И ВИДЫ РАССТРОЙСТВ ЛИЧНОСТИ

*Арзу Гадизада*

## АННОТАЦИЯ

Расстройства личности - это тип психического заболевания, которое связано с резким и нездоровым образом мышления и поведения. Расстройства личности сгруппированы в 3 основные категории по сходным характеристикам и симптомам:

Расстройства личности группы А характеризуются необычным и причудливым поведением. В эту группу входят параноидальное расстройство личности, шизоидное расстройство личности и шизотипическое расстройство личности.

Расстройства личности группы В характеризуются драматическим, чрезмерно эмоциональным и непредсказуемым мышлением или поведением. В эту группу входят антисоциальное расстройство личности, пограничное расстройство личности, истерическое расстройство личности и нарциссическое расстройство личности.

Расстройства личности группы С характеризуются тревожным, пугающим мышлением или поведением. В эту группу входят зависимое расстройство личности, избегающее расстройство личности и обсессивно-компульсивное расстройство личности.

Причины расстройства личности:

Расстройства личности обычно начинаются в подростковом или раннем взрослом возрасте. У некоторых людей расстройства личности могут развиться из-за сочетания ряда факторов: генетические факторы, ранний жизненный опыт и окружающая среда.

# CAUSES AND TYPES OF PERSONALITY DISORDERS

*Arzu Gadizada*

## SUMMARY

Personality disorders are a type of mental illness that has a harsh and unhealthy way of thinking and behaving. Personality disorders are grouped into 3 main categories according to similar characteristics and symptoms:

Group A personality disorders are characterized by unusual and bizarre behaviors. This group includes Paranoid personality disorder, Schizoid personality disorder, and Schizotypal personality disorder

Group B personality disorders are characterized by dramatic, overly emotional, and unpredictable thinking or behavior. This group includes Antisocial personality disorder, Borderline personality disorder, Histrionic personality disorder, and Narcissistic personality disorder.

Group C personality disorders are characterized by anxious, fearful thinking or behavior. This group includes Dependent personality disorder, Avoidant personality Disorder, and Obsessive-Compulsive personality disorder.

Causes of personality disorders:

Personality disorders usually begin in adolescence or early adulthood. A mixture of a number of factors can develop personality disorders in some people: genetic influences, early life experiences, and the environment.

# YUXARI SİNİF ŞAGİRDLƏRİNİN SƏNƏT SEÇİMİNDƏ ÖZ MÜQƏDDƏRATINI TƏYİN ETMƏ XÜSUSİYYƏTLƏRİ

***Ələkbərli Ayişə Cahid qızı***
***BDU-nun II kurs magistrantı***
***ayshe.elekberli@gmail.com***

***Açar sözlər:*** yuxarı sinif şagirdləri, sənət seçimi, müqəddərat, xüsusiyyət.
***Ключевые слова:*** старшеклассники, выбор профессии, самоопределения, характеристика.
***Key words:*** upper class students, choice of art, destiny, feature.

Sənət seçimi qısa müddətli hərəkət və proses olaraq qəbul edilə bilər. Proses olaraq sənət seçimi, peşə seçən şəxsin passiv rol oynayaraq öyrənmə və təsir obyekti kimi deyil, ilk növbədə mövzu olaraq çıxış etməsi lazım olan peşəkar öz müqəddəratını təyin etməsidir. *E.A.Klimov* peşəni öz müqəddəratını təyin etmə əməyinin subyekti kimi şəxsiyyətin inkişafı prosesi hesab edir. Bir şəxsin sənət seçiminin öz müqəddəratını təyin etməsinin məzmunu, peşə dünyası və əmək bazarı haqqında məlumatların olduğu kimi, peşəkar özünüdərkidir [2, s.29]. Peşəkar özünüdərk, müəyyən sənətin nümayəndəsi olaraq, müəyyən sənət qrupuna mənsub olduğunu dərk etməkdir. Özünə peşə fəaliyyətinin subyekti kimi fikirlərin məcmusu olan şəxsiyyətin peşəkar özünüqiymətində əks olunan peşəkar özünü tanıma, özünü qiymətləndirmə, özünə münasibət və özünü tərbiyə daxildir. Yuxarı sinif şagirdlərinin peşəkar özünüdərk və özünüqiymətləndirmənin əsas struktur komponenti özünə hörmət, özünün peşə şəxsiyyətini qurmağa kömək edən, özünə, keyfiyyətlərinə dair dəyərli mühakimələrdir. Kifayət qədər peşəkar özünü tanıma və özünə hörmət, fərdin peşəkar öz müqəddəratını təyin etməsinin müvəffəqiyyəti üçün vacib şərtdir. Öz müqəddəratını təyin etmə probleminə psixoloji yanaşmanın metodoloji əsasları *S.L.Rubinstein* tərəfindən peşəkar öz müqəddəratını təyin etmə problemi, müəyyən etdiyi problemin kontekstində, irəli sürdüyü prinsipi nəzərə alaraq - xarici səbəblər, daxili şərtlər vasitəsi ilə yansıtıldı. Mahiyyət etibarilə, hər hansı bir qətiyyətin tam olaraq lazım olduğunu başqaları tərəfindən, xarici və öz müqəddəratını təyin etmək kimi obyektin daxili xüsusiyyətlərinin təyin edilməsidir [4, s.394]. Sənət seçimində öz müqəddəratını təyin etmə araşdırmalarına iki yanaşma var. Birincisi, öz müqəddəratını müəyyən ontogenez mərhələsində yaranan və yuxarı məktəb çağında şəxsiyyət neoplazması olaraq mövcud olan təbii proses hesab edir. Belə ki, peşəkar öz müqəddəratını təyin etmənin ilkin mərhələsində ikili xarakter daşıyır: ya müəyyən sənət seçimi, ya da peşəkar məktəbin yalnız rütbəsi seçimi sosial seçimdir. Xüsusi peşəkar öz müqəddəratını təyin etmə hələ qurulmamışdırsa, qız (oğlan) gələcək üçün spesifikasiyasını təxirə salaraq ümumiləşdirilmiş versiyadan istifadə edir. Sənət seçimində öz müqəddəratını təyin etmə, yeniyetməliyin gələcəyə can atmaq kimi vacib xüsusiyyəti ilə ayrılmaz şəkildə bağlıdır. İkinci yanaşma, öz müqəddəratını müəyyən praktikaya - peşə rəhbərliyinə qurulmuş və yalnız bu kontekstdə mənasını və dəyərini qazanan süni şəkildə təşkil edilmiş proses kimi qiymətləndirir. Bunlar, *E.A.Klimova, A.E.Holomstok* tərəfindən araşdırmaların xüsusiyyəti, sənət seçimində öz müqəddəratını təyin etmənin şəxsi aspektlərinə getdikcə artan diqqətdir.

Peşə seçiminin psixoloji nəzəriyyəsi *F.Parsons* tərəfindən hazırlanmışdır, o, aşağıdakıları formalaşdırmışdır [5, s.138]:

a) hər bir şəxs, fərdi keyfiyyətlərinə görə, hər şeydən əvvəl, peşəkar əhəmiyyətli qabiliyyətlərinə görə, tək peşəyə ən optimal yanaşmadır;

b) peşə uğuru və peşədən məmnunluq fərdi keyfiyyətlərin və peşənin tələblərinin uyğunluq dərəcəsi ilə müəyyən edilir;

c) peşə seçimi mahiyyət etibarilə ya fərdin özü, ya da peşəkar məsləhətçinin psixoloji və ya fizioloji keyfiyyətlərin fərdi mövqeyini müəyyən etdiyi və müxtəlif peşələrin tələblərinin mövcud meyilləri ilə əlaqələndirdiyi şüurlu və rasional prosesdir.

*Parsons* sənət seçiminin xüsusiyyətləri arasında, hər şeydən əvvəl, fərdin qabiliyyətləri, maraqları və dəyərləri ilə bunları həyata keçirmək imkanları arasında kompromis olaraq başa düşdüyü şüuru rasionallığı ayırır. *D.Holland*-ın peşəkar öz müqəddəratını təyin etmə görüşü fərqli istiqamətə malikdir. Onun üçün peşə inkişafı prosesi, birincisi, fərdin mənsub olduğu şəxsi tipini özünün təyin etməsi ilə məhdudlaşır, ikincisi, bu tipə uyğun olan peşəkar sahə tapmaqla, üçüncüsü, dörd ixtisasdan birini seçməklə zəkanın və özünə hörmətin inkişafını təyin edən peşəkar sahənin səviyyələridir. Əsas diqqət motor, intellektual, sosial, adaptiv, estetik, gücə can atma kimi xarakterizə olunan şəxsiyyət növlərinin təsvirinə verilir. Bu nəzəriyyə, hər bir insanın fərdi keyfiyyətlərinə və hər şeydən əvvəl, peşəkar əhəmiyyətli qabiliyyətlərinə görə, tək sənətə ən optimal yanaşma olduğunu göstərir. Sənət seçimi, yuxarı sinif şagirdinin psixoloji keyfiyyətlərin fərdi xüsusiyyətlərini təyin etdiyi və bunu müxtəlif peşələrin tələbləri ilə əlaqələndirdiyi şüurlu və rasional prosesdir [1, s.37].

Sənət seçimində öz müqəddəratını təyin etmə yalnız seçim anı deyil, həm də insanın həyatının bütün mərhələləri üçün xarakterik olan, tərbiyə işləri sistemində həyata keçirilən dinamik professional prosesdir. Peşəkar öz müqəddəratını təyin etmənin aşağıdakı mərhələləri var:

Mərhələ I (I – IV siniflər) - propedevtik. Bu dövrdə, müəyyən şərtlər altında, kiçik məktəblilərdə işə sevgi və vicdanlı münasibət oyanır, insanın və cəmiyyətin həyatındakı rolu haqqında anlayış yaranır, valideynlərin peşəsinə və yaxın ətrafa maraq özünü göstərir. Sənət seçmək üçün əxlaqi münasibət, ən çox yayılmış olanlara maraq formalaşır. Bütün bunlar şagirdlərin sistemli şəkildə müxtəlif idrak, oyun, ictimai faydalı, əmək fəaliyyətlərində iştirak etməsi ilə mümkündür.

Mərhələ II (V - VII siniflər) axtarış yönümünə malikdir: yeniyetmələrdə peşəkar niyyətlər inkişaf edir, tədricən sənət seçimi və cəmiyyətdəki yeri ilə əlaqədar maraqlarını, qabiliyyətlərini, sosial dəyərlərini həyata keçirirlər. Bu, şagirdlərin liseydə davamlı təhsil və gələcək peşə fəaliyyətinin profilinə uyğun fəaliyyətlərə daxil edilməsi ilə asanlaşdırılır.

Mərhələ III (VIII - IX siniflər), məktəblilərin peşə seçməyin şəxsi mənasına sahib olduqları zaman, fəaliyyət sahəsi seçməyin ictimai məqsədlərini idealları, düşüncələri ilə əlaqələndirməkdə təcrübə qazandıqları, peşəkar özünüdərkin inkişafı dövrüdür.

Mərhələ IV (X - XI siniflər) sosial - peşə statusunun aydınlaşdırılmasıdır. Təlimin əvvəlki mərhələləri nəzərə alınmaqla, orta məktəb şagirdlərinin davamlı maraq və qabiliyyət göstərdikləri akademik fənlərin dərindən öyrənilməsi əsasında karyera yönləndirmə işləri aparılır. Seçdiyiniz iş növündə peşəkar əhəmiyyətli keyfiyyətlərin formalaşmasına, peşə planlarının nəzarətinə və korreksiyasına, nəticələrin qiymətləndirilməsi üsullarına, seçilmiş fəaliyyətdəki nailiyyətlərə, buna özünü hazırlamağa və özünü inkişaf etdirməyə xüsusi diqqət yetirilir [3, s.16].

Sənət seçimi, şəxsin ictimai əməyin, peşə fəaliyyətinin subyekti olaraq yetkinlik yaşına çatma qərarı olaraq qəbul edilir. İnsanın peşə əhəmiyyətli keyfiyyətləri, aparıcı meyllərinə görə, peşə tələbləri, sənət seçimi və sonra peşə fəaliyyəti ilə təmsil olunan peşəkar standarta uyğun gəldikdə, şəxsi məna qazanır. Sənət seçiminə müxtəlif amillər təsir göstərir. *E.Rowe*-a görə, bunlara sosial-iqtisadi vəziyyət, etnik mənsubiyyət, zəka, xüsusi qabiliyyətlər, valideynlərin peşələri, habelə peşə karyerasının müəyyən modellərini gücləndirən və müəyyən həyat tərzi

modeli kimi fəaliyyət göstərən ailə daxildir. Valideynlər və övladları arasındakı münasibət ehtiyacların və maraqların formalaşmasına kömək edir, bunun təzahürlərindən biri də sənət seçimidir. Ailənin diqqət mərkəzində olan yeniyetmələrdə qrupa aid olmaq və başqalarını sevmək, hörmət etmək ehtiyacı yarana bilər. Ünsiyyət, mədəniyyət, incəsənət və ya əyləncə sahəsindəki işlərlə məşğul olacaqlar. Valideynlərindən az diqqət alan, sevgi və hörmətdən məhrum olanlarda isə təklik tələb edən peşələrə maraq yarana bilər. Əksinə, özlərini elmə, texnologiyaya, birbaşa sıx ünsiyyətin gözlənilmədiyi fəaliyyətlərə həsr edə bilərlər [3, s.52].

İnsanın peşəkar seçiminə, seçicinin fərdi vəziyyəti (ailənin şərtləri və iqtisadi imkanları), varlı və ya kasıb olmaq hissi təsir edir. Maddi səviyyəsi aşağı olan ailələrdə insanlar arasında pul çatışmazlığı onları yüksək gəlirli peşələr seçməyə, ailə ənənələrinə, meyllərinə və qabiliyyətlərinə zidd olaraq kommersiya fəaliyyəti təşkil etməyə sövq edir. Varlı ailələrdən olanlar üçün isə peşə fəaliyyətinin seçimi daha genişdir və daha çox şəxsi üstünlükləri ilə bağlıdır.

Şəxsiyyətin peşə istiqaməti, fərdi tipoloji (temperament, xarakter, qabiliyyətlər) və psixofizioloji xüsusiyyətləri, idrak proseslərinin xüsusiyyətləri, həmçinin anatomik və morfoloji xüsusiyyətləri sənət seçimi cəhətdən vacib keyfiyyətlərə, kompleks inteqral təhsilə aiddir. Zəkanın inkişaf səviyyəsi peşə fəaliyyətinin müvəffəqiyyətinin proqnozlaşdırıcısı hesab olunur: hər bir peşə üçün daha aşağı inkişaf həddi var, bunun altında fərdin peşəni mənimsəmək imkanları məhduddur. İntellekt eyni zamanda fərdin potensial yaradıcılıq nailiyyətlərinin yuxarı məhdudlaşdırıcısı rolunu oynayır, səviyyəsi də onun motivasiyasından, səriştəsindən asılıdır və fəaliyyətin məzmunu ilə bağlıdır.

## ƏDƏBİYYAT

10. Дидактический материал по курсу «Твоя профессиональная карьера» / Под ред. С.Н. Чистяковой. М.: Академия, 2009. 158 с.
11. Климов, Е.А. Развивающийся человек в мире профессий. М.: МГУ, Центр Детство, 2007. 142 с.
12. Луцевич, Л.В. Лях, В.В. Тарасюк, О.А. Активизирующие методики и технологии в полипрофориентационной работе со старшеклассниками: учеб.-метод. пособие под общ. ред. Л.В. Луцевич; - Минск: АПО, 2011. 268 с.
13. Рубинштейн, С.Л. Основы общей психологии / Сост. В. Брушлинский, К.А. Абульханова-Славская. СПб: Питер, 2012. 694 с.
14. Человек и его профессия: учеб. пособие для студентов высш. учеб. заведений / А.М. Кухарчук, В.В. Лях, А.Б. Широкова. - Минск: Современное слово, 2006. 395 с.

# YUXARI SİNİF ŞAGİRDLƏRİNİN SƏNƏT SEÇİMİNDƏ ÖZ MÜQƏDDƏRATINI TƏYİN ETMƏ XÜSUSİYYƏTLƏRİ

***Ələkbərli Ayişə***

## XÜLASƏ

Məqalədə yuxarı sinif şagirdlərinin sənət seçimində öz müqəddəratını təyin etmə xüsusiyyətləri araşdırılmışdır. Peşəkar öz müqəddəratını təyinetmə, şəxs tərəfindən verilənlərin təhlili və peşənin tələblərinə uyğunluğu əsasında həyata keçirilən müstəqil sənət seçimi prosesidir. Yuxarı sinif şagirdinin peşəkar niyyətlərində əks olunan bu proses həmişə onların

həyata keçirilməsi ilə bitmir və vəziyyətdən asılı olaraq uzunmüddətli ola bilər. Sənət seçiminə müxtəlif amillər təsir edir: ehtiyaclar, maraqlar, peşəkar ideallar, iş və peşə fəaliyyətinin şəxsən əhəmiyyətli dəyərləri, motivasiya, ailənin sosial vəziyyəti, həmyaşıdlarının və valideynlərinin təsiri və başqaları.

## FEATURES OF SELF-DETERMINATION OF HIGH SCHOOL STUDENTS IN CHOOSİNG A PROFESSION

***Alakbarli Aisha***

### SUMMARY

The article examines the characteristics of high school students' self-determination in the choice of art. Professional self-determination is the process of independent art selection based on the analysis of personal data and compliance with the requirements of the profession. This process, reflected in the professional intentions of the senior student, does not always end with their implementation and can be lengthy depending on the situation. The choice of art is influenced by various factors: needs, interests, professional ideals, personal values of work and professional activity, motivation, social status of the family, the influence of peers and parents, and others.

## ОСОБЕННОСТИ САМООПРЕДЕЛЕНИЯ СТАРШЕКЛАССНИКОВ В ВЫБОРЕ ПРОФЕССИИ

***Алекбарлы Айша***

### АННОТАЦИЯ

В статье исследуются особенности самоопределения старшеклассников в выборе искусства. Профессиональное самоопределение - это процесс независимого художественного отбора, основанный на анализе личных данных и соответствии требованиям профессии. Этот процесс, отражающийся в профессиональных намерениях старшеклассника, не всегда заканчивается их реализацией и может быть длительным в зависимости от ситуации. На выбор искусства влияют различные факторы: потребности, интересы, профессиональные идеалы, личные ценности работы и профессиональной деятельности, мотивация, социальный статус семьи, влияние сверстников и родителей и другие.

**PEDAQOGİKA**

UOT 37

# MƏTNLİ MƏSƏLƏLƏRİN HƏLLİ PROSESİNDƏ RİYAZİ MODELLƏŞDİRMƏ ELEMENTLƏRİNİN ÖYRƏDİLMƏSİ METODİKASI

©2021

***dos. Tahirov Bahadur Ömər oğlu BDU-nun Riyaziyyat və onun tədrisi metodikası kafedrası***
***turankadyrli@mail.ru***
***dos.Abdullayeva Qönçə Zülfüqar qızı, BDU-nun Riyaziyyat və onun tədrisi metodikası kafedrası q.a.z.41@mail.ru***

***Açar sözlər:*** orta məktəb riyaziyyatı, modelləşdirmə prosesi, mətnli məsələ həlli, riyazi model, modelləşdirmə mərhələsi.
***Ключевые слова:*** высшая математика, процесс моделирования, решение текстовых задач, математическая модель, этап моделирования.
***Keywords:*** high school mathematics, modeling process, text problem solving, mathematical model, modeling stage.

**Giriş.** Orta ümumtəhsil məktəbdə riyaziyyat təliminin əsas vəzifələrindən biri şagidlərdə real hadisələrin və ya proseslərin sadə modellərini qurmaq, prosesləri və ya hadisələri onların modelləri əsasında öyrənmək bacarıqları fomalaşdırmaqdır. Ona görə məqalənin mövzusu aktualdır.

Məqalənin mövzusu üzrə aparılan tədqiqatların nəticələrini qısa şərh edək:

[1]-də ibtidai məktəbdə mətnli məsələlərin həlli prosesində şagirdləri modelləşdirmə prosesi ilə tanış etməyin mümkünlüyi əsaslandırılmışdır.

[2], [3], [4], [5], [7] və [8]-də mətnli məsələlərin həlli prosesində şagirlərin öyrənmə marağının formalaşdırılması və inkişaf etdirilməsi problemi tədqiq olunmuşdur.

[6]-da riyaziyyat dərslərində riyaziyyat və biologiya fənlərinin inteqrasiyasına xidmət edən mətnli məsələlərin həllinə geniş yer verməyin səmərəli olduğu əsaslandırılmışdır.

[9]-da mətnli məsələlərin həlli prosesində şagirdlərdə tənqidi təfəkkürü inkişaf etdirmək problemi tədqiq olunmuşdur.

[10], [12] və [14]-də riyaziyyat dərsliklərində şagirdin subyektiv təcrübəsi ilə əlaqəsi olan mətnli məsələlərin az olması problemi araşdırılmışdır.

[11], [16] və [17]-də iqtisadi məzmunlu bəzi mətnli məsələlərin həlli metodları verilmişdir.

[13]-də mətnli məsələlərin tərtib olunması zamanı təsvir olunan situasiyaların mümkünlüyünü yoxlamağın zəruriliyi əsaslandırılmışdır.

[15]-də eyni məsələnin müxtəlif üsullarla həllinin metodiki üstünlükləri göstərilmişdir.

"**Model**" və "**modelləşdimə**" cəmiyyətin həyatının demək olar ki, bütün sahələrində geniş istifadə olunan anlayışlardır.

"Model" anlayışına müxtəlif təriflər vermək olur. Məsələn, bəzi müəlliflərə görə, "model" öyrənilməsi tədqiq olunan obyekt haqqında yeni informasiya verən, tədqiq olunan obyekti maddi və ya fikri təqdim edən obyeklər sistemidir.

"Model" anlayışına aşağıdakı kimi də tərif vermək olar: İdrak prosesində orijinal obyekti əvəz edən, orijinal obyektin verilən tədqiqat üçün mühüm olan xassələrini özündə saxlayan və tədqiq oluan obyekti maddi və ya fikri təqdim edən obyekt model adlanır.

Psixoloqların əksəriyyəti "model" anlayışını orijinal obyektin müəyyən sayda mühüm xassələrini əks etdirən obyektlər sistemi ilə eyniləşdirirlər.

Modelin qurulması və istifadə olunması prosesi modelləşdirmə adlanır.

Modelləşdirmə tədqiq olunan obyekt haqqında müəyyən təsəvvürlər yaratmaqla həmin obyekt üzərində müəyyən əməliyyatlar aparmağa imkan yaradır.

Modelləşdirmə tədqiq olunan obyektlər haqqında dolğun təssəvürlərin formalaşmasını təmin etdikdə, o real proseslərin öyrənilməsində güclü vasitəyə çevrilir.

Modelləşdimə cəmiyyətin həyatının demək olar ki, bütün sahələrində
tətbiq oluna bilən metoddur. O əyaniliyi, etibarlılığı və obyetivliyi ilə digər
elmi idrak metodlarından ciddi fərqlənir. Ona görə də o təməl metod adlanır.

Təlimdə riyazi modellədirmə elementlərinin öyrənilməsi aşağıdakılara xidmət edir:

1) şagirdlərdə dialektik materialist dünyagörüşünün formalaşmasına;

2) şagirdlərin intellektual bacarıqlarının (analiz və sintez aparmaq, ümumiləşdirmək, mücərrədləşdirmək, səbəb-naticə əlaqələrini müəyyən etmək və s.) inkişaf etdirilməsinə;

3) şagirdlərin təlim fəaliyyətini məqsədyönlü və məhsuldar etməyə;

4) riyazi təhsilin keyfiyyətini yüksəltməyə.

"**Riyazi model**" anlayışına da müxtəlif tərif vermək olar. Məktəb riyaziyyat kursunda "riyazi model" anlayışına ciddi riyazi tərif vermək vacib deyil. Ona görə aşağıdakı təriflərlə kifayətlənəcəyik: "riyazi model" öyrənilən hadisəni və ya prosesi simvolik təsvir edən riyazi münasibətlər sistemidir; "riyazi model" öyrənilən obyektin müəyyən sadələşdirilmə və ideallaşdırılma nəticəsində qurulmuş təqribi variantıdır.

Riyazi modelləri qurmaq vasitələri çox müxtəlifdir: tənliklər, qraflar, cədvəllər, riyazi məntiq münasibətləri, həndəsi konstruksiyalar və s.

İstənilən model kimi riyazi model də aşağıdakı əsas tələblərə cavab verməlidir:

**1)** Riyazi model orijinal obyektin mühüm xassələrini əks etdirməlidir;

**2)** Riyazi model orijinal obyekt haqqında yeni informasiya verməlidir;

**3)** Riyazi model müəyyən edilmiş dəqiqliklə orijinal obyekti əvəz etməlidir.

Riyazi modelləri onların modelləşdirdiyi obyektlərin xüsusiyyətlərinə görə iki növə ayırmaq olar:

**1)** Real obyekləri öyrənmək üçün qurulan riyazi modellər;

**2)** Mücərrəd obyektləri öyrənmək üçün qurulan riyazi modellər.

Riyazi modelləşdirmə prosesinin əsas mərhələləri aşağıdakılar hesab olunur:

**1)** Problemin yığcam şəkildə şərh olunması və ya poblemin qoyuluşu;

**2)** Verilən tədqiqat üçün öyrənilən obyekti müəyyən edən dəyişən kəmiyyətlərin seçilməsi;

**3)** Bu kəmiyyətlər və öyrənilən obyektin digər kəmiyyətləri arasındakı münasibətlərin aşkar edilməsi;

**4)** Öyrənilən obyektin xüsusiyyətlərinə uyğun elmi fərziyyənin irəli sürülməsi;

**5)** Mühüm xassələrin riyazi dildə şərh olunması və ya riyazi modelin qurulması;

**6)** Sınaq məqsədi ilə müşahidə və təcrübələrin aparılması;

**7)** Riyazi modelin qurulması zamanı irəli sürülmüş elmi fərziyyənin sınaqların nəticələri əsasında qiymətləndirilməsi;

**8)** Elmi fərziyyənin qəbulu, rədd edilməsi və ya elmi fərziyyədə düzəlişlərin edilməsi.

Orta məktəbdə şagirdlərin riyazi modellədirmə elementləri ilə tanışlığı mətnli məsələlərin həlli prosesində reallaşır.

Məsələ həlli zamanı obyektin (məsələnin) elementlərinə bölünərək xassələrinin öyrənilməsi üçün tədris modeli qurulmalıdır. Tədris modeli dedikdə quruluşu və funksiyaları ilə orijinalın bütün elementlərini və onların əlaqələrini özündə əks etdirən model başa düşülməlidir. Tədris

modeli nəzəri materialın mənimsənilməsi prosesində zəruri elementdir. Modelin müxtəlf xassələri orijinala nəzərən invariant olur. Bu halda şagird qurulmuş modellə işləməli olur. Belə öyrənmə model öyrənmə adlanır.

Şagid qoyulmuş məsələnin modelini qura bilməsə və ya ondan istifadə edə bilməsə, həmin məsələni həll edə bilməz. Deməli, orta məktəb riyaziyyatında mətnli məsələrin həlli üçün model öyrənmə bilikləri zəruridir. Bu fakt məqalənin probleminin aktuallığını bir daha şərtləndiri.

Mətnli məsələ müəyyən hadisənin, situasiyanın və ya prosesin söz modelidir.

Mətnli məsələnin həlli prosesində riyazi modelləşdimənin üç əsas mərhələsi fərqləndirilir:

**1) Məsələnin şərtinin riyazi dildə ifadə olunması.** Bu mərhələdə məsələnin həlli üçün lazım olan verilənlər və tapılması tələb olunan kəmiyyətlər seçilib ayrılır, verilənlərlə tapılması tələb olunan kəmiyyətlər arasındakı münasibətlər də riyazi dildə təsvir olunurlar;

**2) Model daxili həll mərhələsi**. Bu mərhələdə qurulmuş tənliklər (tənliklər sistemi, tənliklər və bərabərsizliklər sistemi və s.) həll olunur;

**3) Alınan nəticələrin qoyulmuş məsələnin tələbinə uyğun şəkildə ifadə olunması.** Bu mərhələlərin hər biri ilə konkret məsələlərin həlli posesində tanış olaq.

**Məsələ 1.** Zavodda üç növ ərinti vardır. Birinci ərintidə 30% A metalı və 70% B metalı, ikinci ərintidə 10% B metalı və 90% C metalı, üçüncü ərintidə isə, 15% A metalı, 25% B metalı və 60% C metalı vardır. Bu ərintiləri yenidən əridib, tərkibində 40% C metalı olan yeni ərinti aldılar. Yeni ərintidə B metalının faizlə miqdarının ən kiçik və ən böyük qiymətlərini tapın.

**Həlli.** Məsələnin şərtinin riyazi dildə ifadə olunması. Birinci ərintinin kütləsini x ilə, ikinci ərintinin kütləsini y ilə, üçüncü ərintinin kütləsini isə, z ilə işarə edək. Birinci ərintidə C metalının kütləsi 0, ikinci ərintidə C metalının kütləsi 0.9y, üçüncü ərintidə isə, C metalının kütləsi 0.6z olduğundan, məsələnin şərtinə görə, yeni ərintidə C metalının payı $\frac{0.9y+0.6z}{x+y+z}=0.4$ olar. Bu kəsri sadələşdirdikdən sonra $z=2x-2.5y$ alınar.

Yeni ərintidə B metalının payını f ilə işarə edək, onda

$f=\frac{0.7x+0.1y+0.25z}{x+y+z}$

tapılar. Bu kəsrdə z-in ifadəsini nəzərə alsaq,

$f=\frac{0.7x+0.1y+0.25(2x-2.5y)}{x+y+2x-2.5y}$

alınar. Bu kəsri sadələşdirdikdən sonra

$f=\frac{1}{20}\cdot\frac{16x-7y}{2x-y}$

alınar. Sonuncu kəsrin surət və məxrəcini y-ə bölüb, $u=\frac{x}{y}$ əvəz etsək, onda

$f(u)=\frac{1}{20}\cdot\frac{16u-7}{2u-1}$

alınar.

**Model daxili həll mərhələsi.** f(u) funksiyasının təyin oblastını tapaq. $z\geq 0$ olduğundan $2x-2.5y\geq 0$ $4u\geq 5$ və ya $u\geq\frac{5}{4}$ olmalıdır. Deməli, f(u) funksiyasının təyin oblastı $[\frac{5}{4};+\infty)$ aralığı olar. Tapılan aralıqda f(u) funksiyasının azalan olduğunu göstərək.

$f(u)=\frac{1}{20}(\frac{16u-8+1}{2u-1})=\frac{1}{20}(8+\frac{1}{2u-1})$ olduğundan f(u) funksiyası $[\frac{5}{4};+\infty)$ aralığında azalandır. Ona görə f(u) ən böyük qiymətini $u=\frac{5}{4}$ olduqda alar. $f(\frac{5}{4})=\frac{1}{20}(8+\frac{2}{3})=\frac{13}{30}$. Bu funksiya ən kiçik qiymətini $u\to\infty$ olduqda alar: $\lim_{u\to\infty}f(u)=\frac{1}{20}\cdot 8=\frac{2}{5}$.

**Alınan nəticələrin qoyulmuş məsələnin tələbinə uyğun şəkildə ifadə olunması.**

Alınan nəticələri faizlə ifadə etsək, $\frac{2}{5} \cdot 100\% = 40\%$ və $\frac{13}{30} \cdot 100\% = 43\frac{1}{3}\%$ alınar.

**Məsələ 2.** Müəyyən sayda tələbənin hər biri bərabər miqdarda pul toplayıb kompüter almağı planlaşdırdı. Son anda tələbələrdən ikisi pulunu geri aldı. Ona görə qalan tələbələrin hər əlavə 100 manat toplamalı oldu. Əgər kompüterin qiyməti 17000 manatdan çox və 19500 manatdan az olarsa, əvvəlcə neçə tələbənin pul topladığını və kompyuterin qiymətini tapın.

**Həlli.** Məsələnin şərtinin riyazi dildə ifadəsi. Fərz edək ki, tələbələrin sayı k və hər bir tələbənin verdiyi pulun miqdarı p manatdır. Onda məsələnin şərtinə görə kp=(p + 100)( $k-2$) olar.

Bu tənlikdən p=50k$-100$ tapılar. Onda məsələnin şərtinə görə 17000≤50(50k$-100) \leq 19500$ olmalıdır.

**Model daxili həll.** Sonuncu ikiqat bərabərsizliyi hər üç tərəfini 50-yə bölsək, 340$\leq k(\,k-2) \leq 390$ alarıq. Sonuncu bərabərsizlik aşağıdakı bərabərsizliklər sistemi ilə eyni güclüdür:

$k^2 - 2k - 340 \geq 0,$

$k^2 - 2k - 390 \leq 0.$

Bu sistemin natural həlləri k$\geq 1 + \sqrt{341} > 19$ və k$\leq 1 + \sqrt{391} = 1 + 19 = 20$ şərtlərini ödəməlidir. Ona görə k=20 olmalıdır.

**Alınan nəticələrin qoyulmuş məsələnin tələbinə uyğun şəkildə ifadə olunması.**

K=20 qiymətini p-nin ifadəsində nəzərə alsaq, p=900 alarıq. Deməli, hər tələbə 900 man. pul verib. Ona görə kompyuterin qiyməti 18000 manatdır.

Məsələni həndəsi model qurmaqla həll edərkən aşağıdakı şərtlərin ödənildiyi fərz olunur:

**1)** cismlərin hərəkətlərinin bərabərsürətli düzxətli olması;

**2)** sürətin müsbət qiymətli kəmiyyət olması;

**3)** cismin hərəkətinin bir halından digər halına keçdin bir anda baş verməsi.

Hərəkətdə olan cismin koordinatının zamandan asılı dəyişməsi bərabərsürətli düzxətli hərəkətin aşağıdakı düsturu ilə təsvir olunur: x(t) = vt $+v_0$ (burada x(t) ilə cismin t anındakı koordinatı, $v_0$ ilə cismin başlanğıc sürəti, v ilə cismin sürəti işarə olunub). Hərəkətə aid məsələnin həndəsi model qurmaqla həlli prosesini aşağıdakı üç mərhələyə ayırmaq olar: 1) riyazi (həndəsi) modelin qurulması; 2) qurulmuş modelin təhlili; 3) model üzrə iş və həll. Bu mərhələlərin hər biri ilə konkret məsələlərin həlli prosesində tanış olaq.

**Məsələ 3.** A şəhərindən B şəhərinə doğru yük maşını yola düşdü. 1 saat sonra onun ardınca, həmin yolla A şəhərindən B şəhərinə minik maşını yola düşdü və 2 saatdan sonra o yük maşınını ötdü və B şəhərinə yük maşınından 3 saat tez çatdı. Yük maşını A və B şəhərləri arasındakı yolu neçə saatda getdi?

**Həlli**. Riyazi modelin qurulması. Yük və minik maşınlarının hərəkət qrafiklərini xAt koordinat sistemində quraq (şəkil 1). Yük maşının hərəkət qrafiki AF düz xətti, minik maşının hərəkət qrafiki isə, CG düz xəttidir. Çünki minik maşını A şəhərindən 1 saat gec çıxıb, 2 saatdan sonra o, yük maşınını ötüb və B şəhərinə yük maşınından 3 saat tez çatıb.




(şəkil 1)

**Qurulmuş modelin təhlili.** Qrafikdəki A və C nöqtələri yük və minik maşınlarının hərəkətə başladığı anları işarə edir. O nöqtəsi yük və minik maşınlarının görüşdüyü anı, G nöqtəsi minik maşınının B şəhərinə çatdığı anı, F nöqtəsi isə, yük maşınının B şəhərinə çatdığı anı işarə edir. Məsələnin şərtinə görə AC=1 , CE=2, GF=3 olur. Qrafikdə BF || AE , DE və AE düz xətlərinin qaşılıqlı perpendikulyar olduğunu qeyd etmək lazımdır. Məsələni həll etmək üçün BF parçasının uzunluğunu tapmaq lazımdır.

**Model üzrə iş və məsələnin həlli.** $AOC$ və $GOF$ qarşılıqlı bucaqlar olduğuna görə bərabərdirlər. AE və BF düz xətlərinin paralel, AF düz xəttinin isə, onları kəsən olduğuna görə $<$ CAF və $<$ GFA daxili çarpaz bucaqlar kimi bərabər olurlar. Ona görə FOG və AOC üçbucaqları oxşar olurlar. $\Delta FOG \sim \Delta AOC$ olduğuna görə $\frac{GF}{AC} = \frac{DO}{OE}$ olur. Çünki, oxşar üçbucaqlarda uyğun tərəflərə çəkilən hündürlüklərin nisbəti həmin tərəflərin nisbətinə bərabər olur. Yəni $\frac{DO}{OE} = \frac{3}{1}$ olur. $\Delta FOD \sim \Delta AOE$ olmasından isə, $\frac{DF}{AE} = \frac{DO}{OE}$ olduğu alınar. Deməli, DF = 3$\cdot AE$ olur. AE = AC + CE =1 + 2 = 3 olduğundan DF = 9 olur. Onda BF = BD + DF =
=AE + DF= 3 + 9=12 olar.

**Cavab:** 12 saat.

**Məsələ 4.** Aralarındakı məsafə 12 km olan A qəsəbəsindən B qəsəbəsinə doğru eyni zamanda motosiklçi və velosipedçi yola düşdülər. Həmin anda B qəsəbəsindən A qəsəbəsinə doğru piyada yola düşdü. Motosiklçi piyada ilə görüşən anda velosipedçi motosiklçidən 4 km geridə idi. Velosipedçi piyada ilə görüşən anda motosiklçinin velosipedçidən neçə km irəlidə olduğunu tapın.

**Həlli.** Riyazi modelin qurulması. Hər üç şəxsin hərəkətinin qrafikini xAt koordinat sistemində quraq (şəkil 2). Motosiklçinin hərəkətinin qrafikini $x_m$ ilə, velosipedçinin hərəkətinin qrafikini $x_v$ ilə, piyadanın hərəkətinin qrafikini $x_p$ işarə edək. Motosiklçinin sürətinin nisbətən çox olduğu üçün $x_m$ ilə At oxu arasındakı bucaq $x_v$ ilə At arasıdakı bucaqdan çox olmalıdır (hər iki bucaq itidir). $x_p$ ilə At oxu arasındakı bucaq kor olmalıdır, çünki piyada əks istiqamətdə hərəkət edir.




(şəkil 2)

Qurulmuş modelin təhlili. Qrafikdəki A nöqtəsi motosiklçi və velosipedçinin hərəkətə başladığı anı, B nöqtəsi isə, piyadanın hərəkətə başladığı anı işarə edir. D nöqtəsi piyada ilə motosiklçinin görüşdüyü yeri, E nöqtəsi piyada ilə velosipedçinin görüşdüyü yeri, C nöqtəsi piyada ilə motosiklçinin görüşdüyü an velosipedçinin olduğu yeri, F nöqtəsi piyada ilə velosipedçinin görüşdüyü an motosiklçinin olduğu yeri işarə edir. Qrafikdəki AB, CD və EF düz xətləri bir-birinə paraleldir. Məsələnin şərtinə görə, AB=12, DC=4 olur. Qurmaya görə EF parçasının uzunluğu velosipedçi ilə piyadanın görüşdüyü anda motosiklçi ilə velosipedçi arasıdakı məsafəyə bərabərdir. Deməli, məsələni həll etmək üçün EF parçasının uzunluğunu tapmaq lazımdır.

Model üzrə iş və məsələnin həlli. AB || DC olduğundan $\Delta DEC \sim \Delta ABE$ olur. Bu üçbucaqların oxşarlığından $\frac{AB}{DC} = \frac{BE}{DE}$=3 olması alınar. Buradan isə, $\frac{BD}{DE}$ =2 olduğu alınar.

Digər tərəfdən EF|| AB və <ADB=<FDE olduğuna görə ΔADB~ΔDEF olur. Ona görə $\frac{FE}{AB} = \frac{DE}{BD}$ və ya $\frac{FE}{AB} = \frac{1}{2}$ olduğu alınar. Sonuncu tənasübdən 2·FE=12 və ya FE=6 olduğu alınar.

**Cavab**: 6 km.

**Nəticə.**

Beləliklə, işdə mətnli məsələlərin həlli prosesində riyazi modelləşdirmə elementlərinin tədrisi prosesi araşdırılır. Mətnli məsələlərin həlli prosesində riyazi modelləşdirmə elementlərinin öyrənilməsinin dəyərləri müəyyənləşdirilir, mətnli məsələlərin həlləri dəqiqləşdirilir və onların həlli nümunələri verilir.

## ƏDƏBİYYAT


1. Целищева И.И., Зайцева С.А. Моделирование при обучении решению текстовых задач. М.: Математика в школе, 2008 № 5, с.36−44.
2. Петров В.А. Задачи на проценты с газетной полосы. М.: Математика в школе, 2009 №6, С.13−19.
3. Петров В.А. Индивидуальные особенности задачи как основа рационального решения. М.: Математика в школе, 2010 №6, с.4−8.
4. Мендыгалиева А.К. Использование обучающих заданий в процессе решения арифметических задач. М.: Математика в школе, 2010 №5, с.25−28.
5. Вафеева А.М. Арифметические задачи для формирования познавательного интереса учащихся. М.: Математика в школе, 2011 №3, с.56−62.

6. Мирошниченко М.С. Практическое применение математики при изучении явлений окружающего мира. М.: Математика в школе, 2011, №10, с.45–48.

7. Музенитов Ш.А. Задачи с экономическим содержанием на уроке математики. М.: Математика в школе, 2012 №10, с.49–53.

8. Беляков Е.А. Жизнь у нас такая: считать нужно уметь. М.: Математика в школе, 2012, № 3, с.27–29.

9. Перевощикова Е. Н., Трояновская Н.И. Задачи на формирование действий контроля и оценки у учащихся 5–6 классов. М.: Математика в школе, 2012, №6, с. 30–36.

10. Бикеева А. С. Какие задачи хотелось бы решать в школе. М.: Математика в школе, 2013, №1, с. 3–7.

11. Мусатов В.В., Сердюкова В.В. Задачи по математике как способ решения экономических проблем. М.: Математика в школе, 2013, №6, с.74–77.

12. Федин С. Н. Выход–задачи с практическим входом? М.: Математика в школе, 2014, №10, с.9–12.

13. Рыжик В.И. Задача в задаче. М.: Математика в школе, 2015, № 2, с.12–25.

14. Маланичева Т. А. О решении задач на работу. М.: Математика в школе, 2015, № 5, с. 41–44.

15. Маланичева Т.А. Снова о разных способах решения арифметической задачи. М.: Математика в школе, 2015, №1, с.36–38.

16. Прокофьев А.А., Корянов А.Г. Задачи с социально–экономическим содержанием на ЕГЭ по математике (I часть). М.: Математика в школе, 2015, №3, с.9–18.

17. Прокофьев А.А., Корянов А.Г. Задачи с социально–экономическим содержанием на ЕГЭ по математике (II часть). М.: Математика в школе, 2015, №4, с.11–21.

## MƏTNLİ MƏSƏLƏLƏRİN HƏLLİ PROSESİNDƏ RİYAZİ MODELLƏŞDİRMƏ ELEMENTLƏRİNİN ÖYRƏDİLMƏSİ METODİKASI

***Tahirov Bahadur, Abdullayeva Qönçə***

### XÜLASƏ

Məqalədə məktəb riyaziyyat kursunda riyazi modelləşdirmə elementlərinin öyrənilməsi prosesi tədqiq olunmuşdur və aşağıdakı nəticələr alınmışdır: 1) mətnli məsələlərin həlli prosesində riyazi modelləşdirmə elementlərinin öyrədilməsinin əhəmiyyəti müəyyən edilmişdir; 2) mətnli məsələlərin həllində riyazi modelləşdirmə prosesinin mərhələləri dəqiqləşdirilmişdir; 3) hərəkətə aid məsələlərin həllində həndəsi modelləşdimə prosesinin mərhələləri dəqiqləşdirilmişdir; 4) konkret məsələlərin mərhələlər üzrə həlli nümunələri verilmişdir.

## МЕТОДИКА ОБУЧЕНИЯ ЭЛЕМЕНТАМ МАТЕМАТИЧЕСКОГО МОДЕЛИРОВАНИЯ В ПРОЦЕССЕ РЕШЕНИЯ ТЕКСТОВЫХ ЗАДАЧ

***Тахиров Бахадур, Абдуллаева Гонча***

### АННОТАЦИЯ

В статье исследуется процесс изучения элементов математического моделирования в школьном курсе математики и получены следующие результаты: 1) определена важность

обучения элементам математического моделирования в процессе решения текстовых задач; 2) указаны этапы процесса математического моделирования при решении текстовых задач; 3) указаны этапы процесса геометрического моделирования при решении задач, связанных с движением; 4) Приведены примеры поэтапного решения конкретных вопросов.

## METHODOLOGY OF LEARNING THE ELEMENTS OF MATHEMATICAL MODELING IN THE PROCESS OF SOLVING TEXT PROBLEMS

***Tahirov Bahadur, Abdullayeva Goncha***

**SUMMARY**

The article examines the process of studying the elements of mathematical modeling in the school mathematics course and the following results are obtained: 1) the importance of teaching the elements of mathematical modeling in the process of solving textual problems is determined; 2) the stages of the process of mathematical modeling in the solution of textual problems are specified; 3) the stages of the geometric modeling process in solving the problems related to the movement have been specified; 4) Examples of solving specific issues in stages are given.

# VƏTƏNPƏRVƏR GƏNCLƏR ÖLKƏMİZİN PARLAQ GƏLƏCƏYİNİN TƏMİNATÇISIDIR

***Həsənova Aytac Nəzər qızı***
***BDU-nun II kurs magistrantı,***
***aytachasanzadah@gmail.com***

***Açar sözlər:*** milli şüurun formalaşması, vətənpərvərlik hissləri, mübarizə əzmi, vətənə sadiqlik prinsipləri
***Ключавые слова:*** национальное сознание, бороться за родину, любовь к родине
***Key words:*** love of country, feelings of patriotism, fight for the homeland.

Ölkəmizdə gənclərimizin vətənpərvərlik ruhunda yetişdirilməsinin böyük əhəmiyyəti var. Ümumiyyətlə, hər bir ölkənin əsas dayağı onun milli ruhda, milli ləyaqətdə yetişdirilən, istər canı- qanıyla, istərsə də fəaliyyət sahəsində vətənini təmsil etməsiylə qoruyan vətəndaşlarıdır. Vətənpərvərlik hissinin hər bir vətəndaşın daxilində yetişməsi, milli ruhun, milli dəyərlərin, adət-ənənələrimizin, bütövlükdə isə böyük bir xalqın varlığını təmin edən ən vacib amillərdəndir.

Xalqımızın tarixinə nəzər saldıqda görə bilirik ki, türk xalqları hər zaman milli vətənpərvərlik ruhunda olan xalqlardan olub. Milli ləyaqət hissləri, qadına, anaya, vətənə qarşı münasibət hər zaman çox dəyərli müstəvidə yer alıb. Vətənpərvərlik hissinin təməlində təkcə vətəni sevmək yatmır. 44 günlük zəfər yolumuz qəhrəman igidlərimizin sayəsində bizə sübut etdi ki, vətəni sevmək, vətənpərvər olmaq onun hər bir addım torpağı uğrunda candan keçməyi əsirgəməməkdir. Vətəndaş olmaq, lazım gəldiyində vətənin bir parça torpağına, daşına çevrilməkdir. Xalqın və dövlətçiliyin təşəkkülündə vətənpərvərlik hissləri ümummilli məqamları özündə ehtiva edən böyük bir ictimai düşüncənin bir hissəsinə çevrilir.

Qeyd etməliyik tarixin ən çətin sınaqlarından şərəflə çıxmağı bacaran Azərbaycan xalqının var oluşunun təməlindəki ən böyük amil dövlətin hər bir fərdinin qəlbindəki sonsuz vətən sevgisidir. Ruhu, canı, bütün qəlbi ilə torpaqlarına bağlı olan əcdadlarımız vətən uğrunda hər zaman canlarından keçməyə hazır olublar, şəhidlik zirvəsini fəth ediblər. Bu zirvə əbədi yaşamı qazanmaqdır. Öz ölümü ilə xalqına şərəfli bir ömür nəsib etməkdir. Tarixin səhifələrini vərəqlədikcə, burada igidlərimizin keçdiyi qəhrəmanlıq yoluna rastlayarıq. Xüsusən, Azərbaycanın tarixən əlverişli coğrafi mövqedə yerləşməsi, yeraltı və yerüstü sərvətləri ilə daim yadellilərin işğalçı planlarının bir hissəsi olmuşdur.Buna görə də vətənin igidləri daim öz torpaqlarını qorumaq əzmində olublar. Təkcə canlarını fəda etməklə deyil, çalışdıqları sahədə millətinə ləyaqətlə xidmət göstərməklə vətənə məhəbbətini təkcə sözdə deyil əməlində, fəaliyyətində göstərir.

Yəni vətənpərvərlik hissi özü insanın daxili aləmindən gələn milli şüurun sözdə və əməldə bir-birini təsdiqləməsidir. Hazırda bütün dünyada qloballaşma və beynəlxalq aləmə inteqrasiya məsələləri milli şüur və kimlik amillərini gündəmə gətirir. Kiçik xalqların, millətlərin bu axında dayanıqlılıq göstərməsi üçün milli mənlik şüurunun inkişafı mühüm əhəmiyyət kəsb edir. Milli kimlik şüurunun formalaşması bütöv bir xalqın amalı kimi anlaşılır və vətəndaşların şəxsi özünüidentifikasiyası kimi nəzərdə tutulur. Azərbaycançılıq ideyası ölkəmizdə bu sadaladıqlarımın bariz təzahürüdür.Ölkəmizin inkişaf strategiyasının əsasında məhz vətəndaşlarda, xüsusilə, gənclərə milli şüurun aşılanması məqsədilə siyasət yürüdülür. Bu siyasətin əsas mahiyyəti milli mənəvi dəyərlərin qorunması, milli dövlətçilik ideyalarının gələcək nəsillərə ötürülməsi, vətənimizi bütün dünyada tanıdaraq inkişaf etdirmək, həm də

xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsindən ibarətdir. Bir dövləti məhv etmək istəyirsənsə onun dilini və mədəniyyətini məhv et deyirlər.

Ölkəmizdə milli mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsi istiqamətində işlər görülür ki, məhv edilmək təhlükəsi ilə üz-üzə qalan dəyərlərimiz bərpa edilir. Azərbaycan çoxmillətli və kiçik etnik qrupların çox olduğu ölkədir. Hər bir xalqın milli etnik dəyərlərinə hörmətlə yanaşmaq bu dövlətin siyasətinin başlıca əsasını təşkil edir. Məhz bu səbəbdən əsrlərdən bəri bu torpaqlarda kök salan hər bir xalq bu ölkədə yadlıq və ya hansısa təzyiq görmədiyindən, bu torpaqlar uğrunda canından belə keçməyi əsirgəmir. Xalqımızın birlik, bir olma, yumruq olma qabiliyyətini biz tariximizin qızıl səhifələrini təşkil edən 44 günlük müharibə dövründə gördük. Dinindən, etnik fərqliliklərindən asılı olmayaraq hər bir kəs Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarının müdafiəsinə qalxdı. Heç bir qüvvə bu milləti təşkil edən ayrı-ayrı qruplar arasında nifaq yarada bilmədi. Çünki, əqidə və amal bir idi: Torpaqlarımızı yağı düşməndən azad etmək!

Məhz bu uğurlu siyasi strategiyanın nəticəsi olaraq kiçikliyinə baxmayaraq bu gün ölkəmiz dünya ölkələri arasında özünəməxsus yeri ilə seçilir, milli kimliyi ilə tanınır. Milli şüur xalqa, millətə aid maraqların hər bir vətəndaşın qəlbində cəmlənməsidir.Başqa sözlə, hər bir insanın şəxsi maraqları milli maraqlarla əvəz olunur. Burada milli mənlik, vicdan, milli ləyaqət kimi bir sıra şəxsi insani keyfiyyətlər də mühüm əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən hər bir ailədə yetişən fərdlərin bu hisslərlə böyüdülməsi son nəticədə onlarda vətənpərvərlik hisslərinin yaranmasına gətirib çıxarır. Sırf bu ruhun gənclərə aşılanması öna görə əhəmiyyətlidir ki, vicdan hissi olan hər bir gənc onu böyüdüb boya -başa çatdıran torpağın qədrini bilir, ləyaqət hissi olan hər bir gənc özünə aid bir parça vətən daşını, kəsəyini yad ayaqlar altında görməyi ar bilir və beləcə torpağını yadlardan qoruma kimi böyük, ilahi duyğular formalaşır ( 2, səh.76).

Gənclərimizin milli vətənpərvərlik ruhunda yetişməsində, milli şüurun əks olunmasında başlıca amil xalqımızın tarixidir, bu torpağa sədaqətlə xidmət göstərən dahi şəxsiyyətləri, bu ölkənin adını bütün dünyada tanıdan mütəfəkkirləri, yaradıcı insanları və digər amillərdir. Həmçinin, burada milli atributlarımız da mühüm əhəmiyyət kəsb edir. Sadə bir nümunə ilə fikrimi aydınlaşdırmaq istərdim, məktəbdə azyaşlı şagirdlər öz milli atributlarımızın simvolik mənalarını böyük həvəs və şövqlə izah edirlər. Bu elə bir keyfiyyətdir ki, yaşından və sosial həyatdakı statusdan asılı deyil. Məhz milli mənlik şüurunun dərk edilməsi sayəsində millət xalq, həmçinin, etnik qruplar öz tarixi inkişafının mərhələli xüsusiyyətlərini, etnik- sosial xüsusiyyətləri bütün dolğunluq çərçivəsində dərk edə bilirlər. Gənclərin milli vətənpərvər ruhda böyüdülməsi məsələsi çox böyük əhəmiyyət kəsb edən mövzulardandır. Bir fakt danılmazdır ki, mənəviyyat bütün duyğuları formalaşdıran əsas amildir. Bu mənada, mənəviyyat bütün duyğuların təməlini təşkil edir. Mənəviyyat hissi digər duyğuları formalaşdırır və mənəviyyatı zəif bir insanın heç bir vətənpərvərliyindən, milli mənəvi şüurundan söhbət gedə bilməz (5,səh.12).

Bu fikri öz sözləriylə daha da böyük anlamda izah edən Ulu öndər Heydər Əliyev deyirdi ki, "Vətənpərvərlik böyük duyğudur. Hər bir kəs vətənpərvər olmalıdır və vətənpərvərlik təkcə orduda xidmət etməklə yekunlaşmır. Vətənə, torpağa sadiq olmaq, Vətəni sevməq, qorumaq, torpağa bağlı olmaq. Budur əsl vətənpərəvərlik". Gənclərimiz məhz Ulu öndər kimi bir şəxsiyyətin idarə etdiyi bir cəmiyyətdə inkişaf edərək onun strategiyası əsnasında formalaşan vətənpərvərlik duyğularına yiyələnərək özlərinin vətənpərvərliklərinə nail ola biliblər. Əlbəttə ki, insanların mənəvi dəyərləri, möhkəm iradəsi onları birçox məqamlarda yalnışlardan uzaq tutur. Amma istənilən halda əgər söhbət milli-mənəvi dəyərlərin qorunmasından gedirsə, bu zaman dövlət bu işi təkcə fərdlərin ixtiyarına buraxmır. Əksinə, bu işdə ən əsas yükü üstlənərək geniş siyasət aparır (3, səh. 55).

Amma bu kifayət deyil. Eyni zamanda bu duyğuların kənara aşılanması, balacalara bir miras kimi ötürülməsi vacib şərtdir. Bu günki, gəncliyimiz yaxşı bilir ki, xalqımız hələ ta qədimdən döyüş meydanlarında bərkiyib, igidlikləriylə ad qazanıb. Bu bir daha özünü 44 günlük Vətən müharibəsində ən bariz şəkildə göstərdi. Yenə də bu dövlətin, xalqın hər bir nümayəndəsi vətəninin dar günündə onun yanında olduğunu, torpaqlarını azad etmək üçün canlarını fəda etməyi əsirgəmədilər.

Hazırkı dövlətçilik ənənələrimizə baxaraq deyə bilərik ki, ölkə hakimiyyəti apardığı siyasi kurs və milli iqtisadi yüksəlişi ilə hələ də minlərlə vətəndaşını vətənpərvər ruhda böyütməyə davam edəcək.Müstəqilliyimizi bərpa edib tarixi torpaqlarımıza minlərlə igid vətən övladının qanı, canı bahasına nail olduqdan sonra bu qüdrəti əldə saxlayıb gələcək nəsillərə şanlı tarix ötürmək üçün əlindən gələni əsirgəməyəcəkdir.

## ƏDƏBİYYAT

1.Ağayev Ə., Heydər Əliyev irsində vətəndaşlıq tərbiyəsi məsələləri // Azərbaycan məktəbi, 2005, №3

2.Əliyev P., Gənclərin milli mənəvi dəyərlər əsnasında tərbiyəsi, Bakı, Təhsil, 2006.

3. Əmirəli R., Milli-mənəvi dəyərlərimizin qorunması əsas konseptual problem kimi// Mədəni maarif, 2010,№3, 55-57 s.

4. İlyasov M.,Yuxarı sinif şagirdlərinin vətənsaşlıq tərbiyəsi, Bakı, 2003.

5. Miriyev A.,Ailə, təhsil və milli mənəvi-əxlaqi dəyərlər: Bütün dünyəvi və milli mənəvi-əxlaqi keyfiyyətləri öyrədən və təbliğ edən tərbiyə üslubu formalaşdırılmalıdır/Palitra/2009, 28 oktyabr, səh.12.

6. Talıbov Y., Uşaqlarımızın səadəti naminə, Bakı, Maarif,1988.

## VƏTƏNPƏRVƏR GƏNCLƏR ÖLKƏMİZİN PARLAQ GƏLƏCƏYİNİN TƏMİNATÇISIDIR

*Aytac Nəzər*

## XÜLASƏ

Məqalədə cəmiyyətdə milli şüur dəyərlərinin formalaşması haqqında ətraflı məlumat verilmişdir. Gənclərdə vətənpərvərlik hisslərinin aşılanması yönündə ailə, cəmiyyət və dövlət faktorlarının böyük əhəmiyyət kəsb etməsi vurğulanmışdır. Əxlaqi dəyərlərin milli mənəvi dəyərlərlə vəhdətdə təşkili gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsinin başlıca amillərindəndir. Bir də mənəviyyat məsələləri vardır ki, mənəviyyat bütün daxili duyğuların əsasını təşkil edir . Bu məqalədə də mənəviyyatın vətənpərvərlik və digər əqidə keyfiyyətləri ilə qarşılıqlı əlaqəsi göstərilmişdir.

## ОТЕЧЕСТВЕННАЯ МОЛОДЕЖЬ - ГАРАНТИЯ ЯРКОГО БУДУЩЕГО НАШЕЙ СТРАНЫ

*Гасанова Айтадж*

## АННОТАЦИЯ

В статье представлена подробная информация о формировании ценностей национального самосознания в обществе. Было подчеркнуто, что факторы семьи,

общества и государства играют важную роль в воспитании патриотизма у молодожи. Организация нравственных ценностей в единстве с национальными моральными ценностями - один из главных факторов воспитания молодежи в духе патриотизма. Духовная чистота – основа всех внутренних чувств.

## PATRIOTIC YOUTH IS A GUARANTEE OF OUR COUNTRY'S BRIGHT FUTURE

***Hasanova Aytac***

**SUMMARY**

The article provides detalied information of national consciousness values in society. It was stressed that family, society and state factors play an important role in instilling patriotism in young people. Organization of moral values in unity with national moral values is one of the main factors in educating young people in the spirit of patriotism. Spiritual purity is the basis of all inner feelings.

# POLİTOLOGİYA VƏ İDARƏETMƏ

## AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİNİN QƏLƏBƏSİ. SOVET DÖVRÜNDƏ AZƏRBAYCANDA SİYASİ PROSESLƏR

***İsmayıl Eyyubov***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının dosenti***

***Açar sözlər:*** Sovet hakimiyyəti, ictimai-siyasi görüşlər, Azərbaycanda repressiya dövrü, Azərbaycanda müstəqillik.
***Ключевые слова:*** Советская власть, общественно-политические взгляды, репрессивный период в Азербайджане, независимость Азербайджана.
***Key words:*** Soviet power, socio-political views, repressive period in Azerbaijan, independence of Azerbaijan.

1920-ci il aprel ayının 27-dən 28-nə keçən gecə Müstəqil Azərbaycan Cümhuriyyəti devrildi. 28 apreldə Azərbaycanda Sovet hakimiyyəti qalib gəldi. Azərbaycanda müvəqqəti inqilab komitəsi (AMİK) yaradıldı (Azərbaycan Mərkəzi İcra Komitəsi). AMİK-in heyətinə Nəriman Nərimanov (sədr), Dadaş Bünyadzadə, M.Hüseynov, Qəzənfər Musabəyov, Həmid Sultanov, A.Əlimov, Əliheydər Qarayev və başqaları daxil oldular. Onlar 1921-ci il mayın 19-a kimi fəaliyyət göstərdilər. AMİK hətta Qəzalarda "İnqilab komitələri" yaratmaq haqqında qərarlar qəbul etdilər.

AMİK-in 1920-ci il 28 aprel tarixli dekreti ilə "Azərbaycan SSR Xalq Komisarlar Soveti" yaradıldı. Bu Sovet qarşısına istismarçı siniflərin müqavimətini qırmaq və sosialist dövlət aparatı yaratmaq kimi bir vəzifə qoydu.

1920-ci il aprelin 28-də Azərbaycan əhalisinə müraciət qəbul olundu. Müraciətdə yazılmışdır: "Ölkədə bütün hakimiyyət zəhmətkeş siniflərin ixtiyarına verilmişdir. Azərbaycan fəhlələri və kəndliləri üçün yeni işıqlı dövr, sosializm dövrü başlanır".

Eyni zamanda bu vaxt Azərbaycan fövqaladə komissiyası, inqilabi tirbunal, fəhlə-kəndli Qızıl Ordu, fəhlə-kəndli müdafiə şurası təsis olundu. Yeni Sovet dövləti aparatı yaradıldı.

Azərbaycanda xüsusi mülkiyyət ləğv edildi. Milliləşdirmə işləri başlandı. Torpaq, meşə, su, yeraltı sərvətlər, neft sənayesi, Xəzər ticarət donanması, banklar, balıq sənayesi, dəmir, mis mədənləri, pambıq təmizləyən zavodlar, meşə təsərrüfatı, ümumiyyətlə bütün sahələr Sovet rəhbərliyinin əlinə keçdi.

1920-ci il 24 sentyabr dekreti ilə "İşləməyən dişləməz" prinsipinin həyata keçirilməsi nəzərə alındı. İstismarçı ünsürlərin məcburi əməyə cəlb olunması tövsiyə olundu.

Azərbaycanda yeni qəzetlər, məktəblər, İnstitutlar, texnikumlar, texniki peşə məktəbləri yaradılmağa başlandı. 1920-ci il noyabr ayında Politexnik İnstitutun 1930-cu ildə Azərbaycan Neft Kimya, 1937-ci ildə Pedaqoji İnstitutu yaradıldı. Ümumiyyətlə Azərbaycanda 17 İnstitut, 80-ə yaxın texnikum fəaliyyətə başladı. 1923-cü ildə Dövlət Kitabxanası təşkil olundu. Həmin ildə işçi teatrı yaradıldı.

Elmi tədqiqat işləri aparmaq üçün 1923-cü ildə Əbdürrəhimbəy Haqverdiyevin sədrliyi ilə "Azərbyacan Tədqiq və Təməvvo Cəmiyyəti" yaradılmışdı. 1929-cu ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu təşkil olundu. 1932-ci ildə bunun əsasında Azərbaycan Şöbəsi yaradılmış, rəhbəri Ruhullah Axundov təyin olunmuşdur. 1945-ci il 23 yanvar tarixli qərar ilə SSRİ EA-nın filialı Azərbaycan SSR EA-a çevrilmişdir.

Getdikcə Azərbaycanda yeni-yeni sənaye ocaqları, fabrik və zavodlar yaradılmışdır. 1922-ci ildə Azərbaycan SSR prokrorluğunun əsası qoyulmuşdur. 1930-cu illərdən başlayaraq, Azərbaycanda kolxozların, sonrakı illərdə sovxozların sayı artmışdır. Bütün kənd təsərrüfatı işləri onlara həvalə olunmuşdur.

1941-1945-ci illərdə 3.4 milyon olan Azərbaycan əhalisindən 600 mindən çoxu Böyük Vətən müharibəsinə göndərilmişdir. Müharibəyə gedənlərin yarıdan çoxu həlak olmuşdur. Müharibə dövründə Azərbaycan cəbhəyə 75 milyon ton neft və neft məhsulları göndərmişdir.

Azərbaycandan müharibəyə gedənlərdən 77 nəfər Sovet İttifaqı Qəhrəmanı adını qazanmışıdır. Bunları içərisində müxtəlif millətlərin nümayəndələri də vardı. Həzi Aslanov isə 2 dəfə Sovet İttifaqı Qəhrəmanı adını qazanmışdır. Sonrakı illərdə Azərbaycan dinc quruculuq işlərinə başlamış, Sovet Azərbaycanı kimi özünü tanıtmışdır. Bu dövrdə Azərbaycanda 70-ə yaxın millətin nümayəndəsi çiyin-çiyinə çalışmışdır.

Lakin, bütün bunlara baxmayaraq, dövlətə qarşı Azərbaycanda siyasi proseslər də sürətlə cərayan etmişdir. Bu proseslərin qarşısını almaq üçün 1936-1940-cı illərdə (əsas qüvvəsi 1937-ci ilə düşmüşdür) guya hökümət əleyhinə qalxmış yüzlərlə ziyalılar, fəhlələr, kolxozçular, sənətkarlar Azərbaycandan sürgün edilmiş, güllələnmişdir. Bəzən bu insanların içərisində günahsızlar da çox olmuşdur. Lakin, günahı sübuta yetirilmədən, soğrusuz qətilə yeterilmişdilər.

Sovet hökümətinin rəhbər nümayəndələri Repressiya vasitəsilə özləri üçün bəzi nailiyyətlər əldə etmişdilər. Bu nailiyyətlərdə:

1. İlk növbədə Repressiya bir Xalqın gen dəyişikliyinə olduqca ciddi təsir göstərə bilir;
2. Cəmiyyətin sağlam qüvvələrinin "düşünən beynini korlamaqla xalqın siyasi, mədəni, elitar dünyagörüşünü zəiflədir";
3. Bu prosesdə siyasi, mədəni səviyyəcə geri qalmış xalqları müstəmləkə təsiri altında saxlamağın yeganə yollarından biri kimi iftifadə olunur;
4. Xalq arasında qorxu hissi özünü göstərir;
5. Xalqın dövlətə qarşı inamı itir.

Sovet dövləti 1930-1940-cı illərdə Repressiya vasitəsi ilə bütün Sovet respublikalarında ciddi "təmizləmə işi" aparmışdır. Bu təmizləmədə ümumiyyətlə savad cəhətdən bir qədər geridə qalmış Azərbaycan Respublikasının əhalisi çox ziyan çəkmişdir. Sovet rəhbər işçiləri o dövrdə qabaqcıl insanlara qarşı müxtəlif böhtanlar ataraq onları aradan götürmüşdülər. Belə tarixi şəxsiyyətlər içərisində Atabala Muxtarlı da olmuşdur. O, "Kitabi-Dədə Qorqudun" ilk tədqiqatçısı olmuşdur. 1934-cü ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. 1937-ci ildə Sibirə sürgün olunmuşdur.

Hənəfi Baba oğlu Zeynallı Azərbaycan Xalq Ədəbiyyatının ilk tədqiqatçılarından biri olmuşdur. 1937-ci ildə əksinqilabçı qrupa qoşulduğuna görə, Azərbaycan SSR C.M (Cinayət Məcəlləsinin) 72 – 73-cü maddələri ilə günahlandırılmış, 1937-ci il 13 oktyabrda güllələnmişdir.

Bəkir Vahab oğlu Çobanzadə - fransız, fars, türk, rus dillərini bilən görkəmli dilşünas alim olmuşdur. O, əksinqilabçı fəaliyyətdə ittiham edilərək, 1937-ci ildə güllələnmişdir.

İbrahim Abdulla oğlu Eminbəyli – Dövlət mətbuat işi sahəsində çalışmışdır. Lakin 1937-ci ildə əksinqilabçı, gizli müsavatçı kimi həbs olunmuş, həmin ilin oktyabrında Bakıda güllələnmişdir.

Abdulla Məmməd oğlu Tağızadə - müasir Azərbaycan dilçiliyinin hörkəmli alimi olmuşdur. Lakin onu əksinqilabçı təşkilatın üzvi hesab etmişdilər. Azərbaycan Cinayət Məcəlləsinin (C.M.) 64, 69, 70, 72, 73-cü maddələri ilə günahlandıraraq, 1938-ci il yanvar ayında güllələmişdilər.

1938-ci ildə güllələnənlər içərisində İsmayılzadə Mikayıl Əbdülqədir oğlu – şair Mikayıl Müşviq də olmuşdur. Şeirlərində Sovet hakimiyyətinə qarşı çıxdığına görə, 1938-ci il yanvar ayında güllələnmişdir. (Oxu tar, oxu tar, səni kim unudar).

1956-1957-ci illərdə bu yuxarıda adları çəkilən və çəkilməyən yüzlərlə şəxsiyyətin ailə üzvlərinin şikayətləri nəticəsində SSRİ Ali Məhkəməsinin hərbi Kollegiyasının qərarına görə bir sıra cinayətə məhkum olunmuş şəxslərə, cinayət tərkibli olmadıqları haqqında onlar xətm olunmuşlar. Belə cinayətsiz, günahsız insanlar Azərbaycan Respublikasında yüzlərlə olmuşdur.

Günahsız insanlar içərisində yazıçı, dramaturq Hüseyn Cavid (1882-1941) – Hüseyn Abdulla oğlu Rəsizadə də olmuşdur. O, Naxçıvanda ruhani ailəsində anadan olmuş, mollaxanada təhsil almış, yaradıcılığa şeirlər başlamışdır. "Gülçin", "Salik" imzaları ilə məqalələr yazmışdır. Hüseyn Cavid Gəncədə, Tiflisdə, Bakıda müəllimlik etmişdir. "Şeyx Sənan", "Şeyda", "İblis", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Kor Peyğəmbər" kimi fəlsəfi və tarixi əsərlərini yazmışdır. Onun fəlsəfi, ictimai-siyasi görüşləri "ümumi məhəbbət" ideyalarından sosialist humanizmə qədər bir inkişaf yolu keçmişdir. Lakin 1937-ci ildə günahlandırılaraq Sibirə sürgün edilmiş, 1941-ci ildə orada ölmüşdür.

Heydər Nəcəf oğlu Hüseynov (1908 – 1950) – Yerevanda anadan olmuşdur. O Sovet filosofu olmuşdur. Azərbaycan Elmlər Akademiyasının prezidenti vəzifəsinə kimi yüksəlmişdir. 1944-cü ildə Azərbaycan EA Akademiki seçilmişdir. 1945-ci ildə SSRİ Dövlət Mükafatına layiq görülmüşdür. BDU-nun rektoru olmuşdur. Azərbaycan KPMK yanında Partiya Tarixi İnstitutunun direktoru olmuşdur. BDU-nun fəlsəfə kafedrasının müdiri və s. vəzifələrdə işləmişdir. Kəskin yaradıcılığı dövründə tarixi şəxsiyyətlər olan Bəhmənyar, Nizami, Fizuli, Zərdabi kimi şəxsiyyətlər haqqında monoqrafiyalar yazmışdır. O, Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir. Lakin günahlandırılaraq ev dustağı olmuşdur. Axırda "cana" gələn filosof qəzəblənərək, 1950-ci ildə öz evində kəndirlə özünü asmışdır.

Sovet dövründə insanları "əksinqilabçı", "trotskici", "cəsus", "millətçi", "üsyançı" kimi müxtəlif ittihamlarla kütləvi şəkildə öldürülməsi Stalin, Beriya və onların ətrafındakıların bütün SSRİ-də həyata keçirilən dəhşətli bir siyasəti olmuşdur. SSRi-də müxtəlif günahlar üzrə 1935-1950-ci illər arasında 1575259 (bir milyon beş yüz yetmiş beş min iki yüz əlli doqquz) nəfər adam həbs olunmuşdur. Bunlardan 173382 nəfəri guya əksinqilabçı iş apardıqlarına görə ağır cəzaya məhkum edilmiş, 681692 nəfər isə güllələnmişdir.

Tarixi məlumatlara və arxiv sənədlərinə söykənərək qeyd olunur ki, 1934-1937-ci illərdə "Antisovet" fəaliyyətinə görə Azərbaycanın bütün şəhər və rayonlarından 27458 (iyirmi yeddi min dörd yüz əlli səkkiz) nəfər adam cəzalandırılmışdır. Respublikanın yazıçı və şairləri, alimləri, əməksevər adamları, fəhlə və kolxozçuları cəzalandırılmış, güllələnmiş, sürgün olunmuşdular. Təkcə onu qeyd edək ki, bu illərdə Bakı Dövlət Universitetinin 60 nəfər professor – müəllimi, elmi işçi, 20 tələbə siyasi təzyiqlərə məruz qalmışdılar. Onların içərisində BDU-nun rektoru olmuş Tağı Şahbazi, B.Həsənbəyov güllələnmiş, professor – müəllimlərdən M.Ə.Ələkbərov, B.Ç.Həsənov, B.Çobanzadə, E.Qubadulin, B.Tuxomirov, M.Məmmədov və başqaları SSRİ Cinayət Məcəlləsinin müxtəlif maddələrinə əsasən bəziləri sürgün olunmuş, bəziləri isə güllələnmişdir.

Sovet hakimiyyəti dövründə Azərbaycanlılara qarşı həmişə təziqlər olmuşdur. Bu təziqlər müxtəlif formalarda həyata keçirilmişdir. 1948-1953-cü illərdə Azərbaycanlılar Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya olunmuşlar. Buna şərait yaradan SSRİ Nazirlə Soveti 1947-ci il dekabr tarixli 1083 nömrəli və 1948-ci il mart tarixli 754 nömrəli qərarları ilə Azərbaycanlılara qarşı çıxmışlar. Həmin qərarlara əsasən 150 min nəfərdən çox Azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə - baba yurdlarından kütləvi surətdə zorakılıqla sürgün olunmuşlar – yəni deportasiya edilmişlər. Minlərlə insan, o cümlədən, qocalar, körpələr ağır köçürülmə şəraitində kəskin iqlim şəraitinə, fiziki sarsıntılara, mənəvi genosidə dözməyərək yollarda həlak olmuşlar.

Əlbəttə bununla bağlı Azərbaycan qabaqcıl ziyalıları içərisində dövlətin həmin mənfi qərarına və həyata keçirdiyi siyasətə qarşı çıxanlar da az olmamışdır. 1936-cı ildə SSRİ Konstitutsiyası, 1937-ci ildə isə Azərbaycan Respublikasının Konstitutsiyası qəbul olunmuşdur. Hər iki Konstitutsiyada insanların toxunulmazlığı fikri öz əksini tapmışdır. 1940-cı illərdə ali məktəblərdə bir sıra fənnlər üzrə dərsin Azərbaycan dilində keçirilməsini arzulayanların sayı artmışdır.

1941-ci ilin əvvəllərində Sovet quruluşuna, Kommunist Partiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizə aparmaq, müstəqil dövlət yaratmaq məqsədi ilə vətənpərvər qüvvələr birləşərək tələbə Süleyman İskəndərovun rəhbərliyi ilə antisovet fəaliyyətə başlamışdılar. Onlar rus şovinizmə qarşı gizli "İldırım" təşkilatı yaratmışdılar. Lakin bu təşkilatın üzvü olan bir neçə tələbə həbs olunmuşdur.

1957-cildə Azərbaycanda yeni "Azadlıq Təşkilatı" adlı gizli təşkilat yaradılmışdır. Həmin təşkilata Abbas Zamanov, Bəxtiyar Vagabzadə, İsmayıl Şıxlı kimi ziyalılar qoşulmuşdur. Lakin onların da siyasi fəaliyyəti nəticəsiz qalmışdır.

1964-cü ildə Azərbaycanda vəziyyəti gərginləşdirmək üçün SSRİ Ali Sovetinin sədri daşnak A.Mikoyan Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsini gündəmə gətirmiş, bunun reallaşmasını N.Xruşşovdan tələb etmişdir. Lakin bu çirkin niyət baş tutmamışdır.

1966-cı ildə Kirovabad şəhərinin adının dəyişdirilib Gəncə şəhəri adlandırılması haqqında "ədəbiyyat və incəsənət" qəzetində Ə.Süleymanov maraqlı bir məqalə çap etmişdirdir. Məqalə dərc olunan kimi qəzetin redaktoru Ə.Qasımov vəzifəsindən azad edilmişdir.

1970-ci ildə Azərbaycanda "Milli Azadlıq Partiyası" adlı gizli partiya təşkilatı fəaliyyətə başlamış, lakin qısa bir müddətdən sonra təşkilat dağıdılmışdır.

1980-ci illər Azərbaycan xalqı üçün daha ağır illərdən sayılır. Bu illərdə SSRİ Mərkəzi Komitəsinin rəhbərləri Azərbaycana bu və ya digər formalarda gizli təzyiqlər göstərmişdir. 1988-ci ildən başlayaraq ermənilər Moskvadakı havadarlarının köməkliyi ilə Dağlıq – Qarabağda azərbaycanlılara qarşı etnik təmizləmə tədbirləri həyata keçirərək qanlı qırğın törətmiş, Azərbaycanın öz ərazisindən azərbaycanlıları zorla qovmuş, torpaqlarının 20 faizini işğal etmişdir. Təkcə bunu qeyd etmək kifayətdir ki, bu prosesdə 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 50 mindən çox əlil olmuş, 4 mindən çox əsir – itkin düşmüş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçaları, 250 xəstəxana və tibb müəssisəsi dağıdılmışdır. 724 şəhər, qəsəbə və kənd qarət edilmişdir. Əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı törədilmişdir.

1989-cu il dekabrın 1-də SSRİ Ali Soveti Dağlıq Qarabağın Ermənistan SSR ilə birləşməsi haqqında qərar qəbul etmişdi. 1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarında fövqəladə vəziyyət elan olunması haqqında" fərman imzalanmışdır.

1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı Terror aktı həyata keçirmişdilər. Azərbyacana yeridilən ordu hissələrinin tərkibinə qəsdən Stavrapol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, Sovet hərbi hissələrində xidmət edən ermənilər daxil edilmişdir.

1990-cı ilin yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitutsiyasının 119-cu Azərbaycan SSR Konstitutsiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, Yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamışdı.

Bakıda həyata keçirilən qanlı aksiya zamanı 20 Yanvar hadisələrində 147 nəfər öldürülmüş, 700 nəfərdən çox adam yaralanmış, xeyli adam isə itkin düşmüşdür. Bütün bu cinayətkar hərəkatlar Azərbaycanda demokratik siyasi hərəkatın, siyasi proseslərin daha da güclənməsinə təkan vermişdir.

Bax bu idi Sovetin son akortlarında Azərbaycan xalqına verdiyi qanlı musiqi töhfələri. Belə bir şəraitdə əlbəttə ki, siyasi proseslər qüvvətlənməli idi.

2020-ci ilin 27 sentyabrından ermənilər yenidən Azərbaycan torpaqlarını tutmaq üçün Azərbaycana hücum etdi. Azərbaycan Respublikasının Prezidenti, Ordunun Ali Baş Komandanı İlham Əliyev uzaqgörən iradəsi, hərtərəfli düşüncəsi nəticəsində orduya düzgün istiqamət verərək, 44 gün ərzində Azərbaycan torpaqları ordu tərəfindən azad olundu. Erməni ordusu darmadağın edildi. Azərbaycan ordusu tarixi qələbə qazandı. Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu.

Azərbaycanın bu Qələbəsi tarixdə əbədi qalacaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Sovet Ensiklopediyası. I cild, Bakı, 1976.
2. İsmayıl Eyyubov. Azərbaycan siyasi təlimlər tarixi. Dərslik, Bakı, 2017.
3. "Azərbaycan" qəzeti 18 dekabr, 1997.
4. Müasir Azərbaycan ədəbiyyatı tarixi. I – II cildlər, Bakı, 2007.
5. "Azərbaycan" qəzeti 27 sentyabr, 2009.
6. "Azərbaycan" qəzeti 1 oktyabr, 2009.
7. "Azərbaycan" qəzeti 2 oktyabr, 2009.
8. hhtp://gelqor.azerobloq.com.2008.repressiya-dovrunun-bezi-girbanlari
9. "Azərbaycan" qəzeti 8 yanvar, 2021.


## AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİNİN QƏLƏBƏSİ, SOVET DÖVRÜNDƏ AZƏRBAYCANDA SİYASİ PROSESLƏR

***İsmayıl Eyyubov***

## XÜLASƏ

1920-ci ilin əvvəllərində Azərbaycanda sovet hakimiyyəti quruldu. Bu hakimiyyət qısa bir müddətdə ölkənin bütün sahələrini öz təsiri altına aldı və yeni quruculuq işlərinə başladı. Azərbaycanda yeni sovet qanunları həyata keçirilməyə başladı. Bu qanunlara baxmayaraq, ölkədə hökumət əleyhinə siyasi cərəyanlar da özünü göstərdi. 1936-1940-cı illərdə hökumət dinc quruculuq illərində 70-ə yaxın millətin yaşadığı Azərbaycan Respublikasında guya hökumət əleyhinə qalxmış yüzlərlə ziyalını, fəhləni, kolxozçu kəndlini, tələbəni, müxtəlif sənət adamlarını günahlandıraraq güllələdi və bəzilərini isə Sibirə sürgün etdi. Respublikada dövlət əleyhinə çıxanlar arasınbda təmizləmə işi apardı. Bu təmizləmədə ən çox ziyalılar üstünlük təşkil etdi. SSRİ hökuməti Qafqazda ermənilərə üstünlük verərək onlardan Azərbaycanlılara qarşı istifadə etdi. Ermənilər Azərbaycanlıları öz dədə - baba yurdlarından deportasiya edərək Sibiriə sürgün etdilər. 1980-ci illərin sonunda onlar Azərbaycanın bir sıra rayonlarını işğal etdilər. Xocalı soyqırımını törətdilər. 1990-cı illərin əvvəllərində Müstəqil Azərbaycan Respublikası yaradıldı. Ermənilər 30 il Azərbaycan rayonlarını dağıtdılar. Daşı-daş üstə qoymadılar. 2020-cı il 27 sentyabrda yenidən Azərbaycana qarşı hücuma keçdilər. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi və iradəsi ilə erməni ordusu darmadağın edildi. 44 gün müddətində Azərbaycan torpaqları işğaldan azad edildi. Müstəqil Azərbaycan Respublikasının ərazi birliyi bərpa edildi.

# ПОБЕДА СОВЕТСКОЙ ВЛАСТИ В АЗЕРБАЙДЖАНЕ. ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ В АЗЕРБАЙДЖАНЕ В СОВЕТСКИЙ ПЕРИОД

***Исмаил Эюбов***


## АННОТАЦИЯ

В начале 1920-х годов в Азербайджане была установлена Советская власть. За короткое время это правительство взяло под свой контроль все районы страны и начало создавать новое общество. В Азербайджане начали применяться новые советские законы. Несмотря на эти законы, в стране появились и антиправительственные политические движения. В 1936-1940 годах правительство расстреляло и депортировало сотни представителей интеллигенции, рабочих, колхозников, студентов и творческих работников в Азербайджанской Республике, где в годы мирного строительства проживало около 70 народов, а некоторых депортировало в Сибирь. Оно провел чистку антиправительственных протестующих в республике. В этой чистке доминировало большинство интеллектуалов. Правительство СССР отдавало предпочтение армянам на Кавказе и использовало их против азербайджанцев. Армяне депортировали азербайджанцев с исконных земель в Сибирь. В конце 80-х они оккупировали ряд районов Азербайджана. Они совершили Ходжалинский геноцид. Независимая Азербайджанская Республика была создана в начале 1990-х годов. За 30 лет армяне разрушили азербайджанские районы. Камня на камне не оставили. В 2020 году в течение 44 дней азербайджанские земли были освобождены от оккупации. Было восстановлено территориальное единство независимой Азербайджанской Республики.


# VICTORY OF SOVIET POWER IN AZERBAIJAN. POLITICAL PROCESSES IN AZERBAIJAN DURING THE SOVIET PERIOD

***Ismail Eyyubov***


## SUMMARY

In the early 1920s, Soviet power was established in Azerbaijan. In a short time, this government took control of all parts of the country and began to create a new society. New Soviet laws began to be applied in Azerbaijan. Despite these laws, anti-government political movements also emerged in the country. In 1936-1940, the government shot and deported hundreds of representatives of the intelligentsia, workers, collective farmers, students and creative workers in the Republic of Azerbaijan, where about 70 peoples lived during the years of peaceful construction, and some were deported to Siberia. Ono carried out a purge of anti-government protesters in the republic. This purge was dominated by the majority of the intellectuals. The USSR government gave preference to the Armenians in the Caucasus and used them against the Azerbaijanis. Armenians deported Azerbaijanis from their ancestral lands to Siberia. In the late 1980s, they occupied a number of regions of Azerbaijan. They committed the Khojaly genocide. The independent Azerbaijan Republic was established in the early 1990s. For 30 years, the Armenians have destroyed the Azerbaijani regions. No stone was left on stone. In 2020, within 44 days, Azerbaijani lands were liberated from occupation. The territorial unity of the independent Azerbaijan Republic was restored.

# QAFQAZDA DİNİN SİYASİLƏŞDİRİLMƏSİ CƏHDLƏRİNİN DESTRUKTİV NƏTİCƏLƏRİ

***Elgün Əliyev, polkovnik-leytenant***
***Silahlı Qüvvələrin Hərbi Akademiyası***

***Açar sözlər:*** Qafqaz, din və etnik amil, islamizm, ekstremizm, radikalizm.
***Ключевые слова:*** Кавказ, религия и этнический фактор, исламизм, экстремизм, радикализм.
***Keywords:*** Caucasus, religion and ethnic factor, Islamism, extremism, radicalism.

**Giriş.** Dini təhlükəsizlik problemi özünü bir çox sahələrdə, əsasən, ictimai-siyasi proseslərdə açıq şəkildə göstərməkdədir. Dünyada dünyəvi dövlət prinsipləri ilə idarə olunan ölkələrin dini mövqedən üzləşdiyi təhdidlərin qarşısının məhz dini təhlükəsizliyin təminatı ilə alınması ciddi əhəmiyyət kəsb edir. Dinin siyasiləşdirilməsi məsələsi günümüzdə ən prioritet problemlərdən biridir. Tarixə nəzər saldıqda görürük ki, din bir çox ölkənin idarəçiliyində vacib rol oynamışdır. Hətta orta əsrlərdə qurulmuş dövlətlərin mütləq əksəriyyətində din siyasi proseslərə birbaşa müdaxiləsi açıq şəkildə nəzərə çarpmış, bu proseslərin təşəbbüskarı kimi çıxış etmişdir.

Məqalənin hazırlanması zamanı tarixi, müqayisəli təhlil və struktur-funksional təhlil metodlarından istifadə edilib.

Dini radikalizm və ekstremizm meyilləri, məzhəbçilik, dinin siyasiləşdirilməsi, dünyəviliyə qarşı çağırışlar, ölkələrin konstitusion quruluşunun zorla dəyişdirilməsinə cəhdlər, ümumilikdə, ölkələrin milli təhlükəsizliyinin, həmçinin qlobal təhlükəsizliyin təminatına ciddi təhdidlər yaratmaqdadır [1,s.5].

Bütün dövrlərdə dinin siyasiləşməsinə, dövlətlərin onu bir-birinə qarşı silah alətinə çevirməsinə cəhdlər edilib. Din müxtəlif vaxtlarda hansısa dövlətlərin və qüvvələrin dayaq nöqtəsi, uğurunun təminatçısı kimi çıxış edib. Lakin heç zaman dini məsələ indiki qədər siyasiləşib bəşəriyyətin "kabus"un çevrilməyib. Bu baxımdan dövlətlər dinə indi bütün dövrlərdən daha həssas yanaşmalıdır. Əks təqdirdə din onların zərif yox, həm də zəif yerinə çevrilə bilər [2,s.117].

Dünyanın dini həssaslıq baxımından bir sıra regionları var ki, onların arasında Qafqaz qabaqcıl mövqelərdə dayanır. Xüsusən də, Şimali Qafqazda dini və milli (etnik) kimlik əsrlər boyu sıx uzlaşıb. Bu baxımdan bölgə xalqlarının milli-azadlıq mübarizəsində dini motivlərin olması tarixi ənənə xarakteri daşıyır. Hələ XVIII əsrdə çar Rusiyası Şimali Qafqazı işğal etməyə başlayanda buna qarşı təşkilatlanmış müqavimətdə dini motivli amillər də özünü göstərmişdir. Bu tendensiya ötən əsrin 90-cı illərində Çeçenistanda baş vermiş məlum hadisələrdə də müşahidə edilmişdir.

Qafqaz coğrafi və geosiyasi anlayışdır. Coğrafi anlayış kimi Qafqaz Xəzər dənizi ilə Qara dəniz arasındakı ərazidir. Şimal və cənub sərhədləri geosiyasi reallığa uyğun olaraq dəyişikliyə məruz qalıb. Şərti olaraq, Qafqaz Şimal (Rusiya) və Cənub (Cənubi Qafqaz) hissələrinə bölünür. Şimalı Qafqaz Rusiya Federasiyasının yeddi milli respublikasını: Adigey, Dağıstan, Çeçenistan, İnquşetiya, Kabardin-Balkar, Karaçay-Çərkəz, Şimali Osetiya-Alaniya, Stavropol və Krasnodar diyarı, Rostov vilayətini əhatə edir.

Cənubi Qafqaz isə üç müstəqil dövlətdən – Azərbaycan, Gürcüstan və Ermənistandan ibarətdir. Tədqiqatçılar Qafqazın aşağıdakı qaydada strukturlaşmasını təklif edirlər:

1) 3 müstəqli ölkənin daxil olduğu Mərkəzi Qafqaz;
2) RF-nın sərhədyanı muxtar qurumlarından ibarət olan Şimali Qafqaz;

3) Azərbaycan,Gürcüstan və Ermənistanla həmsərhəd Türkiyənin cənub - qərb ərazilərini və İranın şimal-qərb ostanlarını əhatə edən Cənubi Qafqaz [3,s.26].

Qafqaz regionu çoxmillətlidir. Bu regionda dövlətçiliyi olmayan abazın, noqay, tat və digər xalqlar yaşayır. Rusdilli əhali Qafqazın bütün respublikalarında yaşayır. Bundan əlavə, Qafqazın bütün respublikalarında qonşu ölkələrin və MDB xalqlarının nümayəndələri də yaşayır.

Qafqaz əhalisinin mürəkkəb çoxmillətli tərkibinə görə seçilir. Orada beş dil ailəsini təmsil edən qırx beş millətin nümayəndəsi yaşayır. Bütün bunlar regionda mümkün münaqişələrin, o cümlədən etnik zəmində qarşıdurmaların yaranmasına zəmin yaradır. Bundan əlavə, miqrasiya prosesləri nəticəsində Qafqazın bütün xalqları regionun hüdudlarından kənarda yaşayaraq orda öz diasporlarını yaratmağa müvəffəq olublar.

Tədqiqatçı V.Qavriş Qafqaz regional modelini dövlət, etnik, konfessional, hüquqi və energetik səviyyələrdə təsnif edir. Dövlət səviyyəsində Qafqaz iki qeyri-bərabər struktur hissədən – Şimalı Qafqaz və Cənubi Qafqazdan ibarətdir. Etnik səviyyəyə gəldikdə, olduqca mürəkkəb bir mənzərə yaranır. Belə ki, etnik qrupların yayılma məkanları onlar arasında çəkilmiş inzibati-ərazi və hətta dövlət sərhədlərinə uyğun gəlmir.

Konfessional səviyyədə Qafqaz xristian və islam xalqları arasında bölüşüb. İslam çərçivəsində də dini əlamətə (sünnilərlə şiələr arasında fikir ayrılıqları) görə tam şəkildə inteqrasiyaya nail olunmayıb.

Hüquqi səviyyə isə pararlel fəaliyyət göstərən müxtəlif normativ elementlərin adi hüquq (adət) və islam hüququnun (şəriət) "hüquqi plüralizminə" əsaslanır.

Regionun energetik səviyyəsi isə Xəzərin enerji resurslarına çıxışı təmin edən xüsusi zonaların – Azərbaycan və Gürcüstanın əhəmiyyətinə istinad edir [4, s.36].

Qafqazda geosiyasi dinamikanın təhlili zamanı böyük dövlətlərin regiona nəzarət uğrunda mübarizəsini əks etdirən "Böyük oyunlar" modelindən istifadə etmək məqsədəuyğun hesab edilir. Bu model qeyri-dövlət və subdövlət təbiətli aktorların da daxil edilməsini vacib sayır [5,s.387]. Regionun təhlilində siyasi realizm paradiqması və klassik geosiyasət prinsipləri liberalizm dəyərlərini üstələsə də, sonuncunu hesabdan tam olaraq çıxarmaq sadəlöhvlük olardı.

Qafqaz regionunda hərbi-siyasi vəziyyət öz mürəkkəbliyi ilə seçilib. Din və etnik amil mühüm təsir vasitəsi olaraq qalır və çox zaman həlledici rolu ilə diqqəti cəlb edir. İkiqütblü sistemin dağılması, SSRİ və Yüqoslaviyanın süqutu qlobal miqyasda proseslərin transformasiyasına səbəb oldu və bu da öz növbəsində dini azadlıqların həcmi artırmış oldu. Dinin fəal şəkildə hərbi-siyasi proseslərə qayıdışı münaqişələrin meydana gəlməsində özünü büruzə verməyə başladı. Din amili hazırda davam edən bir çox minaqişələrdə fəal rol oynayır. Bu amil hansısa dinə mənsub insanların digər dinin nümayəndələrinə, habelə din daxilində rəqiblərə qarşı zorakılıq törətməsinə bəraət qazandırır. Bu gün müasir münaqişələrdə islamın yeri və rolu beynəlxalq təşkilatların gündəliyində dayanan əsas məsələlərdən biri olaraq qalır.

Münaqişələrin təhlili onu göstərir ki, din heç zaman münaqişənin əsas mənbəyi kimi çıxış etmir, çox zaman ondan gərginliyi yaratmaq və ya saxlamaq aləti kimi istifadə edirlər. Din ictimai həyatın bütün sferalarına – mənəvi, sosial, ictimai, siyasi və s. nüfuz edib. Statistik məlumatlara əsasən, 2000-ci ildən başlayaraq vətəndaş müharibələrinin 43 faizində din amilinə rast gəlinib. Lakin 1940-1950-ci illərdə bu rəqəm 25 faizi keçməmişdi [6,s.38].

Dinlə etnik münaqişələr arasında əlaqənin olması inkaredilməzdir. Belə ki, müxtəlif etnosların həyat məkanı, sosial - iqtisadi və siyasi maraqları uğrunda mübarizəsi gec-tez dini rəng alır. Bu onunla əlaqələndirilir ki, dinlə etniklik arasında ontoloji rabitə mövcuddur. Ya dini münaqişə etnik amillə uzlaşır, ya da əksinə. Hər iki münaqişənin əsasında dinc vasitələrlə həllini tapmayan siyasi, iqtisadi, sosial problemlər dayanır.

Dünyanın müxtəlif yerlərində, o cümlədən Əfqanıstanda, İraqda və Fələstində, hətta Qafqaz regionunda mövcud olan bəzi münaqişələrdə çox zaman hərbi-siyasi hadisələri "müqəddəs müharibə", "xaç yürüşü" adlandırırlar. Kütləvi informasiya vasitələrinə əsasən, taliblər və Ben Laden dəfələrlə ABŞ-a "cihad" elan etmiş, C.Buş isə ABŞ əsgərlərinin İraqa soxulmasını "xaç yürüşü" kimi qələmə vermişdir. Lakin qeyd etmək lazımdır ki, dini münaqişələrin qeyd edilən ifadələrlə eyniləşdirilməsi münaqişənin mahiyyətinin təhlili baxımından düzgün olmaya bilər. Məsələn, ABŞ-ın İraqa müdaxiləsinin "xaç yürüşü" formasında təqdim edilməsi məcazi məna daşıya bilər. Əsil həqiqətdə isə ABŞ qoşunlarının İraqa daxil olması motivinin din amili ilə heç bir bağlantısı yox idi.

Dinin cəmiyyətdəki proseslərlə bağlantısı ingilis tədqiqatçı B.Linkolnın "Din, qiyam və inqilab" əsərində geniş təhlil edilib. Müəllif üç din tipi üzərində dayanıb: "din – status-kvo", "din – müqavimət" və "din – inqilab" [6,s.40-41]. Bu üç tip dinin hərbi - siyasi proseslərə təsirinin üç statusuna aydınlıq gətirir. "Din – status-kvo"ya əsasən din dövlətlə harmonik vəziyyətdə olur, lakin dini elitalar ideoloji hegemonluğa can atır.

Növbəti tip "din – müqavimət" adlanır. Bu hakim dinin ideoloji hegemonluğuna çağırış vəziyyətidir. Bu tip çərçivəsində dini elitanın əsas məqsədi dinin mövcudluğunun saxlanılması, onun öz cəmiyyətinin hüdudlarından kənara təsir etməməsi hesab edilir. Cəmiyyətdə obyektiv şərtlərin pozulması nəticəsində "din – müqavimət" tipi "din – inqilab" tipi ilə əvəzlənə bilər. Bu tip çərçivəsində yeni siyasi legitimlik nəzəriyyəsi müvəffəqiyyətlə öz təsdiqini tapa və hakim din tərəfdarlarını öz ətrafına toplaya bilər. Müvəffəqiyyət qazanacağı təqdirdə "din – inqilab" yeni "din – status-kvo"ya çevrilə bilər. Bu modeldə dini ideologiyalar inkişaf edə və əvəzlənə bilər.

Göründüyü kimi, əgər dini və etnik amil münaqişənin dinamikasında və strukturunda artıq yer alıbsa, deməli dində münaqişələri idarə etmək üçün nəhəng resurslar mövcuddur.

XX əsrin sonu - XXI əsrin başlanğıcında ekstremizm hadisələri artmağa başladı. Hazırkı şəraitdə ekstremizmin bütün təzahürləri insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyinə ciddi təhdid edir. Bu münasibətlər kontekstində dini radikalizm daha təhlükəli sayılır. Ekstremizm və terrorizm etnik münaqişələrlə six əlaqədədir. Ekstremizm və terrorizm müəyyən etnik qrupların bir ölkədəki və ya bölgədəki separatçı fəaliyyətinin təzahür forması ola bilər. Ekstremizm - ifrat baxışlara, hərəkət metodlarına bağlılıqdır. Terrorizm ekstremizmin praktik formasıdır və əhalinin istənilən qrupuna qarşı zorakılığı əhatə edir. Onlar çoxmillətli ölkələrdə etnik münasibətləri gərginləşdirir, siyasi statusa və hakimiyyətə nail olmaq üçün zorakılığa əl atır.

Siyasi ekstremizmin tərkib hissəsi olan dini-siyasi ekstremizm siyasi və mədəni reallığa adaptasiya olunmuş dini dəyərlərə əkstəsir təşkil edir, həmçinin cəmiyyətdə mövcud siyasi sistemin dəyişilməsinə istiqamətlənir. Dini-siyasi ekstremizm tərəfdarlarının fəaliyyəti ənənəvi konfessional dəyərlərin daşıyıcıları ilə qarşıdurmalarla müşayiət olunur. Ekstremizmin ən son həddi dağıdıcılıq, formaları isə terrorizm və inqilabçılıqdır.

Qərb tədqiqatçıları islamçıları dini və siyasi ekstremizmin subyektlərinə aid edirlər. XIX əsrdə islamizm tərəfdarları İslamı həm din, həm də sivilizasiya kimi dərk edirdilər. Təssüflər olsun ki, bu gün bu terminin məzmunu təhrif olunur, islamçılar bir qayda olaraq islamın arxasında gizlənən barışmaz mühafizəkarlar və davakar ekstremistlər adlandırılır.

Dini-siyasi ekstremizmin bir növü kimi islamçılığın mahiyyəti, müstəmləkəçilərə qarşı mübarizənin həyata keçirilməsində siyasi fəallıq, müsəlman ərazilərinin ABŞ-ın hərbi, iqtisadi, maliyyə mövcudluğundan azad edilməsi, terrorizmə işğalçılarla mübarizə üsulu kimi bəraət qazandırmaq, qlobal cihadı dəstəkləmək, dünya xilafətini yaratmaq və s. məsələlərdən ibarətdir. Bu fikirlərdən İslam dininin arxasında gizlənən müxtəlif cərəyanlar, qruplar öz fəaliyyətlərində geniş istifadə edirlər.

***Şimali Qafqazda dinin siyasiləşməsi, ekstremizm və terrorizmlə əlaqəsi***

1980-cı illərin sonlarından başlayaraq bu günədək Qafqaz regionu islam dininin dirçəlişini yaşamaqda davam edir. Qafqazda inşa edilmiş məscidlərin sayı islam dininə artmaqda olan marağın göstəricisi hesab edilir. 1990-ci ildə SSRİ Ali Soveti tərəfindən qəbul edilmiş "Vicdan və dini təşkilatlar haqqında" qanun islamın dirçəlişinin yeni mərhələsi kimi qiymətləndirilib. Bu qanunun qəbulundan sonra xeyli dini abidələr inşa edilməyə başlandı. 1995-ci ilin iyulunda Dağıstanda artıq 1270 məscid var idi ki, onlardan 850-i rəsmi qeydiyyatdan keçmişdi. Məscidlərin nəzdində gənclərə islam dinini öyrətmək məqsədilə 650 məktəb və qrup yaradılmışdır. 1998-ci ilin aprelində Dağıstan Respublikasının dini işlər üzrə İdarəsinin məlumatına əsasən,ölkədə 1670 məscid, 9 kilsə, 4 sinaqoq, 670 məscid nəzdində məktəb, 25 mədrəsə, 9 müsəlman ali təhsil ocağı fəaliyyət göstərib. 1999-cu ildə İnquşetiyada 400, Kabardin-Balkarda 96, Qaraçay-Çərkəzdə isə 150 məscid inşa edilmişdi [7,s. 185-186].

Dinin mövqeyi gücləndikcə xarici qüvvələr ondan geosiyasi təsir vasitəsi kimi istifadə etməyə başlayır. Bu, ötən əsrin 90-cı illərində – 2000-ci illərin əvvəllərində Şimali Qafqazda vəhhabilərin dini-ekstremist fəaliyyətində nəzərə çarpmışdır. Onların qarşısında o zaman Qafqaz xilafətini yaratmaq və rusları Qafqazdan sıxışdırıb çıxarmaq vəzifəsi qoyulmuş, bunun üçün İçkeriya və Dağıstan xalqlarının Konqresi yaradılmışdır. Əvvəlcə sələfi-vəhhabilərin ideoloqları ideya və ideoloji konsepsiyalar irəli sürmüş, sonra isə onların həyata keçirilməsinə cəhd etmiş və qarşıya qoyuımuş məqsədləri həyata keçirmək üçün zorakılıq, ekstremizm və terror hərəkətlərinə əl atmışlar.

Şimali Qafqazda vəhhabilərin separatçı və dini-ekstremist fəaliyyəti, eləcə də ona qarşı mübarizə tədbirləri böyük dağıntılara, minlərlə insanın ölümünə səbəb oldu.

Əgər 2000-ci illərin əvvəllərindən Çeçenistanda sabitləşmə prosesi başlasada, o zaman qonşu ölkələrdə – Kabardin Balkar Respublikası (KBR), İnquşetiya və Dağıstanda dini-siyasi vəziyyət tez-tez gərginləşdirdi. Belə ki, 2005-ci ildə KBR-da islamçılarla hüquq-mühafizə orqanları arasında münasibətlər daha da kəskinləşdi. Sələfilərin güc strukturlarına hücumu ilə bağlı böyük hərbi qarşıdurma meydana gəldi. Nəticədə 400-dən çox insan həlak oldu və yaralandı. Onlar arasında islamçıların özləri, güc strukturlarının nümayəndələri və dinc əhali vardı.

2014-cü il dekabrın 4-də "Qafqaz İmarəti" terror təşkilatına mənsub islamçılar Qroznıda yol polisi postuna hücum etmiş və güc strukturları qüvvələri tərəfindən təqib edilərək Mətbuat Evinə sığınmışlar. Antiterror əməliyyatı zamanı 11 terrorçu məhv edilmiş, güc strukturlarının 14 zabiti öldürülmüş və 30-dan çoxu yaralanmışdır. Bu faktlar ekstremistlərin və terrorçuların cinayət fəaliyyətlərindən qaynaqlanan təhlükələrdən xəbər verirdi [6,s.123].

İŞİD liderləri Rusiya prezidentinə, Çeçenistan Respublikasının başçısına və ruslara qarşı təhdidlər səsləndirmiş və onları öz evlərində öldürüləcəklərini bəyan etmişlər. Şimali Qafqazda gizli fəaliyyət göstərən vəhhabi qruplaşmaları, mətbuatın yazdığına görə, İŞİD-lə əlaqə yaratmağa çalışmış, üstəlik, "Qafqaz İmarəti" terror təşkilatının liderləri İslam dövlətinə sədaqət andı içmiş və video avadanlıqdan istifadə edərək, həmin mərasimi yayımlamışlar.

Şimali Qafqaz kimi multietnik və multikonfessional regionlarda ictimi-siyasi sabitliyi davamlı hesab etmək sadəlövlükdür. Tarixi inciklikllər, qanlı hadisələr, etnik və dini identikliklərin qarşıdurması və xarici təsirlər hər an bu mürəkkəb regionda sabitliyi pozmağa və "Qafqazın balkanlamasına" gətirməyə qadirdir.

***Azərbaycanda dinin siyasiləşdirilməsi cəhdləri və riskləri***

Azərbaycan müstəqillik qazandıqdan sonra müxtəlif dini cərəyanlar üçün ən uyğun hədəfə çevrildi. İran, ərəb dünyası və Şimali Qafqazdan missionerlər və xeyriyyə təşkilatları öz ideologiyalarını yaymaq üçün ölkəmizə gəlmiş, bəzilərinin hətta hərbi təşkilatlarla əlaqəli olduğu iddia edilirdi. Xarici siyasi və dini dairələr dini zəmində Azərbaycana təsir etmək üçün aşağıdakı istiqamətdə iş aparıblar:

1. Məscidlərin inşası;
2. Mədrəsə və Quran kurslarının açılması və gənclərin dini təhsil alması üçün xaricə aparılması;
3. Zərərli dini ədəbiyyatın idxalı, xaricdəki müqəddəs məkanlara məqsədli kütləvi ziyarət səfərlərinin təşkil olunması [2,c.154].

Azərbaycan dini ekstremizmlə əlqəli iki əsas problemlə üz-üzə olub: birincisi, Azərbaycanda İranın nominal təsirini qeyd etmək lazımdır. Tehran respublikamızda islami dəyərləri və İslam dövlətçiliyi ideyalarını daim təbliğ edib. Bu məqsədlə İran hakimiyyəti milyonlarla dollar xərcləsə də, cəhdləri uğurlu olmadı. İranın Azərbaycanda ictimai həyata təsir göstərmək üçün fəal kütləvi siyasi partiya yaratmaq cəhdlərinin uğursuz olması onun dövlət qurumlarını radikal gizli təşkilatlara daha çox bel bağlamağa məcbur etmişdi. Artıq 1993-cü ildə İranın bir çox humanitar qurumları və təşkilatları Azərbaycanda, xüsusən də yoxsulluqdan əziyyət çəkən qaçqın düşərgələrində fəaliyyətə başladı. Humanitar yardım və dini ədəbiyyatla təmin etməklə yanaşı, İranın xüsusi xidmət orqanlarının nümayəndələri azərbaycanlı gəncləri İrandakı dini məktəblərdə təhsil almağa cəlb etməyə səy göstərmişlər [8,s.10].

1995-ci ildən Azərbaycanın hüquq-mühafizə orqanları İranla əlaqəsi olan bəzi şəxsləri həbs edib. İran xüsusi xidmət orqanlarının ölkədə radikal qruplaşmalar şəbəkəsi yaratmaq üçün bir neçə cəhdləri cənub qonşumuzun regionla bağlı planlarında Azərbaycanın önəm kəsb etdiyini göstərir.

Məhz elə 1995-1996-cı illərdə Azərbaycanda "Ceyşullah" ("Allahın Ordusu"), "Əl-Qaidə", "Əl-Cihad", "Camaat əl-ihvan əl-muslimin" ("Müsəlmanlar - Qardaşlar"), "Hizb ut-Təhrir" terror təşkilatlarının hücrələri fəaliyyətə başlamışdır.

Qərb kapitalının fəal şəkildə ölkəmizə nüfuz etməsindən və təsirindən təşfişə düşən İran hakimiyyəti yerli radikal qruplar yaratmaq yolu ilə Azərbaycan hüquq-mühafizə orqanlarının diqqətini öz agentlərinin fəaliyyətinə çəkmək istəməyib. Əslində, yerli radikal qrupların və yaxud agent qruplarının Azərbaycan tərəfindən düşmənçilik hərəkətləri və ya ölkənin ABŞ-ın İrana potensial hücumuna qoşulmaq qərarı olduğu halda fəallaşacağı istisna edilmirdi.

Azərbaycan İslam Partiyası İranın ölkəmizin daxili siyasətinə təsir etdiyi təşkilatlardan biri olub. Bundan əlavə, 2002-ci ildə baş vermiş Nardaran hadisələri də xarici sifarişin nəticəsi kimi qiymətləndirilib.

Son illər ərzində respublikada özünü şiəliyə aid etməklə pərdələnmiş radikal, siyasi dini qrupların fəallığı nəzərə çarpmışdı. Əsasən, dünyəvilikdən kənar, İslam ölkələrinə məxsus dini ideoloji xətti və idarəetmə sistemini Azərbaycana ixrac etməyə çalışan şəxslər əksər hallarda xaricdən idarə olunurlar. İctimai asayişin pozulmasına və dini təhlükəsizliyə təhdid yaradan belə hadisələr arasında 26 noyabr 2015-ci il tarixdə Nardaranda və 10 iyul 2018-ci ildə Gəncədə baş verən iğtişaşlar nəticəsində radikal-ekstremist qruplaşma üzvləri asayişi təmin etməyə çalışanpolis qüvvələrinə qarşı silahlı müqavimət göstərərək onların həyatına qəsd etmişlər. Bu hadisələrdən sonra özünü şiəliyə aid etməklə pərdələnmiş radikal, siyasi dini qruplara qarşı tədbirlərin həyata keçirilməsi nəticəsində onların fəaliyyəti məhdudlaşdırılmışdı [1,s.45].

44 günlük Vətən müharibəsindən sonra İranın ölkəmizdə casus şəbəkəsinin ifşa olunması və çıxarılması istiqamətində hüquq-mühafizə orqanlarının məqsədyönlü fəliyyətinin davam edəcəyi proqnozlaşdırılır.

İkinci təhlükə kimi sələfi-vəhhabilərin Azərbaycandakı fəaliyyəti qeyd edilməlidir. İlk sələfi missionerləri 1990-cı illərin ortalarında Qafqazın şimalından Azərbaycana gəlmişlər. Onların əksəriyyəti Rusiya-Çeçen müharibələri səbəbindən müəyyən təsirə malik olduqları Çeçenistan və Dağıstanı tərk etmək məcburiyyətində qalmışlar. Bir müddət sələfilər Çeçenistana bir neçə dəfə basqın etmiş və hətta Dağıstanın Qaramaxı və Çobanmaxı kəndlərində öz muxtar bölgələrini

yaratmağa nail olmuşlar. Lakin sonra Rusiynın təzyiqləri nəticəsində Çeçenistan və Dağıstanı tərk edərək Azərbaycanda fəaliyyətlərini davam etdirməyə qərar vermişlər. Onlar azərbaycanlılar arasında geniş dəstək qazana bilməmişlər, çünki millətçilik və pantürkizm islamizmdən qat-qat populyar idi.

1999-cu ildə İkinci Rusiya-Çeçen müharibəsinin başlaması ilə sələfilərin ekspansiyasının ikinci dalğası başladı. Bununla belə, Azərbaycanın şiə ölkəsi olması, güclü mərkəzi hakimiyyət, hüquq-mühafizə orqanlarının çevikliyi, həmçinin iqtisadi inkişaf sələfilərin ölkəmizdə fəallaşmasına imkan verməyib.

İslam Dövlətinin (İŞİD) güclənməsi ilə Azərbaycan hökuməti daha bir xarici təhlükə ilə mübarizə aparmalı oldu. Cəmiyyətin bir çox radikallaşmış ünsürləri ölkəni tərk edərək İŞİD-ə qoşulmaq qərarına gəldi. 2018-ci ilə qədər 900-dən çox Azərbaycan vətəndaşı Suriya və İraqda terrorçu qruplaşmaların sıralarına qoşulmuşdur [9].

Bununla belə, yerli cihadçı təbliğatçılar təkcə sosial şəbəkələrdə, əsasən də YouTube-da, həmçinin Sumqayıtda, Bakıda və digər şəhərlərdə, xüsusən də Azərbaycanın şimalında çay evlərində və yeraltı mənzillərdə öz çirkin fəaliyyətlərini davam etdirmişlər. Qeyd etmək lazımdır ki, onların hamısı döyüşçü deyildi, çünki yuxarıda göstərilən rəqəmə ailə üzvləri – arvadlar, uşaqlar, o cümlədən mühəndis, həkim və s. mülki mütəxəssis kimi çalışmış şəxslər də daxildir.

Nəhayət, Qarabağ münaqişəsini Azərbaycanda radikallaşmanın kvazi-faktoru adlandırmaq olar [8,s.7]. Nə qədər desək də, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində din amilinin rolu olmayıb, səhv etmiş olarıq. Birbaşa olmasa da, dolayısı ilə din amili münaqişənin inkişaf dinamikasına öz təsirini göstərmiş olub. Düzdür istər Ermənistan, istərsə də Azərbaycan tərəfindən münaqişənin aktiv fazasında dini çağırışlar və müraciətlərə əl atılmayıb. Buna əsas səbəb Ermənistanın islam dünyası ilə əlaqələrini pozmaqda maraqlı olmaması, Azərbaycanın isə məlum münaqişədən öz çirkin məqsədləri üçün yaralanmağa çalışan bəzi qüvvələrin ölkəmizə daxil olmasına və ekstremist ideologiyaları təbliğ etmək imkanı qazanmasına yol verməmək olub [10, s.43]. Əks təqdirdə, xüsusən də cənub qonşumuzun bu baxımdan islam inqilabını ixrac etmək planları daha təhlükəli nəticələrə gətirə bilərdi.

Uzun müddət Ermənistanın cəzasız qalmasını, ATƏT-in Minsk Qrupunun fəaliyyətsizliyini məhz xristian təəssübkeşliyinin nəticəsi kimi qiymətləndirmək olar.

İkinci Qarabağ müharibəsi zamanı beynəlxalq və regional dini konfessiyaların nümayəndələri hərbi əməliyyatların dayandırılması məqsədilə qarşıduran tərəflərə çağırış etmişlər. İlk çağırışlardan biri katolik kilsəsinin rəhbəri Papa Fransiskin müraciəti olub. Müharibə başlayan gün – sentyabrın 27-də Papa Fransisk bazar günü etdiyi xütbədə Qafqazda münaqişə tərəflərinə "Qafqazda toqquşmalarla bağlı həyəcanlı xəbərlər gəlir. Mən Qafqazda sülh üçün dua edirəm və münaqişə tərəflərindən problemlərin güc və silahdan istifadə etməklə deyil, dialoq və danışıqlar yolu ilə həllinə gətirib çıxara biləcək konkret xoşməramlı və qardaşlıq jestlərini həyata keçirmələrini xahiş edirəm. Gəlin Qafqazda sülh üçün birlikdə dua edək" sözləri ilə müraciət etmişdi [11].

Oktyabrın 11-də Roma Papası yenidən münaqişə tərəflərini "etibarsız və kövrək" sülhü saxlamağa və Dağlıq Qarabağdakı hərbi əməliyyatların qurbanları üçün dua etməyə çağırmışdı.

Sentyabrın 27-də Rus Pravoslav Kilsəsinin rəsmi nümayəndəsi Patriarx Kirill Dağlıq Qarabağdakı münaqişənin tezliklə sülh yolu ilə həlli üçün dua etmiş və sülhün bərqərar olması üçün hər iki ölkənin ruhani liderlərini əlindən gələni əsirgəməməyə çağırmışdır.

Artıq oktyabrın 13-də Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Azərbaycan və Ermənistanı Dağlıq Qarabağda atəşkəsi uzatmağa çağıran bəyanatla çıxış etmiş və hər iki ölkənin dini liderlərini qanlı faciənin qarşısını almaqda yardımçı olmağa çağırmışdı. Patriarxın bəyanatında deyilirdi: "Mən Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər

nazirləri səviyyəsində əldə olunan razılaşmaları çox vacib hesab edirəm. İki qonşu xalqın gələcəyi naminə sizi atəşkəs rejimini uzatmağa və ondan sülh danışıqları üçün istifadə etməyə çağırıram" [11].

O, həmçinin bütün ermənilərin ali patriarxı-katolikosu II Qaregin və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə də müraciət etmişdi.

Həmin müracətdə aşağıdakı fikirlər yer almışdı: "Biz sizinlə əziz qardaşlar, bu qarşıdurmanın dinlərarası münaqişə xarakteri almaması, problemlərin sülh yolu ilə həll olunması üçün çalışıb xeyli yol qət etmişik. Bu gün hər birimiz və hamımız birlikdə qan tökülməsini dayandırmaq üçün mümkün olan hər şeyi etməliyik" [11].

Pis sülhün yaxşı savaşdan üstün olduğunu xatırladan patriarx vurğulamışdır ki, müharibə olanda, insan qanı töküləndə, cinayətlər törədiləndə birgə siyasi qərarlar qəbul etmək çətin olur.

Beləliklə, yuxarıda qeyd edilənlər Dağlıq Qarabağdakı münaqişəyə ilk reaksiya verən xristian kilsə rəhbərlərinin olmasını deməyə əsas verir.

Media nəşrlərinin monitorinqi zamanı Rusiya müsəlmanları və İran Ayətullahı Əli Xameneyinin rəsmi bəyanatı istisna olmaqla, ən böyük İslam birliklərinin rəhbərlərinin heç bir rəsmi müraciəti aşkarlanmayıb. Belə ki, 2020-ci il noyabrın 3-də İran İslam Respublikasının rəhbəri Ayətullah Əli Xameneyi qarşıduran tərəfləri dərhal silahlı münaqişəyə son qoymağa çağırmışdı.

"Qonşularımız Azərbaycan və Ermənistan arasındakı müharibə kədərli hadisədir və mümkün qədər tez başa çatmalıdır", - Xameneyi Tvitter hesabında yazmışdı. "Əlbəttə ki, Ermənistanın zəbt etdiyi Azərbaycan torpaqları azad edilməli və bu torpaqların erməni əhalisinin təhlükəsizliyi də təmin edilməlidir", - deyə Ayətullah əlavə etmişdi [11].

Bir sıra İslam ölkələri nümayəndələrinin Azərbaycanın Qarabağdakı haqq savaşına dəstəyi Azərbaycan bayrağının sosial şəbəkələrdə aktiv şəkildə yerləşdirməsi ilə özünü büruzə verib.

Vətən mühribəsinin ikinci günü – sentyabrın 28-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə Azərbaycan xalqına müraciətində bəyan etmişdir ki, "işğalçı-ekstremist siyasətini hər cür ört-basdır etməyə çalışan Ermənistan münaqişəyə dini rəng verməyə, onu xristianlarla müsəlmanların qarşıdurması kimi qələmə verməyə çalışıb" [11].

Vətən müharibəsində Azərbaycanın möhtəşəm qələbəsini həzm edə bilməyən bəzi ölkə rəhbərləri və parlamentləri ona məqsədyönlü şəkildə dini rəng verməyə cəhd etmişlər. İran rəsmilərinin Qarabağ bölgəsinə Suriydan təkfirçilərin və İŞİD-in tör-töküntülərinin gətirilməsi fikrini səsləndirməsi, Fransa Milli Assambleyasının "Erməni xalqının və Avropa və Şərqin xristian icmalarının qorunması" adlı qətnaməni qəbul etməsi bu məsələyə din, məzhəb çalarları qatmaq niyyətlərindən xəbər verir [12].

***Gürcüstanda dini radikallaşma və ona qarşı profilaktika***

Gürcüstan əhalisinin çoxmillətli tərkibi, titul millət və dini azlıqlar arasında radikal təfəkkürlü insanların fəallşması və sayının artması, o cümlədən qonşu ölkələr – Azərbaycan, İran və Türkiyədə, eləcə də Yaxın Şərqin siyasi həyatında baş verən dini, sosial-iqtisadi sahədə dəyişikliklər Gürcüstandakı vəziyyətə birbaşa təsir edir.

Faşist təmayüllü gənclərin radikallaşmış qrup və təşkilatlarının formalaşması və açıq fəaliyyət göstərməsi narahatlığa və bu "yoluxmanın" yayılmasının qarşısının alınması üzrə dini və ictimai təşkilatların imkanları və rolu ilə əlaqədar təhlillərin aparılmasına əsas verir.

Eyni zamanda, Suriyada İŞİD-in tərəfində vuruşaraq həlak olmuş Gürcüstanın müsəlman icmasından onlarla gəncin olması faktı belə deməyə əsas verir ki, radikallaşma mexanizmi prosesi dərin köklər atıb və hazırda lazım gələrsə, bu radikallardan ölkənin özündə sabitliyin pozulması aləti kimi istifadə oluna bilər. Regional səviyyədə adekvat əks-təsirin olmaması bu gün Gürcüstanda müşahidə olunan həm titul millətdən, həm də dini azlıqlardan olan radikal

qrupların inkişaf və genişlənməsi arealının qarşısını almaqda çətinliklər yaradır. Bu da öz növbəsində onu deməyə əsas verir ki, "lazım gələrsə" Gürcüstanda maraqlı üçüncü qüvvələr çox qısa müddət ərzində süni şəkildə dinlərarası qarşıdurma yarada və onu kritik həddə çatdıra bilər [5]. Nəzərdə heç sübhəsiz, xristian çoxluqla müsəlman azlıq arasında mümkün qarşıdurma tutulur.

Bu gün Gürcüstanda radikal dünyagörüşlərin və artıq fəaliyyətdə olan təşkilatların təsirinə məruz qalan sosial qruplar, həm də gənclər mühitində marginallaşan qruplar mövcuddur ki, müəyyən şəraitdə real fəaliyyət göstərən radikal qruplara transformasiya oluna bilərlər. Öz varlığını Acarıstanda, Kaxetiyada büruzə verən bəzi radikal sələfi qrupların Kvemo Kartlidə radikalizmə çevrilməsi üçün böyük potensial mövcuddur.

İranın regionun, xüsusən də Gürcüstanın konfessional həyatına təsiri inkar edilmir._Etnik və dini qrupların kompakt məskunlaşdığı bölgələrdə çoxsaylı maliyyə əməliyyatları kənardan asanlıqla və məqsədyönlü şəkildə idarə oluna bilən geniş şəbəkə yaratmışdır [5,s.18].

Qeyd etmək vacibdir ki, Gürcüstanda dini hüquq və azadlıqların (xüsusən də gənc yaşda radikallaşma prosesinə cəlb olunanların sayının artması) dövlət və titul din tərəfindən pozulması kimi "cəzbedici amillərin" ortaya çıxması dini azlıqlar arasında radikalizm tərəfdarlarının yavaş, lakin davamlı şəkildə artmasına səbəb olur. Bir sıra aparıcı beynəlxalq təşkilatların hesabatları gənclər arasında sabit, lakin davamlı şəkildə artan radikallaşmadan danışmağa imkan verir.

Bu gün Gürcüstan radikalizm, ekstremizm və ksenofobiyanın istənilən təhdid formalarına qarşı mübarizə vasitələrinin yaranmasına və adekvat qabaqlayıcı tədbirlərin görməsinə ehtiyac duyur. Gürcüstanda 2010-cu ildə "Gürcüstan Müsəlmanları İdarəsi" yaradılaraq qeydiyyatdan keçib. Dövlət orqanları məqsədyönlü şəkildə bu qurumun nüfuzunun artırılmasına yardım edirlər. Son iki ildə bu təşkilat həm Tbilisidə, həm də regionlarda müxtəlif dini qurumlar və dini liderlərlə bir sıra görüşlər keçirib. Həmin görüşlərdə Gürcüstanda radikalizmin inkişafına qarşı mübarizə məsələlərinə toxunulub [5,s.19].

Bundan əlavə, Gürcüstanın Pravoslav Patriarxlığı (GPP) Gürcüstanda ictimai həyata dominant təsir göstərir. Dövlətdə sekulyarizmə baxmayaraq, Pravoslav Patriarxlığının dünyəvi dövlətin dini siyasətinin formalaşmasında böyük rolu var. Gürcüstanda sekulyarizm elan olunsa da, bir çox siyasi qərarların qəbulunda, Gürcüstan parlamentində konkret qanunun qəbulunda GPP-nin rəyi həlledici əhəmiyyət kəsb edir. Gürcüstan Konstitusiyasında GPP-nin səlahiyyət və aliliyini təsdiq edən ayrıca maddənin olması, dövlət və kilsə arasında imzalanmış Konkordatda nəzərdə tutulmuş böyük imtiyazlar adı çəkilən quruma Gürcüstanın ictimai və siyasi həyatında fəal iştirak etmək imkanı verir.

Bununla belə, Pravoslav Patriarxlığı dini münasibətlərdə sabitlikdə çox maraqlıdır, əks təqdirdə radikalizm təzahürlərinin mövcudluğu Gürcüstanda dinlərarası dinc yanaşı yaşamağı təmin etməyə kömək edə bilməz.

Məqalənin sonunda aşağıdakı **nəticələrə** gəlmək mümkündür:

- XXI əsrin əvvəllərindən etibarən "dinin siyasiləşməsi" və "siyasətin dinləşməsi" prosesi geniş vüsət alıb;
- Dini identiklik etnik identiklikliyi səfərbərlik potensialına və təsir coğrafiyasına görə xeyli üstələyib;
- Din amili yeni statuslrın və təsir dairələrinin yaradılması vasitəsinə çevrilib;
- Qafqazın mürəkkəb etnik və konfessional mənzərəsi ekstremizmin və radikalizmin inkişaf mənbəyinə çevrilib;
- Xarici geosiyasi maraqlar və ikili standartlar ekstremizmə və radikalizmə qarşı profilktik tədbirlərin təsirini heçə endirib;

- Azərbaycanın Vətən müharibəsində qələbəsi regionumuzda transmilli təhdidlərin, o cümlədən ekstremizm və radikalizm təhlükəsinin zəifləməsinə ciddi təkan verəcəyi, Azərbaycanın hüquq-mühafizə orqanlarının daha çevik fəaliyyət göstərəcəyi, ölkəmizin daxili təhlükəsizliyinin daha da güclənəcəyi istisna edilmir.

## ƏDƏBİYYAT


1. Səyavuş Heydərov, Asəf Qənbərov, Anar Qafarov. Din və ideoloji təhlükəsizlik. – Bakı, TUNA nəşriyyatı, 2020. 277 s.
2. Gündüz İsmayılov. Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər. – Bakı: “Nəşriyyat XXI” MMC, 2016. 291 s.
3. Исмаилов Э., Папава В. Центральный Кавказ: история, политика, экономика. – М .: Мысль, 2007, с. 26
4. Гавриш Г.Б. Пространственно-временная модель Кавказа в условиях глобализации [Электронный ресурс]. – Режим доступа: http://ippk.edu.mhost.ru/elibrary/elibrary/uro/uro_29/uro_29_03.htm
5. Материалы международного Форума «Кавказ в начале XXI века: народы, общество и государство» / под. ред. Т.А.Шебзуховой, Н.Ю.Рудь – Пятигорск: Издательство ПФ СКФУ, 2016. – Т1.– 328 с.
6. Вызовы религиозного экстремизма в глобализирующемся мире: коллективная монография. – Казань: Фолиант, 2017. – 232 с.
7. Горюшина Е.М. Конфликтный потенциал кавказского региона в оценках западных экспертов. Кавказология / Caucasology № 4/2018 ПОЛИТИЧЕСКАЯ РЕГИНАЛИСТИКА И ЭТНОПОЛИТИКА. С.182-191
8. Корни насильственного экстремизма и радикализации в Азербайджане и Грузии. Грузинский центр безопасности и развития (GCSD), - http://library.fes.de/pdf-files/bueros/georgien/14973.pdf
9. İraq: "Üç azərbaycanlı qadın ömürlük həbs edilib" – BBC 4 May 2018, **https://www.bbc.com/azeri/azerbaijan-43986612**
10. Роман Силантьев. Религиозный фактор во внешнеполитических конфликтах на Кавказе. «Религия и конфликт», М., 2007, с. 130–150
11. Серикбол Билялов. Религиозный вопрос в конфликте в Нагорном Карабахе. - https://kazislam.kz/religioznyj-vopros-v-konflikte-v-nagornom-karabahe/
12. No:445/20, AR XİN Mətbuat xidməti idarəsinin Fransa Milli Assambleyası tərəfindən qəbul etdiyi qətnamə ilə bağlı şərhi. 2020-12-04.


## QAFQAZDA DİNİN SİYASİLƏŞDİRİLMƏSİ CƏHDLƏRİNİN DESTRUKTİV NƏTİCƏLƏRİ

***Elgün Əliyev***

## XÜLASƏ

Məqalə Qafqaz regionunda dinin destruktiv proseslərlə əlaqəsindən bəhs edir. Dinin siyasiləşməsi, onun ekstremizm və radikalizmə transformasiyasına rəvac verən səbəblər, regiondakı münaqişələrə təsiri və s. problemlər təhlil edilir. Məqalədə Şimali və Cənubi

Qafqazda cərəyan edən dinlə əlaqəli destruktiv proseslərin dinamikasına aydınlıq gətirilir və onlar arasında bağlılıq əsaslandırılır.

## ДЕСТРУКТИВНЫЕ РЕЗУЛЬТАТЫ УСИЛИЙ ПО ПОЛИТИЗАЦИИ РЕЛИГИИ НА КАВКАЗЕ

***Эльгюн Алиев***

### АННОТАЦИЯ

В статье рассматривается связь религии с деструктивными процессами в Кавказском регионе. Анализируется политизация религии, причины ее трансформации в экстремизм и радикализм, ее влияние на конфликты в регионе и другие проблемы. В статье уточняется динамика деструктивных процессов, связанных с религией на Северном и Южном Кавказе и обосновывается связь между ними.

## THE DESTRUCTİVE RESULTS OF EFFORTS TO POLİTİZATİON RELİGİON İN THE CAUCASUS

***Elgun Aliev***

### SUMMARY

The article deals with the connection of religion with destructive processes in the Caucasus region. The politicization of religion, the reasons for its transformation into extremism and radicalism, its impact on conflicts in the region and other problems are analyzed. The article clarifies the dynamics of destructive processes related to religion in the North and South Caucasus and substantiates the connection between them.

# SİYASİ LİBERALİZM VƏ ONUN VƏTƏNDAŞ CƏMİYYƏTİNİ ŞƏRTLƏNDİRƏN ELEMENTLƏRİ

***Əfəndiyeva Xatirə Bəxtiyar qızı***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının dosenti,***
***Abdullayeva Məftunə Rəşid qızı***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının müəllimi***
***xatira-bdu@yandex.ru***

***Açar söz:*** Liberalizm, vətəndaş cəmiyyəti, demokratiya.
***Ключевые слова:*** Либерализм, гражданское общество, демократия
***Keywords:*** Liberalism, civil society, democracy/

Siyasi sahədə liberalizm antik siyasi mədəniyyətdə hakimiyyəti, şəxsiyyətin siyasi azadlıqları və hüquqlarının tanınması ideyalarına əsaslanır. Siyasi liberalizm maarifçilik dövrünün ictimai müqavilə nəzəriyyəsi ilə Kantın hüquq fəlsəfəsinin müddəalarını üzvi şəkildə birləşdirir. Şəxsiyyətin mənəvi cəhətdən azad olması onu cəmiyyət qarşısında mənəvi məsuliyyətdən azad edə bilməz. Liberalizmin siyasi proqramı ictimai həyatda dövlət rolunun məhdudlaşdırılmasına, konstitusiyalı prinsiplərin, parlament demokratiyasının və hakimiyyətin bölünməsinin qərarlaşmasına, vətəndaş cəmiyyəti sferasının genişlənməsinə istiqamətlənmişdir. Siyasi liberalizm yarandığı vaxtdan dövlətə tənqidi münasibəti ilə seçilməklə yanaşı, siyasi məsuliyyət prinsipini, siyasi plüralizmi müdafiə etmişdir. Liberalizmin siyasi konsepsiyasının həll etməyə çalışdığı başlıca problem dövlətin fərdin şəxsi həyatına müdaxiləsinin miqyas və dərəcəsini müəyyənləşdirməkdir.

Demokratiya və azadlığın əlaqələndirilməsi problemi də liberalların qarşısında duran mühüm vəzifədir. Əgər klassik liberallar siyasi həyatın demokratikliyini mexaniki müəyyənləşdirməyə meyl edirsə, neoliberallar dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin pluralist formasına üstünlük verirlər. Siyasi liberalizm yalnız yüksək inkişaf etmiş vətəndaş cəmiyyəti sferasında bərqərar ola bilər. Klassik liberalizm vətəndaş cəmiyyətini hər şeydən əvvəl xüsusi mülkiyyətə və azad bazara əsaslanan iqtisadi cəmiyyət kimi müəyyən edirdi. Vətəndaş cəmiyyəti dövlət tərəfindən əlaqələndirilməyən cəmiyyətdir. Bu cəmiyyətdə assosiasiyalı həyat, yaxud kütləvi sfera (kütləvi hərəkatlar, partiyalar, mənafe qrupları və s.) azad inkişaf edir. Bu elə bir cəmiyyətdir ki, özündə struktur ünsürü kimi dövlət strukturlarını və siyasi strukturları deyil, insanların könüllü formalaşan ilkin birliklərini – ailəni, kooperasiyanı, assosiasiyaları, təsərrüfat şirkətlərini, ictimai təşkilatları, həmkar ittifaqlarını, yaradıcı, idman, etnik və s. birlikləri, habelə sosial birlikləri birləşdirən insan birliyinin daha yüksək mərhələsi və daha mütəşəkkil formasıdır. Cəmiyyətdə mövcud olan qeyri-dövlət, qeyri-siyasi münasibətlərin iqtisadi, sosial, ailə, milli, mənəvi, əxlaqi, dini və s. münasibətlərin məcmusudur. O, insanların istehsal və fərdi həyatda olan adətləri, ənənələri, əxlaqıdır. Azad fərdlərin və onların təşkilatlarının xarici müdaxilədən və dövlət hakimiyyəti tərəfindən onların fəaliyyətini reqlamentləşdirmədən qoruyan özünü təzahür sferasıdır.

Vətəndaş cəmiyyətinin inkişafında 3 mərhələni qeyd etmək olar:

I mərhələ (XVI- XVII əsrlər) vətəndaş cəmiyyəti üçün iqtisadi siyasi və ideoloji zəmin yaratmışdır.

II mərhələ XVIII əsrin sonu XIX əsrin əvvəlləri bu dövrdə liberalizm ideologiyası hakim idi və bu dövrdə bərqərar olunan liberal demokratiyanın tələbi dövlətin fəaliyyətinin cəmiyyətin bütün sahələrdə minimuma endirilməsidir.

Dövlət ancaq qayda qanunun keşiyində dayanmalıdır. Siyasi liberalizm dedikdə ilk növbədə liberal demokratiya nəzərdə tutulur. Siyasi liberalizmin demokratik sistemlərin inkişafında böyük rolu olmuşdur. Nəzəri və praktiki liberal demokratiya siyasətin subyekti kimi fərdi götürür, yəni hakimiyyəti xalqın seçdiyi nümayəndəsi idarə edir və onun qarşısında qoyduğu sual "Necə idarə edir?" sualıdır. Tarixdə ilk dəfə olaraq siyasi liberalizm fərdi cəmiyyətdən, dövlətdən ayırmış və 2 müstəqil sfera kimi dövlət və vətəndaş, konstitusiyalı və təsisatlı hərəkat və bütün vətəndaşların siyasi bərabərliyini elan etmişdir. Siyasi liberalizm ideyalarınn praktiki tətbiqinin ilk vətəni İngiltərə olmuşdur. Burada 1215-ci ildə "Azadlığın Böyük Xartiyası"nın qəbulu və liberalllaşma hərəkatının başlanğıcı qoyulub. Onun əsas məqsədi monarxın hakimiyyətini məhdudlaşdırmaq və şəxsiyyət azadlığını ön plana çəkmək olmuşdur. Belə ki, bu xartiya demokratiyadan uzaq olsa da vətəndaş hüquqları, şəxsi müstəqillik və müdafiə prinsipləri liberal demokratiyanın reallaşmasının təməli hesab oluna bilər. Liberalizm demokratiyanın reallaşmasının əsas tərəfdaları olan C.Lokk, Ş.L.Monteskye və başqaları bütün vətəndaşların siyasi bərabərliyinə və onların dövlət idarəçiliyində iştirakına can atsalar da, mülkiyyətçi sinfin tərəfdarı olmuşlar. Bu səbəbdən demək olar ki, liberal demokratiya antik demokratiyadan əhəmiyyətli dərəcədə fərqlənirdi. Liberal demokratiyanın səciyyəvi əlamətlərini belə sadalamaq olar:

1.Hakimiyyətin subyekti kimi xalqın mülkiyyət sahibləri ilə eyniləşdirilməsi.

2.Şəxsiyyətin muxtariyyətinə üstünlük verilməsi.

3.Vətəndaşların təhlükəsizliyinin təmin edilməsilə dövlət səlahiyyətlərinin məhdudlaşdırılması. 4.Hakimiyyətin bölünməsi.

5.Çoxluğun azlıq üzərində hakimiyyətinə məhdudiyyət qoyulması

III mərhələ - XX əsr, müasir dövr xüsusi yer tutur. Bu dövrün ümumbəşəri sərvətləri və idealar arasında nümayəndəli demokratiya, bazar iqtisadiyyatı, millət ideyası əsas yer tutur. Liberal demokratiya konsepsiyasının başlıca əlaməti nümayəndəli, yəni təmsilçi demokratiyadır. Nümayəndəli demokratiyanın mahiyyəti vətəndaşlarının siyasi qərarların qəbul edilməsində birbaşa deyil, hakimiyyət orqanlarına seçilmiş nümayəndələri vasitəsilə iştirak etməsində ifadə olunur. Nümayəndəli demokratiya zərurəti ölkə ərazisinin böyüklüyü və ya digər obyektiv səbəblər üzündən əhalinin qərarlarının qəbul edilməsi proesində mütəmadi iştirakının qeyri-mümkünlüyündən irəli gəlmişdir.Nümayəndəli demokratiya ideyasını Ş.L.Monteskye və J.J.Russo irəli sürmüşlər. Ş.L.Monteskye siyasi azadlığın özünə məxsus idealını təsvir edir. Onun fikrincə azadlıq fərdin qanunla qadağan edilməyən hər şeyi etməsindədir. Bu vəziyyət hakimiyyətin bütün xalqa məxsus olduğu demokratik respublikada təmin oluna bilər. Ş.L.Monteskyeyə görə demokratiyanı xalqın özünü idarə etməsi ilə eyniləşdirmək olmaz. Onun fiikrincə xalq qərar qəbul etmək hüququna malik olsa da yalnız dövlət hakimiyyəti mənbəyinin daşıyıcısıdır. Çünki düzgün, rasional qərar qəbul etmək üçün o, lazimi siyasi mədəniyyətə, həmçinin vaxta malik deyil. Buna görə də xalq etibarlı və lazimi hazırlıq səviyyəsinə malik adamları seçərək hakimiyyətdə, siyasi qərarları qəbul etməkdə xalqı təmsil etməyi həvalə edir. Dövlətin bilavasitə idarə edilməsi isə məhz xalq tərəfindən seçilmiş nümayəndələr tərəfindən həyata keçirilməsidir.

Vətəndaş cəmiyyəti yalnız yaxşı inkişaf etmiş hüquqi dövlət şəraitində fəaliyyət göstərə bilir. Hüquqi dövlət ideyası ilk dəfə qədim dünyada meydana gəlsə də bu termin 19-cu əsrdə Almaniyada elmə gətirilmişdir. Onun mahiyyəti konstitusiyalı və inzibati hakimiyyət orqanlarının hüquqa tabe olması və onların üzərində hüquqi nəzarətin təmin edilməsidir. Vətəndaş cəmiyyəti və hüquqi dövlətin qarşılıqlı mövcudluğu cəmiyyətin iqtisadi, sosial, siyasi və mədəni sahələrində təzahür edir.

İqtisadi sahədə - bütün mülkiyyət formaları ilə bərabərliyi və inkişafı üçün hərtərəfli şəraitin yaradılması sahibkarlığın inkişaf etdirilməsi, vətəndaşların yaradıcılıq qabiliyyəti və s.;

Sosial sahədə - müxtəlif sosial siniflərin, qrupların, təbəqələrin, zümrələrin bərabərliyi və həmrəyliyi;

Siyasi sahədə - insanların hüquq və azadlıqlarının təmini, onların dövlət və ictimai işlərdə iştirakı, qanunun aliliyi, hakimiyyətin bölünməsi, azad, bərabər, gizli və müstəqil seçki sistemi, çoxpartiyalılıq, yerli özünüidarə;

Mənəvi sahədə - insan fəaliyyətinin və dünyagörüşünün azadlığı, ideya mövqeyi və mənəvi istiqamətinin toxunumazlığı, ideyaların və görüşlərin plüralizm, gerçəkliyə tənqidi meyl, rasionalizm, tolerantlıq və humanism.

Siyasi liberalizm və plüralizmin birlikdə inkişaf etməsinin 3 əsası vardır:

1.İqtisadi plüralizm – şəxsi mülkiyyətin şərtsiz hökmranlığı, bazar iqtisadiyyatı antimonopolizm. İqtisadi plüralizmə görə vergisini verən hər kəs qanun çərçivəsində azad iqtisadi fəaliyyətlə məşğul olur.

2.Siyasi plüralizm - siyasətin iqtisadiyyatdan asılı olmaması, müxalifətin mövcudluğu, çoxpartiyalılıq, hakimyyətin bölünməsi. Siyasətdə plüralizm başlıca partiyaların və təşkilatların qarşılıqlı fəaliyyətinə və qarşıdurmasına əsaslanan hakimiyyət sistemidir. Siyasi plüralizmə görə hər kəsin iqtidara gəlmək haqqı var.

3.Düşüncə və dini plüralizm – bu plüralizm olmazsa, demokratiya da olmaz. İnsanların idrakına, düşüncəsinə, məzhəbinə seçim haqqı tanımaq lazımdır. Demokratiya bir dəyər deyildir, dəyərlərin tətbiq edilmə mexanizmidir. Məsələn İran qanununda yazılır ki, ölkənin məzhəbi şiədir, qanunda belə bir şey yazılmamalıdır. Məzhəbi təyin edən qanun deyil insanların fərdi vicdanıdır. Ona görə də bu ölkədə digər dindən olan şəxsin prezident olmaq imkanı yoxdur.

Cəmiyyətin plüralist təşkili konstitusiyaya əsasən müxtəlif partiya və assosiasiyalar yaratmaq hüququ ilə təmin edilir. XX əsrin sonuncu onilliklərində qərb politoloqları plüralizm prinsiplərini hakimiyyətin icraedici qolunda yaymağa başladılar. Bu dövrdə plüralizm çoxpartiyalı rejimdə nəinki dövlətin nümayəndəli orqanlarının, eləcə də nümayəndəli təsisatların təşkilini tələb edir. Bu nöqteyi-nəzərin tərəfdarları inanırlar ki, ardıcıl pluralist demokratiya müxtəlif siyasi partiyaların, o cümlədən bir-birinə qarşı müxalifətdə olan partiyaların iştirakı ilə koalisiyalı hökümətin yaradılmasını tələb edir. Siyasi həyatın əsas hərəkətverici qüvvəsi olan çoxpartiyalılıq liberal demokratiyanın əsasını təşkil edir. Siyasi partiyaların əsas rol oynadıqları seçkilər dövlət ilə xalq arasında hakimiyyətin bölünməsinin əsas forması sayılır. Beləliklə çoxpartiyalılıq demokratik cəmiyyətin ayrılmaz və ənənəvi tərkib hissəsi sayılır. Siyasi qüvvələrin mexanizmi ilk növbədə təkpartiyalılıq (totalitarizmin əlaməti kimi) demokatiyanın əsasını təşkil edən plüralizmin tam əksi kimi bu nəzəriyyənin əsas tərəfdarları tərəfindən inkar edilir. Reprezentativ eləcə də plüralist demokratiya modellərinin çatışmazlıqlarının tənqidinin güclənməsi 20-ci əsrin ortalarından etibarən yeni bir demokratiya nəzəriyyəsinin – partisipar demokratiya nəzəriyyəsinin meydana gəlməsi ilə nəticələndi. Bu nəzəriyyə iştirak nəzəriyyəsi də adlanır.

Partisipar demokratiya nəzəriyyəsi insanın rasional varlıq olduğunu iddia etməklə onun düzgün və səmərəli qərarlar qəbul etməsi imkanına inamı ifadə edir. Eynilə də xalqın irrasional və kütlə psixologiyasına malik toplu olması iddiası da rədd edilir, xalq rasionallıqdan kənar deyil, səmərəli idarəetmə sistemi yaratmağa qadirdir. Buradan çıxış edərək partisipar demokratiya tərəfdarları demokratiyanın xalq hakimiyyəti ideyasına maksimum uyğunlaşdırılmasına əsaslanan dövlət idarəçiliyi və ictimai quruluş forması yaradılması təklifini irəli sürürlər. Bu nəzəriyyənin əsas tələblərindən biri də odur ki,demokratiya ictimai həyatın təşkilinin ümumi prinsipi kimi cəmiyyətin bütün sferalarında təzahür edir. Şəxsiyyət bütün sahələrdə ictimai proseslərdə idarəçilik işlərində fəal iştirak etməklə rasional varlıq kimi özünün

yüksək mənəvi-siyasi keyfiyyətlərini reallaşdırmaq imkanına malik olmalıdır. İdarəetmə prosesində fərdlərin iştirakının yüksək səviyyəsi xalqın mənafeyinin maksimum nəzərə alınmasının ilkin şərtini təşkil edir. Partisipar demokratiya nəzəriyyəsində diqqəti cəlb edən cəhətlərdən biri də xalqın nəzarət funksiyasının artması, onun siyasi iştirakçılığın vacib ünsürü kimi qəti şəkildə qərarlaşması hesab olunur. Bu cəhətlərlə yanaşı, tarixi təcrübə partisipar demokratiya modelinin bəzi neqativ cəhətlərini də aşkara çıxarıb. Belə ki, bu demokratiya cəmiyyətin kütləvi şəkildə siyasiləşməsi nəticəsində totalitarizm mövqelərinə yuvarlanması təhlükəsi yaradır. Siyasi liberalizm ideyalarını özündə əks etdirən əsas təsisatlar məhz liberal siyasi təşkilatlar və partiyalardır.

XX əsrin sonları üçün dünyada baş vermiş bir sıra proseslər bəşəriyyətin inkişafında yeni dövrün başlanğıcını qoymuşdur. Məhz bu yeni dövr 1989-cu ildə Avropada kommunist rejimlərin süqut etməsi nəticəsində liberalizmin əbədi erasının başladığı dövrdür. Belə ki, bir tərəfdən dünyada qloballaşma tendensiyaları geniş vüsət almış, digər tərəfdən isə yenicə müstəqilliyə çıxmış dövlətlərin öz idarəçilik sistemlərini demokratik dəyərlərə əsaslanaraq qurmağa çalışması nəticə etibarı ilə demokratikləşmə prosesini daha da sürətləndirmişdir. Yenicə müstəqillik əldə etmiş dövlətlərdə təsisatların yaradılması və fəaliyyət göstərməsi prosesində liberal-demokratik dəyərlər böyük rol İnsanların bərabərlik və azadlıqlarını bəyan etmiş liberalizm ideologiyası bəşəriyyətin inkişafına böyük töhfə vermişdir. İntibah və Reformasiyadan qaynaqlanan liberalizm müasir dünyanın ən önəmli siyasi doktrinasıdır. Demokratiya və millətçilik liberal düşüncənin məhsuludur. Demokratiya və azadlığın əlaqələndirilməsi problem liberalların qarşısında duran ən mühüm vəzifədir. Əgər klassik liberallar siyasi həyatın demokratikliyini müəyyənləşdirməyə meyl edirdisə, neoliberallar dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsini plüralist formasına üstünlük verirlər. . Hər bir demokratik modelin müsbət və mənfi cəhətləri vardır. Həmçinin liberal demokratiya modeli bu baxımdan istisna təşkil etmir. Burada Uinston Çörçilin bir gözəl ifadəsini diqqətinizə çatdırmaq istəyirəm. “Demokratiyanın çoxlu çatışmayan cəhətləri ilə yanaşı bir müsbət tərəfi var ki, ondan yaxşı rejim kəşf edilməyib.

## ƏDƏBİYYAT

1. H.Şirəliyev, Ə.Əhmədov Politologiya, Bakı, 2014
2. M.Əfəndiyev, Politologiya, Bakı, 2011
3. M.Əfəndiyev Siyasi - Hüquqi Təlimlər Tarixi, Bakı, 2009
4. Siyasi biliklərin əsasları «İnam» plüralizm mərkəzi, Bakı, 1999
5. Dilqəm İsmayılov, Liberalizm, Bakı, 2013
6. Hikmət Hacızadə, Demokratiya: Gediləsi uzun bir yol, Bakı, 2002
7. Robert Dal, Demokratiya haqqında, Bakı, 2004
8. Liberallaşma və Leninçi irslər Demokratik keçidlər müqayisəli perspektivlər.
Bakı, 2005

# SİYASİ LİBERALİZM VƏ ONUN VƏTƏNDAŞ CƏMİYYƏTİNİ ŞƏRTLƏNDİRƏN ELEMENTLƏRİ

*Əfəndiyeva Xatirə, Abdullayeva Məftunə*

## XÜLASƏ

Liberalizm konsepsiyasının həll etməyə çalışdığı başlıca problem dövlətin fərdin şəxsi həyatına müdaxiləsinin miqyas və dərəcəsini müəyyənləşdirməkdir. Demokratiya və azadlığın əlaqələndirilməsi problemi də liberalların qarşısında duran mühüm vəzifədir. Siyasi liberalizm yalnız yüksək inkişaf etmiş vətəndaş cəmiyyəti sferasında bərqərar ola bilər. Klassik liberalizm vətəndaş cəmiyyətini hər şeydən əvvəl xüsusi mülkiyyətə və azad bazara əsaslanan iqtisadi cəmiyyət kimi müəyyən edir. Vətəndaş cəmiyyəti dövlət tərəfindən əlaqələndirilməyən cəmiyyətdir. Bu cəmiyyətdə assosiasiyalı həyat, yaxud kütləvi sfera (kütləvi hərəkatlar, partiyalar, mənafe qrupları və s.) azad inkişaf edir. Bu elə bir cəmiyyətdir ki, özündə struktur ünsürü kimi insanların könüllü formalaşan ilkin birliklərini – ailəni, kooperasiyanı, assosiasiyaları, təsərrüfat şirkətlərini, ictimai təşkilatları, həmkar ittifaqlarını, yaradıcı, idman, etnik və s. birlikləri birləşdirir.

# ПОЛИТИЧЕСКИЙ ЛИБЕРАЛИЗМ И ЕГО ОБУСЛАВЛИВАЮЩИЕ ЭЛЕМЕНТЫ ГРАЖДАНСКОГО ОБЩЕСТВА

*Эфендиева Хатира, Абдуллаева Мафтуна*

## АННОТАЦИЯ

Основная проблема, которую пытается решить концепция либерализма, - это определение значения и степени государственного вмешательства в частную жизнь человека. Проблема увязки демократии и свободы также является важной задачей для либералов. Политический либерализм может установиться только в сфере высокоразвитого гражданского общества. Классический либерализм определяет гражданское общество как экономическое общество, основанное в первую очередь на частной собственности и свободном рынке. Гражданское общество - это общество, которое не координируется государством. В этом обществе свободно развиваются ассоциативная жизнь или массовая сфера (массовые движения, партии, группы по интересам и т. Д.). Это такое общество, которое как структурный элемент включает в себя добровольные первичные объединения людей - семью, кооперацию, ассоциации, хозяйственные общества, общественные организации, профессиональные союзы, творческие, спортивные, этнические, а также объединяет другие общества (ассоциации).

# POLITICAL LIBERALISM AND ITS DISGRACED ELEMENTS OF CIVIL SOCIETY

*Efendieva Khatira, Abdullaeva Maftuna*

## SUMMARY

The main problem, which is trying to decide the concept of liberalism, is the definition of the meaning and degree of state intervention in the private life of man. The problem of binding democracy and freedom is also an important task for liberals. Political liberalism can be established only in the sphere of highly developed civil society. Classical liberalism defines civil society as an economic society based primarily on private ownership and a free market. Civil society is a society that is not coordinated by the state. In this society, associative life or mass sphere (mass movements, parties, interest groups, etc.) develop freely. It is such a society, which as a structural element includes in itself the voluntary primary associations of people - family, cooperation, association, economic society, public organization, trade union, creative, social, creative, creative, creative, creative, creative.

# AVROPA-QFQAZ-ASİYA BEYNƏLXALQ NƏQLİYAT DƏHLİZİ

***İbrahimov Şikar Mürşüd oğlu, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun***
***"Beynəlxalq Münasibətlər və İnsan Hüquqları" şöbəsinin aparıcı elmi işçisi***
*ibrahim.shikar@gmail.com*

***Açar sözlər:*** TRASECA Layihəsi, İpək Yolu, Avropa, Asiya, nəqliyyat dəhlizi.
***Ключевые слова:*** Проект TRASECA, Шелковый путь, Европа, Азия, транспортный коридор.
***Keywords:*** TRASECA, Sik way, Europe, Asia, transport corridor.

Asiya və Avropa arasında ticarət əlaqələrinin dərin tarixi kökləri vardır. İpək Yolları min illər boyunca bəşər sivilizasiyasının tərəqqisini təşviq etmiş və keçdiyi ölkələrdə rifahın artmasına və inkişafa səbəb olmuşdur. Çin, Hindistan, Yaxın Şərq və Avropanın əsas ticarət mərkəzləri arasında quru ticarət əlaqələrini təmin edən bu uzun məsafəli ticarət marşrutları Avropa və Asiyada sivilizasiyaların əsas mərkəzləri arasında mədəniyyət və texnologiya mübadiləsi üçün dəyərli kəmər kimi xidmət etmişdir.

Amma yarım minil əvvəl quru marşrutları boyunca tariflərin və təhlükələrin artması Orta Asiya və Qazaxıstan ərazisindən uzaq keçən Şərqlə Qərb arasında dəniz yollarının açılmasına şərait yaratdı. Orta Asiyanın ticarət mərkəzi kimi rolu azalaraq yox oldu. Orta Asiya əmirliklərinin iqtisadi və intellektual tənəzzülü regionu daha da təcrid etdi və bu təcrid Rusiya və Britaniya Hindistanının imperiya həvəsləri və qitənin mərkəzi uğrunda rəqabəti ilə daha da gücləndi. Sovet İttifaqının qurulması ilə bir vaxtlar Orta Asiyanı müəyyən edən qədim və şaxələndirilmiş marşrutlar Moskva ətrafında cəmləşmiş tək bir mərkəzi nəqliyyat sistemi ilə əvəz edildi.

Ancaq son iki onillik ərzində dünya ticarətində sürətli artım, təkmilləşdirilmiş texnologiya və yanacaq təminatı səbəbilə nəqliyyat xərclərinin azaldılması, kommunikasiya sahəsində təkmilləşmə, 1980-ci illərdən başlayaraq Çinin xarici dünyaya açılması, Sovet İttifaqının süqutu və Çinin qərb sərhədində ticarətə investisiya qoyma qərarına gəlməsi kimi bir sıra müvafiq amillər Avrasiya qitəsi boyunca quru ticarətinin yenidən canlanması üçün yeni imkanlar yaratmışdır. (8)

Hal-hazırda milli dirçəliş ərəfəsində olan Çin, artıq dünyanın ən böyük ikinci iqtisadiyyatı, ən böyük sənayeləşmiş xalqı, ən böyük ixracatçı ölkəsi və ən geniş valyuta ehtiyatlarına malik olan ölkəsidir. Bundan əlavə, Çin 128 ölkənin ən böyük ticarət tərəfdaşıdır. Cari proqnozlara görə, Çinin iqtisadi artımı qlobal iqtisadi artımın təqribən üçdə birini təşkil etməkdədir. Bu səbəblə də dünya iqtisadiyyatı artıq Asiya iqtisadiyyatının performansından, Asiya iqtisadiyyatı isə Çin iqtisadiyyatının performansından asılı hala gəlmişdir. Belə ki, Asiyada iqtisadi artımın yarıdan çoxu Çinin payına düşməkdədir. Çin artıq qlobal iqtisadiyyatın bərpasında mühüm amil hesab olunur və buna görə də beynəlxalq və regional məsələlərdə əvəzsiz bir oyunçuya çevrilmişdir. (15)

Bu çərçivədə Çinin Qərblə və fərqli soğrafiyalarla rabitə və əməkdaşlığının simvolu olan İpək Yolları öz tarixi perspektivi ilə "sülh, inkişaf, əməkdaşlıq və qarşılıqlı faydanın vurğulandığı yeni bir dövr olan 21-ci əsrdə, dünya iqtisadiyyatının zəif bərpası və kompleks beynəlxalq və regional vəziyyətlər qarşısında" yeni üfüqlər açmaqdadır.

Orta Asiya və Qafqaz üzərindən Avropa və Asiya arasında ticarət və nəqliyyat damarlarının bərpası məqsədilə bir sıra əlamətdar təşəbbüslər başladılmışdır. Bu təşəbbüslərin arxasındakı əsas hədəf, regionun dənizə çıxışı olmayan yeni dövlətlərini öz qonşuları və tarixi ticarət

tərəfdaşları ilə yenidən əlaqələndirərək Asiyanın mərkəzini Asiya ilə Avropanı birləşdirən quru dəhlizə çevirməkdir. Bu təşəbbüslərdən ilk ortaya atılanı Avropa İttifaqının uzaqgörən lakin zəif həyata keçirilmiş TRASEKA (Transport Corridor Europe-Caucasus-Asia / Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) layihəsi olmuşdur.

Məhz Aİ-nın 1998-ci ildə Bakıda "Tarixi İpək Yolunun Bərpası" mövzusundakı konfransından sonra "Yeni İpək Yolu" termini tədricən müxtəlif layihələrdə istifadə edilməyə başlanmışdır. Son illərdə isə bir neçə əsas təşəbbüs ağırlıq qazandı. ABŞ-ın 2010-cu ildə irəli sürdüyü Yeni İpək Yolu (NSR) təşəbbüsü hələ ki, Prezident səviyyəsində dəstək ala bilməmişdir. 2013-cü ildə Çin özünün geniş "Bir Kəmər Bir Yol" (One Belt One Road / OBOR) təşəbbüsünün bir hissəsini təşkil edən İpək Yolu İqtisadi Kəməri layihəsini irəli sürmüşdür. Bu yaxınlarda isə Hindistan baş naziri Narendra Modinin regiona səfərindən sonra Hindistan da özünün Avrasiyanın inkişaf etməkdə olan nəqliyyat şəbəkəsi versiyasını hazırlamağa başlamışdır. Pakistan da oxşar, ancaq hələ razılaşdırılmamış bir kurs təqib etməkdədir.(8)

Bütün bu layihələr Avrasiya qitəsində uzunmüddətli inkişafa dair təhlillərdən əldə edilən nəticələr işığında formalaşmaqdadır. Bu təhlillərdən ən mühümü Çin və Hindistanın demoqrafik inkişafıyla bağlıdır. Məsələn, demoqrafik inkişaf xüsusiyyətlərinə görə Çin 1970-ci illərin Yaponiyası ilə oxşar xüsusiyyətlər daşıyır. Bu isə Çini varlanmaqdan əvvəl yaşlanmaq təhlükəsiylə üz-üzə qoymaqdadır. Çinin yaşlanacaq qədər çox yaşamasının iqtisadi yükü də bir o qədər ağır olacaqdır. Bu təxminlərə görə Hindistan yarımqitəsinin Çinlə arasındakı demoqrafik üstünlükdən faydalanaraq əsas iqtisadi güc kimi 2040-cı ilədək yüksəlişi ehtimal olunur. Bu isə gələcəkdə Avropa, Qazaxıstan və digər Orta Asiya dövlətləri ilə Hindistan yarımqitəsi arasında İpək Yolu dəhlizinin çox mühüm, lakin ayrı bir istiqamətini təşkil edəcək olan birbaşa və səmərəli tranzit dəhlizlərinin açılmasını zəruri edəcəkdir. Ancaq yenə də təhlillər 2020-ci ildə alıcılıq qabiliyyəti ölçüsünə görə 12 başlıca qlobal iqtisadiyyatdan 5-inin Asiya ölkəsi olacağını göstərir. Başda Çin bir nömrəli iqtisadi güc olmaqla, Hindistan, Yaponiya və ASEAN ölkələri bu siyahıda yer aldığı üçün bu əsrin Asiya əsri olacağı ehtimal olunur.(16)

**Avropa İttifaqı və TRACECA layihəsi**

Avropa İttifaqı beynəlxalq nəqliyyatın təkmilləşdirilməsi vasitəsilə Qara dəniz regionunda, Qafqaz və Orta Asiyada siyasi və iqtisadi inkişafı dəstəkləmək məqsədilə 1993-cü ildə TRACECA proqramını başlatdı. Proqramın hədəfi Qara dəniz, Qafqaz, Xəzər dənizi və Orta Asiya vasitəsilə Avropadan Çinə bir nəqliyyat dəhlizinin yaradılmasıydı (16).

Bu çərçivədə Aİ Azərbaycan və Gürcüstan arasında sərhəd keçid məntəqələrinin yenidən bərpası, yükdaşıma ekspeditorlarının hazırlanması və müqavilələrin asanlaşdırılması da daxil olmaqla, müxtəlif sahələrdə texniki yardım və investisiya layihələri həyata keçirmişdir. Quru yoluyla ticarət əlaqələri bu region ölkələri üçün böyük potensial fayda vəd edir. Ancaq yaranacaq olan kontinental nəqliyyat şəbəkəsi Avropa, Qafqaz və Orta Asiya ölkələrinin, gələcək fürsətləri qabaqcadan görmək və onlardan faydalanmaq üçün mövcud sazişlərini, onların güclü tərəflərini və onlardan irəli gələn məhdudiyyətləri açıq şəkildə müəyyənləşdirmələrini tələb edir.

Avropa və Asiyanı birləşdirən ticarət marşrutlarının yenidən bərpası xüsusilə Orta Asiya ölkələri üçün böyük fayda təmin edəcəkdir. Region ölkələri ilə Çin arasında quru ticarətinin cari və potensial faydaları göz qabağındadır. Sadəcə Orta Asiya ölkələi ilə Çin arasındakı ticarət həcmi 2000-ci ildə 1.8 milyard dollar olduğu halda, 2013-cü ildə bu rəqəm 50 milyard dollara çatmışdır. Onu da nəzərə almaq lazımdır ki, Avropadan Çinə daşınan yüklərin təxminən 90%-i Süveyş kanalı vasitəsilə gəmi ilə nəql olunur; qalan yüklərin əksəriyyəti Orta Asiyada dayanmadan hava yoluyla daşınır. (6)Orta Asiyanı kəsib keçən quru dəhlizlər dəniz marşrutları ilə müqayisədə daha qısa, lakin hal-hazırda səmərəsiz və bəzi hallarda nisbətən bahadır. Hal-hazırda böyük və ağır obyektlər, yavaş ancaq nisbətən ucuz dəniz yollarıyla nəql olunur, sürətli

lakin bahalı hava nəqliyyatı isə həmişə kiçik və yüngül obyektlər üçün istifadə olunur. Bu isə dəniz yollarından daha sürətli, hava nəqliyyatından isə daha ucuz olan quru nəqliyyatı üçün böyük, lakin qarşılanmamış bir ehtiyac yaratmışdır.

Yeni İpək Yollarının əsas hərəkətverici qüvvəsi də elə məhz Avropa İttifaqı və Çin arasında genişlənməkdə olan bu ticarətdir. 2002-ci ildən 2013-cüılədək Aİ ilə Çinin qarşılıqlı ticarət həcmi 93 milyard dollardan 560 milyard dollara çatmışdır. Ancaq Çin ilə Avropanın tərəfdaşlığı balanslı deyil. İkitərəfli ticarətdə balans 1997-ci ildən bəri Çinin xeyrinə olmuşdur. Çin və Aİ-nın fərqli sosial, iqtisadi və demokratik modelləri, eləcə də onların müvafiq demoqrafik və təbii ehtiyatları bu iki region arasında ticarət disbalansının yaranmasında böyük rol oynamışdır. Eurostatın son ticarət rəqəmlərinə görə də, Çin ilə Avropa arasında ticarət kəsiri kəskin surətdə artmışdır.

Avropa emalat sənaye təşəbbüsü olan AEGIS Avropaya görə bunun səbəbi Çin hökuməti tərəfindən Çin müəssisələrinə subsidiyaların artırılması və dəstəyidir.(10) Belə ki, Çin planlı iqtisadiyyat olaraq öz sənayesinə milyardlarla avro dəyərində subsidiya ayırır və kütləvi Çin ixracatını maliyyələşdirir. Bu isə Çin ilə Avropanın tərəfdaşlıq balansına mənfi təsir göstərir.

Çin ABŞ-dan sonra Aİ-nın ikinci ən böyük ticarət tərəfdaşıdır. Aİ Çinin ən böyük ticarət tərəfdaşıdır. 2012-ci ildə Aİ-27 ilə Çin arasında 90 milyon tondan artıq əmtəə mübadiləsi həyata keçirilmişdir. Orta Asiya boyunca kontinental ticarət və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsinin əsas məntiqi, hər şeydən əvvəl, bu artan ticarətdən bir pay əldə etməkdir. Quru əlaqələr üzərində ticarət həcminin artması nəqliyyat xərclərinin azaldılmasına və beləliklə bu ticarət marşrutunun rəqabətinin artmasına kömək edəcək və nəqliyyat və logistika şirkətlərini bu marşrutlardan daha çox istifadə etməyə cəlb edəcəkdir. Həm Çin, həm də Şərqi və Mərkəzi Avropa iqtisadiyyatlarının böyüməsi bu ticarət artımına təkan vermişdir. Məsələn, Sintszyan-Uyğur Muxtar Rayonunda 1991-ci ildən bəri 10% orta artım tempi qeydə alınmışdır.

Şərqi və Mərkəzi Avropa ölkələri isə 2000-2008-ci illər arasında təxminən 5% böyümüşdür. Bu amillər quru ticarət və nəqliyyat əlaqələrinin potensialının getdikcə daha da yaxşı dərk edilməsinə gətirib çıxarmışdır. Yeni İpək Yolu boyunca Avropa və Asiya arasında daha yaxşı rabitənin və təkmilləşdirilmiş nəqliyyat potensialının dəyəri tez-tez qeyd olunur. Avropa İttifaqı Şurası, trans-Avropa şəbəkələrinin təcrübəsinə əsaslanaraq, quru nəqliyyatının artıq Asiya-Avropa əməkdaşlığında “prioritetə” çevrildiyini qeyd etmişdir. (8)

Uzun illər TRASEKA-nın zahirən hərəkətsiz qalmasına icazə verən Aİ, indi layihəni yenidən canlandırmış və bu istiqamətdə əhəmiyyətli nəticələr əldə etmişdir. 2007-ci ildə Avropa Komissiyası “Qabaqcıl Dəmiryolu Yükdaşımaları Konsepti ilə Nəqliyyat Şəbəkələrinin Yenidən Təşkili”nə (RETRACK) başlamışdır. RETRACK layihəsinin əsas məqsədi Qara dəniz ilə Şimal dənizini mütəmadi və etibarlı qatar xidməti ilə birləşdirməkdir.(4) Ancaq qlobal iqtisadi və ticari inkişaf istiqamətləri nəzərə alınaraq RETRACK dəhlizinin inkişafı daha geniş kontinental perspektivə yayılmışdır. Belə ki, dəhlizin Çinədək uzadılması potensialı nəzəri cəhətdən müxtəlif variantlarda ortaya qoyulmuş və Çinlə Avropa arasında dörd əsas rəqib quru dəmir yolu dəhlizləri müəyyənləşdirilmişdir:

1)Trans-Sibir Marşrutu: Şimal Şərqi Çindən başlayaraq, Monqolustan və Orta Asiyadan keçmədən birbaşa şimal istiqamətində Rusyaya keçərək Moskvada bitən və əlavə bağlantılarla Belarus vasitəsilə mərkəzi Polşa və Avropayadək uzanan marşrut;

2) Trans-Sibir-Qazaxıstan Marşrutu: Qərbi Çində başlayaraq Qazaxıstandan keçən və Rusiyada Trans-Sibirə qoşulan marşrut;

3) TRASEKA-Türkmənbaşı Marşrutu: Qərbi Çində başlayaraq Qazaxıstan, Özbəkistan və Türkmənistandan keçən və sonra Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Qara dənizdən

keçərək Rumıniyada sona çatan marşrut (buna paralel bir marşrut isə yalnız Qazaxıstan ərazisindən keçərək Aktau limanından Xəzər dənizinin qarşı tərəfini birləşdirir);

4) Mərkəzi Dəhliz: Qərbi Çində başlayaraq Qazaxıstan vasitəsilə qərbə doğru irəliləyən, oradan cənubdan Rusiyaya keçən və oradan Ukraynayadək davam edən və Slovakiada sona çatan marşrut. (8)

Qeyd edildiyi kimi, RETRACK layihəsinin əsas məqsədi, Avropanın Çinin qərb bölgələrinə birləşdirilməsini diqqət mərkəzində tutaraq, Şimal dənizini Qara dəniz ilə birləşdirmək idi. Bu proqram indi dayandırılmış kimi görünsə də, RETRACK layihəsi indiyədək Çin və Avropa arasında quru dəmir yolu nəqliyyatının potensialını ciddi tədqiq edən yeganə layihədir. Tədqiqat belə bir nəqliyyat yolu üçün üç potensial Avropa mərkəzi müəyyən etmişdir: Bratislava, Budapeşt və Buxarest. Bu üç mərkəzdən başlayacaq dəmir yollarının, Urumçidə bir mərkəz kimi xidmət edəcək yeni bir konteyner terminalı da daxil olmaqla, Çinə daha çox bağlanması nəzərdə tutulub. Bu hədəflər Qara dəniz və Xəzər dənizi ərazilərindən gələcək olan nəqliyyatın tənzimlənməsi üçün Cənubi və Şərqi Avropa dəniz limanlarının daha çox istifadəsini təşviq edən Avropa Giriş Platforması ilə birləşdirilir. (8)

Aİ və Çin arasında daimi ticarət həcminin təxmini əsasında, fiziki və institusional maneələr ortadan qaldırıldığı təqdirdə, Trans-Sibir Marşrutu (TSR) və Trans-Qazaxıstan Dəhlizinin hər birinin 2020-ci ildə ümumi Aİ-Çin nəqliyyat həcminin təqribən 8%-ini həyata keçirmə potensialına malik olduğu ortaya qoyulmuşdur. TRASEKA dəhlizi isə bu modelə görə, əksinə, bu marşrut boyunca bir çox maneələr səbəbilə, ümumi nəqliyyat həcminin yalnız təxminən 1%-ini yerinə yetirmə potensialına malikdir. Qazaxıstan Dəhlizi Trans-Sibir Marşrutundan biraz daha cəlbedici olmaqla yanaşı, Trans-Sibir Marşrutu və Trans-Qazaxıstan Dəhlizi hal-hazırda ən cəlbedici marşrutlardır.

Kontinental ticarətin uğurlu inkişafı Avropa İttifaqı ilə Orta Asiyanın tranzit ölkələri arasında sıx və səmərəli koordinasiyanı tələb edir. Belə bir koordinasiya ölkələrin ümumi maraqları əsasında olmalı və bu maraqlar yalnız ticarət baxımından dar çərçivədə deyil, bu ölkələrin iqtisadiyyatlarının təqribən bütün sektorlarında, diversifikasiya, dövlət qurumları, milli və regional təhlükəsizlik və demoqrafiya da daxil olmaqla, Avrasiya quru dəhlizlərinin açılmasının təsir edəcəyi bütün məsələlərdə müəyyənləşdirilməlidir.

## ƏDƏBİYYAT


1. Andrew C. Kuchins, ed., The Northern Distribution Network and the Modern Silk Road: Planning for Afghanistan’s Future, Center for Strategic and International Studies, December 2009, p. 29, http://csis.org/files/publication/091217
2. http://www.aegiseurope.eu/news/eu-2015-trade-deficit-with-china-booms-by-more-than-40-billion-to-record-high
3. Joshua Kucera, The New Silk Road?, The Diplomat, November 11, 2011, http://thediplomat.com/2011/11/the-new-silk-road/
4. Davydenko I., et al., Potential for Eurasia land bridge corridors & logistics developments along the corridors, EUROPEAN COMMISSION DG TREN, May 2007 – July 2012, p. 11. https://www.tno.nl/media/2825/
5. Prospects and challenges on China’s ‘one belt, one road’: a risk assessment report, The Economist Intelligence Unit Limited 2015, p. 2.
6. Francis Fukuyama, Whose global development model will prevail – the West's or China's?, 13 January 2016, http://www.weforum.org/

7. Remarks on India and the United States: A Vision for the 21st Century, Hillary Rodham Clinton, Secretary of State, Chennai, India, July 20, 2011, http://www.state.gov/secretary/
8. S. Frederick Starr, ed., "The EU, Central Asia, and the Development of Continental Transport and Trade", Silk Road Paper, Central Asia-Caucasus Institute & Silk Road Studies Program, Singapore, 2015, p. 30, http://www.isdp.eu/images/
9. REPORT on EU-China relations, (2015/2003(INI)), Committee on Foreign Affairs, Rapporteur: Bastiaan Belder, A8-0350/2015, RR\1080514EN.doc, 8/22. http://www.europarl.europa.eu/side/
10. European Parliament resolution of 23 May 2012 on EU and China: Unbalanced Trade? (2010/2301(INI)), C 264 E/35, http://eur-lex.europa.eu
11. http://geopolitics.co/2015/03/20/chinas-one-beltone-road-policy-is-open-to-all-nations/
12. http://www.economist.com/news/special-report/21663326-chinas-latest-wave-globalisers-will-enrich-their-countryand-world-new-silk-road
13. Vision and Actions on Jointly Building Silk Road Economic Belt and 21st-Century Maritime Silk Road, Issued by the National Development and Reform Commission, Ministry of Foreign Affairs, and Ministry of Commerce of the People's Republic of China, with State Council authorization, March 2015. http://en.ndrc.gov.cn/newsrelease/201503/
14. https://ec.europa.eu/europeaid/regions/central-asia/eu-support-transport-development-central-asia_en
15. Wang Yi, Peaceful Development and the Chinese Dream of National Rejuvenation, China International Studies January/February 2014 p17-44, http://www.ciis.org.cn/english/
16. The Rise of China, A talk by Robert Ward, Country Publishing Director, The Economist Intelligence Unit Limited 2013, p. 3, http://www.reigroup.com.my/wp-content/uploads/pdf/resources
17. https://tr.railturkey.org/2015/12/14/cin-avrupa-baglantisinda-rusya-ve-turkiye/
18. http://www.bjreview.com/special/2015-03/23/content_679102.html
19. http://english.cntv.cn/special/newleadership/chinesedream05.html
20. Chen Xulong, In Pursuit of the "World Dream": The progress and prospects of China's Promotion of a harmonious world, CIIS Report, China Institute of International Studies, No. 2 - December 2013, p. ii. http://images.china.cn/gyw/in%

# AVROPA-QFQAZ-ASİYA BEYNƏLXALQ NƏQLİYAT DƏHLİZİ

***İbrahimov Şikar***

## XÜLASƏ

Avropa ilə Asiya arasında ticarət, iqtisadi və mədəni əlaqələrin tarixi kökləri var. Çin milli yeniləşmə ərəfəsindədir, dünyanın ikinci iqtisadiyyatı, hazırkı mərhələdə əhəmiyyətli maliyyə ehtiyatlarına malik ən böyük ixracatçı ölkədir. Bu baxımdan İpək Yolu Çin-Avropa əməkdaşlığının simvoludur və tarixi perspektivləri olan yeni sərhədlər açır. TRASECA ideyası əvvəlcə Aİ-nin uzunmüddətli siyasəti ilə təklif edilmiş və zəif həyata keçirilmişdir. Bu layihənin əsas məqsədi regionun dənizə çıxışı olmayan yeni ölkələrini qonşuları və tarixi dəstəkçiləri ilə birləşdirmək, Asiya mərkəzini Asiya ilə Avropanı birləşdirən quru dəhlizinə çevirməkdir.

# МЕЖДУНАРОДНЫЙ ТРАНСПОРТНЫЙ КОРИДОР ЕВРОПА-КАВКАЗ-АЗИЯ

***Ибрагимов Шикар***

## АННОТАЦИЯ

Торгово-экономические и культурные связи между Европой и Азией имеют исторические корни. Китай находятся на пороге национального обновления, это вторая экономика мира, крупнейшая страна-экспортер, обладающая значительными финансовыми резервами на современном этапе. В этом отношении Шелковый путь является символом китайско-европейского сотрудничества и открывает новые рубежи с историческими перспективами. Идея о TRASECA изначально была предложена долгосрочной политикой ЕС и плохо реализована. Основная цель этого проекта – соединить новые страны региона, не имеющие выхода к морю, с соседями и историческими сторонниками, превратить азиатский центр в сухопутный коридор, соединяющий Азию и Европу.

## TRANSPORT CORRIDOR EUROPE –CAUCASUS –ASIA

***İbrahimov Shikar***

## SUMMARY

Trade-economic and culture ties between Europe and Asia have historical roots. China is on the threshold of national renewal, the second economy of world, the biggest exporter country, owner a lot of financial reserves at the present stage. In this regards, the Silk way is a symbol of Chinese-European collaboration opens new frontier with historical perspectives. Idea about TRASECA firstly was proposed by long-term policy of EU and realized poorly. The main goal for this project, to connect new region countries which have not access to the sea with neighbors and historical supporters, to transform Asian center to land corridor connecting Asia and Europe.

# MÜNDƏRİCAT

## FƏLSƏFƏ


***Daxil Vəliyev.*** Nizami Gəncəvinin humanist ideyaları ............ 3
***Bilal Əlizadə.*** Tarix fəlsəfəsinin təşəkkülü və tarixi mərhələləri ............ 8
***Махмудова Севда.*** Армянский фашизм: краткий экскурс в историю ............ 13
***Yusifova Gülnarə.*** Əxlaqi və hüquqi şüur ............ 20
***Фараджева Фидан.*** Гендерные отношения в контексте межкультурного диалога............ 26
***Вейсова Самира.*** Хагани Ширвани о Кафияддине Омар ибн Османе ............ 34
***Babayev Elvin.*** XX əsrin əvvəllərində irəvanda türk əhaliyə qarşı törədilmiş soyqırımlar "Erməni-Müsəlman davasi" kontekstində ............ 38
***Абдуллаева Роя.*** Особенности становления проблемы человека в исламской философии в средние века ............ 43
***Əliyev Rəvan.*** İnsan -təbiət münasibətlərinə tarixi baxış ............ 50


## SOSİAL İŞ


***Abbasova Mətanət.*** Pensiyalar və onların Azərbaycandakı son durumu ............ 54
***Cavadova Aygün.*** Azərbaycan ailəsində kişi və qadınların statusu: müqayisəli təhlil ............ 60
***Fəxriyyə Hüseynova.*** Uşaqların və yeniyetmələrin cinayətə cəlb olunmasında ailənin rolu ...... 65
***Hacıyev Elxan.*** Sosial dövlət, onun modelləri, prioritetləri və əlamətləri ............ 73
***Mədinə Əsgərzadə.*** Azərbaycanda övladlığa verilmə ilə bağlı hüquqi baza ............ 77
***Hüseynzadə Nərmin.*** Təhsil sahəsində gender əsaslı ayrı-seçkilik və bərabər imkanın təşviqi ............ 81
***Əzizova Həmidə.*** Ailədə uşaqların sosiallaşmasına təsir edən amillərin elmi təhlili ............ 88
***Rəcəbəli Əliyev*** Azərbaycanda ahillarin sosial həyata cəlb edilməsi xüsusiyyətləri və yolları ............ 94
***Qasımov Babək.*** Ailə münaqişələri və onların həlli yolları ............ 100
***Айиша Мирзоева.*** Развод как социальная проблема ............ 104


## SOSİOLOGİYA


***Vahidov Fazil.*** Qarabağ: işğaldan azad olunmuş ərazilərdə sağlam ekoloji mühit qərarlaşır ..... 109
***İsgəndərov Yadigar.*** Müasir dünyada sosial dövlət modelləri ............ 115
***Rza Xaqan.*** Siyasi mədəniyyətin formalaşmasında KİV-in rolunun öyrənilməsi yolları ............ 121
***Метелёва Евгения.*** Катастрофы техногенного фактора ............ 127
***Дамирова Эльвира*** Влияние досуга на развитие личности ............ 140
***Халилова Фарах*** Международное право и международная мораль в условиях глобализации ............ 143
***Əzizov Bəşir*** Kibercinayət kateqoriyaların təməl əsasları ............ 147
***Cəlilova Könül.*** Müasir Azərbaycan cəmiyyətinin dəyişməz həyat tərzi kimi multikulturalizm ............ 151
***Nurşən Bayramova.*** Azərbaycanda demoqrafik vəziyyətdəki dəyişikliklər ............ 155

## FİLOLOGİYA

***Gülarə Əliyeva.*** Həsənəli Ağa Xan Qaradağski (Qaradaği) şeirlərində əsas mövzular ............... 158
***Микаил Джафаров, Азиза Фейзиева.*** О работе над тематически связанными лексическими группами на занятиях рки ........................................................................ 164
***Samirə Gəncəli.*** Mirzə Mehdi Naci şeirlərinin mövzu dairəsi və janr xüsusiyyətləri barədə .....169
***Микаил Джафаров, Наиля Мир-Бабаева.*** О некоторых приёмах организации лексического материала в учебном процессе ......................................................... 175
***Könül Əliyeva.*** Mirzə Ələkbər Səburi poeziyasinin səciyyəvi xüsusiyyətləri ............................ 180

## PSİXOLOGİYA

***Günel Mirzəzadə.*** Məktəblilər arasInda baş verən bullinq hallarinin sosial-psixoloji xüsusiyyətləri ............................................................................................................ 185
***Гусейнова Гюльнара, Джабраилова Раксана.*** Адаптация детей младшего школьного возраста к учебной деятельности ........................................................ 192
***Велиев Миралам, Ровшан Джавадов, Мустафаев Азер.*** Самореализация личности в условиях глобализации на современном этапе развития ......................................... 199
***Eyyubova Mehriban, Səhrabova Səkinə.*** Tələbələrin təlim fəaliyyətində şəxsiyyətlərarası münasibətlərinin səciyyəvi xüsusiyyətləri ................................................................. 205
***Nuriyyeva Məlahət.*** Təhsildə keyfiyyət dəyişikliyi və müəllim hazırlığına verilən tələblər....... 209
***Abasova Səbinə.*** Yeniyetmələrin tərbiyəsində və ictimailəşməsində müəllimin rolu ................ 214
***Məmmədəliyeva Şövkət.*** Cinsi istismarın uşaqların psixologiyası üzərindəki təsiri................... 218
***Məmmədov Samir.*** Müasir dövrdə ailədaxili münasibətlərə təsir göstərən amillər......................224
***Qədizadə Arzu.*** Şəxsiyyət pozuntularının yaranma səbəbləri və növləri ..................................... 229
***Ələkbərli Ayişə.*** Yuxarı sinif şagirdlərinin sənət seçimində öz müqəddəratini təyin etmə xüsusiyyətləri ............................................................................................................ 234

## PEDAQOGİKA

***Tahirov Bahadur, Abdullayeva Qönçə.*** Mətnli məsələlərin həlli prosesində riyazi modelləşdirmə elementlərinin öyrədilməsi metodikası ............................................................ 238
***Həsənova Aytac.*** Vətənpərvər gənclər ölkəmizin parlaq gələcəyinin təminatçısıdır.................. 245

## POLİTOLOGİYA VƏ İDARƏETMƏ

***İsmayıl Eyyubov.*** Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi, sovet dövründə Azərbaycanda siyasi proseslər ......................................................................................... 250
***Əliyev Elgün.*** Qafqazda dinin siyasiləşdirilməsi cəhdlərinin destruktiv nəticələri.......................256
***Əfəndiyeva Xatirə, Abdullayeva Məftunə.*** Siyasi liberalizm və onun vətəndaş cəmiyyətini şərtləndirən elementləri...................................................................................................267
***İbrahimov Şikar.*** Avropa-Qfqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi............................................271

## Müəlliflərin nəzərinə!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol №10-R) «**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər**» təsdiq edilmiş və bu məsələ ilə bağlı dövri elmi nəşrlərin baş redaktorlarının iştirakı ilə keçirilmiş elmi-praktik seminarda qeyd olunan faydalı tövsiyələr nəzərə alınmışdır.

Onlardan bəzilərini nəzərinizə çatdırırıq:

1. Məqalələr dövri elmi nəşrin təsis sənədlərində qeyd edilmiş dildə və ya dillərdə (məsələn, Azərbaycan, ingilis və rus dillərində) dərc oluna bilər. Xarici dildə məqalələr dərc edən dövri elmi nəşrin redaksiya heyəti üzvlərinin sırasında dərc olunan məqalənin aid olduğu elm sahəsi üzrə xarici dili bilən tanınmış mütəxəssis olmalıdır.
2. Dövri elmi nəşr hansı dillərdə məqalə dərc edirsə, həmin dillərin hər birində məqalə müəllifləri üçün qaydalar verilməlidir.
3. Dövri elmi nəşrdə baxılan elm və ya texnologiya sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına yer verilməlidir.
4. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə (məsələn, Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası, ingilis dilində ingilis əli fbası ilə) 1 intervalla çap olunmalıdır.
5. Hər bir məqalə yeni səhifədə verilməli və səhifənin yuxarısında dövri elmi nəşrin adını, ilini, cildini, sayını, məqalənin başlanğıc və son səhifələrini bildirən başlıq (zastavka) olmalıdır.
6. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin (müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı göstərilməlidir.
7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla (məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalı) ya da əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
9. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.
10. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.
11. Dərc olunduğu dildən əlavə başqa iki dildə məqalənin xülasəsi verilməlidir. Məqalələnin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qramatik

baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam adı göstərilməlidir.

12. Hər bir məqalədə UOT indekslər və ya PAJS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

13. Məqalənin redaksiyaya daxil olma, təkrar işlənməyə göndərilmə və çapa qəbul olunma tarixləri sonda göstərilməlidir.

14. Dövri elmi nəşrin redaksiyası məqalənin dərc olunması ilə əlaqədar olaraq müəllif və ya müəlliflərin razılığını, göndərilən məqalənin əvvəllər dərc olunmadığını (məqalənin tezis şəklində dərc olunmuş variantı istisna olmaqla), məqalənin hər hansı bir dildəki variantının eyni zamanda digər dövri elmi nəşrlərə göndərilmədiyini və məqalə ilə bağlı elmi-tədqiqat işinin hansı müəssisədə yerinə yetirildiyini əks etdirən anket hazırlamalıdır. Bu anketi müəllif(lər) imzalayıb redaksiyaya göndərməli və ya dövri elmi nəşrin saytına daxil olub anketin elektron variantını doldurmalı və onu elektron təsdiqləməlidir(lər).

15. Elmi curnallarda «əvvəli ötən saylarımızda», «ardı növbəti nömrədə» adı altında seriya məqalələrin dərc olunmasına icazə verilmir.

16. Dövri elmi nəşrin əvvəlki nömrələrində dərc olunmuş məqalələrdə rast gəlinən ciddi səhvlər və ya texniki qüsurlara dair düzəliş və qeydlər elmi nəşrin növbəti nömrələrindən birində müəllif(lər) tərəfindən yenidən verilə bilər. Bu halda əvvəlki məqalə ilə «DÜZƏLİŞ» bölməsində verilən məqalənin adı eyni olmalıdır.

Həm də xatırlatmaq istəyirik ki, Azərbaycan Respublikasında elmi əsərlərin tərtibinə tələblərinə uyğun olaraq, məqalənin mətni aşağıdakı əsas elementləri özündə ehtiva etməlidir:

*- Ümumi problem və mühüm elmi və ya praktiki vəzifələri ilə bağlı problemin qoyuluşu;*
*- Bu problemin həllində müəllif üçün təməl rolunu oynayan son tədqiqatlar və nəşrlərin qısa təhlili;*
*- Bu məqalədə həlli nəzərdə tutulmuş məsələyə aid daha ümumi problemin hələ də həllini tapmayan tərəflərin aşkar edilməsi;*
*- Məqalənin məqsədlərinin göstərilməsi;*
*- Elmi nəticələrin tam əsaslandırılması ilə əsas tədqiqat materialın təqdimatı;*
*- Tədqiqatın nəticələri və bu istiqamətdə işin daha da inkişaf etdirilməsi perspektivləri.*

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 28
(I HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Yığılmağa verilmişdir: 10.04.2021

Çapa imzalanmışdır: 15.04.2021
Format: 60×84 1/8
Şərti çap vərəqi – 42
Sifariş № 62
Tiraj – 100 nüsxə
----------------------------------------------